SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
SUMGAYIT STATE UNIVERSITY

# ELMİ XƏBƏRLƏR
# НАУЧНЫЕ ИЗВЕСТИЯ
# SCIENTIFIC NEWS

ISSN 1680 - 1245 Print
ISSN 2706 - 719X Online

## SOSİAL VƏ HUMANİTAR ELMLƏR BÖLMƏSİ
## СЕРИЯ: СОЦИАЛЬНЫЕ И ГУМАНИТАРНЫЕ НАУКИ
## SERIES FOR SOCIAL AND HUMANITARIAN SCIENCES

Cild
Том
Volume 22 №1

НАУЧНАЯ ЭЛЕКТРОННАЯ БИБЛИОТЕКА
eLIBRARY.RU
doi

Sumqayıt
2026

ISSN 2706-719X (Online)
ISSN 1680-1245 (Print)

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

**СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**SUMGAIT STATE UNIVERSITY**

# ELMİ XƏBƏRLƏR

# НАУЧНЫЕ ИЗВЕСТИЯ

# SCIENTIFIC NEWS

***Sosial və humanitar elmlər bölməsi***

***Серия: Социальные и гуманитарные науки***

***Series for Social and Humanitarian Sciences***

***Cild 22 2026 № 1***

**Sumqayıt – 2026**

## Sumqayıt Dövlət Universiteti
## Elmi xəbərlər. Sosial və Humanitar elmlər bölməsi
### REDAKSİYA HEYƏTİ

**Baş redaktor** — **Əminağa Sadıqov,** *AMEA-nın müxbir üzvü, rektor v.i.e.*

**Baş redaktorun müavini** — **Elşad Abdullayev,** *dosent, elm və innovasiyalar üzrə prorektor*

### REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

**Dilçilik** — **Ramazan Məmmədov,** *prof. (Azərbaycan),* **Məsud Mahmudov,** *prof. (Azərbaycan),* **Sayalı Sadıqova**, *prof. (Azərbaycan)* **Böyükxanım Eminli,** *dos. (Azərbaycan),* **Günel Paşayeva**, *dos. (Azərbaycan),* **Xəyalə Muğamat**, *dos. (məsul redaktor, Azərbaycan)*

**Ədəbiyyatşünaslıq** — **Şükrü Haluk Akalın,** *prof. (Türkiyə),* **Fikrət Rzayev,** *prof. (Azərbaycan),* **Məhərrəm Qasımlı,** *prof. (Azərbaycan),* **Nigar İsgəndərova,** *prof. (Azərbaycan),* **Sevinc Həmzəyeva**, *dos. (Azərbaycan),* **Törə Məmmədova**, *dos. (məsul redaktor, Azərbaycan),* **Dəyanət Cümənov**, *dos. (Azərbaycan)*

**Tarix**
**Sosiologiya** — **Daniyal Kidirniyazov,** *prof. (Rusiya),* **Selma Kadir qızı Yel,** *prof. (Türkiyə),* **Kozma Tamas,** *prof. (Macarıstan),* **Adil Baxşəliyev,** *prof. (Azərbaycan),* **Zabil Bayramov,** *prof. (Azərbaycan),* **Şirxan Səlimov,** *prof. (məsul redaktor, Azərbaycan),* **Matias Dornfeld,** *dos. (Almaniya),* **Osman Hacıyev**, *dos. (Azərbaycan),* **Əminə Həsənova**, *dos. (Azərbaycan),* **Sona Məhərrəmova**, *dos. (Azərbaycan)*

**İqtisad elmləri** — **Yadulla Həsənli**, *prof. (Azərbaycan),* **Vüsal Qasımlı,** *prof. (Azərbaycan),* **Mixail Osipov,** *prof. (Rusiya),* **Vasiliy Bespyatıx,** *prof. (Rusiya),* **Nazim İmanov,** *prof. (Azərbaycan),* **Arif Şəkərəliyev,** *prof. (Azərbaycan),* **Hacıağa Rüstəmbəyov,** *prof. (Azərbaycan),* **Loğman Abdullayev** *dos. (Azərbaycan),* **Qalib Hüseynov,** *dos. (məsul redaktor, Azərbaycan),* **Aynurə Yəhyayeva,** *dos. (Azərbaycan)*

**Pedaqogika**
**Psixologiya**
**Metodika** — **Aleksandr Korostelyov,** *prof.(Rusiya),* **Fərrux Rüstəmov,** *prof. (Azərbaycan),* **Ramiz Əliyev,** *prof. (Azərbaycan),* **Rüfət Hüseynzadə,** *prof. (Azərbaycan),* **Erde Gabor,** *dos. (Macarıstan),* **Lada Çepeleva,** *dos. (Rusiya),* **Aytəkin Məmmədova,** *dos., (Azərbaycan),* **Sevər Mirzəyeva,** *dos. (Azərbaycan),* **Məftun Hehdərova**, *dos. (Azərbaycan),* **Şəlalə Adıgözəlova.**, *dos. (məsul redaktor, Azərbaycan),* **Şahnaz Quliyeva** *dos. (Azərbaycan),* **Şikar Hüseynov**, *dos. (Azərbaycan)*

## Сумгаитский государственный университет
## Научные известия. Серия: Социальные и гуманитарные науки
### РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

**Главный редактор** — **Аминага Садыгов,** *член-корр. НАНА, и.о. ректора*

**Зам. главного редактора** — **Эльшад Абдуллаев,** *доцент, проректор по науке и инновациям*

### ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ

**Языкознание** — **Рамазан Мамедов,** *проф. (Азербайджан),* **Месуд Мамедов,** *проф. (Азербайджан),* **Саялы Садыгова,** *проф.(Азербайджан),* **Беюкханым Эминли,** *доц. (отв. ред., Азербайджан),* **Гюнель Пашаева**, *доц. (Азербайджан),* **Хаяля Мугамат**, *доц. (Азербайджан),*

**Литературоведение** — **Шюкрю Халук Акалын,** *проф. (Турция),* **Фикрат Рзаев,** *проф. (Азербайджан),* **Магеррам Гасымлы,** *проф. (Азербайджан),* **Нигяр Искендерова,** *проф. (Азербайджан),* **Севиндж Хамзаева,** *доц. (Азербайджан),* **Тора Мамедова**, *доц. (отв. ред., Азербайджан),* **Даянат Джуманов**, *доц. (Азербайджан)*

**История**
**Социология** — **Даниял Кидирниязов,** *проф. (Россия),* **Селма Кадир гызы Йел,** *проф. (Турция),* **Козьма Тамас,** *проф. (Венгрия),* **Адиль Бахшалиев,** *проф. (Азербайджан),* **Забиль Байрамов,** *проф. (Азербайджан),* **Ширхан Салимов,** *проф. (отв. ред., Азербайджан),* **Матиас Дорнфельд,** *доц. (Германия),* **Осман Гаджиев**, *доц. (Азербайджан),* **Амина Гасанова**, *доц. (Азербайджан),* **Сона Махаррамова**, *доц. (Азербайджан)*

**Экономические науки**

**Ядулла Гасанли** *проф. (Азербайджан),* **Вусал Гасымлы**, *проф. (Азербайджан),,* **Михаил Осипов,** *prof. (Россия),* **Василий Беспятых,** *проф. (Россия),* **Назим Иманов,** *проф. (Азербайджан),* **Ариф Шекералиев,** *проф. (Азербайджан),* **Гаджиага Рустамбеков,** *проф. (Азербайджан),* **Логман Абдуллаев** *доц. (Азербайджан),* **Галиб Гусейнов,** *доц. (отв. ред., Азербайджан),* **Айнура Яхъяева**, *доц. (Азербайджан)*

**Педагогика**
**Психология**
**Методика**

**Алесандр Коростылев,** *проф. (Россия),* **Фаррух Рустамов,** *проф. (Азербайджан),* **Рамиз Алиев,** *проф. (Азербайджан),* **Руфат Гусейнзаде,** *проф. (Азербайджан),* **Эрде Габор,** *доц. (Венгрия),* **Лада Чепелева,** *доц. (Россия),* **Айтекин Мамедова,** *доц. (Азербайджан),* **Севар Мирзоева,** *доц. (Азербайджан),* **Мафтун Гейдарова**, *доц. (Азербайджан),* **Шалала Адыгёзалова** *доц. (отв. ред., Азербайджан),* **Шахназ Кулиева**, *доц. (Азербайджан),* **Шикар Гусейнов**, *доц. (Азербайджан)*

## Sumgayit State University
## Scientific News. Series for Social and Humanitarian Sciences
## EDITORIAL STAFF

**Editor in Chief** — **Aminagha Sadigov**, *corresponding member ANAS, acting Rector*

**Deputy of Editor in Chief** — **Elshad Abdullayev,** *ass.prof., Vice-Rector for Science and Innovations*

### MEMBERS OF EDITORIAL STAFF

**Linguistics**

**Ramazan Mammadov,** *prof. (Azerbaijan),* **Masud Makhmudov,** *prof. (Azerbaijan),* **Sayali Sadigova,** *prof. (Azerbaijan),* **Boyukkhanim Eminli,** *ass.prof. (executive secretary, Azerbaijan),* **Gunel Pashayeva**, *ass.prof. (Azerbaijan),* **Khayala Mughamat**, *ass.prof. (Azerbaijan),*

**Literary criticism**

**Shukru Haluk Akalin,** *prof. (Turkey),* **Fikrat Rzayev,** *prof. (Azerbaijan),* **Maharram Gasimli,** *prof. (Azerbaijan),* **Nigar Isgandarova,** *prof. (Azerbaijan),* **Sevinj Hamzayeva,** *ass.prof. (Azerbaijan),* **Tora Mammadova**, *ass.prof. (executive secretary, Azerbaijan),* **Dayanat Jumanov**, *ass.prof. (Azerbaijan)*

**History**
**Sociology**

**Daniyal Kidirniyazov,** *prof. (Russia),* **Selma Kadir gizi Yel,** *prof. (Turkey),* **Kozma Tamas,** *prof. (Hungary),* **Adil Bakhshaliyev,** *prof. (Azerbaijan),* **Zabil Bayramov,** *prof. (Azerbaijan),* **Shirkhan Salimov,** *prof. (executive secretary, Azerbaijan),* **Matias Dornfeld,** *ass.prof. (Germany),* **Osman Hajiyev**, *ass.prof. (Azerbaijan),* **Amina Hasanova**, *ass.prof. (Azerbaijan),* **Sona Maharramova**, *ass.prof. (Azerbaijan)*

**Economic sciences**

**Yadulla Hasanli,** *prof. (Azerbaijan),* **Vusal Gasimli**, *prof. (Azerbaijan),* **Mikhail Osipov,** *prof. (Russia),* **Vasiliy Bespyatikh,** *prof.(Russia),* **Nazim Imanov,** *prof. (Azerbaijan),* **Arif Shakaraliyev,** *prof. (Azerbaijan),* **Hajiagha Rustambayov,** *prof. (Azerbaijan),* **Logman Abdullayev**, *ass.prof. (Azerbaijan),* **Galib Huseynov,** *ass.prof. (executive secretary, Azerbaijan),* **Aynura Yahyayeva,** *ass.prof. (Azerbaijan),* **Lala Valiyeva**, *ass.prof. (Azerbaijan)*

**Pedagogy**
**Psychology**
**Methodology**

**Alexander Korostelyov,** *prof.(Russia),* **Farrukh Rustamov,** *prof. (Azerbaijan),* **Ramiz Aliyev,** *prof. (Azerbaijan),* **Rufat Huseynzada,** *prof. (Azerbaijan),* **Erde Gabor** *ass.prof. (Hungary),* **Lada Chepeleva** *ass.prof. (Russia),* **Aytakin Mammadova,** *ass.prof. (Azerbaijan),* **Sevar Mirzayeva,** *ass.prof. (Azerbaijan),* **Maftun Heydarova**, *ass.prof. (Azerbaijan),* **Shalala Adigezalova** *ass.prof. (executive secretary, Azerbaijan),* **Shakhnaz Guliyeva**, *ass.prof. (Azerbaijan,* **Shikar Huseynov**, *ass.prof. (Azerbaijan))*

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: [www.ssu-scientificnews.edu.az](www.ssu-scientificnews.edu.az)

**UOT 81.373.21** DOI 10.54758/16801245_2026_22_1_4

# Qərbi Azərbaycanda bitki və heyvan adı əsasında yaranan toponimlər

**Qarayeva Aynur Valeh qızı** ORCID 0009-0000-2785-6587

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d.*
[aynur.qarayeva@sdu.edu.az](mailto:aynur.qarayeva@sdu.edu.az)

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 25.05.2025*
*Düzəliş tarixi: 16.09.2025*
*Qəbulolunma tarixi: 21.12.2025*

***Açar sözlər***
*Azərbaycan, türk, bitki, heyvan, qədim, toponim, hidronim, oronim*

**XÜLASƏ**

*Ermənistan ərazisində türk qatının qədim tarixi vardır. Qərbi Azərbaycan bölgəsi qədim zamanlardan tariximizdə iştirak edən müxtəlif türkdilli tayfaların yaşayış məkanı olmuşdur. Ərazinin toponimlər sisteminin bir hissəsini türk mənşəli heyvan və bitki adları təşkil edir. Toponimiyada türklərin qədim mifik təfəkkürü, inancları ilə əlaqədar totem olan heyvan adlarından əmələ gələn toponimik vahidlər qeydə alınmışdır. Türk xalqlarının totem hesab etdikləri heyvanlarınm adı ilə bağlı toponimlərə Qərbi Azərbaycan ərazisində rast gəlinir. Ermənistan ərazisində heyvan və bitki adları əsasında yaranan türk mənşəli toponimləri leksik yolla əmələ gələn toponimlər, morfoloji yolla əmələ gələn toponimlər, sintaktik yolla əmələ gələn toponimlərə ayırmaq olar. Qərbi Azərbaycanın toponimlər sistemi aydın şəkildə göstərir ki, türklər Ermənistan ərazisinin ən qədim sakinlərindəndir.*

Qərbi Azərbaycan ərazisində mövcud olmuş türk mənşəli yer adlarının linqvistik təhlilə cəlb edilməsi elmi baxımdan dəyərli olmaqla yanaşı həm də siyasi cəhətdən də dəyərlidir. Ermənistan torpaqlarındakı toponimlərin bir hissəsi Azərbaycan alimləri tərəfindən araşdırılmışdır. Lakin bu torpaqlarda indiyə qədər heç yerdə qeydə alınmamış çoxlu mikrotoponimlər vardır. Bu gün belə adların müəyyən edilərək qeydə alınması vacib məsələdir. Toponimin xalq üçün dəyəri onun makrotoponim və ya mikrotoponim olması ilə əlaqədar deyil. Bəzən mikrotoponimlər çox vacib məlumatları qoruyub saxlayır. Ermənilər Qərbi Azərbaycan ərazisində olan türk mənşəli yer adlarına hər zaman mənfi münasibət bəsləyərək onları dəyişdirməyə, yox etməyə çalışıblar. Onlar türklərin əsrlər boyu bu ərazilərdə yaşadıqlarını göstərən tarixi faktlardan olan toponimləri hər yerdən silərək erməni adlarından istifadə edirlər. Bu gün Ermənistan ərazisində olan türk yer adları hamısı məhv edilmişdir.

Toponimlərin ermənilәşdirilməsi tariximizi, tarixi coğrafiyamızı məhv etməyə yönəlmiş bir addımdır. Bu azərbaycanlıları, ümumilikdə bütün türkləri narahat edir. Azərbaycan dilçiliyində Ermənistan ərazisində olan tarixi yer-yurd adlarımızın tədqiqi ilə bağlı xeyli iş görülmüşdür. B.Budaqov, Q.Qeybullayev, H.Mirzəyev, A.Qurbanov, A.Bayramov, M.Hüseynova, İ.Bayramov, S.Mirmahmudova, K.Səmədova, Ə.Rüstəmov və başqaları Qərbi Azərbaycan ərazisindəki türk mənşəli toponimləri müxtəlif aspektlərdə tədqiq etmişlər. Mənbələr əsasında tarixi-linqvistik aspektdə aparılan tədqiqatlar xüsusi əhəmiyyət daşıyır. Qərbi Azərbaycan ərazisində olan türk mənşəli toponimlərin araşdırmasının nəticələri xalqımıza, onun tarixinə, dilinə xidmət edir. Bu baxımdan ərazinin makrotoponimləri ilə yanaşı qiymətli dil faktı olan mikrotoponimlər də tədqiqatdan kənarda qalmalı deyil.

Ermənistan ərazisində türk mənşəli toponimlər leksik-semantik xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Toponimlərin tərkibində müxtəlf mənalı sözlər iştirak edir. Bu yer adları tarixi inkişafda türk toponimiyasına uyğun olan şəkildə yaranıblar, onların tərkibində iştirak edən sözlər müxtəlif

söz qruplarına (etnonimlər, şəxs adları, bitki adları, rəng bildirən sözlər, heyvan adları, obyektin görünüşünü, relyefini, coğrafi quruluşu və s bildirən leksik vahidlər) aiddir.

Ermənistan ərazisində türk qatının qədim tarixi vardır. Ərazinin toponimlərinin bir qisminin mənaları Müasir Azərbaycan dili materialları əsasında izah etmək mümkün deyil. Bu adlar qədim türk abidələri, qohum türk dilləri materialları əsasında aydınlaşdırılır. Qərbi Azərbaycan bölgəsi qədim zamanlardan tariximizdə iştirak edən müxtəlif türkdilli tayfaların yaşayış məkanı olmuşdur.

Ərazinin mikrotoponimlər sisteminin bir hissəsini türk mənşəli heyvan və bitki adları təşkil edir. İndiyə qədər Azərbaycan dilçiliyində Ermənistan ərazisində toponimik sistemdə mövcud olan zoonim və fitonimlərdən əmələ gələn mikrotoponimlərlə xüsusi tədqiqat işi aparılmayıb. Yer adlarını araşdırarkən yerli əhalinin sözləri tələffüz etməsinə və dialekt sözlərinə diqqət yetirilməlidir. Bitki adı əsasında yaranan toponimlərin tərkibində dialekt sözlərinə rast gəlinir. Ermənistanda türk mənşəli toponimlərin tərkibində dialekt sözlərinin müəyyən edilməsi bu gün diqqətdən kənarda qalmalı deyil. Müvəffəqiyyətin əldə olunması toponimik prosesləri düzgün bilən tədqiqatçılardan asılıdır. Dialekt sözləri ilə bağlı toponimik material üzərində aparılan tədqiqatdan uğurlu nəticələrin əldə edilməsində informatorlarla aparılacaq işin düzgün təşkili mühüm rol oynayır. Material toplanan zaman bəzən eyni mikrotoponim haqqında müxtəlif fərqli məlumat verilə bilir. Yer adlarının yazılışında səhvə yol vermək olmaz. Dialekt sözünü düzgün formada qeyd etmək üçün səs yazısı və ya yazılı qeydlər vacibdir. Toponimlərdə işlənən dialekt sözlərin düzgün izahı toponimika ilə yanaşı dialektologiya üçün də əhəmiyyətlidir.

Azərbaycan dilçiliyində dialektlər geniş şəkildə tədqiq olunsa da, Ermənistan ərazisində toponimlərdə işlənən dialekt sözləri kifayət qədər tədqiq edilməmiş, müəyyən qədər bu məsələlərə toxunulmuşdur. Ermənistan ərazisində toponimlərin tərkibində qədim türk sözlərinə təsadüf olunur. Tarixin qədim dövrünə aid olan bu leksik vahidlər dil tarixi baxımından əhəmiyyətlidir. Bu sözlərə Orxon-Yenisey abidələrində, “Kitabi Dədə Qorqud” dastanında və M.Kaşğarinin “Divani-lüğət-it-türk” əsərində rast gəlinir.

Region flora və fauna baxımından çox zəngindir. Bu da toponimlərdə öz əksini tapmışdır. Zooleksemlərdən yaranan toponim heç də həmişə heyvanın, quşun, həşəratın adını daşıyan yerdə o heyvanın çox olması demək deyil. Adlanma müxtəlif səbəblərdən ola bilir. Türk xalqları qurd, qartal və s. heyvanları özlərinə totem hesab etmişlər. Toponimiyada türklərin qədim mifik təfəkkürü, inancları ilə əlaqədar totem olan heyvan adlarından əmələ gələn toponimik vahidlər qeydə alınmışdır. Ermənistan ərazisində qartal növü olan ağbaba quşunun adı ilə bağlı yaranan toponimlərə rast gəlinir. B.Budaqov və Q.Qeybullayev Böyük Ağbaba, Kiçik Ağbaba oronimlərinin iyirminci əsrin otuzuncu illərində ermənilər tərəfindən dəyişdirildiyini və Qukasyan Mets, Qukasyan Pokr adlandırıldığını yazırlar. [1, s.103] Ağbaba quşu türk xalqlarında onqon olmuşdur. Bu barədə Faruk Sümər yazmışdır. [2, s.213] Türk dilli xalqlarının mifologiyasında ağbaba quşu özünə yer tapmışdır. İ.Bayramov Ağbaba oroniminin ağbaba quşunun adı ilə bağlı yarandığını yazır. [3, s.29]

Ermənistan ərazisində zootoponimlər müxtəlif heyvan adları əsasında yaranmışdır. Vəhşi heyvanların adı əsasında yaranan toponimlər: Ayısəsi( kənd), Ayılı xaraba (kənd), Ayıdərəsi (qışlaq), Ayıbasan (kənd), Qurd dağı (dağ) və s. Ərazidə ev heyvanlarının adı əsasında formalaşan toponimlərə çox təsadüf olunur. Heyvandarlıq xalqımızın kənd təsərrüfatının mühüm hissəsi olduğuna görə burada heyvandarlıqla bağlı çoxlu yer adları yaranmışdır. Ev heyvanlarının adı əsasında yaranan toponimlər: Ayğırgöl (göl), Quzu kahası (dağ), Qatırabad (kənd), Qoçqoruğu (yer adı), Öküz ölən (dərə), Dəvə daşı (yaylaq), Dəvə yatağı (yaylaq), Dəvəli (kənd), Eşşək quduran (ərazi), Maldaş (kənd), Sarınər (ərazi adı), Camış ölən dərə, Danalıq(ərazi adı), İnək uçan dağ (ərazi adı), Danaqırılan (ərazi adı), və s. Bəzi türk dillərində eyni mənanı ifadə edən inək və sığır sözləri paralel işlənir. Aparılmış araşdırmalardan gəlinən nəticələrdə inək sözünün oğuzlara aid olduğu bildirilir. Sığır sözünün qıpçaq qrupu türk dilləri üçün xarakterik olduğu qeyd olunur. Ermənistan ərazisində Basarkeçər rayonunun Çaxırlı kəndində Sığırxana toponiminin tərkibində

hazırda dilimizdən çıxmış sığır sözünə rast gəlinir. Əvvəllər bölgələrdə sığır inək mənasında işlənmişdir. Azərbaycanın Kürdəmir rayonunda Sığırlı adlı kənd mövcuddur. «Kitabi-Dədə Qorqud» dastanında sığır maral mənasında işlənmişdir. Sığırxana yer adı sığır zoonimi və fars mənşəli xana şəkilçisi əsasında yaranmışdır.

Meğri rayonunda Daş Nüvədi kəndi də Pələxli daş mikrotoponimi pələng heyvan adının yerli tələffüz variantı və daş sözü əsasında yaranmışdır. İrəvan quberniyasının Eçmiədzin qəzasında Porsuq , Porsuqlu kənd adlarında porsuq zoonimi əksini tapmışdır. Ermənistan ərazisində quş adları əsasında yaranan toponimlərə rast gəlinir: Ördəkli (Amasiya rayonunda kənd), Quş ölən (Basarkeçər rayonunun Canəhməd kəndində yer) və s. Meğri rayonunun Maralzəmi kəndində Qaraquş daşı təpə adı çöl quşunun adı əsasında yaranmışdır.

Ərazinin toponimlərinin leksik-semantik cəhətdən təhlili göstərir ki, Qərbi Azərbaycanda zoonimlərdən əmələ gələn yer adları kifayət qədərdir. Bu toponimlərdən bəzisi bənzətmə əsasında, bəzisi heyvanın çox olması, bəzisi həmin ərazidə görünməsi ilə bağlıdır.

Məlumdur ki, türkdilli xalqların toponimiyasında ərazinin bitki örtüyü də öz əksini tapmışdır. Qərbi Azərbaycan torpaqları zəngin bitki örtüyünə malikdir. Ermənistan ərazisində həm ədəbi dildə işlənən, həm də dialektlərdə işlənən bitki adlarına toponimlərin tərkibində rast gəlinir. Toponimlər ərazidə çox rast gəlinən və ya müəyyən bir xüsusiyyəti ilə fərqlənən bitkinin adı bəzən daşıyır.

Tarixi mənbələrdə İrəvan quberniyasında çinar ağacının adı ilə bağlı Palıdlı (Aleksandropol qəzası), qaraağac ağacının adı ilə bağlı Qarağac (Zəngəzur qəzasında), söyüd ağacının adı ilə bağlı Söyüdlü (Sürməli qəzası), gərməşöy ağac adı ilə bağlı Gərməşov (Yeni Bayazid qəzası), şam ağacının adı ilə bağlı Şamsız (Zəngəzur qəzasında) və s. toponimlərə rast gəlinir.

Qərbi Azərbaycan torpaqlarında müxtəlif meyvə ağaclarının adlarından düzələn fitotoponimlərə rast gəlinir. Armud ağacının adını İrəvan quberniyasının Eçmiədzin qəzasında Armudlu tatar, alça ağacının adını İrəvan quberniyasının Sürməli qəzasında Alçalı, Yeni Bayazid qəzasında Yuxarı Alçalı, Aşağı Alçalı, alma ağacının adını İrəvan quberniyasının Sürməli qəzasında Almalıq, ərik ağacının adını İrəvan quberniyasının Zəngəzur qəzasında Ərikli, zoğal ağacının adını İrəvan quberniyasının Yeni Bayazid qəzasında Zoğallı, tut ağacının adını İrəvan quberniyasının Sürməli qəzasında Aşağı Tut, Yuxarı Tut özündə əks etdirir. Ermənistan ərazisində gül, çiçək və çəmənlə bağlı yaranmış yaşayış məntəqə adlarına da təsadüf olunur. Tarixi mənbələrdə İrəvan quberniyasında Çiçəkli (Yeni Bayazid qəzası), Güllü-bulaq (Aleksandropol qəzası). Mənbələrdə İrəvan quberniyasında sarımsaq bitkisinin adına Sarımsaqlı, qamış bitkisinin adına Qamışlı (Eçmiədzin qəzası), yarpız bitkisinin adına Yarpızlı (Yeni Bayazid qəzası) kənd adına təsaduf olunur.

Türklərin dədə-baba torpağında Ermənistan ərazisində dialektlərdə işlənən fərqli bitki adları əsasında düzələn toponimlərə təsadüf olunur. Onlardan bir neçəsinə diqqət yetirək. Pəmbək kəndində Gəvənliy yer adında rast gəlinən "gəvən" sözü quraq ərazilərdə bitən tikanlı bitkiyə dialektdə verilmiş addır. Başarkeçar rayonunda Pəmbək kəndində Cacıqlı mikrotoponimində iştirak edən cacığ yabanı bitkidir. Cacığa Azərbaycanın Laçın, Kəlbəcər bəzi bölgələrində şoşan deyirlər. Basarkeçər rayonunda Çil gölünün adı cil fitonimi əsasında yaranıb.

Ermənistan ərazisində türk mənşəli toponimləri yaranma yollarına görə leksik yolla əmələ gələn toponimlər, morfoloji yolla əmələ gələn toponimlər, sintaktik yolla əmələ gələn toponimlərə ayırmaq olar.

Leksik yolla yaranan toponimlərə İrəvan quberniyasının Sürməli qəzasında yerləşən Sinək kənd adını göstərmək olar. Azərbaycan dilində sinək «milçək, çibin» mənasında işlənir. Leksik yolla bitki adları əsasında formalaşan toponimlərə Zəngəzur qəzasında Murquz (taxıllar fəsiləsindən qarğıdalıya bənzər bitki) kənd adını misal göstərmək olar.

Ermənistan ərazisində türk mənşəli toponimlərin bir qismi morfoloji yolla əmələ gəlmişdir. İrəvan quberniyasının Eçmiədzin qəzasında İnəkli, İrəvan qəzasında Qurbağalı, Aleksandropol

qəzasında Sunqurlu, Camışlı, Kaftarlı toponimləri *-lı, li, -lu, -lü* şəkilçisini heyvan adlarına artırmaqla əmələ gəlmişdir.

*-lıq, lik, -luq, -lük* şəkilçisini bitki adlarına artırmaqla yaranan toponimlərə Sürməli qəzasında İrəvan quberniyasının Güllük oykonimləri, İrəvan quberniyasında Almalıq oronimi və s. nümunə göstərmək olar.

Ermənistan ərazisində türk mənşəli toponimləri bir qismi sintaktik yolla yaranmışdır: İrəvan quberniyasının İrəvan qəzasında Aşağı Alçalı, Yuxarı Alçalı, Yeni Bəyazid qəzasında Alçalı təpə, Zəngəzur qəzasında Almalıq çayı və s.

Qərbi Azərbaycanın toponimlər sistemi aydın şəkildə göstərir ki, türklər bu əraziləri ən qədim sakinləridir. Əsrlər boyu türklər yaşayış yerlərinə, dağlara, çaylara, göllərə dərələrə, təpələrə, və s. doğma dillərində ad vermişlər.

## Ədəbiyyat


[1]. Budaqov, B.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti / B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. –Bakı: İsmayıl, –2002. –s.320.

[2]. Sümər, F. Oğuzlar / F.Sümər. –Bakı: Yazıçı, –1992. –432 s.

[3]. Bayramov, İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri / İ.Bayramov. –Bakı: Elm, –2002. – 695 s.



**Summary**

**Toponyms formed on the basis of plant and animal names in western Azerbaijan**

***Garayeva A.V.***

***Key words:*** *Azerbaijani, Turkish, plant, animal, ancient, toponym, hydronym, oronym.*

The Turkic layer has an ancient history in the territory of Armenia. The Western Azerbaijan region has been a place of residence for various Turkic-speaking tribes that have participated in our history since ancient times. The names of animals and plants of Turkic origin form part of the toponymic system of the territory. Toponymic units formed from the names of animals that are totems related to the ancient mythical thinking and beliefs of the Turks have been recorded in toponymy. Toponyms related to the names of animals that the Turkic peoples consider totems are found in the territory of Western Azerbaijan. Toponyms of Turkic origin formed on the basis of animal and plant names in the territory of Armenia can be divided into toponyms formed lexically, toponyms formed morphologically, and toponyms formed syntactically. The toponym system of Western Azerbaijan clearly shows that the Turks are among the oldest inhabitants of the territory of Armenia.



**Резюме**

**Топонимы, возникшие в Западном Азербайджане на основе названий растений и животных**

***Гараева А.В.***

***Ключевые слова****: Азербайджанский, турецкий, растение, животное, древний, топоним, гидроним, ороним.*

Турецкий пласт на территории Армении имеет древнюю историю. Регион Западный Азербайджан с древних времен был местом проживания различных тюркоязычных племен, участвовавших в нашей истории. Часть системы топонимов местности составляют названия животных и растений тюркского происхождения. В топонимии зафиксированы топонимические единицы, образованные от названий животных, являющихся тотемами в связи с древним мифическим мышлением тюрков, их верованиями. Топонимы, связанные с именами животных, которых тюркские народы считали тотемами, встречаются на территории Западного Азербайджана. Топонимы тюркского происхождения, возникшие на территории Армении на основе названий животных и растений, можно разделить на топонимы, образованные лексическим путем, топонимы, образованные морфологическим путем, топонимы, образованные синтаксическим путем. Система топонимов Западного Азербайджана наглядно показывает, что турки являются одними из древнейших жителей территории Армении.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 811.11`373** DOI 10.54758/16801245_2026_22_1_8

# Mətn dilçiliyinin formalaşma mexanizmləri

**Vəliyeva Sevil Vəzirxan qızı** ORCID 0000-0002-1692-6639

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
sevil.valiyeva@sdu.edu.az

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi***<br>*Daxilolma tarixi: 16.05.2025*<br>*Düzəliş tarixi: 27.07.2025*<br>*Qəbulolunma tarixi: 22.12.2025*<br><br>***Açar sözlər***<br>*mətn dilçiliyi, mətnin formalaşma mexanizmləri, koherens və kohezion, funksional dilçilik, diskurs analiz, praqmatik əlaqələr, mətn və kontekst* | *Məqalənin təhlili zamanı belə nəticəyə gəlmək olar ki, mətn dilçiliyi təkcə struktur və formal məsələlərlə deyil, həm də semantik, funksional və kommunikativ aspektlərlə sıx bağlıdır. Mətnin formalaşması mexanizmləri sintaktik, semantik, praqmatik və stilistik səviyyələrdə qarşılıqlı təsir və məqsədyönlü quruluşun nəticəsidir. Cümlə, ifadə və ya leksik vahid funksional mənasını yalnız kontekstdə əldə edən mətn vahididir. Mətnin semantik bütövlüyünü təmin edən uyğunluq və uyğunluq münasibətləri, onun kommunikativ məqsədinin həyata keçirilməsinə xidmət edən praqmatik mexanizmlər, funksional stilistik imkanlar bu sahənin mürəkkəb bir təbiətə sahib olduğunu bir daha təsdiqləyir. Eyni zamanda, xüsusiyyəti, müxtəlif növ mətnlərin şərtləndirir fərqlər prinsipləri və onların formalaşması. Elmi, bədii, publisistik və rəsmi mətnləri yerinə yetirir, müxtəlif ünsiyyət funksiyası.* |

Müasir dilçiliyin dinamik şəkildə inkişaf edən sahələrindən biri də mətn dilçiliyidir. Mətnin quruluşu, onun funksional-struktur xüsusiyyətləri, kommunikativ məqsədləri və dil vahidləri ilə qarşılıqlı əlaqəsi bu sahənin predmetini təşkil edir. Əgər ənənəvi dilçilik fərdi cümlələrin və dil vahidlərinin quruluşunu və funksiyasını öyrənməyə yönəlmişdisə, mətn dilçiliyi bu vahidlərin daha geniş kommunikativ kontekstdə – yəni bütöv mətn daxilində necə işlədiyini tədqiq edir. Bu məqalədə mətn dilçiliyinin formalaşma mexanizmləri, onların əsas nəzəri və praktik aspektləri araşdırılacaqdır.

Mətnin dərk olunması və formalaşdırılması yalnız leksik və qrammatik biliklərlə məhdudlaşmır; burada diskurs, kontekst, situasiya və digər amillər də mühüm rol oynayır. Bu baxımdan, mətn dilçiliyi yalnız dilçiliklə deyil, eyni zamanda ünsiyyət nəzəriyyəsi, semantika, praqmatika və hətta sosiolinqvistika ilə qarşılıqlı əlaqədə olan kompleks bir sahədir. Məqalənin məqsədi bu kompleksliyi nəzərə alaraq, mətnin formalaşma mexanizmlərinin əsas prinsiplərini sistemli şəkildə təqdim etməkdir.

Mətn anlayışı qədimdən mövcud olsa da, onu elmi tədqiqat obyektinə çevirmək və müstəqil bir sahə kimi inkişaf etdirmək yalnız XX əsrin ikinci yarısında mümkün olmuşdur. Mətn dilçiliyinin yaranması struktur dilçilikdən funksional yanaşmaya keçidin nəticəsi kimi qiymətləndirilə bilər. Klassik dilçilikdə tədqiqatlar əsasən cümlə səviyyəsində aparılırdı. Cümlədən kənar vahidlər, onların əlaqəsi və kommunikativ strukturu isə çox zaman diqqətdən kənarda qalırdı. Halbuki insan nitq fəaliyyəti daha geniş vahidlərlə – mətnlə və diskursla həyata keçirilir.

Mətn dilçiliyinin elmi-nəzəri əsasları Rusiya, Almaniya və Fransa dilçilik məktəbləri tərəfindən qoyulmuşdur. Rusiya dilçiliyində xüsusilə Y.M. Lotman, M.M. Baxthin, A.İ.Novikov, İ.R.Qalperin və T.A. van Deyk kimi tədqiqatçıların rolu danılmazdır. Onlar mətnə yalnız struktur vahid kimi deyil, həm də mədəni, semantik və praqmatik çərçivədə yanaşmağın zəruriliyini vurğulamışlar. Qərb dilçiliyində isə H. P. Graysın əməkdaşlıq prinsipi, J. Sörlinin danışıq aktları

nəzəriyyəsi və M. Hallideyin funksional dilçilik modeli mətnin analizində mühüm nəzəri əsaslar yaratmışdır.

Yuri Lotman və Maykl Hallideyin mətnə yanaşmaları dilçilik və semiotikanın ən maraqlı kəsişmə nöqtələrindən biridir. Sadə dildə desək, Hallideyi bir mühəndis, Lotmanı isə bir filosof kimi təsəvvür edə bilərik. Belə ki, Hallidey dilin necə işlədiyini, Lotman isə mətnin nə demək istədiyini öyrənən bir dilçilərdir. Bundan başqa, Hallidey mətni bir ünsiyyət aktı kimi dərindən analiz edir və dilin sosial mexanizmlərini üzə çıxarır. Lotman isə mətni bir mədəniyyət obyekti kimi götürür və onun daxili estetik, simvolik qatlarını araşdırır. Daha sadə desək, Hallidey mətni necə danışdığımızla, Lotman isə mətnin nəyə çevrildiyi ilə maraqlanır.

Moskva-Tartu məktəbinin banisi sayılan Yuri Lotman mədəniyyətin bütöv semiotik nəzəriyyəsini inkişaf etdirmək üçün "mədəni semiotika" anlayışını yaratdı. Onun fikrincə, bəşər tarixində iki müstəqil, lakin bərabər mədəni göstərici var: söz və rəsm (naxış). Birinci mədəni göstəricilərdən dilçilik, ikincidən isə, obrazlı sənətlər yaranmışdır. Onlar, bəzən sintez halında iştirak edirlər. Məsələn, şeir mətni dil işarəsi olmaqla yanaşı, məcazi işarə kimi də qəbul oluna bilər; Digər tərəfdən, naxış obrazlı olmaqla yanaşı nəyisə də ifadə edə bilər [5, s.125-126].

XX əsrin 60-70-ci illərindən etibarən mətn anlayışı yeni nəzəri çərçivədə formalaşmağa başladı. Bu dövrdə mətnin bütöv informasiya sistemi kimi təhlili, koherens, kohezion, tematik struktur və digər anlayışlar üzərində geniş tədqiqatlar aparılmışdır. Nəticədə mətn dilçiliyi tərcümə, dil tədrisi, informasiya texnologiyaları və jurnalistika kimi bir sıra tətbiqi sahələr üçün də vacib bir baza yaratdı.

Mətnin mahiyyətini anlamaq üçün onun struktur və funksional xüsusiyyətlərini dərindən təhlil etmək zəruridir. Mətn yalnız dil vahidlərinin məcmusu deyil, onların qarşılıqlı əlaqəsi nəticəsində yaranan mənalı və bütöv bir kommunikativ vahiddir. Bu baxımdan mətnin əsas xüsusiyyətləri sırasında bütövlük, koherens, koheziya, məqsədyönlülük və kommunikativ tamlıq xüsusi yer tutur.

Mətnin bütövlüyü dedikdə, həm onun semantik, həm də funksional baxımdan tamamlanmış olmasını şərh edir. Bu xüsusiyyət mətnin yalnız ayrı-ayrı cümlələrdən ibarət olmasını deyil, həmin cümlələrin müəyyən bir məntiqi, tematik və üslubi əsasda birləşməsini tələb edir. Koherens isə mətnin daxilindəki məna əlaqələrinin sistemli şəkildə qurulması ilə bağlıdır. Yəni, oxucu və ya dinləyici mətnin ardıcıllığını və əsas fikrini dərk edə bilirsə, deməli, həmin mətn koherentdir.

Koheziya – yəni mətn daxilində qrammatik və leksik əlaqəlilik – onun texniki quruluşunu təmin edir. Kohezion vasitələri sırasına əvəzliklər, bağlayıcılar, sinonimlər, leksik təkrarlar və omonim strukturlar daxildir. Məsələn, birinci cümlədə adı çəkilən "kitab" sözü, növbəti cümlədə "o", "əsər", "bu nəşr" və s. kimi vasitələrlə əvəz oluna bilər. Mətnin dil səviyyəsində birliyi bu əlaqə vasitəsilə təmin edilir.

İ.R.Qalperin isə koheziyanı ―kontinuumu, yəni məntiqi ardıcıllıq, ayrı-ayrı məlumatlar, faktlar, hərəkətlərin və s. qarşılıqlı (zaman və/və ya məkan) asılılığı təmin edən xüsusi əlaqə növləri kimi təyin edir [7, s.138].

"Dünən bərk xəstələnmişdim. Buna görə də imtahana gedə bilmədim. Müəllim mənim bu vəziyyətimi anlayışla qarşıladı." Hallideyin fikirlərinə əsaslansaq, birinci mətndə "Tenor" (müəllim-tələbə münasibəti) və "Field" (xəstəlik və təhsil prosesi) bir-birinə uyğundur, ona görə də mətn uğurlu bir ünsiyyət aktıdır.

Lotmanın fikirlərinə əsaslansaq isə, birinci mətn bizim mədəniyyətimizdəki "üzürlü səbəb" koduna uyğundur. Əgər biz xəstəliyin bir maneə olduğu mədəniyyətdən gəliriksə, bu mətni asanlıqla dekodlaşdırırıq.

Ənənəvi dilçilikdə cümlə əsas sintaktik vahid kimi götürülürdü. Mətn isə bu cümlələrin cəmi kimi başa düşülürdü. Lakin müasir yanaşmalar göstərir ki, mətnin quruluşu sadəcə cümlələrin ardıcıllığı deyil, həmin cümlələrin semantik və praqmatik baxımdan əlaqələndirilməsidir. Cümlə

mətnin bir vahidi kimi çıxış edir, lakin mətnin funksional və tematik bütövlüyünü təmin etmək üçün əlavə əlaqələndirici mexanizmlər tələb olunur.

Mətnin anlaşılması yalnız dil vahidlərinə deyil, eyni zamanda situativ və mədəni kontekstə bağlıdır. Kontekst – yəni mətnin yaradıldığı sosial, mədəni və kommunikativ şərait – onun düzgün anlaşılmasına birbaşa təsir göstərir. Hallideyin nəzəriyyəsinə sadiq qalsaq, kontekst mətni yaradan əsas qüvvədir [4].

Presupoziya isə danışanın və dinləyicinin müəyyən bir əvvəlki biliyə malik olduğunu fərz edən semantik münasibətdir. Bu amillər mətni daha dərin və çoxsəviyyəli bir sistem kimi dəyərləndirməyə imkan verir.

Mətnin formalaşması bir sıra dil və məntiqi mexanizmlərin qarşılıqlı fəaliyyəti nəticəsində baş verir. Bu mexanizmlər vasitəsilə mətnin struktur quruluşu, semantik bütövlüyü, həm də funksional yönümü təmin olunur. Mətn yalnız sözlərin və cümlələrin ardıcıllığı deyil, məna əlaqələrinin və kommunikativ məqsədlərin sistemli şəkildə həyata keçirilməsidir. Bu bölmədə həmin mexanizmlər aşağıdakı aspektlər üzrə araşdırılır:

Mətnin əsasını təşkil edən cümlələr arasında sintaktik və semantik əlaqələrin olması onun struktural bütövlüyünü təmin edir. Sintaktik əlaqələr daha çox bağlayıcılar, əvəzliklər və əlaqələndirici konstruksiyalar vasitəsilə qurulur. Semantik əlaqələr isə cümlələr arasında mənaca uzlaşmanı ifadə edir. Məsələn, səbəb-nəticə, ardıcıllıq, qarşılaşdırma və ya ümumiləşdirmə əlaqələri mətnin semantik strukturuna daxil olan əsas bağlayıcılardır.

Mətnin informativ dəyəri onun tematik strukturuna bağlıdır. Tematik struktur dedikdə, mətnin əsas ideyasının təqdimatı, inkişafı və nəticələnməsi prosesi nəzərdə tutulur. Bu prosesdə "mövzu-rema" prinsipi əsas yer tutur. Yəni cümlənin əvvəlində təqdim olunan mövzu, daha sonra isə ona əlavə edilən yeni informasiya gəlir. Bu struktur mətnin axıcılığını və oxucu üçün anlaşıqlı olmasını təmin edir.

Mətnin formalaşma mexanizmlərindən biri də bir mətnin başqa mətnlərlə əlaqələndirilməsi deməkdir. İstinadlar, sitatlar, alluziyalar və ya mövcud mətn strukturlarının təkrar istifadəsi bu əlaqə formalarına daxildir. Məsələn, bir elmi məqalədə digər tədqiqatçıların fikirlərinə istinad etmək həm mənbə etibarlılığı yaradır, həm də mövcud elmi ənənəyə uyğunluq nümayiş etdirir.

Mətnin quruluşu və forması danışanın niyyəti və situativ şərtlərlə sıx bağlıdır. Mətnin necə formalaşacağını onun praqmatik funksiyası müəyyən edir: məlumatvermə, sorğu, təsir, təsdiq və ya inkar məqsədi. Eyni zamanda, mətnin adresatı, onun dünyagörüşü və dil səviyyəsi də bu prosesə təsir göstərir.

Elmi, publisistik, bədii, rəsmi və s. kimi funksional üslublar leksik və sintaktik vasitələrlə mətnin formalaşmasına təsir edir. Məsələn, elmi üslubda terminlərə, məntiqi struktura və obyektivliyə üstünlük verilir. Bədii üslubda isə obrazlılıq, emosionallıq və estetik elementlər ön plana çıxır. Bu üslub xüsusiyyətləri də mətnin strukturuna və ifadə tərzinə birbaşa təsir edir.

Hər bir mətn növü öz funksiyası ilə yanaşı, spesifik formalaşma prinsiplərinə malikdir. Bu prinsiplər mətnin hansı situasiyada, hansı məqsədlə və kimə ünvanlandığını nəzərə alaraq formalaşır.

Elmi üslubda yazılmış mətnlərdə obyektivlik, məntiqilik, terminoloji dəqiqlik və strukturlaşdırılmışlıq əsas yer tutur. Bu mətnlər informasiya verməyə, müəyyən bir problemi izah və ya sübut etməyə yönəlmiş olur. Elmi mətnin formalaşmasında tezislərin irəli sürülməsi, arqumentləşdirilmiş izahat, nəticələrin təqdimatı və mənbələrə istinad vacib elementlərdir. Məqalə, dissertasiya, hesabat kimi mətnlər bu qrupa daxildir.

Bədii mətnlər həm obrazlılıq, həm də subyektiv yanaşma ilə fərqlənən mətnlərdir. Bədii mətnlərin əsas məqsədi emosional təsir yaratmaq, düşüncə və hissləri ifadə etməkdir. Bədii mətnlərin formalaşmasında metaforalar, epitetlər, simvolika, dialoqlar və təsviri vasitələr geniş şəkildə istifadə olunur. Bədii mətnlərdə məntiqi strukturdan daha çox poetik struktur önə çıxır. Romanlar, şeirlər, hekayələr və s. bu kateqoriyaya daxildir.

Publisistik mətnlər informasiya vermək və ictimai rəyə təsir etmək məqsədi daşıyır. Bu mətnlərdə həm elmi, həm də bədii üslub elementləri qarışıq şəkildə istifadə olunur. Məqalələr, reportajlar, esselər, analitik yazılar publisistik janrın nümayəndələridir. Bu mətnlərdə aktuallıq, aydınlıq, oxucuya ünvanlanmış müraciət formaları və ictimai əhəmiyyətli mövzularda fikir bildirilməsi əsas xüsusiyyətlərdəndir.

Rəsmi üslubda tərtib olunan mətnlər inzibati və hüquqi münasibətlərin tənzimlənməsi məqsədi daşıyır. Bu mətnlərdə dəqiqlik, standartlaşdırılmış ifadələr, sabit strukturlar və neytral leksika üstünlük təşkil edir. Ərizələr, sərəncamlar, müqavilələr, protokollar kimi sənədlər bu qrupa aiddir. Bu mətnlərin formalaşma mexanizmləri normativ qaydalarla və institusional tələblərlə tənzimlənir.

Təbii nitq axarında gündəlik mətnlər formalaşır və onlar spontan olur. Bu mətnlərdə ünsiyyət məqsədi informasiyanın ötürülməsi ilə yanaşı, sosial münasibətlərin qurulmasıdır. Gündəlik dialoqlar, şəxsi məktublar, qeyri-rəsmi mesajlar və söhbətlər bu tip mətnlərə aiddir. Onların formalaşmasında emosionallıq, qeyri-standart ifadələr, jest və intonasiya ilə müşayiət olunan qeyri-verbal vasitələr də mühüm rol oynayır.

**Nəticə**

Məqalənin təhlili zamanı belə nəticəyə gəlmək olar ki, mətn dilçiliyi yalnız struktur və formal məsələlərlə deyil, eyni zamanda məna, funksionallıq və kommunikativlik aspektləri ilə də sıx bağlıdır. Mətnin formalaşma mexanizmləri – sintaktik, semantik, praqmatik və stilistik səviyyələrdə həyata keçirilən qarşılıqlı əlaqələrin və məqsədyönlü strukturun nəticəsidir. Cümlə, söz birləşməsi və ya leksik vahid mətnin vahidləridir və onlar yalnız kontekst daxilində öz funksional dəyərini qazanır.

Mətnin semantik bütövlüyünü təmin edən koherent və kohezion əlaqələr, həmçinin praqmatik mexanizmlər və funksional üslub imkanları bu sahənin kompleks xarakterini təsdiq edir. Bununla yanaşı, müxtəlif mətn növlərinin spesifikliyi onların formalaşma prinsiplərini də fərqləndirir. Elmi, bədii, publisistik və rəsmi mətnlərin hər biri özünəməxsus kommunikativ funksiyanı yerinə yetirir

**Ədəbiyyat**

[1]. Baxşəliyev, R. Diskurs nəzəriyyəsi və tətbiqi məsələlər / R.Baxşəliyev, –Bakı: Elm və Təhsil. – 2012

[2]. Baxşəliyeva, M**.** Mətnin linqvistikası və təhlili / M.Baxşəliyeva, –Bakı: Elm, –2010.

[3]. Grice, H.P. Logic and Conversation // In: Cole, P., & Morgan, J. (eds), Syntax and Semantics, Vol. 3. –1975

[4]. Halliday, M.A.K. Language, context and text: Aspects of language in a social-semiotic perspective (2nd ed.) / H M. A. K.alliday, R. Hasan, –Oxford: Oxford University Press, –1989

[5]. Lotman, M. Y. Universe of the Mind: A Semiotic Theory of Culture. [Electronic resource] - I. I.B. Thauris & Ltd., –New York, –1990, –300 p.

[6]. Quliyev, A. Nitq və mətn: nəzəri və praktik aspektlər / A.Quliyev, –Bakı: Təhsil. –2005.

[7]. Гальперин, И.Р. Текст объект лингвистического исследования / И.Р.Гальперин. Изд. 4-е стереотипное. – М.: КомКнига, – 2006. – 144 с.

[8]. Van Dijk, T.A. Text and Context: Explorations in the Semantics and Pragmatics of Discourse / T.A.Van Dijk, –London: Longman. –1980.

**Summary**
**Formation mechanisms of text linguistics**
***Valiyeva S.V.***

***Key words:*** *text linguistics, mechanisms of text formation, coherence and cohesion, functional linguistics, discourse analysis, pragmatic relations, text and context*

During the analysis of the article, it can be concluded that textual linguistics is closely related not only to structural and formal issues, but also to meaning, functionality and communicative aspects. Mechanisms of text formation are the result of interactions and purposeful structure at syntactic, semantic, pragmatic and stylistic levels. A sentence, phrase, or lexical unit is a unit of text that acquires its functional value only within its context.

Coherence and cohesion relations that ensure the semantic integrity of the text, pragmatic mechanisms that serve to realize its communicative purpose, and functional stylistic possibilities once again confirm that this field has a complex nature. At the same time, the specific characteristics of different types of texts cause the principles of their formation to be different. Scientific, artistic, publicistic and official texts perform different communicative functions.

**Резюме**
**Механизмы формирования лингвистики текста**
***Валиева С.В.***

***Ключевые слова:*** *лингвистика текста, механизмы формирования текста, когерентность и связность, функциональная лингвистика, анализ дискурса, прагматические отношения, текст и контекст*

В ходе анализа статьи можно сделать вывод, что лингвистика текста тесно связана не только со структурными и формальными вопросами, но и со смысловыми, функциональными и коммуникативными аспектами. Механизмы формирования текста являются результатом взаимодействия и целенаправленной структуры на синтаксическом, семантическом, прагматическом и стилистическом уровнях. Предложение, словосочетание или лексическая единица — это единица текста, которая приобретает свое функциональное значение только в контексте.

Отношения связности и связности, обеспечивающие смысловую целостность текста, прагматические механизмы, служащие реализации его коммуникативного назначения, функциональные стилистические возможности еще раз подтверждают, что это поле имеет сложную природу. В то же время специфика разных типов текстов обуславливает различия в принципах их формирования. Научные, художественные, публицистические и официальные тексты выполняют разные коммуникативные функции.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 811.111** DOI 10.54758/16801245_2026_22_1_13

# Nizami Gəncəvi əsərlərində xüsusi isimlərin poetikası və semantikası

**[1]Abdullayeva Günay Şəmsəddin qızı** ORCID 0009-0009-3138-0687
**[2]Hüseynova Türkan Arzu qızı**
**[3]Əliyeva Lilpar Qəşəm qızı** ORCID 0000-0002-3295-4787
**[4]Salmanova Sahilə Ağahüseyn qızı** ORCID 0000-0003-2004-7730

*Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azırbaycan, 1,3,4 – baş müəllim, 2 – müəllim*
*gunaywamsaddinkizi@gmail.com; tutu.huseyn@gail.com; aliyeva.lilpar@mail.ru ; salmanovasahile7@gmail.com*

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi***<br>*Daxilolma tarixi: 05.04.2025*<br>*Düzəliş tarixi: 09.10.2025*<br>*Qəbulolunma tarixi: 25.12.2025*<br><br>***Açar sözlər***<br>*bədii dil, linqvistika, poetik xüsusiyyətlər, semantika, onomastik struktur, simvolizm* | *Nizami Gəncəvinin əsərlərində xüsusi adlar təkcə detal deyil, həm də əsərlərin bədii-fəlsəfi quruluşunun ayrılmaz hissəsidir. İstifadə etdiyi adlar oxucuya əsərlərin ideoloji və poetik dərinliyini anlamağa kömək edir. Antroponimlər, toponimlər və teonimlər Nizaminin ədəbi üslubunu formalaşdıran əsas komponentlərdən biridir. Beləliklə, Nizami Gəncəvinin əsərlərində xüsusi adların funksiyası təkcə personajları və yerləri təmsil etmək deyil, həm də onun dünyagörüşünü və bədii konsepsiyasını ifadə etməkdə mühüm elementlərdir. Bu adlar oxucunu tarixi və mifoloji dünyaya aparır, insan həyatının, sevgi və hikmətin sirlərini açır* |

Nizami Gəncəvi (1141–1209) orta əsr Azərbaycan və Şərq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. Onun "Xəmsə" adlı beş poeması – "Sirlər Xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi Gözəl", "İsgəndərnamə" – yalnız bədii məziyyətləri ilə deyil, həm də fəlsəfi, etik və sosial mesajları ilə seçilir. Nizaminin poetik dünyasında xüsusi isimlər – antroponimlər (şəxsi adlar), toponimlər (coğrafi adlar), teonimlər (ilahi adlar), oronimlər (təbiət obyektlərinin adları) və digər proprial vahidlər böyük semantik yük daşıyır.

Nizaminin əsərlərində xüsusi isimlərin istifadəsi təsadüfi deyil; onlar bədii mətnin estetik yükünü artırmaqla yanaşı, poetik simvolizmin əsasını təşkil edir. Həm real tarixi şəxsiyyətlər, həm mifoloji və dini obrazlar, həm də müxtəlif coğrafi adlar onun ideoloji baxışlarını və dünyagörüşünü ifadə etmək üçün vasitəyə çevrilir.

Məqalədə Nizami Gəncəvi əsərlərində xüsusi isimlərin poetik və semantik xüsusiyyətləri, onların tarixi və mifoloji mənşəyi, simvolik funksiyaları və ədəbi kontekstdə istifadəsi təhlil ediləcəkdir.

## 1. Xüsusi isimlərin onomastik strukturu və poetikasına giriş

1.1. Nizami Gəncəvi və onun onomastik yanaşması

Nizami Gəncəvi xüsusi isimlərin istifadəsində təkcə tarixi və coğrafi reallıqları deyil, həm də poetik və metaforik dəyərləri ön plana çəkir. O, adları yalnız fərdləri və məkanları adlandırmaq üçün deyil, eyni zamanda simvolik və fəlsəfi məna yükləmək üçün istifadə edir.

Nizaminin poetik dili çoxqatlıdır və bu, onun istifadə etdiyi isimlərin semantik şaxələnməsində özünü göstərir. Onun əsərlərində:

**Şəxsi adlar** (antroponimlər) qəhrəmanların mənəvi və psixoloji dünyasını açır,
**Coğrafi adlar** (toponimlər) hadisələrin tarixi və mədəni kontekstini formalaşdırır,
**Dini və mifoloji isimlər** (teonimlər, demonimlər) fəlsəfi, ilahi və kosmik qatları ifadə edir.
Bütün bunlar Nizaminin poetikasında xüsusi isimlərin çoxfunksiyalı təbiətini göstərir.

**2. Antroponimlər: Qəhrəman adlarının semantikası və poetik yükü**

Nizaminin əsərlərində qəhrəmanların adları təsadüfi seçilməmişdir. Əsərlərdə şəxsi adların istifadəsi təkcə personajları tanıtmaq məqsədi daşımır. Hər bir ad müəyyən xarakteri və onun taleyini simvolizə edir. Bu adlar yalnız fərdi identifikasiya vasitəsi deyil, həm poetik rəmzlər kimi çıxış edir, həm tarixi və mədəni konteksti gücləndirir, həm də bədii mətnin ideoloji strukturunu formalaşdırır.

**2.1. Leyli və Məcnun: Adların Metafizik Yükü**

"Leyli və Məcnun" poemasında qəhrəmanların adları eşqin mistik və metafizik təbiətini əks etdirir:

**Məcnun** – Əsl adı Qeys olan qəhrəman eşqin təsiri altında öz adından imtina edir və "Məcnun" (dəli, divanə) adını alır. Burada Məcnun adı yalnız bir insanı deyil, eşq yolunda faniliyə çatmış bir obrazı təmsil edir. Bu adın seçilməsi ilə Nizami eşqi ilahi bir konsept kimi təqdim edir.

**Leyli** – "Leyl" (ərəbcə: "gecə") sözü qaranlıq, sirr və əlçatmazlıq mənalarını verir. Leyli obrazı ideal gözəlliyin və mənəvi saflığın simvoludur.

Burada adlar qəhrəmanların yalnız zahiri xüsusiyyətlərini deyil, onların mənəvi transformasiyasını da əks etdirir.

**2.2. Xosrov və Şirin: Hakimiyyət və Məhəbbətin Qarşıdurması**

**Xosrov** — "Xosrov və Şirin" poemasında Sasani hökmdarı kimi göstərilir. Lakin o, təkcə tarixi bir şəxs deyil, həm də məhəbbət və dövlət idarəçiliyi dilemmasını simvolizə edən bir obrazdır. Şair əsərdə İran şahı Xosrov Pərvizə istinad edərək və güc, ehtiras, hakimiyyət kimi məqamları təcəssüm etdirir.

**Şirin** – Farsca "şirin, ləzzətli" mənasını verir və ideal qadın gözəlliyini, sevgini simvolizə edir.

**Fərhad** – Onun adı sevginin qurbanı olan fədakar aşiq obrazını təcəssüm etdirir.

Burada adlar yalnız fərdi kimliyi deyil, həm də sosial və siyasi münasibətləri əks etdirir.

**2.3. İsgəndər: Fateh və Hikmət Axtarışında olan Şah**

**İsgəndər** – "İsgəndərnamə" poemasının mərkəzi fiqurudur. "İsgəndərnamə" poemasında İsgəndər fateh və filosof kimi təqdim olunur. Onun adı həm dünyəvi gücü, həm də mənəvi kamilliyə olan meyli əks etdirir.

**Nüşabə** – "İsgəndərnamə" poemasında güclü bir qadın hökmdardır. Bu obrazın adı qadın müdrikliyini və dövlət idarəçiliyində qadınların rolunu vurğulayır.

Bu adlar Nizaminin əsərlərində müəyyən fəlsəfi və ideoloji konseptləri ifadə etmək üçün seçilmişdir.

**3. Toponimlər: Məkan Adlarının Simvolizmi və Semantik Yükü**

**3.1. Tarixi və real coğrafi məkanlar**

Nizami əsərlərində Azərbaycan, İran, Ərəbistan, Hindistan, Makedoniya və digər məkanların adlarına rast gəlmək mümkündür.

**Gəncə** – Şairin doğma şəhəridir. Nizami Gəncənin adını tez-tez çəkməsə də, onun Azərbaycan torpağına bağlılığı əsərlərində hiss olunur.

**Bəhramın yeddi sarayı** – "Yeddi gözəl" poemasında Bəhram şahın səyahət etdiyi yeddi saray müxtəlif coğrafi bölgələri və mədəniyyətləri simvolizə edir.

**Bağdad, Bəsrə, Mədinə** – İslam mədəniyyətinin mərkəzləri olaraq elmin və siyasətin gücünü simvolizə edir.

**3.2. Mifik və əfsanəvi məkanlar**

Makedoniyanın mifik versiyası – "İsgəndərnamə" əsərində Makedoniya tarixi bir ölkədən daha çox ideal bir idarəçilik modelini təmsil edir.

**Çin və Hindistan** – Nizaminin təsvir etdiyi Çin və Hindistan real məkanlardan çox, uzaq, ekzotik biliklərin və fəlsəfi düşüncənin mənbəyi kimi göstərilir.

**Kaf dağı** – Şərq mifologiyasında yer alan mistik bir məkan olaraq insanın mənəvi yüksəlişini təcəssüm etdirir.

**4. Teonimlər: İlahi Adlar və Metafizik Məzmun**

Nizami Gəncəvi İslam və digər dinlərdən gələn ilahi adlardan da istifadə etmişdir.

**Allahın 99 adı** – "Sirlər xəzinəsi" poemasında Allahın müxtəlif adları çəkilir. Bu, şairin dərin dini və mistik dünyagörüşünü əks etdirir.

**Allah, Rəhman, Rəhim** – Tanrının adları müxtəlif fəlsəfi kontekstlərdə işlənir.

**Musa, İsa, Məhəmməd** – Peyğəmbərlərin adları etik və ilahi mesajların çatdırılmasına xidmət edir.

**Zərdüşt və Əhura Mazda** – İran mədəniyyətinin təsiri ilə Nizami bəzən Zərdüştlük elementlərinə də istinad edir.

Bu adlar əsərlərin fəlsəfi dərinliyini artırır və Nizaminin mənəvi düşüncəsini əks etdirir.

Nizami Gəncəvi əsərlərində xüsusi isimlər yalnız konkret şəxs və ya məkanı ifadə etmir. Onlar aşağıdakı funksiyaları yerinə yetirir:

1. Simvolik məna yaradır – Məsələn, Məcnun yalnız bir ad deyil, eyni zamanda eşqin ilahi səviyyəsini təmsil edir.
2. Tarixi kontekst yaradır – Şah adları Nizaminin dövrünün siyasi reallıqlarını əks etdirir.
3. Şeirin ritmini və ahəngini artırır – Xüsusi isimlər poetik ahəngdarlığın formalaşmasına kömək edir.
4. Fərqli mədəniyyətlər arasında əlaqə qurur – İsgəndər, Bəhram, Xosrov kimi adlar Şərq və Qərb arasında mədəni əlaqələri ifadə edir.

**Nəticə**

Nizami Gəncəvinin əsərlərində xüsusi isimlər təkcə bir detal kimi yox, əsərlərin bədii və fəlsəfi strukturunun ayrılmaz hissəsi kimi çıxış edir. Onun istifadə etdiyi adlar oxucuya əsərlərin ideoloji və poetik dərinliyini anlamaqda kömək edir. Antroponimlər, toponimlər və teonimlər Nizaminin ədəbi üslubunu formalaşdıran əsas komponentlərdən biridir.

Beləliklə, Nizami Gəncəvinin əsərlərində xüsusi isimlərin funksiyası yalnız personajları və məkanları tanıtmaqdan ibarət deyil, həm də onun dünyagörüşünü və bədii konsepsiyasını ifadə etmək üçün mühüm elementlərdir. Bu isimlər oxucunu həm tarixi və mifoloji dünyaya aparır, həm də insan həyatının, eşqin və hikmətin sirlərini açır.

## Ədəbiyyat

[1]. Gəncəvi, N. Xəmsə / N.Gəncəvi, –Bakı: Şərq-Qərb, –2004. –264 s.
[2]. Bertels, E. Nizami və Onun Poeziyası / E.Bertels, –M.: Nauka, –1962.
[3]. Məmmədova, S. Nizami Gəncəvi əsərlərinin poetikasında simvolizm / S.Məmmədova, –Bakı: Təhsil, –2014.

**Summary**

**Poetics and semantics of proper nouns in the works of nizami ganjavi**

***Abdullayeva G.Sh., Huseynova T.A., Aliyeva L.G., Salmanova S.A.***

***Key words:*** *artistic language, linguistics, poetic features, semantics, onomastic structure, symbolism*

In the works of Nizami Ganjavi, proper names are not merely details but an integral part of the artistic and philosophical structure of his writings/ the names he uses help readers grasp the ideological and poetic depth of his works. Antroponyms, toponyms, and theonyms are among the key components shaping Nizami"s literary style.

Thus, the function of proper names in Nizami Ganjavi"s works is not limited to introducing characters and places: they also serve as crucial elements in expressing his worldview and artistic concept. These names transport the reader into both the historical and mythological world while also unveiling the mysteries of human life, love and wisdom.

**Резюме**

**Поэтика и семантика имен собственных в творчестве Низами Гянджеви**

***Абдуллаева Г.Ш., Гусейнова Т.А., Алиева Л.Г., Салманова С.А.***

***Ключевые слова:*** *художественный язык, лингвистика, поэтические особенности, семантика, ономастическая структура, символика.*

В произведениях Низами Гянджеви особые имена являются не только деталью, но и неотъемлемой частью художественно-философской структуры произведений. Используемые им имена помогают читателю понять идейную и поэтическую глубину произведений. Антропонимы, топонимы и теонимы являются одним из основных компонентов, формирующих литературный стиль Низами.

Таким образом, функция собственных имен в произведениях Низами Гянджеви заключается не только в представлении персонажей и мест, но они также являются важными элементами в выражении его мировоззрения и художественной концепции.

Эти имена переносят читателя в исторический и мифологический мир, раскрывают тайны человеческой жизни, любви и мудрости.

Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)
journal homepage: www.ssu-scientificnews.edu.az

УДК 811.11-112 DOI 10.54758/16801245_2026_22_1_17

# Социолингвистические особенности английского сленга

**Гурбанова Гульнара Горхмаз гызы** ORCID 0000-0003-1206-3909

*Мингячевирский государственный университет, Мингячевир, Азенбайджан, ст. преподователь*
gulnara.qurbanova@mdu.edu.az

**ИНФОРМАЦИЯ О СТАТЬЕ**

***История статьи***
*Получено: 20.05.2025*
*Исправлено: 22.09.2025*
*Принято: 26.12.2025*

***Ключевые слова***
*сленг, социолингвистика, лингвистика, слово, исследование*

**РЕЗЮМЕ**

*Настоящее исследование посвящено социолингвистическим характеристикам сленга в английском языке. В работе рассматривается роль социальных и культурных факторов в формировании и развитии сленговой лексики, а также лингвистические особенности этих единиц. Сленг, как выразительное, эмоционально окрашенное средство общения, активно используется в разговорной речи, а также проникает в художественную, публицистическую и политическую сферу языка. Особое внимание уделено определению функций сленга, таких как коммуникативная, когнитивная, номинативная, экспрессивная, мировоззренческая, экономии языка и креативная функция. Также анализируются социолингвистические и лингвокультурологические аспекты английского сленга, его семантическая вариативность и трансформация. В работе делается вывод о важности преподавания сленговой лексики студентам филологических факультетов для формирования у них навыков яркой, живой и точной речевой коммуникации.*

Как известно, нормы речи различных социальных слоёв общества способствуют развитию определённых пластов лексики языка, что, в свою очередь, ведёт к её обогащению. В этом процессе особую роль играют сленговые выражения, не относящиеся к литературному языку, но активно используемые в речи с целью создания стилистического эффекта, придания языку выразительности, живости, образности и лаконичности. Именно поэтому сленг занимает важное место в стилистической лексике английского языка.

В конце XX – начале XXI века, под воздействием социальных факторов, в английском языке возникли формы сленга, которые поначалу воспринимались как вульгарные и не соответствующие нормам общения. Как отметил один из первых исследователей сленга на Западе Э. Партридж, изначально термин «сленг» обозначал «нелегитимную» разговорную речь, а позже стал применяться ко всем видам вульгарной лексики. [1, с.56]

Известный исследователь английского сленга Т.А. Судзиловский, обобщая мнения лингвистов, стремящихся определить природу этого языкового явления, выделяет следующие общие характеристики:

1. Сленг — это лексическое явление, представленное словами или словосочетаниями;
2. Он относится к нелитературной лексике, находящейся за пределами литературного языка;
3. Связан с определённой социальной средой и преимущественно употребляется в устной речи;
4. Имеет ярко выраженную эмоциональную окраску;
5. Нередко обладает грубоватым оттенком. [2, с.9]

Учитывая эти определения, можно дать следующую чёткую и лаконичную формулировку: сленг – это слово или словосочетание, существующее вне литературного языка, отражающее определённую социальную среду и обладающее эмоциональной, иногда грубоватой окраской.

Лингвистическая сущность сленга тесно связана с его функциями. В исследовании С.Д. Сизова выделяются следующие функции:

1. Коммуникативная;
2. Когнитивная;
3. Номинативная;
4. Экспрессивная;
5. Мировоззренческая;
6. Функция языковой экономии;
7. Творческая функция. [3, с.33]

Каждая из этих функций отражает определённые лингвистические и экстралингвистические аспекты. Так, коммуникативная функция позволяет говорящему передать своё мнение в соответствии с социальной средой, а адресат, принадлежащий к той же среде, способен адекватно воспринять сообщение. *Когнитивная* функция означает, что сленг несёт дополнительную информацию об окружающем мире. Номинативная функция связана с новым способом наименования. *Экспрессивная* – с образностью, неожиданностью и юмористичностью выражения.

*Мировоззренческая* функция проявляется в зависимости от возраста, профессиональной принадлежности, культурного и образовательного уровня говорящего. Функция *языковой экономии* позволяет сэкономить время и выразить мысль кратко, точно и понятно. *Творческая* функция способствует возникновению новых, необычных форм слов, выражений и значений.

Все эти функции подробно рассматриваются в трудах Г.Р. Ивановой, А.Ф. Артёмовой, Г.В. Антрушиной, Т.Е. Захарченко. [4-6]

Поскольку сленг вносит выразительность, живость и образность в разговорную речь, он постепенно выходит за рамки социальных групп и проникает в общеупотребительный разговорный язык. Именно эта особенность делает его актуальной темой для многих лингвистов, таких как М.Адамс [8], Дж.Х.Хоттен [9], А.Маттьелло, В.Г.Вилюман, М.А.Кротовская [10] и других.

Сленг всё шире используется во всех сферах общения, активно проникает из одного языка в другой, выходит за пределы разговорной речи и закрепляется в художественной литературе, СМИ, кино и музыке. Современные английские фильмы, музыка и литература служат источником не только общей лексики, но и сленговых выражений.

То, что сленг охватывает не только повседневное общение, но и все сферы культуры, используется в различных ситуациях и в межкультурных коммуникациях, способствует лаконичному и выразительному языковому выражению, расширяет возможности адекватного перевода художественных, публицистических и политических текстов, а также отражает социально-культурные параметры общества, делает его исследование особенно актуальным.

**Объект и предмет исследования.** Объектом настоящего исследования является сленговая лексика английского языка, а предметом – выявление её лингвистических характеристик.

**Цель и задачи исследования.** Цель работы – определить источники возникновения, коннотативные, стилистико-эмоциональные особенности и механизмы семантической трансформации английской сленговой лексики. Для достижения этой цели ставятся следующие задачи:

- Осветить теоретические взгляды на понятие сленга и социально-культурные факторы его возникновения в английской лингвистике;
- Определить место сленга в разговорной лексике английского языка и провести его семантическую классификацию;
- Установить общие и отличительные черты между сленгом и другими образными выражениями;
- Исследовать социолингвистические особенности сленга;
- Выявить лингвокультурологические особенности сленга;
- Раскрыть проблему вариативности сленга;
- Рассмотреть вопросы эквивалентности и семантической трансформации сленговых выражений в языке.

**Методы исследования.** В исследовании используются методы теоретического анализа, сравнительного анализа и описания.

**Гипотеза исследования.** Преподавание сленговой лексики студентам языковых факультетов может способствовать формированию у них навыков эмоционального, живого и лаконичного выражения мыслей в речи.

**Общие положения о сленге:**

- Сленг способствует эмоциональности, живости, лаконичности и в некоторых случаях скрытности выражения мысли;
- Поскольку сленг используется отдельными социальными группами, он может быть не понятен широкому кругу носителей языка;
- В зависимости от степени экспрессивности и эмоциональной окраски, сленг может варьироваться;
- Связанный с общими или специфическими понятиями, сленг может иметь коннотативные и стилистические эквиваленты в других языках.

***Научная новизна.*** Работа восполняет определённый пробел в изучении сленга в современном английском языке. В диссертации выдвинуты идеи о социолингвистических и лингвокультурологических корнях английского сленга, а также его семантической вариативности и трансформации.

***Теоретическая и практическая значимость.*** Теоретические положения исследования могут служить источником для изучения общих вопросов теории сленга и его социолингвистических аспектов. Благодаря своей выразительности, живости и краткости, сленг может стать мотивирующим фактором при обучении английской лексике. Это особенно важно в свете того, что сленговая лексика выходит за рамки повседневной речи и активно используется в культуре, расширяя возможности перевода художественных, публицистических и политических текстов. Всё это делает результаты диссертационного исследования полезными при подготовке специальных курсов, учебных пособий и для проведения лекционных и семинарских занятий на филологических факультетах вузов.

**Литеатура**

[1]. Partridge, E. Slang: Today and Yesterday / E.Partridge, –New York: Routledge Revivals (Taylor and Francis Group), –2015, –488 p.

[2]. Судзиловский, Г.А. Сленг – что это такое? Английская просторечная военная лексика / Г.А.Судзиловский, –М.: Воениздат, –1973. – с.8-10.

[3]. Сизов, С.Д. Понятие и функции сленга // Юный ученый, – 2016. – № 5 (8). – с. 32-34

[4]. Иванова, Г.Р. Функции сленга в речевой деятельности американских студентов // Когнитивные и коммуникативные аспекты английского. –М.: МГЛУ, –1990 – с. 133

[5]. Артемова, А.Ф. К вопросу об эмоциональности сленга // Проблемы синхронного и диахронного описания германских языков. –Пятигорск, –1979. –с. 10–18.
[6]. Антрушина, Г.В. Лексикология английского языка: учеб. пособие для студентов / Г.В.Антрушина, –М.: Дрофа, –2001, –с.158-160.
[7]. Захарченко, Т.Е. Английский и американский сленг: учеб. пособие для студентов / Т.Е.Захарченко, –М.: АСТ, –2009. –с.90-99.
[8]. Adams, M. Slang: The People's Poetry / M.Adams. –Oxford: Oxford University Press, –2009, –256 p.
[9]. Hotten, J.C. A Dictionary of Modern Slang, Cant and Vulgar Words, Used at the Present Day in the Streets of London (1860) / J.C. Hotten. –Whitefish, Montana, USA: Kessinger Publishing, LLC, –2008. –300 p
[10]. Кротовская, М.А. Сленг как часть разговорного английского // Материалы межвузовской научно-практической конференции Факультета иностранных языков Академии ФСБ "Современные теории и методы обучения иностранным языкам в ВУЗе. –М., –2013. –с. 58-67.

**Xülasə**
**İngilis dilində slənqlərin sosiolinqvistik xüsusiyyətləri**
***Qurbanova G.Q***

***Açar sözlər:****slənq, sosiolinqvistika, dilçilik, söz, tədqiqat*

Bu tədqiqat işində müasir ingilis dilində slənq leksikasının sosiolinqvistik və linqvistik xüsusiyyətləri araşdırılır. Slənqin dilin üslubi qatında rolu, sosial mühitlə əlaqəsi və kommunikativ, nominativ, ekspressiv və digər funksiyaları təhlil olunur. Eyni zamanda, slənqin semantik variativliyi, linqvokulturoloji aspektləri, dil qənaəti və yaradıcı funksiyaları da araşdırmanın əsas istiqamətlərindəndir. Tədqiqatda slənqin müxtəlif sosial qruplar tərəfindən istifadəsi və bu leksikanın ümumi danışıq dilinə təsiri vurğulanır. İşdə slənqin tədrisinin dil öyrənənlər üçün motivasiyaedici amil ola biləcəyi qeyd olunur. Tədqiqatın nəzəri və praktik əhəmiyyəti ali məktəblərdə dil və mədəniyyət tədrisində istifadəsi ilə əsaslandırılır.

**Summary**
**Sociolinguistic features of slang in the english language**
***Gurbnova G.G***

***Keywords:****slang, sociolinguistics, linguistics, word, research*

This research explores the sociolinguistic and linguistic characteristics of slang vocabulary in modern English. The study analyzes the role of slang within the stylistic layer of the language, its connection to social environments, and its communicative, nominative, expressive, and other functions. It also focuses on the semantic variability of slang, its linguocultural aspects, language economy, and creative potential. The research emphasizes how slang is used by different social groups and how it influences general spoken language. Additionally, it suggests that teaching slang can be a motivational factor for language learners. The theoretical and practical significance of the study lies in its applicability to language and culture teaching in higher education institutions.

.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82.91** DOI 10.54758/16801245_2026_22_1_21

# Neyrolinqvistikanın müasir elmdə rolu və əhəmiyyəti

**Qocayeva Ləman Şahmar qızı** ORCID 0000-0002-6521-112X

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, müəllim*
Laman.Qocayeva@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 07.07.2025*
*Düzəliş tarixi: 15.10.2025*
*Qəbulolunma tarixi: 25.12.2025*

***Açar sözlər***
*neyrolinqvistika, təfəkkür, nitq, dilçilik, psixolinqvistika*

**XÜLASƏ**

*Elmi şəkildə artıq sübut olunub ki, insan nitqinin fəaliyyəti beyin yarımkürələrinin hər ikisi tərəfindən əlaqələndirilir. Sol yarımkürə nitqin düzgünlüyünə, sağ yarımkürə isə onun obrazlılığına və emosional çalarda təmin olunmasına cavabdehdir. Bu məqalədə neyrolinqvistika elmi və onun əhəmiyyəti araşdırılır. Neyrolinqvistikanın digər elmlərlə qarşılıqlı əlaqəsi əsaslandırılır*

## Giriş

Neyrolinqvistika – psixologiya, neyroelm və dilçiliklə sıx bağlı olan mürəkkəb və müstəqil bir elmdir. Bu üç elm sahəsi insanın nitqlə bağlı beyin hissələrinin fəaliyyətini öyrənmək və "dil daşıyıcısı olan insan"ın ümumi problemlərini həll etmək üçün bir-birini tamamlayır:
Dilçilik təbii dilin struktur xüsusiyyətlərini, onun fonoloji, morfoloji, sintaktik və digər təşkilati sahələrini müəyyənləşdirir;

1. *Psixolinqvistika* insan şüurunun dil strukturlarında kommunikativ nitqin real vaxtda işlənməsini idarə edən idrak proseslərini öyrənir;
2. *Neyrolinqvistika* isə "zehin və beyin" fəaliyyətini araşdıraraq dilin funksional quruluşunun idraki işlənməsi zamanı səfərbər olunan beyin strukturlarını və neyron şəbəkələrini müəyyənləşdirir.

Bu baxımdan, qeyd olunan üç sahə bir-birini tamamlayır və birgə şəkildə insan nitqinin mexanizmlərini dərinləşdirilmiş şəkildə öyrənməyə xidmət edir.

## Materiallar və icmal

Rus neyropsixoanalitiki T.V. Çerniqovskayanın fikrincə: "Bizim bu sahədəki biliklərimiz diaqnozun qoyulması, reabilitasiya və nitqin müxtəlif funksiyalarının bərpası üçün vacibdir. Bəzən disqrafiya və disleksiya problemi olan insanlar doğma dillərini yenidən öyrənmək məcburiyyətində qalırlar. İnsan öz düşüncəsini müəyyən qədər idarə edə bilər, lakin beynin fizioloji və genetik xüsusiyyətlərini nəzarətdə saxlaya bilməz. Əgər insanların şüurunda psixoloji qüsur mövcuddursa, bu, düzəldilməli və ya müalicə edilməlidir. Neyrolinqvistika nitq fəaliyyətinin mexanizmlərini, dil, təfəkkür və insan şüurunun qarşılıqlı əlaqəsini anlamağa, eləcə də insan nitqinin yaranma prosesini izah etməyə kömək edir... Dilçilər beyin fiziologiyası haqqında məlumatlara əsaslanaraq neyrostrukturların və dilin quruluşu barədə ümumi nəticələr çıxara bilərlər."

Nitq fəaliyyəti nəzəriyyəsində neyropsixolinqvistika aşağıdakı mərhələlər üzrə təsnif olunur:

1. **Nitqin düzgünlüyü** – dil qaydalarına riayət etmə;
2. **Nitqin sürəti** – nitqi zamanla uyğunlaşdırmaq bacarığı;
3. **Nitqin zənginliyi** – lüğət ehtiyatı və müxtəlif nitq formalarının istifadəsi;
4. **Nitqdə adekvat seçim** – fikrin məzmun və situasiyaya uyğun ifadə edilməsi;

5. **Mətnin adekvat sintezi** – cümlələrin məntiqi şəkildə birləşdirilməsi.

Əgər bir dilçi bu çoxsəviyyəli modeli hərtərəfli mənimsəməyibsə, onun dil bacarıqları qeyri-kafi hesab olunur.

Neyrolinqvistika (yunanca *neuron* – sinir, latınca *lingua* – dil) 1950–1960-cı illərin sonlarında **nevrologiya, psixologiya və dilçilik** kimi üç əsas elmin qovşağında formalaşmışdır. Onun yaranmasına insanların praktiki tələbatı səbəb olmuşdur**.** A.A.Leontyev, A.R.Luriya, E.S.Bain, R.M.Boskis, E.N.Venarskaya, O.S.Vinogradova, N.A.Eysler kimi alimlər neyropsixologiya və neyrolinqvistikanın ayrıca elm kimi təşəkkül tapmasına mühüm töhfə vermişlər.

Müasir neyropsixologiyada insan beyninin struktur sabitliyi, onun zədələnməsi və bu zədələnmənin nəticələri afaziya adlanan nitq pozğunluqlarına gətirib çıxarır. Afaziologiya (yunanca *a-* – inkar hissəciyi, *phasis* – bəyan) beyin zədələnməsi nəticəsində yaranan nitq pozğunluqlarını öyrənən və müalicə edən tibb sahəsidir.

Neyrolinqvistikanın tədqiqat obyekti insan beynindəki neyronların – sinir hüceyrələrinin nitq fəaliyyətinin bərpasında və söz yaradıcılığında roludur. Nitq zonasının zədələnməsi və bunun nəticəsində nitqin pozulması məsələsi İbn Sina və Bəruni kimi alimlərin əsərlərində də qeyd olunmuş və dərindən araşdırılmışdır.

Neyrolinqvistikanın ilkin inkişaf mərhələlərində əldə olunan nailiyyətlər əsasən nitq pozğunluqlarının diaqnostikası və korreksiyası, yəni praktik problemlərin həllinə yönəlmişdir.

Müasir neyrolinqvistikanın obyekti artıq yalnız nitq patologiyasının öyrənilməsini deyil, eyni zamanda nitqin normal vəziyyətinin də tədqiqini əhatə edir. Rus neyrolinqvistikasının "banisi", tanınmış psixoloq və neyrofizioloq Romanoviç Luriya Aleksandr bu elmi sahəni belə müəyyən etmişdir:

"Nitq fəaliyyətinin beyin mexanizmlərini və dil sistemində lokal beyin zədələnmələri nəticəsində yaranan nitq proseslərindəki dəyişiklikləri öyrənən elm sahəsi."

Luriya XX əsrin 60-cı illərinin əvvəllərində "neyrolinqvistika" terminindən istifadə etməyə başlamışdır. Beynin quruluşu ilə insan təbiəti arasındakı əlaqə, idrak mexanizmləri və nitq prosesləri vasitəsilə araşdırılır. Bu proseslər, neyrolinqvistika çərçivəsində psixoloji biliklərin əsasını təşkil edən idrak prosesləri ilə sıx şəkildə bağlıdır.

Təfəkkür insanın ali zehni fəaliyyət formasıdır – obyektiv reallığın şüurda əks olunma prosesi. Təfəkkür intuisiyadan, qavrayışdan və təsəvvürdən daha dolğun və aydın şəkildə reallığı əks etdirən yüksək idrak formasıdır. Obyektiv aləmin hadisə və əşyalarının mahiyyətini anlamağın yolu məhz təfəkkür vasitəsilə mümkündür. Təfəkkür fəaliyyəti nitq vasitəsilə ifadə olunur. "Yaxşı düşünən – yaxşı danışır" prinsipi bu əlaqəni əks etdirir.

Nitq ünsiyyəti prosesində reallıq, hadisə və obyektlər müəyyən dil qanunlarına və qaydalarına əsaslanaraq insanın mahiyyəti, məzmunu və ictimai təbiəti haqqında anlayışların formalaşmasına kömək edir. Əks halda belə suallar və ifadələr yaranır: "Başa düşürəm. Anladım. Yaxşı başa düşdüm. Əgər bilmirəmsə... Anladım. Məncə bu səhvdir. Məncə bu düzgündür." Əksinə, "Başa düşmürəm. Bu mənə qaranlıqdır. Mənim üçün abstraktdır." kimi ifadələr də anlam çətinliyini göstərir.

Adətən, neyrolinqvistik tədqiqatlar dilçilik, neyrofizioloji və psixoloji komponentləri özündə birləşdirir. Neyrolinqvistika geniş şəkildə digər elmlərlə qarşılıqlı əlaqədədir:

1. Dilçilik və psixolinqvistika – dil materialına, konstruksiyalara və modellərə əsaslanaraq nitq mexanizmlərini və onların psixoloji korrelyasiyalarını öyrənir.

2. Nevrologiya – sinir sisteminin quruluşu və funksiyalarını, həm normal, həm də patoloji vəziyyətlərini araşdıran elmdir. Nevrologiyanın bölmələri – neyrofiziologiya **və** beyin elmi insan nitq davranışına cavabdeh sinir sisteminin fəaliyyətini, beyin qabığında nitq funksiyalarının lokallaşmasını və dil sistemindəki fəaliyyətin neyron əsaslarını müəyyən etməyə imkan verir.

Nevrologiya insan və heyvan sinir sisteminin quruluşu və funksiyalarını, onun filogenez **və** ontogenez proseslərini izah edən tibbi-bioloji sahədir.

Histologiya və vizual anatomiya ilə yanaşı, neyrofiziologiya da inkişaf etmiş və ilk dəfə heyvan beyinlərinin ayrı-ayrı hissələri öyrənilmişdir. Aşkar olunmuşdur ki, baş və onurğa beynində hərəkət və hissiyyat funksiyalarını müəyyən edən xüsusi mərkəzlər mövcuddur. XIX əsrin ikinci yarısında beyin damar sisteminin, sinir sisteminin filogenezi və ontogenezi sahəsində əhəmiyyətli irəliləyişlər əldə olunmuşdur. XIX–XX əsrlərdə İ. M. Seçenov**,** N. Y. Vvedenski**,** Ç. Şerrinqton kimi alimlərin apardığı fizioloji tədqiqatlar nevrologiyanın inkişafına mühüm töhfə vermişdir. İ. P. Pavlovun ali sinir fəaliyyəti haqqında təlimi, beyin strukturunun və funksiyasının formalaşmasında evolyusion-genetik qanunun kəşfi və XX əsr neyroelminin digər mühüm nailiyyətləri bu sahənin elmi əsaslarını genişləndirmişdir.

***Loqopediya*** (*logos* – söz, *paideia* – tərbiyə, təlim) pedaqoji elm sahəsidir; nitq qüsurlarının (tutma, dilin inkişafsızlığı, oxu və yazı pozğunluqları və s.) səbəblərini, onların qarşısının alınması və aradan qaldırılması yollarını, həmçinin bu qüsurların mexanizmlərini və simptomlarını öyrənir. Nitq qüsurlarının korreksiyası məsələləri Avropa ölkələrində XVII əsrdən etibarən karlar pedaqogikası üzrə aparılan elmi işlərdə tətbiq edilməyə başlanmışdır. XIX əsrin ikinci yarısından bu sahəyə müstəqil, lakin tibbi baxış bucağından yanaşılmış, zamanla isə nitq fəaliyyəti haqqında elmi baxış genişlənmiş və loqopediyanın istiqaməti pedaqoji məzmun qazanmışdır.

3. Nitq terapiyası həm nəzəri, həm də praktiki baxımdan böyük əhəmiyyətə malikdir. Onun predmeti dilin sosial mahiyyəti, uşağın tələffüzü, lüğət-qrammatik sistemi, təfəkkürü və ümumi zehni fəaliyyəti ilə qarşılıqlı asılılıqda müəyyən olunur. Nitq terapiyasının nəzəri istiqaməti nitq pozğunluqlarını öyrənmək, onların səbəblərini müəyyənləşdirmək, elmi əsaslandırılmış profilaktika və korreksiya üsullarını hazırlamaqdır; praktik istiqaməti isə bu metodların tətbiqi və qüsurların tezliklə aradan qaldırılması ilə bağlıdır. Hər iki istiqamət bir-biri ilə sıx bağlıdır.

Neyrolinqvistika üzrə ilk kitab A.R.Luriya tərəfindən yazılmışdır. O, bu elmi üç mərhələyə bölmüşdür [4]:

1. Dillə bağlı mərhələ,
2. Neyrofizioloji mərhələ,
3. Psixoloji mərhələ.

Sonradan neyrolinqvistik tədqiqatların etibarlılığını təmin etmək məqsədilə alimlər nevrologiya, psixologiya, psixolinqvistika, neyrofiziologiya, neyropsixologiya, loqopediya, neyrocərrahiyyə, biofizika və biokimya kimi elmlərin nəticələrinə müraciət etmişlər.

Beynin öyrənilməsi ilə bağlı tədqiqatlarda aşağıdakı məsələlərə cavab axtarılmışdır:

1. Beynin hansı hissələri dil qabiliyyətinə cavabdehdir?
2. Nitq fəaliyyəti zamanı sinir sistemi necə işləyir?
3. Sağ və sol yarımkürələrin nitqin formalaşmasında rolu nədir?
4. Beyin yad dil məlumatını necə qavrayır?
5. Lokal beyin zədələnmələri (travmalar) nitqə necə təsir göstərir?

**Nəticə**

Beləliklə, neyrolinqvistikanın psixologiya, neyroelm və dilçiliklə sıx əlaqəsi bu elmi sahəni müasir dövrdə daha da mühüm edir. Bunun səbəbi fərdin nitq prosesi zamanı neyronlarının inkişafı, dəyişməsi və təkmilləşməsi məsələlərinin aktuallığıdır. Nitq – ünsiyyət vasitəsi olaraq – insan beynindəki neyronlara təsir göstərmə və onları dəyişmə qabiliyyətinə malikdir. Bu fakt neyroloji tədqiqatlarla da sübut olunmuşdur. Artıq elmi cəhətdən sübuta yetirilmişdir ki, insan nitqinin fəaliyyəti beyin yarımkürələrinin hər ikisi tərəfindən əlaqələndirilir: sol yarımkürə nitqin dəqiqliyinə, sağ yarımkürə isə obrazlılıq və emosional çalara cavabdehdir.

**Ədəbiyyat**

[1]. Anderson, M. Neuropsychology of Language: Structure and Function / M.Anderson, –Oxford: Oxford University Press, –2021. –480 p.
[2]. Gazzaniga, M. The Cognitive Neurosciences / M.Gazzaniga, –Cambridge, MA: MIT Press, –2019. –832 p.
[3]. Леонтьев, А.А. Психолингвистика / А.А.Леонтьев, –М.: Смысл, –1997. –287 с.
[4]. Luria, A.R. Basic Problems of Neurolinguistics / A.R.Luria, –The Hague–Paris: Mouton, –1976. –356 p.
[5]. Павлов, И.П. Полное собрание сочинений. Лекции о работе больших полушарий головного мозга: [в 5 томах] / И.П.Павлов, –М.: Издательство Академии наук СССР, –т.3, –1951. –452 с.
[6]. Черниговская, Т.В. Язык и мозг / Т.В.Черниговская, –СПб.: Санкт-Петербургский государственный университет, –2004. – 120 с.

**Summary**

**The Role and Significance of Neurolinguistics in Modern Science**

***Gojayeva L.Sh.***

***Keywords:*** *Neurolinguistics, cognition, speech, linguistics, psycholinguistics*

Scientific research has already demonstrated that human speech activity is coordinated by both hemispheres of the brain. The left hemisphere is responsible for the accuracy of speech, while the right hemisphere ensures its figurativeness and emotional nuances. This article explores the science of neurolinguistics and its significance. The interrelation of neurolinguistics with other scientific disciplines is also substantiated.

**Резюме**

**Роль и значение нейролингвистики в современной науке**

***Годжаева Л.Ш.***

***Ключевые слова:*** *нейролингвистика, познание, речь, лингвистика, психолингвистика*

Научно доказано, что речевая деятельность человека координируется обоими полушариями мозга. Левое полушарие отвечает за правильность речи, а правое – за её образность и эмоциональные оттенки. В данной статье исследуется наука нейролингвистика и её значение. Также обосновывается взаимосвязь нейролингвистики с другими научными дисциплинами.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82.91** DOI 10.54758/16801245_2026_22_1_25

# Romantik yaradıcılıq tipi ədəbiyyatşünaslıq müstəvisində

**Qəhrəmanova Ulduz Fərhad qızı** ORCID 0009-0003-4418-9319

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, fil.f.d.*
ulduzkahraman1@gmail.com

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 07.07.2025*
*Düzəliş tarixi: 22.09.2025*
*Qəbulolunma tarixi: 15.12.2025*

***Açar sözlər***
*romantika, metod, mütərəqqi romantiklər, mürtəce romantiklər, varlığın obyektiv inikası, varlığın subyektiv inikası*

**XÜLASƏ**

*Romantiklər cəmiyyətlə barışmır, gerçəkliyi qəbul etmir, tarixi inkişafı görmür, ona görə də keçmişin bərpasına çalışırdı. Romantiklər 1824-cü ildən nəşrə başlayan **"Qlobus" jurnalının** ətrafında toplaşmışdı. Romantik yaradıcılıq tipinin nümayəndələri klassizm ədəbi cərəyanına qarşı mübarizədə realistlərlə birləşdilər. Çünki həm romantiklər, həm də realistlər həyatı öyrənir, tipik xarakterlər yaradırlar. "Yena dərnəyi"ndə birləşən romantiklər azadlıq uğrunda aparılan vətənpərvərliyi tərənnüm edir, orta əsrlər dövrünə qayıtmağı arzulayırdı.*

Məlumdur ki, romantik yazıçı həyatı görmək istədiyi, realist yazıçı isə onu olduğu kimi göstərməyə çalışır. Hər iki halda yazıçının bədii təsvir məharəti zəruridir. Romantik və realistlərin mübarizə üsulları fərqlənsə də, əslində məqsəd və amal eynidir. Dünya ədəbiyyatı tarixində ədəbi metod olan Avropa romantizminin mürtəce qolu qısa bir dövrü – XVIII əsrin sonu XIX əsrin əvvəllərini əhatə edir. **"Yena dərnəyi"ndə** birləşən romantiklər azadlıq uğrunda aparılan vətənpərvərliyi tərənnüm edir, orta əsrlər dövrünə qayıtmağı arzulayırdı.

Romantiklər cəmiyyətlə barışmır, gerçəkliyi qəbul etmir, tarixi inkişafı görmür, ona görə də keçmişin bərpasına çalışırdı. Romantiklər 1824-cü ildən nəşrə başlayan **"Qlobus" jurnalının** ətrafında toplaşmışdı. Romantik yaradıcılıq tipinin nümayəndələri klassizm ədəbi cərəyanına qarşı mübarizədə realistlərlə birləşdilər. Çünki həm romantiklər, həm də realistlər həyatı öyrənir, tipik xarakterlər yaradırlar.

Belinski deyirdi: "Romantiklər gələcəyə nəzər salırdı, ancaq "qızaran üfüqün o biri üzünü" , "həsrət çəkilən gələcək ölkəni" görə bilmirdi". [1, s.256] Romantik metod sənətkarın həyata romantik münasibəti nəticəsində onu olmalı olduğu, arzu olunduğu, xəyalda yaradıldığı kimi obrazlarla əks etdirən metoddur. Realist və romantik metodlar arasındakı fərqləri mütləqləşdirmək olmaz. Onlar həm də realizm, romantizm ədəbi cərəyanlarını yaradır.

Şərq, o cümlədən, Azərbaycan ədəbiyyatında tarixən qüvvətli olmuş romantika xüsusi bir bədii estetik keyfiyyət kimi bütün əsərlərdə ola bilər. Ümumiyyətlə, "həyatın bədii ədəbiyyatdakı inikası 2 yerə ayrılır:

1. Varlığın obyektiv inikası: Bu realist metoda əsaslanır.
2. Varlığın subyektiv inikası: Bu romantik metoda əsaslanır". [4, s.68]

Deməli, romantik metod varlığın subyektiv inikasıdır. Romantik metod yazıçı fantaziyasına, təxəyyülünə əsaslanır. Romantik metod həyatı, ictimai quruluşu, insanın məişət tərzini yazıçının gördüyü kimi deyil, görmək istədiyi şəkildə verməyi tələb edir. Romantik terminin mahiyyətinə, yaranma tarixinə nəzər saldıqda aydın olur ki, o, roman sözündəndir, "kitabda olduğu kimi" mənasını bildirir. Romantik metodda ideal hesab olunan cəhətlər ön plana çəkilir.

Azərbaycan ədəbiyyatı tarixində romantik bədii yaradıcılıq metodunun kökləri dərindir. İstər klassik, istərsə də müasir ədəbiyyatımızda romantik yaradıcılıq metodu əsasında ölməz sənət əsərləri yaradılmışdır. Məsələn: Humanist şair Nizami Gəncəvinin "Xəmsə"də irəli sürdüyü bəşəri ideyalar: ölkənin ədalətli idarə olunması, əmək adamlarına hörmət, qadın idrakına inam və s. kimi ideyalar romantik metodun xəyal dünyasıdır. Yaxud: Füzuli "Leyli və Məcnun" poemasında Məcnun bədii obraz kimi Füzulinin romantik dünyasının məhsuludur. Belə ki, Məcnunun insanlar aləmindən səhraya üz çevirməsi feodal dünyasından uzaqlaşıb azad, sərbəst yaşamaq arzusunun aydın ifadəsidir.

Klassik ədəbiyyatda müşahidə olunan romantik metod sonralar daha da qüvvətlənir. Azərbaycan ədəbiyyatında Hüseyn Cavid, Məhəmməd Hadi, A.Şaiq kimi söz sənətkarları romantik metoddan geniş şəkildə istifadə etmişlər. Romantik metodu əsas götürən sənətkar həyat hadisələrinə yanaşarkən onun subyektiv "mən"i ön plana keçir.

Romantiklərin yaradıcılığında xəyal ilə real varlıq (həyat) arasında bir ziddiyyət var. Bu ziddiyyət xəyalın real varlığa (gerçək həyata) uyğun gəlib-gələ bilməməsindədir. Bu nöqteyi-nəzərdən romantiklər 2 qola bölünür:

- Mütərəqqi romantiklər: Xəyal və ideallar var ki, bəşəriyyətin, insan cəmiyyətinin irəliyə doğru inkişaf etməsinə, tərəqqi olmasına kömək edir. Yəni xəyal dünyası real həyatla bağlı olur, həyatın tərəqqisinə, inkişafına kömək edir.
- Mürtəce romantiklər: Bəzən bunlara mühafizəkar romantiklər də deyilir. Belə ki, xəyal və ideallar bəşəriyyətin inkişafına mane olur. Yəni: xəyal real həyatla bağlı olmur, xəyal həyatdan ayrılır, ölümə məhkum olur. Yəni real həyatla bağlı xəyal məhv olur, ölür.

Romantik əsərlərin həyatı adiliklərdən, məişət təfsilatından uzaq olması müəllifdən şərtiliyə geniş yol verilməsini tələb edir. Şərtilik sənətkarı hər şeyi bədii cəhətdən əsaslandırmaq qayğısından qurtarır. Belə qayğıdan azad olan sənətkar fantaziyaya, əfsanələrə, alleqoriyaya meydan verə bilər. Belə ki, əsər qəhrəmanı gah səbətə oturub göylərə qalxır, gah sular girdabına düşür, gah da zülmətə enib dirilik suyu axtarır. O, mələklər, pərilər aləminə rast gəlir, əcinnələr və ifritələr görür, divlər, əjdəhalarla vuruşur, sehrə rast gəlir, tilsimlər sındırır, yaxud üz tutub səhralara gedir.

Ədəbi təcrübələr göstərir ki, realist əsərlərə nisbətən romantik əsərlərdə obrazlı, təşbehli, məcazlı ifadələr daha çox, daha müntəzəm olur. Lakin realist əsərlər isə tipik hadisələrin tipik şəraitdə inikası prinsipinə əsaslanır. Realist əsər tələb edir ki, hər surət özünün səviyyəsinə uyğun bir dillə danışsın. Bu da surəti fərdiləşdirmə ilə nəticələnir. Realist əsərlərdə şərtilik demək olar ki, ortadan götürülür. Realist metod bədii obrazı bəzəksiz-düzəksiz əks etdirən metoddur. Çünki realizm varlığın obyektiv inikasıdır. Realizm həyat həqiqətinə sədaqət prinsipinə əsaslandığı üçün hər bir hadisəyə obyektiv yanaşmağı tələb edir.

Böyük sənətkarlar həm realist, həm də romantik olmuşlar. Qoqol, Çexov, Balzak, Turgenev, Puşkin və b. Göründüyü kimi, romantik metodda xəyal mühüm rol oynayır. Ümumiyyətlə, romantik və realist yaradıcılıq üsulunu (tipini) romantizm və realizm ədəbi cərəyanının adı ilə qarışdırmaq lazım deyil. Nəticə olaraq deyə bilərik ki:

- Romantiklər cəmiyyətin mənəvi həyatını, realistlər cəmiyyətin ictimai həyatını ön plana çəkirlər. Romantiklərdə, doğrudan da, mənəvi həyat diqqət mərkəzində dayanır. Romantiklər ancaq yüksək və ülvi sifətlərə malik olan surətləri insan keyfiyyətinin mücəssəməsi kimi ümumiləşdirirlər. Yəni bədii surəti ideallaşdıra bilirlər, ideal obrazlar yaradırlar.
- Romantik təsvir üsulunda iqtisadi-ictimai səbəblər ya arxa plana çəkilir, ya da unudulur, həyatı adiliklərdən, məişət təfsilatından uzaq olurlar. Lakin romantiklərdə möhtəşəm hadisələr, möhtəşəm şəxsiyyətlər bədii şərtiliklə təsvir edilir.
- Romantiklər insanın daxili aləminə dərindən nüfuz edir, buna görə də onların əsərlərində hissi təsir çox güclü olur.
- Romantiklər pafoslu bir dil ilə danışırlar.

## Ədəbiyyat

[1]. Əlimirzəyev, X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları / X.Əlimirzəyev, –Bakı: Elm və təhsil, –2011, –416 s.
[2]. Mir Cəlal. Ədəbiyyatşünaslığın əsasları / Mir Cəlal, Xəlilov P. –Bakı: Maarif, –1972, –280 s.
[3]. Əliyev, M.İ. Ədəbiyyat nəzəriyyəsi / M.İ.Əliyev, –Bakı: Elm və Təhsil, –2012, –480 s.
[4]. Mustafayev, M.B. Ədəbiyyat nəzəriyyəsi / Mustafayev, M.B. –Bakı, –2021.
[5]. Şəmsizadə, N.Ş. Ədəbiyyat nəzəriyyəsi / N.Ş.Şəmsizadə, –Bakı: Proqres, –2012. –434 s.
[6]. Yusifoğlu, R. Ədəbiyyatşünaslığın əsasları / R.Yusifoğlu, –Bakı: Sabah, –2001. –228 s.

**Summary**
**Romantic creative type in the field of literary criticism**
***Kahramanova U.F.***

***Keywords:*** *romanticism, method, progressive romantics, reactionary romantics, objective reflection of being, subjective reflection of being*

Romantics do not reconcile with society, do not accept reality, do not see historical development, therefore they tried to restore the past. Romantics gathered around the magazine “Globus”, which began publication in 1824. Representatives of the romantic creative type united with realists in the fight against the literary trend of classicism. Because both romantics and realists study life, create typical characters. Romantics, who united in the “Yena Association”, glorified patriotism carried out for freedom, and wished to return to the Middle Ages.

**Резюме**
**Романтический тип творчества в плоскости литературоведения**
***Гахраманова У.Ф.***

***Ключевые слова:*** *романтизм, метод, прогрессивные романтики, реакционные романтики, объективное отражение бытия, субъективное отражение бытия*

Романтики не примиряются с обществом, не принимают реальность, не видят исторического развития, поэтому они пытались восстановить прошлое. Романтики собрались вокруг журнала “Глобус”, который начал издаваться в 1824 году. Представители романтического творческого типа объединились с реалистами в борьбе с литературным течением классицизма. Потому что и романтики, и реалисты изучают жизнь, создают типичные характеры. Романтики, объединившиеся в “Йенскую ассоциацию”, прославляли патриотизм, проявленный во имя свободы, и мечтали вернуться в Средневековье.

Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)
journal homepage: www.ssu-scientificnews.edu.az

UOT 811.512.162. DOI 10.54758/16801245_2026_22_1_28

# Milli mətbəx etnik kimliyin bir parçası kimi (Əli Vəliyevin "Turaclıya gedən yol" romanı əsasında )

**Vəliyeva Səbinə Xansuvar qızı** ORCID 0009-0007-3197-0754

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, fil.f.d.*
nasibali2011@mail.ru

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 19.04.2025*
*Düzəliş tarixi: 09.05.2025*
*Qəbulolunma tarixi:*

***Açar sözlər***
*Qarabağ etnoqrafsiyası, milli kimlik, etnik tərkib, qida mədəniyyəti, milli mətbəx*

**XÜLASƏ**

*Yemək mədəniyyəti xalqın tarixini və müasir həyatını izah edə bilər. Bu problem dünya ictimaiyyətini din, etiket, qida dəyəri və immiqrasiyaya görə bir neçə böyük qrupa ayırır. Müasir mürəkkəb dəyişikliklərdə qida mədəniyyəti identifikasiyada mühüm rol oynayır. Bu identifikasiya əsasında xalqların kulinariya mədəniyyəti müəyyən edilir*

## Giriş

Qida mədəniyyəti hər bir xalqın milli kimliyinin formalaşmasında mühim yer tutur. Yeməklər yalnız fiziki ehtiyacın ödənilməsi vasitəsi deyil, həm də etnoqrafik, estetik, simvoloik və ictimai məna daşıyır. Bu baxımdan, Azərbaycan mətbəxinin zəngin və qədim qollarından biri olan Qarabağ kulinariyası, təkcə ləzzətli reseptləri ilə deyil, həm də mədəniyyətin daşıyıcısı kimi diqqəti cəlb edir. Qarabağ bölgəsinin coğrfiyası, iqlim, təsərrüfat strukturu, tarixi hadisələri və sosial quruluşu bu mətbəxin formalaşmasında həlləedici rol oynamışdır.

## Mövzunun aktuallığı

Qarabağ bölgəsinin uzun müddət işğal və müharibə şəraitində qalması, yerli əhalinin köçkünlük həyatı yaşaması və nəticə etibarı ilə bəzi kulinariya ənənələrinin itib getmə təhlükəsi ilə üz-üzə qalması ilə izah olunur. Qarabağ kulinariyasının etnoqrfik tədqiqi, bu mədəni irsin bərpası və qorunması baxımından olduqca vacibdir. Əli Vəliyev "Turaclıya gedən yol" romanında milli koloritə, kənd insanının daxili dünyasına, maddi mədəniyyətinə xüsusi diqqət yetirmişdir.

Müasir dövrdə xalqa məxsus olan mədəniyyətləri, onların mentalitet və dünyagörüşünün xüsusiyyətlərini, sosial-mədəni həyatını, tarixi inkişafını dərk etmək üçün geniş imkanlar mövcuddur. İctimai və humanitar elmlərin metodologiyası xalqın praktiki və mənəvi, sosial həyatının müxtəlif elementlərində əks olunan etnik kimliyin öyrənilməsi üçün geniş imkanlar təklif edir. Təhlil olunan tədqiqat etnik kimliyin mühüm fraqmenti kimi milli yemək mədəniyyətinin xüsusiyyətlərinin öyrənilməsinə yönəlib. Məqalədə milli mətbəxin özəllikləri vasitəsilə xalqların etnik unikallığı incə və autentik şəkildə, müəyyən etnik qrupun qida reallıqları vasitəsilə isə mədəni özünüifadə və özünütəsdiqin konkret yollarını üzə çıxır.

Milli mətbəx müəyyən bir xalqın təmsilçisi hesab edilən və eyni zamanda bu etnik qrupa xas olan yemək üstünlükləri haqqında təsəvvürlərin məcmusudur.

Yemək vərdişləri ilə bağlı fikirlər mədəniyyətin bütün daşıyıcıları tərəfindən paylaşılır və onun hüdudlarından çox-çox uzaqlara ötürülür. Müəyyən etnik qrupun mətbəx mədəniyyəti təbii milli hadisə kimi çıxış edir və gündəlik həyat səviyyəsində etnik kimliyin formalaşması mexanizmini təmsil edir. Müəyyən bir xalqın mədəniyyətində məhz milli mətbəx özünəməxsus

xüsusiyyətlərini qoruyub saxlaya bilir. Bu məqalə milli mətbəxin bir mədəniyyət hadisəsi kimi öyrənilməsi üçün nəzəri ilkin şərtlərin nəzərdən keçirilməsini həsr olunub.

Etnik kimlik məsələləri tədqiqat ədəbiyyatında geniş yer almışdır. Filosoflar, etnoqraflar, psixoloqlar, sosioloqlar, mədəniyyətşünaslar, dilçilər bu çoxşaxəli problemin müxtəlif aspektlərinə diqqət yetirərək cəmiyyətdə gedən prosesləri anlamağa çalışırlar. Bu hadisənin mahiyyətinin təkcə fəlsəfi dərkinə təsir edən məsələlərə diqqət yetirilmir, eləcə də onun dillə əlaqəsi, həm də onun təzahürünün psixoloji amilləri, onun spesifikliyinə coğrafi amillərin təsiri, multikultural cəmiyyət şəraitində onun xüsusiyyətləri əks etdirir.

Çoxmillətli cəmiyyət kontekstində etnik qrupun öz icması və bütövlüyü, özünəməxsusluğun dərk edilməsi, ilk növbədə, etnik qrupun qorunub saxlanması baxımından xüsusi əhəmiyyət kəsb edir. Etnodifferensiallaşdırıcı xüsusiyyətlərə mənşə, dil, din, görünüş, adət-ənənələr, mədəniyyət və s. daxildir. Xalqların etnik unikallığını milli yemək mədəniyyətinin xüsusiyyətlərini, mədəni özünüifadə və özünütəsdiqin spesifik üsullarını incə və autentik şəkildə açan milli mətbəxin xüsusiyyətləri vasitəsilə də izləmək olar.

Bu tədqiqat çərçivəsində milli yemək mədəniyyətinin xüsusiyyətlərinin öyrənilməsi etnik kimliyin mühüm fraqmenti hesab olunur.

Qeyd etmək lazımdır ki, yemək vərdişləri haqqında fikirlər mədəniyyətin bütün daşıyıcıları tərəfindən paylaşılır və onun hüdudlarından çox-çox uzaqlara ötürülür. Təmsilçi sayılan və eyni zamanda müəyyən etnik qrupa xas olan xalqın yemək üstünlükləri haqqında fikirlərin məcmusu *milli mətbəx* anlayışını təşkil edir.

Milli mətbəx insanın özünü müəyyən mədəniyyətin və ya etnik qrupun bir hissəsi kimi dərk etməsinin mühüm elementlərindən biridir. Belə ki, YUNESKO-nun *Kuryer* jurnalının qidalanma problemlərinə həsr olunmuş saylarından birində onun baş redaktoru E.Qlissant yazır ki, qida təkcə insan ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmur, o həm də *insanın sosiomədəni kimliyinin, özünəməxsusuluğunun ən mühüm elementi, bir parçasıdır* [1, s.16]. İdeyasını izah edən E.Qlissant vurğulayır ki, yemək mədəniyyəti bizə ailənin, cəmiyyətin mədəni dəyərlərini dərk etməyə imkan verir və dildə, dini ayinlərdə və s. öz əksini tapır. Belə ki, yeməklər vasitəsi ilə cəmiyyətə müəyyən sosial, iqtisadi, hətta səviyyələrarası sosial mesajlar çatdırılır. Xalqa məxsus olan yemək mədəniyyəti və onunla bağlı olan ənənələr aparıcı mədəni dəyərlərdən biri olub, nəsildən-nəslə ötürülərək xalqın həyatında önəmli yerlərdən birini tutur. Yeməklərlə əlaqəli olan rəmzi mənalar əsasən din ayinlərlə, inanclar və inamlarla əlaqəlidir. Qeyd etmək lazımdır ki, kulinariya haqqında, onun qida və yemək, yeməyin insas həyatında rol və əhəmiyyəti haqqında atalar sözlərimizdə, xalq müdrikliyini ifadə edən ibarələrdə və frazeoloji birləşmələrdə geniş rast gəlmək olur. [1, s.31].

Tədqiqat əsərlərində qeyd olunur ki, yeməklə və yeməklərlə əlaqəli olan müəyyən qadağalar, tabular, onlara qarşı olan müxtəlif fikir və münasibətlər insanın sosial həyatının əsas cəhətlərini özündə birləşdirərək, fərdiliyin bir sıra xüsusiyyətlərini də göstərir. [3, 87]

Çuvaşların yemək mədəniyyətini tədqiq edən E.V. Sergeyeva fikrincə, "qida sistemi sadə bir strukturdan, quurluşdan ibarət olmayıb, müxtəlif cəhətləri əhatə edən mürəkkəb bir prosesdir. Bu sahənin araşdırlması həm tarixi, həm də müasir etno-mədəni proseslərin mahiyyətini dərindən anlamaq üçün vacib sayılır. [3, s.67].

Hal-hazırda isə milli yemək mədəniyyətində ənənəviliyə meyl var. Qidalanma və yemək bişirmənin milli xüsusiyyətləri gündəlik qida rasionunda həmişə böyük əhəmiyyət kəsb etmir (bu, ənənədən uzaqlaşma deyil, müasir həyat tərzinin qaçılmaz təsiridir), lakin onlar mütləq şəkildə bayram mədəniyyətinin elementi, bir növ etnik tərif aləti kimi qorunub saxlanılır. Bu mənada qida mədəniyyəti aktiv miqrasiya prosesləri kontekstində insanın fərdiliyini ifadə etməyə imkan verən vasitəyə çevrilir.

Bu tədqiqatın maraq dairəsinə mədəni, sosial və mədəniyyətlərarası komponentlər daxildir. Mədəni komponent yemək ənənələrinin insanların mədəniyyətinin, mənəvi və bədii həyatının bir hissəsi kimi nəzərə alınması ilə əlaqələndirilir. Buraya bayram mərasimləri, yemək simvolizmi, yemək bişirmək və yeməklə bağlı qadağalar və icazələrin öyrənilməsi daxildir. Milli mətbəxin

mədəniyyətlərarası fərqlərin göstəricisi olmasına baxmayaraq, onunla dəqiq tanışlıq və onun ayrı-ayrı elementlərinin nüfuz etməsi başqa mədəniyyətə marağın və qarşılıqlı mübadilənin artmasına kömək edir.

Hər bir ölkənin kulinariya irsi onun tarixinin, mədəniyyətinin və milli kimliyinin bir hissəsidir. Milli mətbəxin simvoluna çevrilmiş yeməklərin kökləri dərin və zəngin tarixə malikdir.

Yeməklər hər biri və bir çox başqaları ölkələrinin mədəniyyətinin və tarixinin ayrılmaz hissəsinə çevrilib. Onlar hər bir xalqın özünəməxsus xüsusiyyətlərini və dəyərlərini əks etdirir və nəsillərə miras qoyur. Səyahət etmək və bu yeməklərin dadına baxmaqla sözün əsl mənasında dünya tarixini və mədəniyyətini dadmış olursunuz. Yemək mədəniyyəti milli mədəniyyətin tərkib hissəsi olub, həmişə insan varlığının ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Müxtəlif xalqlar öz unikal yemək mədəniyyətinə aid xüsusiyyətləri daim inkişaf etdirmişlər. Bu mədəniyyət hər bir cəmiyyətin orijinal mədəniyyətinin ayrılmaz hissəsidir. İnsanlar müxtəlif ölkələrə köçdükcə yemək mədəniyyətləri də onlarla birgə sərhədləri keçir.

Müasir cəmiyyətdə yemək mədəniyyəti xalq mədəniyyətinin bütün sahələrinə nüfuz etmişdir. Kulinariya xüsusiyyətlərinin öyrənilməsinə və yemək mədəniyyətinin populyarlaşmasına dair çoxsaylı tədqiqat işləri həsr edilmişdir. Yemək haqqında mədəni biliklər çoxsaylı nəzəri və praktiki tədqiqatlarda geniş şəkildə əhatə olunmuşdur.

Qida mədəniyyəti milli-mədəni ənənənin elementidir. Müəyyən etnik qidalar müəyyən sosial qrup üçün xarakterikdir. Bu, cəmiyyət tərəfindən toplanmış müəyyən empirik təcrübədir. O, məkan və zamanla məhdudlaşan qida sistemini əks etdirir.

Yemək mədəniyyəti ilə mədəni ənənə (milli mətbəx və adət-ənənələr) arasındakı mövcud əlaqəyə həsr olunmuş tədqiqatlarda yemək mədəni ənənələrin sabit elementi kimi qəbul edilir. Mədəni yaddaş vasitəsilə hər bir mədəni qrup və ya fərd uşaqlıqdan məlum olan müəyyən dadları və digər yemək atributlarını fərqləndirir.

Yemək mədəniyyəti təkcə qonaqpərvərliyin elementi deyil, həm də dini və sosial əhəmiyyətə malikdir. Yemək mədəniyyəti xörəklərin hazırlanması, istehlakı və təqdim edilməsi ilə müəyyən edilir. Bu proseslər hər bir ölkənin sakinlərinin davranışından asılıdır.

Yemək mədəniyyəti müəyyən bir xalqın qida xüsusiyyətlərini əks etdirir. Müəyyən bir mədəniyyətin fərqliliklərini və xüsusiyyətlərini başa düşmək qida istehlakının xüsusiyyətləri ilə bağlıdır. Burda müəyyən bir xalqın özünəməxsus zövqləri, adət-ənənələri, tarixi və mədəniyyəti əks olunur. Qida seçimlərini və vərdişlərini müəyyən etməklə insanın müəyyən bir sosial və ya dini qrupa üzvlüyünü aşkar edə bilərik.

Yemək mədəniyyətinə sosial adətlər və tarixi hadisələr təsir edir. Məsələn, sosial və dini hadisələr müəyyən yeməklərin hazırlanması ənənəsinə təsir göstərə bilər. Fərqli dad, tərkibi, meyvələrin, tərəvəzlərin, ədviyyatların və ya göyərtilərin daxil edilməsi, xidmət və yemək mətbəxin elementləri xalqın adət-ənənələrini əks etdirir. Yemək mədəniyyətinin güclü iqtisadi və sosial təsirləri var. Onun tarixi fonu müxtəlif icmalar arasında yemək mədəniyyətlərindəki fərqləri izah edir.

Yemək mədəniyyəti bir xalqın tərkib hissəsi və xarakterik xüsusiyyəti olan süfrə etiketini də ehtiva edir. Nəticədə, müxtəlif etnik qruplar bu mədəni fenomenin müxtəlif növlərini inkişaf etdirmiş və izləmişlər. Üstəlik, hətta müəyyən mədəni ziddiyyətlər də ola bilər.

Qida mədəniyyəti insanların tarixi və müasir həyatını izah edə bilir. Bu məsələ dünya ictimaiyyətini din, etiket, yemək xərcləri və immiqrasiyaya görə bir neçə böyük qrupa bölür. Bugünkü mürəkkəb dəyişikliklərdə qida mədəniyyəti identifikasiyada mühüm rol oynayır. Bu identifikasiya əsasında xalqların mətbəx mədəniyyəti müəyyən olur.

Ənənəvi etnoqrafiya kifayət qədər uzun müddətdir ki, ədəbi mənbələrdən maddi mədəniyyətin təsviri problemi ilə məşğul olur. Gündəlik həyatın milli elementlərinin bədii əsərlərdə rolunun öyrənilməsi filoloqlar arasında da böyük maraq yaradır. Ədəbi mənbə nəinki etnoqrafik təsvirlərdəki boşluqları doldurmağa imkan verir, həm də tədqiq olunan etnosun məişət həyatında mədəni elementlərin fəaliyyətini öyrənmək imkanı verir. Bu baxımdan bu problem hərtərəfli həll edilməlidir: yəni, etnoloji təhlil ədəbi təhlillə birləşdirilməlidir.

Azərbaycan xalqının zəngin və rəngarəng, xüsusi tərkibləri ilə fərqlənən yemək mədəniyyəti əsrlərboyu özünəməxusluğunu, xalqa məxus olan orjianllığı özündə mühafizə etmişdir. Qida mədəniyyəti zamanla formalaşaraq həm maddi, həm də mənəvi mədəniyyətin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu mədəniyyət təkcə gündəlik qidalanma vərdiələrini deyil, həm də tarixi, coğrafi və etnopsixoloji amillərin təsiri ilə zənginləşəmiş bir ənənələr sistemini əks etdirir. Tarixi mənbələrdə, səyahətnamələrdə və ədəbi abidələrdə xalqımızın müxtəlif dövrlərə aid qidalanma nümunələri haqqında məlumatlar yer alır ki, bu da Azərbaycan mətbəxinin dərin köklərə malik olduğunu göstərir. Xalq yeməklərinin tərkibinə nəzər saldıqda onların əsasən bitki və heyvan mənşəli məhsullara əsaslandığı görünür. Lakin bu bölünmə çox zaman sərhədsizdir; çünki bir çox yeməklər hər iki komponentin vəhdətindən yaranır. Mətbəximizin əsas özəlliklərindən biri də məhsul çeşidinin və hazırlanma texnikalarının müxtəlifliyidir. Elə bu səbəbdən Azərbaycan yeməklərini sərt kateqoriyalara ayırmaq çətindir – hər bölgənin, hətta hər ailənin özünəməxsus reseptləri mövcuddur. Ənənəvi mətbəximizdə xəmir yeməkləri və tərəvəz əsaslı qidalar xüsusi yer tutur. Bu yeməklərin hazırlanması, bişirilməsi və təqdimatı uzun illərin toplu təcrübəsinə əsaslanər. Mövsümi dəyiəikliklər də yemək mədəniyyətinə birbaşa təsir göstərir – yaz-yay aylarında daha yüngül və təzə tərəvəzlərə əsaslanan yeməklərə üstünlük verilir, payız-qış mövsümündə isə qidalı və doyurucu yeməklər əsas yer tutur. Bu yanaşma Azərbaycan mətbəxinin təbiətlə harmoniyada inkişaf etdiyini sübut edir.

Əli Vəliyevin "Turaclıya gedən yol" əsərində Qarabağ mədəniyyətinə məxsus olan yemək etnoqrafiyası öz dərinliyi ilə əks olunmuşdur.

Maraqlı cəhətlərdən biri budur ki, əsərdə yazıçı ilin fəsillərini nəzərə alaraq bütün yemək və içki növlərini sistemli şəkildə təsvir etmişdir. Burada o Qarabağ mədəniyyətinin yeməklə bağlı olan adət-ənənələrini, qonaq qarşılama və s. kimi məsələləri xırda detallarına qədər işləmişdir.

Qarabağ bəylərinin evində həftə qonaqlığı düzəltmək adət şəkli almışdı. Hər bəyin müəyyən günü vardı. Həmin vaxt məclis qurulur, stol açılır, çalan və oxuyan oturur, bəylər bəyimləri ilə, ağalar xanımları ilə, darğalar və sərkarlar arvadları ilə yan-yana əyləşir, gün batandan gün doğana kimi yeyib-içirdilər.

Aşpaz Misirin dediyinə görə, Qarabağ bəyləri hər fəslə görə xüsusi yeməklər hazırlatdırmadadılar.

*Qışda:* xəşil, xəngəl, əriştə, kəlləpaça, tavakabab, piti, küftə, bozbaş, lobyaplov, əvəlikçiplov süddüsıyıq, qurudlu aş, kələm dolması, kələcoş, buğlama, çəkmə, işgənə, kabab (həm döyməsi, həm tikəsi);

*Yazda:* dovğa, kükü, şüyüdplov, boyanaplov, yarpaq dolması, döymə-döşəməplov, balba, firni, kabab (həm döyməsi, həm tikəsi), süddüplov, lobya çığırtması, göbələk qovurması, donbalan nubarı, kətə;

*Yayda:* qatıq aşı, doğrama, çolpa çığırtması, toyuq şorbası, qırbuğumplov, kabab.

Paşa bəyin sal daş döşənmiş, sulanıb süpürülmüş həyəti qarğaşalı idi. Aşpazxana darlıq elədiyindən Narlı bağa açılan qapının sağ tərəfindən yerdən üç ocaq qazılmışdır. Bir neçə il qabaq səliqə ilə mişarlanıb doğranmış qoz odunu bir yana qalanmışdır. Evin birinci mərtəbəsinin artırmasında çatmadan üç toyun cəmdəyi asılıb soyulurdu. Qoyunları soyan kəndilərlə, toyuq və hinduşka pörtləmək üçün su qaynadan arvadlar arasındakı söhbət yavaş-yavaş qızışır, get-getdə ciddiləşirdi. [2, s.376].

Qarabağ kulinariyası Azərbaycan mətbəxinin çox zəngin və rəngarəng bir hissəsidir. Bu bölgənin yeməkləri həm ləzzətli, həm də tarixi kökləri ilə seçilir. Qarabağ bölgəsinə aid mətbəxdə həm dağlıq,həm düzənlik ərazilərin təsiri əks olunur.

Əsərdə verilən təsvir Qarabağ kulinariyasının ümümi xüsusiyyətlərini aşağıdakı şəkildə ümumiləşdirməyə əsas yaradır:

a) Bu bölgə yeməkləri ət yeməkləri, xüsusi ilə qoyun və mal əti ilə çox zəngindir.
b) Düyü və plovlar mühim yer tutur.
c) Təbii otlar və ədəviyyatlar geniş istifadə olunur (şüyüd, keşniş, nanə, əvəlik)

d) Qarabağda şərabçılıq və meyvə qurutma ənənləri də güclüdür.

e) Yeməklər çox vaxt odun sobasında və ya közdə bişirilir.

Əsərdə Qarabağ elinin qonaqpərvərlik ənənələri də təsvir edilmişdir.

Qarabağ camaatında yemək təkcə qidalanma vasitəsi deyil, həm də sosial münasibətlərinin tənzimləyicisidir:

a) Qonağa yemək verilməməsi hörmətsizlik kimi qəbul olunur.

b) Toy, yas, ad günləri və bayramlarda kollektiv süfrə ənənəsi formalaşıb.

c) Yeməklər ayrı-ayrı sosial mərasimlər üçün xüsusi şəkildə hazırlanırdı (toy plovu, yas xörəyi və s.).

Ənənəvi Qarabağ ailəsində yemək bişirmədə də xüsusi məqamlar var. Belə ki, yemək bişirmə qadınların işi olsa da, bəzi xüsusi yeməkləri kişilər hazırlayardı. Buraya kabab, paça, bozartma və s. daxildir. Hətta ailə içində nəsildən-nəsilə keçən reseptlər və üsullar var. Bu üsullar ağızdan-ağıza ötürülən şifahi irsdir.

Qida sisteminin tədqiqi məsələsinə toxunaraq qeyd etmək lazımdır ki, etnoqraflar qida ilə onun hazırlanma texnologiyası baxımından deyil, daha çox insanların cəmiyyətdəki münasibətlərini və bu cəmiyyət üçün ənənəvi olan davranış normalarını əks etdirən gündəlik mədəniyyət hadisəsi kimi maraqlanırlar.

Qida mədəniyyəti hər bir xalqın milli kimliyinin formalaşmasında mühüm yer tutur. Yeməklər yalnız fiziki ehtiyacın ödənilməsi vasitəsi deyil, həm də etnoqrafik, estetik, simvolik və ictimai məna daşıyır. Bu baxımdan, Azərbaycan mətbəxinin zəngin və qədim qollarından biri olan Qarabağ kulinariyası, təkcə ləzzətli reseptləri ilə deyil, həm də mədəniyyətin daşıyıcısı kimi diqqəti cəlb edir. Qarabağ bölgəsinin coğrafiyası, iqlimi, təsərrüfat strukturu, tarixi hadisələri və sosial quruluşu bu mətbəxin formalaşmasında həlledici rol oynamışdır.

## Ədəbiyyat


[1]. Azərbaycan etnoqrafiyası: [3 cilddə] / –Bakı: Şərq-Qərb, –c. 2. –2007. –394 s.

[2]. Vəliyev, Ə. Əsərləri. [5 cilddə] / –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. –c.3. –1961.

[3]. Мещерякова, О.А. Традиционная пища как элемент нематериального культурного наследия / Мещерякова, О.А. –М., 2015 .

[4]. https://cyberleninka.ru/article/n/traditsiya-syroyadeniya-v-kulture-pitaniya-korennyh-narodov-amuro-sahalinskogo-regiona

[5]. Albala K. Food cultures of the word encyclopedia / (Vols. 1-4). –Westport, CT: Greenwood, –2011.



**Summary**

**National cuisine as part of ethnic identity**

***Valiyeva S.Kh.***

***Key words:*** *ethnography of Karabakh, national identity, ethnic composition, food culture, national cuisine*

Culture of nutrition can explain the history of the nation and its modern life. This problem divides the world community into several large groups due to religion, etiquette, cost of food and immigration. In modern complex changes, food culture plays an important role in identification. Culinary culture of nations is determined on the basis of this identification.



**Резюме**

**Национальная кухня как часть этнической идентичности**

***Валиева С.Х.***

***Ключевые слова:*** *этнография Карабаха, национальная идентичность, этнический состав, культура питания, национальная кухня*

Культура питания может объяснить историю народа и его современную жизнь. Эта проблема разделяет мировое сообщество на несколько больших групп по признаку религии, этикета, стоимости продуктов питания и иммиграции. В современных сложных изменениях культура питания играет важную роль в идентификации. На основе этой идентификации определяется кулинарная культура народов.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82-91** DOI 10.54758/16801245_2026_22_1_33

# Rafiq Yusifoğlu poeziyasında yurd həsrəti

**İsmayılova Əfsanə Şəmsəddin qızı** ORCID 0000-0002-8603-4791

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d., müəllim*
Efsane.İsmayilova@sdu.edu.az

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi***<br>*Daxilolma tarixi: 11.09.2025*<br>*Düzəliş tarixi: 27.11.2025*<br>*Qəbulolunma tarixi: 28.01.2026*<br><br>***Açar sözlər***<br>*Azərbaycan torpağı, vətən, yurd, həsrət, müharibə* | *Məqalə Rafiq Yusifoğlunun yaradıcılığında vətən həsrəti mövzusuna həsr olunub. Şairin əsərlərində Vətənə sevgi, ayrılıq ağrısı və nostalji hissi əsas motivlər kimi çıxış edir. Məqalə şeirlərindəki nümunələrə əsaslanaraq bu təcrübələri ifadə etmək üçün bədii vasitələri təhlil edir. Müəllifin yaradıcılığında vətən həsrəti həm fərdi, həm də ümumbəşəri mənəvi ölçüdə dərin məna daşıyır. Rafiq Yusifoğlunun poeziyasında doğma torpaq sevgisi bir-birini tamamlayaraq qələbə sevinci ilə üzvi şəkildə birləşir. Bu cəhətlər şairin əsərlərinin Azərbaycan ədəbiyyatında yerini və əhəmiyyətini daha da möhkəmləndirir* |

Vətən sevgisi, onun uğrunda aparılan mübarizə və vətən həsrəti əsrlər boyu bəşəri ruhu, insan düşüncəsini sarsıdan, yaddaşlarda dərin izlər buraxan mövzulardan olmuşdur. Azərbaycan ədəbiyyatının bütün inkişaf mərhələlərində bu mövzulara geniş yer verilmiş, vətən nisgili, yurd həsrəti bir sıra görkəmli şairlərin yaradıcılığında əsas istiqamətlərdən birinə çevrilmişdir. Müasir dövrdə isə ölkəmizdə 30 ildən uzun sürən köçkünlük bu mövzunun ədəbiyyatda daha da aktuallaşmasına səbəb olmuşdur.

Ən yeni Azərbaycan poeziyasının tanınmış nümayəndəsi – şair, yazıçı, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar Mədəniyyət İşçisi, filologiya elmləri doktoru, professor, "Göyərçin" jurnalının baş elmi redaktoru Rafiq Yusifoğlunun rəngarəng yaradıcılığında vətən sevgisi, yurd nisgili və vətən həsrəti xüsusi yer tutur. Onun poeziyasında vətən yalnız bir coğrafi məkan deyil, həm də mənəvi dayaq, milli kimlik, tarix və yaddaşın simvoludur. Şair vətən obrazını təkcə sevgiylə yox, həm də ağrı, itki və ümidlə təqdim edir. Müharibə ilə bağlı yaşanan acılar, şəhidlərin xatirəsi, xalqın iradəsi onun şeirlərində dərin lirizmlə öz əksini tapır.

Çağdaş poeziyamızda özünəməxsus dəsti-xətti ilə seçilən Rafiq Yusifoğlu müharibə şəraitində yaşayan Azərbaycanın ictimai-siyasi hadisələrinə dərin həssaslıqla yanaşmış, yüksək vətənpərvərlik ruhunu poeziyasına uğurla köçürə bilmişdir. Rafiq Yusifoğlunun bu mövzuda yazdığı şeirlər oxucuda həm hüzn, həm də qürur hissi oyadır. O, öz poeziyası vasitəsilə milli birliyin, vətənə bağlılığın nə qədər vacib olduğunu vurğulayır. Onun yaradıcılığı oxucunu sadəcə düşündürmür, həm də onu vətən sevgisinə səsləyir.

B.Həsənli yazır: "*R.Yusifoğlu az sözlə dərin fikirlər deməyi, xırda ştrixlər, bədii detallarla böyük mətləbləri ifadə edən şairdir. Onun şeirlərində vətənpərvərliyin tərənnümü, xalqın qəhrəman oğullarına məhəbbət sənətkarlıqla bədii ifadəsini tapmışdır*" [1, s. 468].

Azərbaycan ədəbiyyatında müharibə mövzusu həmişə aktual olmuşdur. Böyük Vətən müharibəsindən başlayaraq birinci və ikinci Qarabağ müharibələrinə qədər müxtəlif dövrlərdə müharibənin fəlakətləri, doğurduğu acı nəticələr, xalqın mübarizliyi və əzmkarlığı, ədalətə və sülhə çağırış, qələbəyə inam kimi motivlər bu mövzuda yazılan əsərlərin əsas məzmun xəttini təşkil etmişdir. Bu motivlərin hər biri Rafiq Yusifoğlunun poeziyasında da özünəməxsus şəkildə, fərdi yaradıcılıq üslubuna uyğun olaraq inikasını tapmışdır. Xüsusilə yurd nisgili, vətən həsrəti onun

şeirlərində daha parlaq cizgilərlə ifadə olunmuşdur. Bunun isə olduqca həssas və şəxsi səbəbi vardır: 30 il ərzində işğal altında qalmış Azərbaycan torpaqları sırasında Rafiq Yusifoğlunun doğulub boya-başa çatdığı Qubadlı rayonunun Çardaxlı kəndi də var idi. Məhz bu səbəbdən şairin əsərlərində yer alan torpaq həsrəti, yurd nisgili yalnız ümummilli ağrının ifadəsi deyil, eyni zamanda onun şəxsi taleyindən, yaşantılarından doğan, şair ruhunun ağlayan səsi, inləyən fəryadıdır.

Şair uşaqlığını, gəncliyini, şirin qayğısız günlərini, xoş xatirələrini qoyub gəldiyi doğma yurdunu bir an belə xəyalından çıxara bilmir. Dünyanın ən ucqar yerlərində olarkən belə, rast gəldiyi ən gözəl mənzərələrin doğma kəndi Çardaxlının təbii gözəlliyi və saf təbiəti qarşısında aciz qaldığını parlaq boyalarla təsvir edir. Gördüyü hər çayı, hər dağı, hər ağacı öz yurdunun mənzərələri ilə müqayisə edir, doğma torpağın onun üçün bənzərsiz və müqəddəs olduğunu poeziyasında dərindən hiss etdirir. Bu müqayisələr vasitəsilə şairin yurduna olan bağlılığı, içində daşıdığı vətən həsrəti və nisgil daha da qabarıq şəkildə üzə çıxır. Rafiq Yusifoğlu üçün vətən təkcə xatirələrin deyil, həm də ruhun dayaq nöqtəsidir.

*Yaramızdakı zoqqultu,*
*Göynərti, heç ara vermir...*
*Dogulduğumuz torpağın*
*Yerini heç hara vermir...* [3, s.17]

Vətəndən ötrü “burnunun ucu göynəyən” müəllifin “Tez-tez yuxu görürəm” şeiri də bu nisgilin misralar üzərində ifadəsini açıq şəkldə göstərməkdədir:

*Tez-tez yuxuma girir*
*Kəndimizin dağları.*
*Ətirli yamacları,*
*Nəğməkar bulaqları.*
*Görürəm bağçamızda*
*Əriklər çiçəkləyib.*
*Köpəyimiz qapıda*
*Qulağını şəkləyib…* [5, s. 4]

B.Əhmədovun söylədiyi kimi: “*Bu yaşda doğma diyarında özünü qərib hiss edən lirik Mən doğulub boyabaşa çatdığı, lakin heç zaman gedə bilmədiyi torpağı yuxusunda görür. Başqa bir şeirində “Biz bütün arzulara yuxuda çatmağı çox sevirik…” fikri də burada yerinə düşür. Yuxuda görmək ona əlinin çatmaması deməkdir, ona qovuşmaq istəyini əks etdirməkdir. Lakin nə yazıq ki, şair (təkcə şairmi!) hələ bu imkandan məhrumdur*” [2, s.223].

Təbii ki, şairin bu şeiri, daha doğrusu, gördüyü yuxu yurd həsrətinin şüuraltında ilişib qalmış ifadəsidir. Şair üçün bu yurd təkcə coğrafi bir məkan deyil. Doğulduğu yer həm də şairin uşaqlığı, gəncliyidir, keçmişindən qalan unudulmaz bir portretdir. Müəllifin qəribsədiyi obyekt təkcə doğma kəndi deyil, qayğısız günlərini, atalı-analı çağlarını, ilk sevgisini, xoşbəxt günlərini əks etdirən harmonik və nostalji duyğulardır.

Rafiq Yusifoğlunun həsrət motivli poeziyasında daşıdığı zəngin psixoloji məna yükünə görə seçilən şeirlərindən biri “Qaçqın uşağın nəğməsi”dir. Şeirdə əsas obraz olan qaçqın uşaq əslində elə müəllifin özüdür. Öz doğma yurduna qəlbən bağlı olan müəllifin iç dünyasındakı sarsıntılar, həsrət dolu düşüncələr və iztirablı duyğular burada yüksək sənətkarlıqla poetik dilə çevrilmişdir. Müəllif uşaqlıq xatirələrinə qayıdır, yurd həsrətini bir uşaq gözü ilə təqdim edərək həm öz taleyini, həm də bütöv bir xalqın faciəsini ifadə edir. Bu şeir təkcə fərdi həsrətin deyil, həm də kollektiv yaddaşın poetik ifadəsi kimi dəyərləndirilə bilər.

*Sinəndə yadlar gəzir,*
*Qaradır üzüm, vətən!*
*Səndən bir şey ummağa*
*Gəlməyir üzüm, vətən!*

*...Qürbətdə üşüyürəm, –*
*Ocağım, közüm vətən.*
*Sənsiz çox darıxmışam,*
*Yol çəkir gözüm, vətən!*
*Qorxuram ki, silinə*
*Qoynundan izim, vətən!*
*İllər ayrılığına*
*Mən necə dözüm, vətən?! –*
*Ağrılara, dərdlərə*
*Olmuşam özüm vətən...*[5, s. 438]

Müəllif doğma yurdunun yaşıl düzlərini, uca dağlarını, gursulu çaylarını təsvir etməklə, yenə də öz nostalji duyğularını, öz keçmişinə bağlanmaq istəyini göstərir. Bununla yanaşı, burada yurd məfhumunun ifadə etdiyi ikinci bir məna üzə çıxır. Yurd – sinəsində yağıların gəzdiyi itirilmiş bir dünyadır, həmçinin mənəviyyatdır. Şair özü itirilmiş mənəviyyatın fərqindədir, odur ki, özünü günahkar sayır, vətən qarşısında "üzüqara" adlandırır.

*Qorxuram ki, silinə*
*Qoynundan izim, vətən!*

- misralarında öz əksini tapan narahatlıq hissi şairi bəzən ümidsizliyə aparır, bir də vətəni görə bilməmək düşüncəsi, ayrılığa tab gətirməmək qorxusu açıq- aydın hiss olunur. Lakin bütün bunlara baxmayaraq, onun bir sıra şeirlərində qələbəyə inam, "biz qayıdacağıq!" mesajının ifadəsi də nəzərdən yayınmır. Şairin həsrət motivli şeirlərində yeri gəldikcə zəfər ətirli misralara tez-tez yer verir, ümidini itirmir, bir gün təkrar o torpaqlara qayıdacağına bütün varlığı ilə inanır. Müəllifin "Qarabağım yenə geri dönəcək" adlı şeirinə diqqət yetirək:

*Qarabağın nə dağı, nə aranı?*
*Üzdü bizi ayrılığın boranı.*
*Hər tərəfi çiskin, duman alıbdır,*
*Dağlarımın gözü yolda qalıbdır.*
*Düşmənlərin od-ocağı sönəcək,*
*Qarabağım yenə geri dönəcək...* [6, s. 52]

R.Yusifoğlunun həsrət motivli yaradıcılığında bədii təsvir və ifadə vasitələrinin, simvolik ifadələrin, sətiraltı maneranın da özünəməxsus yeri vardır. Şair xüsusi istedadla adi sözlərə tamamilə yeni məna qazandırır, nəticə etibarilə bu sözlər oxucu qəlbini riqqətə gətirən obrazlara çevrilir. Şairin yaradıcılığında folklor motivlərindən bəhrələnmə, xüsusilə xalq deyimlərindən istifadə o qədər ustadlıqla, yerli-yerində işlənir ki, şairin duyğularının ümman kimi dərinliyini duymamaq olmur. Belə ifadələr bu şeirlərin təsir gücünü artırır. Şair mübaliğə ilə öz hisslərini göylərə qaldırır, onun həsrəti, nisgili insanın birbaşa ürəyinə nüfuz edir, düşmənə nifrət, qələbəyə ümid hissi formalaşdırır.

Qeyd etdiyimiz kimi, R.Yusifoğlunun yurd həsrətli, vətən nisgilli şeirlərində onun arzuladığı, qəribsədiyi, darıxdığı obyekt təkcə doğulub boya-başa çatdığı kəndi deyil. Müəllif işğal altında qalmış torpaqların hər birini - onun hər qarışını tərənnüm etməklə, olduqca yüksək duyğulara malik olan vətənpərvər şair kimi çıxış edir. Şairin köksünə sığmayan kədəri, nisgili bəzən misralara da sığmır, o, bu torpaqlara, Qarabağın təbiətinə və təbiət ünsürlərinə əsirlikdə olub, inləyən, ürəyi sızlayan əsir kimi yanaşır, onun çəkdiyi iztirabları hiss edə bilir. Bu sızıltını şair bənzərsiz metafor nümunələri ilə ifadə etməklə, oxucusunun ürəyinə nüfuz etməyi məharətlə bacarır. Müəllif düşmən əlində əsir qalmış Vətənin hər bir təbiət ünsürünü insaniləşdirir, onlara insana məxsus bəşəri hisslər bəxş edir. Yuxarıda qeyd etdiyimiz şeirdə "Dağlarımın gözü yolda qalıbdır" ifadəsi bu fikrin bariz ifadəsidir. Belə ifadələr R.Yusifoğlu yaradıcılığına kifayət qədərdir. "Zəngilanın gözü qalıb yollarda" şeirində:

*Bəsitçayım için-için ağlayır,*
*Oxçuçayın suları göz dağlayır.* [6, s. 53]
*Küskündür taleyin ülkəri,*
*Darıxıb Bərgüşad, Həkəri...* ([5, s. 11]

Və nəhayət... 2020-ci il... II Qarabağ müharibəsi. Müzəffər Azərbaycan Ordusu şairin bütün xəyallarını, ümidlərini gerçəkləşdirir və illərlə çəkdiyi vətən həsrətinə son qoyur. Rafiq Yusifoğlu poeziyasında bu hadisə ciddi bir dönüş nöqtəsinə çevrilir. Şair köksünə sığmayan zəfər sevincini misralara köçürür – sanki bu misralar da sevincdən hərəkətə gəlir, oynaq bir ahəng alır və oxucunun sözün əsl mənasında tüklərini qabardan bədii gücə çevrilir. Onun yaradıcılığının emosional çalarları dəyişir: kədərin yerini sevinc, həsrətin yerini qürur alır. Qələbə sevinci, 30 ilə yaxın didərgin düşmüş doğma torpaqları yenidən görmək arzusu və bu arzunun gerçəkləşməsi şairin qəlbində iz qoyur, bu duyğular onun sonrakı poeziyasında daima yaşayan əsas xəttə çevrilir.

*Ay Bərgüşad, Həkəri,*
*Araz, gözlərin aydın!*
*Çiməcəyəm suyunda*
*Bu yaz, gözlərin aydın!* [3, s. 226]

*Gözün aydın, Murov dağı,*
*Axır ki, zirvənə çatdım...*
*Zəfərlərin sevincini, qələbənin şərbətini*
*Mən ləzzətlə daddım, daddım,*
*Şükürlər sənə İlahi,*
*Axır ki, murada yetdim,*
*Axır ki, arzuma çatdım...* [3, s. 228]

Beləliklə, Rafiq Yusifoğlu poeziyasında yurd sevgisi ilə zəfər sevinci möcüzəvi bir şəkildə vəhdət təşkil edir, bir-birini tamamlayır. Əvvəlki şeirlərdə kədərin, qürbətin, vətən həsrətinin kədərli sədaları üstünlük təşkil edirdisə, qələbənin şanlı anlarından sonra bu kədərli notlar sevincin, qürurun və qələbə ruhunun coşğun simfoniyasına çevrilir. Onun şeirləri təkcə fərdi duyğuların deyil, bütöv bir xalqın ürəyindən gələn ümummilli, dərin və saf hisslərin canlı ifadəsidir. Cəsarətlə söyləmək olar ki, Rafiq Yusifoğlunun poeziyası həm nisgilin, həm də zəfər sevincinin qovuşduğu, xalqın duyğu dünyasının canlı əksini yaradan unudulmaz bir poeziya salnaməsidir və bu mövzular onun yaradıcılığının ən önəmli, ən dərin qatlarını təşkil edir.

## Ədəbiyyat

[1]. Həsənli, B. Azərbaycan uşaq ədəbiyyatı / B.Həsənli, –Bakı: Müəllim, –2013. –511 s.
[2]. Yusifoğlu, R. Elmin və sənətin ucalığında / R.Yusifoğlu, –Bakı: ADPU, –2020, –512 s
[3]. Yusifoğlu, R. Seçilmiş əsərləri: [18 cilddə] / R.Yusifoğlu, Bakı: ADPU, –c.7. –2023, –512 s.
[4]. Yusifoğlu, R. Seçilmiş əsərləri: [18 cilddə] / R.Yusifoğlu. Bakı: ADPU, –c.8, –2023, –512 s.
[5]. Yusifoğlu, R. Seçilmiş əsərləri: [18 cilddə] / R.Yusifoğlu Bakı: ADPU, –c.9, –2023, –512 s.
[6]. Yusifoğlu, R. Seçilmiş əsərləri: [18 cilddə] / R.Yusifoğlu Bakı: ADPU, –c.10, –2023, –512 s.

**Summary**
**Homesickness in the Poetry of Rafiq Yusifoglu**
***Ismailova A.Sh.***

***Keywords:*** *Azerbaijani land, homeland, native land, longing, war*
This article is dedicated to the theme of homesickness in the works of Rafig Yusifoglu. In the poet's works, love for the homeland, the pain of exile, and feelings of longing are presented as the main motifs. The article analyzes the artistic methods of expressing these emotions through examples from the poet's poems. Homesickness carries a deep meaning in the author's creativity as both an individual and a collective spiritual value. In Rafig Yusifgğlu's poetry,

love for the homeland and the joy of victory form a unity and complement each other. These aspects further strengthen the place and significance of the poet's works in Azerbaijani literature.

**Резюме**

**Мотивы тоски по родине в поэзии Рафига Юсифоглу**

***Исмаилова А.Ш.***

***Ключевые слова:*** *Азербайджанская земля, родина, отчий край, тоска, война*

Статья посвящена теме тоски по родине в творчестве Рафига Юсифоглу. В произведениях поэта любовь к Родине, боль разлуки и чувство ностальгии выступают в качестве основных мотивов. В статье на основе примеров из его стихотворений анализируются художественные средства выражения этих переживаний. Тоска по родине в творчестве автора имеет глубокий смысл как в личностном, так и в общечеловеческом духовном измерении. В поэзии Рафига Юсифоглу любовь к родной земле органично сочетается с радостью победы, взаимно дополняя друг друга. Эти аспекты ещё более укрепляют место и значение произведений поэта в азербайджанской литературе.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82-31** DOI 10.54758/16801245_2026_22_1_38

# Müasir Azərbaycan rusdilli nəsrində ev konsepti

**Abdullayev Alik Nəriman oğlu** ORCID 0000-0001-8625-5677

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
alik.abdullayev@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 26.11.2024*
*Düzəliş tarixi: 27.01.2025*
*Qəbulolunma tarixi: 03.03.2025*

***Açar sözlər***
*rusdillilik, Azərbaycan ədəbiyyatı, rusdilli ədəbiyyat, ev konsepti*

**XÜLASƏ**

*Azərbaycanın rusdilli yazıçıları üçün əsrlər boyu formalaşmış ənənəvi mənəvi dəyərlərin və multikultural həyat tərzinin qorunub-saxlanılması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, rusdilli ədəbiyyat Azərbaycan milli ədəbiyyatının üzvi bir hissəsi kimi öz milli özünəməxsusluğunu qorumaqla yanaşı, digər xalqların mənəvi dəyərlərinə, o cümlədən rus mədəniyyətinə də açıqdır. Məqalədə Azərbaycan rusdilli ədəbiyyatında ev konseptinin bədii şəkildə ifadə olunması məsələləri araşdırılır. Xüsusilə Natiq Rəsulzadənin "Ev" povestində bu konseptin ideya yükü və bədii təcəssümü təhlil olunur*

Müasir Azərbaycan rusdilli ədəbiyyatı mövzu genişliyi və məzmunun çoxşaxəliliyi ilə seçilir. Rusdilli yazıçılar və şairlər yaradıcılıqlarında bütövlükdə milli ictimai fikir, ədəbiyyat və incəsənət üçün aktual olan məsələlərə toxunurlar. Müasir Azərbaycan rusdilli ədəbiyyatı dərin milli xarakter daşıyır, milli kimlik duyğusunun formalaşmasında, gənclərin vətənpərvərlik və mənəvi dəyərlər ruhunda tərbiyəsində, ümummilli mədəni dəyərlərin və milli xarakterin təşəkkülündə mühüm rol oynayır. Həmçinin vətən və soydaş obrazının yaradılmasına, Azərbaycanın çoxmillətli və çoxdilli cəmiyyət simasının bədii şəkildə əksinə xidmət edir.

Azərbaycanın rusdilli yazıçıları üçün əsrlər boyu formalaşmış ənənəvi mənəvi dəyərlərin və multikultural həyat tərzinin qorunub-saxlanılması aktual olaraq qalır. Eyni zamanda, rusdilli ədəbiyyat Azərbaycan milli ədəbiyyatının üzvi tərkib hissəsi kimi, milli özünəməxsusluğunu qorumaqla yanaşı, başqa xalqların mənəvi dəyərlərinə, o cümlədən rus mədəniyyətinə də açıqdır. Azərbaycanın rusdilli yazıçılarının milli xarakterə və ümumbəşəri dəyərlərə bağlılığı, dövlət dili kimi Azərbaycan dilinin artan əhəmiyyəti ilə ünsiyyət vasitəsi kimi rus dili arasında mümkün münaqişə ehtimalını aradan qaldırır. Dillərarası və mədəniyyətlərarası münasibətlərin harmonik şəkildə qurulmasında ikidillilik, o cümlədən ədəbi-yaradıcılıq sahəsindəki ikidillilik də müsbət rol oynayır. Bu baxımdan, Azərbaycan rusdilli ədəbiyyatını milli ədəbiyyatın sərhədində dayanan, transkultural bir hadisə kimi qiymətləndirmək olar; bu da Azərbaycanla Rusiya arasında mədəniyyətlərarası dialoqun dərinləşməsi və inkişafı üçün əlverişli zəmin yaradır.

Qeyd edək ki, müasir ədəbiyyatşünaslıqda rusdillilik bütövlükdə ilk növbədə mədəniyyətlərarası kommunikasiya prizmasından qiymətləndirilir və bu, "*fərqli millətlərin, dini baxışların və ideologiyaların nümayəndəsi olan milyonlarla insanı birləşdirən nəhəng bir faktor... bəşəriyyət tarixində görünməmiş bir mədəniyyətlərarası ünsiyyət formasıdır və tarixi inkişafın yeni mərhələsində insanları bir-birinə yaxınlaşdırmaq və bir-birini anlamağa yönəltmək gücünə malikdir*" [1]. Məhz buna görə də Azərbaycan rusdilli ədəbiyyatının əsas poetik məkanı multikultural həyat tərzi ilə fərqlənən, çoxmillətli sosial-mədəni mühitə malik Bakı şəhəri olmuşdur. Elə bu səbəbdən də müstəqillik dövrü Azərbaycan rusdilli ədəbiyyatının əsas konseptləri sırasında Bakı, vətən, şəhər, ev, ocaq və s. kimi anlayışlar xüsusi yer tutur.

Son illərdə bu mövzulara köhnə Bakı, dəniz, doğma sahil, emiqrasiya həsrəti, qloballaşma ilə doğma evin alışılmış ritmi, uşaqlıq və müasirlik arasındakı ziddiyyət kimi anlayışlar da əlavə

olunmuşdur. Buna görə də müasir Azərbaycan rusdilli ədəbiyyatının tematik sahələrindən biri – vətən və qürbət, ev və yol, şəhər və dəniz kimi kolliziyalardır; bu qarşıdurmalar müasir dövrün fəlsəfi, sosial və əxlaqi məsələlərinin ədəbi təcəssümünə xidmət edir. Beləliklə, 1960–70-ci illərin kənd və müəyyən mənada şəhər nəsrindən fərqli olaraq, müasir Azərbaycan rusdilli ədəbiyyatında ev tez-tez aşağıdakı anlayışlarla assosiasiya olunur: şəhər, yol, qürbət, sahil, Bakı, dəniz, Xəzər, Qala, İçərişəhər. Emiqrant poeziyasında bu motivlər təkcə doğma şəhərə, uşaqlığa duyulan adi nostalgiya ilə məhdudlaşmır, həm də həyatın mənası üzərində düşüncələri, zamanın anlaşılmaz axarını dərk etməyə cəhdləri ifadə edir.

*О, как круто мир переменился!*
*Хорошо ли там, где нет уж нас?*
*Но уносит в край, где родился,*
*Предрассветный сон в который раз.*
*Узнаю в израильской оливе*
*Ту, что в детстве видел из окна.*
*Памятью на берег в Тель-Авиве*
*Набежит каспийская волна...* Freddi Ben Natan [2]

*Oh, necə də möhtəşəm dəyişdi dünya!*
*Yaxşıdırmı bizsiz qalan o yer?*
*Yenə doğma yurda aparır yuxular –*
*Dan yeri sökülərkən görərsən hər yer.*
*İsrailin zeytununda tanıyıram mən*
*Uşaqlıqda pəncərədən gördüyüm təkini.*
*Tel-Əviv sahilinə xatirəylə gəlir*
*Kaspinin dalğası – doğma yurd səsini.* Freddi Ben Natan

Qeyd edək ki, vətən və həmvətən obrazı ən əvvəl Azərbaycan xalqının mentalitetinə, milli xarakterinə, Bakı sakinlərinin özünəməxsus düşüncə tərzinə bağlı olan qəhrəmanlar vasitəsilə adekvat şəkildə yaradılır. Azərbaycan rusdilli ədəbiyyatının qəhrəmanı ilk növbədə şəhərli, əsasən Bakı sakini, şəhər intellektualının nümayəndəsidir. Vətənə, doğma şəhərə sevgi, milli mentalitet, milli – azərbaycanlı – kimliyə duyulan hörmət, eyni zamanda beynəlmiləllik, ikidillilik, tolerantlıq Azərbaycan rusdilli ədəbiyyatının qəhrəmanlarının əsas xüsusiyyətlərindəndir. Azərbaycan rusdilli ədəbiyyatının personajlar sistemi bir tərəfdən qəhrəmanların mənəvi birliyi, doğma Bakı sosial-mədəni məkanına mənsubiyyət hissi, digər tərəfdən isə çoxmillətli olması ilə seçilir. Bundan əlavə, xarici dilli yaradıcılıq, ümumilikdə və xüsusilə rusdilli ədəbiyyat isə sosial-mədəni kontekstdə mədəniyyətlərarası ünsiyyətin həm hadisəsi, həm məhsuludur. Buna görə də burada milli, rus və dünya mədəni ənənələrinə aidlik hissi, ümumdünya həssaslığı duyğusu – ruhani vətəndaşlıq hissi mühüm yer tutur.

Vətən mövzusu Azərbaycan rusdilli yazıçılarının yaradıcılığında funksional olaraq ev konsepti ilə bağlıdır. Ümumilikdə, 1970–80-ci illərin SSRİ xalqlarının ədəbiyyatında ev aktual mövzulardan və obrazlardan biri olmuşdur. Ev – arxetipik obrazlardan biri kimi, açıq-qapalı, öz-kənar, uzaq-yaxın kimi mənalı cütlüklərlə bağlıdır və ənənəvi mədəniyyətdə kainatın və mədəni məkanın simvolu kimi qəbul edilirdi. Məsələn, Qədim türkdilli mədəniyyətdə ev ilə kainat arasında metaforik eynilik – ev kimi dünya, dünya kimi ev – bütün ənənəvi dünyagörüşü sistemini müəyyən edirdi [3].

Qeyd edək ki, ev anlayışı slavyan mifologiyasında da vacib yer tuturdu (4). Müasir Azərbaycan və rus ədəbiyyatında isə ev bir tərəfdən ruhani dəyərlərin, insan fərdiliyinin, milli özünəməxsusluğun mərkəzi, digər tərəfdən isə müasir cəmiyyətin simvoludur. Anarın (Zeytnot, Beşmərtəbəli evin altıncı mərtəbəsi, Kontakt), Elçinin (Kumqan, Gümüşü furqon),

M.Süleymanlının (Köçəri, Şeytan, Düyünüyü), M. İbrahimbəyovun (Daha yaxşı qardaş yox idi), F.Abramovun (Ev), Y.Trifonovun (Əvvəlcədən nəticələr, Tərsinə çevrilmiş ev, Dənizkənarı ev), V.Rasputinin (Son müddət, Matora ilə vidalaşma) əsərlərində ev və xarici dünya anlayışları arasındakı qarşıdurma müasir cəmiyyətin ziddiyyətlərini ifadə edir. Buna görə də ata evi tez-tez neqativ məna kəsb edir; ev öz qapalı dünyası ilə cəmiyyətin, tənəzzülün və mənəvi boşluğun simvolu kimi görünür. Bu baxımdan Y.Trifonovun tərsinə çevrilmiş ev anlayışı və Anarın altıncı mərtəbəsi olan beşmərtəbəli ev simvolu xüsusilə diqqətəlayiqdir. Qeyd etmək lazımdır ki, kənd nəsrinin xarakterik qarşıdurması – şəhər və kənd – də ev konseptinə bağlıdır. Gördüyümüz kimi, müasir nəsrdə ev həm də metafizik mənada qəbul edilir – ev və yol obrazları insanın daxili dünyasını, fərd ilə kütlənin, eləcə də şəxsiyyətin parçalanması və ətraf mühitdən və özündən uzaqlaşması konfliktini ifadə edir. Doğma evdən ayrılan insan ona tanış olan mənəvi dayağını itirir və onun əzablı həyatının əsas qayəsini əsl həqiqətin – doğruların axtarışı təşkil etməyə başlayır. Bu baxımdan, müasir ədəbiyyatın görkəmli yazıçısı Natig Rasulzadənin orijinal sürrealist əsərlərindən biri olan "Ev" hekayəsi xüsusi maraq kəsb edir.

Hekayənin əsas obrazı mistik dəmiryol stansiyasıdır, xaricdən gələnlər onu Qorodok, sakinlər isə Ev adlandırırlar. Bu ev dünya sərhədində, qapalı bir zonada yerləşir və nadir hallarda qatarlar buradan keçir. Baş qəhrəman təsadüf nəticəsində bu qapalı dünyaya düşür, oradan çıxış yolu yoxdur. Məlum olur ki, stansiyanın işçiləri və onların ailə üzvləri öz talelərini qəbul edib. Onlar xarici dünyadan, digər insanlardan ayrılıb tam təcrid olunmuş şəkildə yaşayırlar; ətraflarını sonsuz, cansız səhralar əhatə edir ki, bu səhralar Ayıtmatovun Sarı-Ozek səhrasına bənzəyir. Bu dünyanın sakinləri və baş qəhrəman adlarla deyil, real dünya nümayəndəsi tərəfindən verilən kodlu abreviaturalardan ibarət adlarla çağrılırlar. Məsələn: NS (stansiya rəisi), TT (nazik teleqrafçı), DNS (stansiya rəisinin qızı) və s. Onlar həmkarlar təsərrüfatı və əl işləri ilə dolanırlar. Bu kiçik kollektivdə mürəkkəb münasibətlər, öz adət-ənənələri, sosial həyat qaydaları, ətraf mühitə mifləşdirilmiş münasibət və bənzərsiz tarixi yaddaş formalaşıb. Süjetin əvvəlində bütün bu dünya baş qəhrəmana mənasız, vəhşi və anlaşılmaz görünür: ...bütün bunlar ağlıma sığmırdı, heç bir məntiqə tabe deyildi və daha çox pis yuxunu xatırladırdı, yuxuda olduğunu bilmək, əgər yuxu xoşagəlməzdirsə, sadəcə özünü oyatmağa məcbur etmək lazımdır... Amma mən yaxşı başa düşürdüm ki, bu reallıqdır. Və qəribə olan odur ki, mən stansiyaya gəldiyimdən bəri iki saat keçmişdi, amma mən, vəziyyətin absurdluğunu başa düşməyimə baxmayaraq, tədricən hər şeyi normal qəbul edir, bu inanılmaz vəziyyətə uyğunlaşırdım; yəqin ki, gözlərimin qarşısında uzun müddətdir buraya alışmış və bunu tamamilə təbii hesab edən insanlar var idi. Lakin qəhrəman bu hissə və Ev sakinlərinin onu taleyi ilə barışdırmaq cəhdlərinə, mənasız və ölümcül qaçış cəhdindən xilas etmələrinə baxmayaraq, təslim olmur. Onun tək arzusu bu dünyanı tərk etmək, növbəti stansiyaya çatmaq, oradan normal yaşayış məntəqəsinə getmək və oradan da öz evinə dönməkdir — onu da həyatın mənasızlığı və həsrətindən dolayı tərk etmişdir. Ev sakinləri onun bu üsyankar ruhundan xəbərdar olurlar və bunu öz həyat tərzlərinə və mövcudluqlarına təhlükə kimi görürlər. Üstəlik, onların hamısı bir vaxtlar eyni yolu keçib və sonunda kəşf ediblər ki, barışmaq, qürurdan imtina etmək və taleyə boyun əymək bu insanlıqdan uzaq dünyada yeganə xilas yoludur.

Qonaq – böyük dünyadan gələn xanım – "*Niyə qatar vagonuna tullanmırsınız da, bütün bunları birdəfəlik unudub, keçmişdə buraxıb adi həyata qayıtmırsınız?*" sualına, stansiyanın rəisi belə cavab verir: "*Bəlkə, bizim üçün adi həyat elə budur,* – deyə, o, səhraya baxaraq söyləyir. – *Və həm də, mən sizə əsas məqamı demədim: bizə vagonlara girmək icazəsi verilmir.*" Rəislə söhbət zamanı qəhrəman daha vacib bir həqiqəti anlamağa başlayır: bu ölümcül səhralı dünyada sağ qalmaq üçün nəsə bacarmaq, hansısa reallığı bilmək lazımdır. *Rəisin nə bacarırsan*? sualına cavab olaraq qəhrəman özünü xatırlamağa başlayır: Burada faydalı ola biləcək nələr bacarırdım? *Kağız işləri kimi boş-boş şeylər yox, mənim əvvəlki həyatımda sevdiyim o işlər* (burada maraqlı məqam budur ki, mənim buraya gəlməyimlə, elə onların da həyatında bir sərhəd çəkildi — həyat iki dövrə bölündü: o xəyali Şəhərçiyə düşməmişdən əvvəl və sonra), *yox, çoxlu insanların yaşadığı böyük*

*cəmiyyət üçün deyil, həqiqi, real bacarıqlar. Həqiqi! Mən nə bacarıram*?.. Bu fikirlər iki həyat tərzi – real şəhər mühitinin burokratik, rəsmi mənəviyyatı ilə insanın sosial əlaqələrə yox, şəxsi keyfiyyətlərinə görə sağ qaldığı o xəyali Şəhərciyin atmosferi arasında kəskin kontrastı açır. Lakin adını bilmədiyimiz baş qəhrəman bu iki dünya – əvvəl və sonra – arasında görünməz sərhədi keçmir. Buna görə də, həm real həyatda, həm də stansiya şəhərciyində o, qonaq, fərqli, başa düşülməz olaraq qalır.

Stansiya rəisinin qızı (qəhrəman üçün DNS) onu belə xarakterizə edir: *Siz başqa aləmdən gəlmisiniz,* – dərhal cavab vermir, sonra deyir. – Siz bizə rahat yaşamağa imkan verməyəcəksiniz. Biz isə hələ öz vəziyyətimizə öyrəşmişik. Bir neçə il əvvəl, sadəcə bir neçə il əvvəl, biz hamımız – demək olar ki, hamımız – həm birlikdə, həm tək-tək – şəhərçiyi tərk etmək üçün əlimizdən gələni etdik... Siz bizə sakit yaşamağa imkan verməyəcəksiniz, qaçmağa çalışacaqsınız, xəstə və əzab çəkən halda qayıdacaqsınız, çünki buradan qaçmaq mümkün deyil. Xəstə insan bizim şərtlərimizdə böyük problem, çox çətin işdir, hamımız yolumuzdan çıxarıq, halbuki biz cəhd edirik, dolanaq və aclıqdan ölməyək. Xəstə böyük yükdür. Daha böyük yük isə narahat insandır. Siz yaddaşımızı silkələyəcəksiniz, bizə xatırladacaqsınız ki, biz də belə olmuşuq. Siz qaçmaq istəyəcəksiniz, düzdür? Rəisin qızının dediklərinin əsas mənası odur ki, fiziki olaraq buradan qaçmaq mümkün deyil – stansiyanı əhatə edən ölü səhralar buna imkan vermir, amma daha vacib olan budur ki, konseptual olaraq qaçacaq yer yoxdur. Qəhrəman artıq bir dəfə evindən qaçıb, qatara minib heç yerə getmişdi. Lakin gəldiyi bu dünyada insan özünə qarşı dürüstdür; burada azadlıq və bərabərlik, seçim azadlığı var: "*Həbsxanadan qaçmaq olar, amma buradakı kimi azadlıqdan – yox... Azadlıqdan qaçmaq olar? Buna görə də bu dünya qeyri-adidir",* burada sizin üçün çox sayda inanılmaz şeylər açılacaq, biz isə onlara çoxdan alışmışıq. Sakit olun – məsləhətim budur. Siz də çox şeyə alışacaqsınız...

Əsərin qəhrəmanı kədərli şəhərini, doğma evini tərk edib, qatarda məchulluğa yollanır, lakin qatarın iyrəncliyi, çirkabı onu ilk dayanacaqda düşməyə məcbur edir. Bu dayanacaq qəribə, qaranlıq bir dünya olur. Yığışıb, qəhrəman bu dünyanı da tərk edir, baxmayaraq ki, yolunun sonunun səhranın boş və ölü məkanında ölüm olduğunu az-çox dərk edir. Əsərin poetik dünyası məna baxımından çoxqatlıdır və stansiya rəisinin qızının aşağıdakı sözlərində Ev də yaşayanların dərin fəlsəfəsi və həyat mənası açılır: Əvvəllər – buraya düşəndən bir-iki-üç il sonra, öz həqiqi vəziyyətimizi anladıqdan sonra – hamımız tez-tez sinir xəstəliklərinə tutulurduq, ciddi depressiyalarda idik; hamımız bunu yaşadıq. Bir çoxlarımız artıq uzun müddətdir ki, gülməyi unudub; bəs burada gülməyə nə ehtiyac var? Bir-birimizi özümüz kimi öyrəndik... Yemək yeyirik, Tanrıya keçirdiyimiz günə görə şükür edirik və yatmağa gedirik, sabaha, dünənə bənzər bir gün kimi daxil oluruq, çünki bütün günlərimiz bir-birinə çox oxşayır. Atamız həyatımıza kiçik rəngarənglik qatmaq üçün işləri dəyişməyi təklif etdi, amma bu uzun sürmədi; bu kiçik fərqlilik tezliklə burada həyatın böyük monotoniya tərəfindən uduldu... Hamımız Ev dən nifrət edirdik, amma uzun illər ərzində bu nifrət gözə görünmədən əksinə çevrildi; xüsusilə də evdən qaçıb, bir neçə gün sonra yarıcanlı halda geri qayıtdıqda, orada – içəridə içirdilər, yemək verirdilər və sən özünə gələnə qədər qayğı göstərirdilər, o zaman anlardın ki, bütün bu vaxt Tanrının sənə sevgi üçün göndərdiyi şeyi səhvən nifrətlə qarşılayırdın... İndi biz Evimizi sevirik və onu hər şeydən, xüsusən də sizin kimi inanılmaz müdaxilələrdən qoruyuruq, bunlar heç kimin ağlına gəlməmişdi... Yaxşı, sizə çox danışdım... Gedirəm. Ehtiyatlı olun, qalmaq istəyirsinizsə, bizdən biri olun.

Lakin qəhrəmanın ilk üsyankar ruhu onu tərk etmir və o, süjetin sonuna qədər bu həyat hikmətinə tabe olmur. Nəhayət, stansiyanı tərk edir və başqa bir dünya axtarışına yollanır. Yolun sonunda ona faciəli həqiqət açılır: o, yaşadığı həyatın boşluğunu və mənasızlığını, insanlardan uzaqlaşmasını, tənhalığını, xarakterinin eqoizmini dərk edir və dözülməz ağrı hiss edir: Bu dəfə dəhşətə düşməyə gücüm qalmamışdı. Yatıb zəifcə yerə baxırdım... yerə gedən relslərə. Qorxunun gecikmiş şiddəti məni işğal edəndə, son qüvvələrimi itirərək relslərə daha da yaxınlaşdım, ürəyimdə kəskin ağrı ilə eyni zamanda cavab verən... dəhşətə, vəhşi qorxuya qapılmışdım, qara, sümüyə

qədər sınmış, qanayan əllərimə baxırdım, relsdə yatan əllərə, hansı ki baxmağa qorxurdum... Ancaq cəsarət toplayıb baxdım və artıq bir dəfə gördüyüm şeyi gördüm: soyuq, parlaq polad rels yerə gedirdi... Günəş işığında parlayan iki rels paralel olaraq yerə doğru uzanırdı, sanki qatarları aşağı aləmə dəvət edirdi. Uzun müddət relslərə baxdım (sanki yuxu olmadığından əmin olmaq istəyirdim), eyni yerdə eyni cür əyilərək yerə gedirdi, yanında isə küləkdə yüngülcə hərəkət edən ot kolu vardı. Başım öz-özünə qaldı, gözlərim saf mavi göyə dikildi və boğazımda dəhşətli vəhşi ulama başladı. Mən uzun-uzadı uladım, zəif gücümü sərf edərək, uladım, günəş altında ölümü gözləyən canavar kimi, bu qeyri-adi, gec olmayan gündə...» Bu anda mətnə mifoloji təkrarlar daxil olur, xam torpaq ana bətninə bənzədilir, ölüm və həyat öz taleyinin vahid assosiativ qavrayışında birləşir: Mən yenidən şiddətli ürək ağrısından huşumu itirdim, ayıldığımda isə ulduzlar vardı və mən, adi hal kimi, relslərin arasında, məni doğan, böyüdən, sevən, qayğısına qalan bir qadının ayaqları arasındakı kimi yatırdım... və bütün bunlar ona görə idi ki, indi mən gecə vaxtı, səhrada, cəhənnəmə gedən relslərin üstündə ölüb gedim...

Qəhrəman öz həyat mövqeyinin, Evdəki insanlara qarşı eqosentrik münasibətinin səhv olduğunu anlayır: *Onlar mənim üçün bu ana qədər kölgələr kimi idilər, həqiqi insanlar deyildilər, bəlkə buna görə də onları qısaldılmış adlarla çağırırdım; onları yaxından tanımağa, düşüncələrini oyandırmağa, sevməyə cəhd etmədim, çünki onların başında və ürəyində hər şey ölən deyil; xeyr, yox, əksinə, məndə düşüncələr quruyub, ruhum susuz qalıb...* Və bu vəziyyətdə, həyatının son anlarında qəhrəman anlayır ki, *yalnız həyat və ölüm var, həyatı rədd edib qaçmaq mümkün deyil, mütləq ölümə gəlib çıxacaqsan, mən də öz seçimimi etmişəm, indi də bunun əvəzini ödəyirəm.* Qəhrəmanın bütün bu fikirləri tövbə kimi, həyatın əsl mənasını anlama kimi səslənir. Mütləq azadlıq və özünü təsdiqləmə arzusunun səhv və boş olduğunu dərk edir: Mənim onlara yaxınlaşmağa vaxtım yox idi, çünki azadlığa can atırdım, onlardan uzaqlaşmaq istəyirdim, onların içində özüm üçün məcburi təcridimi nifrətlə qarşılayırdım, bəzən isə bu təcridimin səbəbkarı kimi məhz onları günahlandırırdım... [5]

Nəticə olaraq qeyd etmək istərdik ki, bu mətn həm rus psixoloji nəsrinin, həm metaforik və sərt realizmin ənənələrini hiss etdirsə də, mətnin kompozisiya quruluşu və semantik evolusiyası Azərbaycan fəlsəfi-sevgi dastanlarının kompozisiya elementləri ilə də müqayisə oluna bilər. Belə elementlərə yola çıxmaq, epik nişanlılıq, əsirlik, sınaqlar və qəhrəmanın aydınlanması daxildir. Natiq Rəsulzadənin qəhrəmanı, eləcə də Azərbaycan dastanlarının qəhrəmanları: Beyrək, Aşıq Kərim, Aşıq Qərib kimi yola çıxır, sınaqlardan keçir, aydınlanır və faciəvi şəkildə ölür. Bu tip altmətnli kompozisiya-semantik sxem Azərbaycan nəsrinin çoxsaylı klassik əsərlərində öz əksini tapır, lakin Natiq Rəsulzadənin bütün mətninin bu tipoloji kompozisiya sxemi əsasında qurulması Azərbaycan rusdilli ədəbiyyatının həm dünya, həm də milli bədii ənənələrlə dərin heuristik əlaqələrinə dəlalət edir.

**Ədəbiyyat**

[1]. Şuljenko, V.İ. Rusdilli ədəbiyyat mədəniyyətlərarası kommunikasiya fenomeni kimi // https://pglu.ru/upload/iblock/0d4/shulzhenko-v.i.-_-russkoyazychnaya-literatura-kak-fenomen-mezhkulturnoy-kommunikatsii-_plenarnoe_-i_.pdf
[2]. Freddy Ben Natan. Bakıda. 7 aprel 2016 // http://kackad.com/kackad/27262-2/
[3]. Lvov, E.L. Cənubi Sibirin türklərinin ənənəvi dünyagörüşü: Məkan və zaman. Əşyalar aləmi / Lvov, E.L. və b. – Novosibirsk: Elm, Sibir şöbəsi, –1988. –s.61.
[4]. Rıbakov, B.A. Ev pagan dünyagörüşündə sistemi // Qədim Rusiyada pərəstiş olunan dinlər. – M., –1988. –s.460–517.
[5]. Rasulzadə, N. Ev // http://azeribooks.narod.ru/proza/rasulzade/dom.htm

**Summary**
**House concept in modern Azerbaijani Russian-language prose**
***Abdullayev A.N.***

***Keywords:*** *Russian-language, Azerbaijani literature, Russian-language literature, the concept of home.*

For Russian-language writers of Azerbaijan, the preservation of traditional spiritual values and a multicultural way of life that have formed over the centuries are relevant. At the same time, Russian-language literature as an organic part of Azerbaijani national literature, while maintaining its national identity, is open to foreign spiritual values, including Russian culture. The article examines the issues of artistic embodiment of the concept of home in Azerbaijani Russian-language literature. The ideological content and features of the artistic embodiment of the concept of home in the story of N. Rasul-zade "House" are considered.

**Резюме**
**Концепция дома в современной Азербайджанской русскоязычной прозе**
***Абдуллаев А.Н.***

***Ключевые слова:*** *русскоязычие, азербайджанская литература, русскоязычная литература*, *концепт дом.*

Для русскоязычных писателей Азербайджана актуальны сохранение традиционных духовных ценностей и мультикультурного образа жизни, сформировавшихся столетиями. Вместе с тем русскоязычная литература как органическая часть азербайджанской национальной литературы, сохраняя свою национальную самобытность, открыта к инонациональным духовным ценностям и в том числе к русской культуре. В статье изучены вопросы художественного воплощения концепта «дом» в азербайджанской русскоязычной литературе. Рассмотрены идейное содержание и особенности художественного воплощения концепта «дом» в повести Н.Расул-заде «Дом».

.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 327** DOI 10.54758/16801245_2026_22_1_44

# Qarayazı çölündən Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti üçün torpaq sahəsinin ayrılması barədə

**Əliyeva İradə Hacıəli qızı** ORCID 0009-0006-1524-726X

*A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Bakı, Azərbaycan, t.f.d., dosent*
aliyevairada72@gmail.com

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 06.03.2025*
*Düzəliş tarixi: 10.07.2025*
*Qəbulolunma tarixi: 20.09.2025*

***Açar sözlər***
*Qarayazı düzü, Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti, Cənubi Qafqaz, suvarma kanalı, icarə*

**XÜLASƏ**

*Qafqaz müsəlmanları arasında xristianlığın yayılması məqsədilə yaradılmış Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti bu istiqamətdəki fəaliyyətində Rusiya hakimiyyət orqanları tərəfindən ciddi şəkildə himayə olunurdu. Bu məqsədlə Rusiyanın pravoslav kilsələrində ümumi ianələrin toplanması üçün xüsusi dərnəklər yaradılmış, Cəmiyyətə maliyyə dəstəyinin göstərilməsi məqsədilə Cənubi Qafqaz ərazisində yerləşən Qarayazı düzündən azərbaycanlı əhaliyə məxsus torpaqlardan sahələr ayrılmışdı. Çarizmin hakimiyyət orqanları tərəfindən Cənubi Qafqazın müsəlman əhalisinə qarşı həyata keçirdiyi müstəmləkəçi siyasətin tərkib hissəsi olan bu tədbirlərlə Qarayazı çölündə yerləşən torpaqları əllərindən alınan azərbaycanlılara daha az məhsuldarlığı olan yerlərdən torpaq sahələri ayrılır. Onlar üçün ayrılmış bu torpaqlardan istifadə haqqını, əvvəllər ağalara ödədiyi vergiləri Cəmiyyətə ödəməli idilər*

## Giriş

XIX əsrin 50-ci illərin sonlarında Qafqazın Rusiya imperiyasına tamamilə ilhaqından sonra regionda missionerlik fəaliyyətinin yeni mərhələsi başlayır. Çarizm hesab edirdi ki, həmin vaxta kimi Qafqazda missionerlik fəaliyyətini həyata keçirmiş Osetin Ruhani Komissiyasının fəaliyyəti artıq Rusiyanın Qafqaz siyasətinin maraqlarına cavab vermir. Bu səbəbdən də Qafqazdakı Rusiya ordularının baş komandanı knyaz A.İ.Baryatinskinin (1856-1862) təşəbbüsü ilə əsas məqsədi müsəlmanların arasında pravoslavlığı yaymaq olan yeni cəmiyyət, Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti təşkil olunur. İdarə heyəti Tiflisdə yerləşən Cəmiyyətin himayədarı imperatorun arvadı Mariya Aleksandrovna idi ki, onun səmərəli fəaliyyəti üçün maliyyə mənbələrinin müəyyən olunması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdi. Belə tədbirlərdən biri də XIX əsrin 60-cı illərində azərbaycanlıların istifadəsində olan Qarayazı düzündən torpaq sahəsinin ayrılması barədəki tədbir olmuşdur ki, təqdim olunan məqalə bu problemin araşdırılmasına həsr olunmuşdur.

*Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyətinin gəlirlərinin artırılması məqsədilə Qarayazı çölündən torpaq sahəsinin ayrılması:* Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin gəlirlərinin artırılması məqsədilə Qafqaz və Cənubi Qafqaz diyarında boş dövlət torpaqlarından 100 min desyatin torpaq sahəsinin ayrılması barədə 13 oktyabr 1862-ci il tarixli İmperator fərmanı verilir [1, v. 6-7].

Lakin Qarayazı düzündə həmin ölçüdə suvarılan, əkinə yararlı boş torpaq sahəsini tapmaq mümkün olmadıqda [2, s. 38] imperator fərmanında nəzərdə tutulmuş 100 min desyatin torpaq sahəsindən 23977 desyatini ayırmaqla, qalan hissə üçün isə onun əvəzi kimi Cəmiyyətə 200 min rubl pul verilməsi qərara alınır [3, s. 109-110].

Bu fərmana uyğun olaraq Qafqaz canişini Tiflisin 35 verstliyində, Kür çayının sol sahilində yerləşən Qarayazı düzündən 14462 desyatin əkinə yararlı torpağın, 1374 desyatin otlaq sahəsinin ayrılması barədə göstəriş versə də [1, v. 6-7] nəticə olaraq Cəmiyyət üçün Qarayazı düzündən 15977 desyatin suvarılmayan torpaq sahəsi ayrılır. Lakin qeyd etmək lazımdır ki, sənədlərdə

Qarayazı düzündən Cəmiyyət üçün ayrılmış torpaq sahəsinin ölçüsü barədə 24-30 min desyatin arasında olmaqla müxtəlif rəqəmlər göstərilir [4, s. 116].

Bu torpaqların bir hissəsində, Kür çayının o biri tərəfindəki azərbaycanlı əhalisi olan Dəmirli icmasının altı ağalar kəndinin istifadəsində olan əkin sahələri yerləşirdi. Qafqaz Canişini Dəmirli kəndlilərinin buradakı əkin sahələrindən istifadəsi zamanı gələcəkdə yarana biləcək çətinlikləri nəzərə alaraq onlara başqa yerdən əkin sahəsinin ayrılması barədə müvafiq tədbirlərin görülməsi barədə Qafqaz Komitəsinə müraciət edir. Qafqaz Komitəsi canişinin bu müraciətinə özünün 20 sentyabr 1866-cı il tarixli iclasında baxaraq qərara alır ki, onun imperatorun Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyəti üçün Qafqaz və Cənubi Qafqaz diyarında boş dövlət torpaqlarından 100 min desyatin torpaq sahəsinin ayrılması barədə göstərişini yerinə yetirərkən Qarayazı düzündəki böş sahənin ayrılması üçün yuxarı instansiyalardan icazə almasına ehtiyac yoxdur. Dəmirli kənd icmalarının əkin sahələri ilə bağlı isə onlara müvafiq ölçüdə sahə başqa yerdən ayrılmalıdır [1, v. 6-7].

Bu məsələnin araşdırılması zamanı müəyyən olunur ki, Dəmirli kəndlilərinin Qarayzı düzündə Cəmiyyətin xeyrinə əllərindən alınmış torpaqların sahəsi 2400 desyatinə bərabərdir. Bunun əvəzində Dəmirli kəndliləri üçün Qarayazı düzünə bitişik, bir yerdən olmaqla Cəmiyyət tərəfindən çəkilmiş kanal vasitəsilə suvarılan 2106 desyatin 1300 sajen əkinə yararlı, 245 desyatin 100 sajen əkinə yararlı, lakin suvarılmayan, cəmi 2351 desyatin torpaq ayrılır. Bu torpaqlar Cəmiyyətin mülkiyyəti hesab olunmaqla altı kəndin sakinləri arasında onların sayına uyğun şəkildə bərabər bölünməli idi. Həmin torpaqlar Cəmiyyətin su kanalı ilə suvarılmalı idi. Dəmirli kəndliləri Cəmiyyətə məxsus su kanalından və onlar üçün ayrılmış bu torpaqlardan istifadə haqqını, dövlət kəndlilərinin ağalara ödədiyi vergiləri, bu altı kəndin əvvəl öz ağalarına ödədiyi miqdarda Cəmiyyətə ödəməli idilər [5, v. 10-10 arxa].

Bu vergilərin içərisində malcəhətdən (məhsulun onda biri) əlavə çoxsaylı şəxsi mükəlləfiyyətlər də daxil idi. Qafqaz canişini Qafqaz Komitəsinin sədrinə yazdığı 1867-ci il 29 noyabr tarixli məktubunda qeyd edir ki, "Mən Dəmirli kəndlilərinin əvvəlki torpaqlarının əvəzində Qarayazı düzünə bitişik yerdən torpaq sahəsinin verilməsi zamanı bir yerdən başqa yerə köç etmək məcburiyyətində qalmalarını nəzərə alaraq onlara qarşı lütfkarlıq göstərdim və onları iki illiyə cəmiyyətin xeyrinə şəxsi vergilərin ödənilməsindən azad etdim. Lakin iki ildən sonra onlar şəxsi vergiləri həmin vaxtı digər ağalara məxsus kəndlərdə müəyyən olunmuş miqdarda cəmiyyətin xeyrinə ödəməlidirlər". Dəmirli kəndlilərinin onlar üçün ayrılmış torpaqlardan otlaq sahəsi kimi istifadə etmək ixtiyarları yox idi. Bu torpaqlar onlar üçün yalnız əkin sahələri kimi ayrılmışdı [5, v. 11-11 arxa]. Nəzərə alsaq ki, Dəmirli kəndlilərinin başlıca məşğuliyyət sahəsi əkinçiliklə yanaşı həm də maldarlıq idi. Onda bu tədbirin onların təsərrüfat fəaliyyətinə vurulmuş necə ağır bir zərbə olduğunu aydın şəkildə görmək olur.

Qafqaz canişini Qafqaz Komitəsinin sədrinə yazdığı 1867-ci il 30 dekabr tarixli məktubunda bu məsələ ilə bağlı hansı qərarın veriləcəyi barədə onu məlumatlandırmağı xahiş edirdi [6, v. 12-13 arxa].

Dövlət Əmlak Komitəsindən Qafqaz Komitəsinə göndərilmiş məktubda Qafqaz canişinin Dəmirli kəndliləri ilə bağlı təkliflərinə razılığın verildiyi bildirilirdi [6, v. 14-14 arxa].

*Qarayazı düzündən ayrılmış torpaq sahəsinin suvarılması məqsədilə su kanalının çəkilməsi barədə:* Həmin düzün suvarma şəbəkəsinə olan ehtiyacını nəzərə alaraq canişin Cəmiyyətin vəsaiti hesabına Kür çayından həmin yerə kimi suvarma kanalının çıkilişinə başlamaq barədə göstəriş verir. Bu barədə hazırlanmış məruzədə deyilirdi ki, "Qarayazı düzündən Cəmiyyətə verilən torpaq sahəsi yalın çöldən ibarət idi və həmin ərazidən Cəmiyyət ildə 2-3 min rubl, ən yaxşı halda isə icarəyə verdikdə 30 mindən 40 min rubla qədər gəlir əldə edə bilərdi. Lakin Cəmiyyət Şurasının bir çox üzvləri Cənubi Qafqaz diyarında süni şəkildə suvarılan torpaq sahələrinin əhəmiyyətli dəyərə malik olduğunu, İrəvan quberniyasının timsalında hər desyatindən bir neçə yüz rubla qədər gəlir əldə etmək mümkün olduğunu nəzərə alaraq daha çox gəlir əldə etmək üçün suvarma qurğularının tikintisini faydalı hesab etdilər". İngilis mühəndisləri Belli və Qabbın hazırladıqları layihəyə görə,

ümumi uzunluğu 42 verst olan kanalın tikintisi iki il ərzində başa çatmalı idi. Onun ümumi dəyəri isə 400 min rubl olaraq qiymətləndirilirdi [2, s. 39-40].

Ancaq kanalın tikintisi üzrə işlər planlaşdırıldığı kimi getmir. 1865-ci ildə ingilis mühəndislərinin köməyi ilə kanalın tikintisinə başlanılsa da, bu iş gözlənildiyindən daha mürəkkəb və iki dəfə baha başa gəldi. Təkcə 1864-1874-cü illərdə taxta şlyuzların qurulması, kanalların çəkilməsi və s. üçün 496 647 rubl vəsait xərclənir [4, s. 116].

Kanalın bir hissəsinin tikintisi 1866-cı ildə başa çatır. Bu barədə Qafqaz canişini Qafqaz Komitəsinin sədri, knyaz Qaqarinə yazdığı 1866-cı il 19 avqust tarixli məktubunda bildirirdi ki, bu kanalın 19 verst uzunluğundakı yuxarı hissəsi artıq başa çatıb, həmin ilin payızında kanalın tikintisi davam etdiriləcək və nəticədə Qarayazı düzünün indi suvarılmayan 24-25 min desyatin sahəsini suvarmaq mümkün olacaq [7, v. 3-5].

Cəmiyyət ümid edirdi ki, su kanalının tikintisinin başa çatdığı ərazilərdəki torpaq salərinin icarəyə verməklə əldə olunan gəlirin hesabına kanalın digər hissəsinin də tikintisini davam etdirmək olar. Lakin Qarayazı düzündəki suvarılan torpaqların icarəyə verilməsi məsələsində də ciddi çətinliklər yaşandı. Belə ki, 1867-ci ildə ilk paylayıcı kanalların tikintisi başa çatdıqdan sonra torpaqların icarəyə verilməsi və kanal qurğularının işlək vəziyyətdə saxlanması üçün idarə təşkil edildikdə, dərhal "müxtəlif çətinliklərlə" qarşılaşdı. Bu barədə cəmiyyətin hesabatında qeyd olunurdu ki, Qarayazı düzünün ətrafında yaşayan, əsasən maldarlıqla məşğul olan, yayda bütün əmlakı ilə ucqar dağ otlaqlarına gedən yarımköçəri müsəlman əhali əkin sahəsinə ehtiyacı olsa da, Cəmiyyətin rəhbərlik etdiyi müəssisəyə etibar etmirdi. Güman edirdi ki, hökumət onu bu sahələrə şirnikləndirməklə, Cəmiyyət torpağında məskunlaşdıraraq onu tamamilə oturaq həyat tərzinə keçməyə məcbur edəcək və yayda köç etmələrinə icazə verməyəcək. Qarayazı düzündən uzaqda yaşayan xristian əhali isə praktikada sınaqdan keçməmiş kanalın gücünə hələ inanmırdı. Cəmiyyətin Qarayazı düzündəki su kanalı çəkilmiş torpaqlarına ilk icarədarlar təxminən üç ildən sonra gəlməklə, onlar da az ödənişlə qısa müddətə torpaq alırdı. İcarəyə haqqını tədricən artırmaqla Cəmiyyət bu torpaqdan əldə olunan gəliri 1867-ci ildəki 61 rubldan 1873-cü ildə 25189 rubla çatdırmağa nail olsa da, bu kanalın çəkilməsinə və saxlanmasına çəkilən məsrəfləri ödəmirdi [4, s. 117].

1874-cü ildə Kür çayında baş verən daşqın kanalın tikinti qurğularının sıradan çıxmasına səbəb olur. Bu səbəbdən Cəmiyyət 1874-1882-ci illərdə onların təmiri üçün daha 320233 rubl pul xərcləməli olur ki, nəticədə Cəmiyyət 1868-1884-cü illərdə kanalın tikintisinə 1006521 rubl sərmayə qoyduğu halda Qarayazı mülkündən cəmi 454361 rubl gəlir əldə edə bilmişdi [41, s. 117].

Bütün bunlar, ilk növbədə də Cəmiyyət üçün yaradılmış maliyyə imkanlarından səmərəli istifadə olunmaması XIX əsrin 80-cı illərin əvvəllərində Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin fəaliyyətində dəyişikliklərin aparılmasının zəruriliyini ortaya çıxarır. A.İ. Platonovun fikrincə, Cəmiyyətin yenidən qurulmasının səbəbləri aşağıdakılar idi: qarşısına əsasən pravoslav kilsəsinin məqsədlərini qoyan cəmiyyətin dövlətdəki ən yüksək pravoslav ruhani hökumətindən - Müqəddəs Sinoddan təcrid olunması və müstəqilliyi; Cəmiyyətə bağışlanmış Qarayazı çölünün suvarılması üçün suvarma kanalının çəkilməsi məqsədilə böyük maliyyə xərclərinin sərf edilməsi nəticəsində yaranmış və son illərdə cəmiyyət tərəfindən ona tabe olan ruhanilər, məktəblər və kilsələrin qeyri-qənaətbəxş təmir işləri ilə nəticələnən maddi sıxıntılar [8, s. 132-133].

Cəmiyyətin yenidən qurulması məsələsinin müzakirə edilməsi məqsədilə növbəti dəfə 1884-cü ilin yanvarın 24-də böyük knyaz Mixail Nikolayeviçin təşkilatçılığı ilə knyaz Dondukov, mitropolit İoanniki (Rudnev), maliyyə nazirli N.X. Bunqe və dövlət əmlakı naziri M.N. Ostorovskinin iştirakı ilə toplantı keçirilir. Bu müşavirədə aparılmış müzakirələrin nəticəsi olaraq hazırlanmış Cəmiyyətin yeni nizamnaməsi 1885-ci ilin yanvarında təsdiq olunur: yeni nizamnaməyə görə Cəmiyyət Gürcüstan ekzarxına tabe edilir, Qarayazı mülkü Dövlət Əmlak Nazirliyinin tabeliyinə verilir, Cəmiyyət xəzinəyə olan borclardan azad olunurdu [4, s. 125-126].

**Nəticə.** Aparılmış tədqiqat nəticəsində belə qənaətə gəlmək olar ki, Qarayazı düzündə azərbaycanlıların istifadəsində olan torpaqların da yerləşdiyi sahələrin Cəmiyyətin istifadəsinə verilməsi, əvəzində isə onlara başqa yerdən daha yararsız torpaqların verilməsi, nəticə olaraq da bu kəndlilərin Cəmiyyətin xeyrinə vergi və mükəlləfiyyətlərlə yüklənməsi çarizmin hakimiyyət

orqanları tərəfindən Cənubi Qafqazın müsəlman əhalisinə qarşı həyata keçirdiyi müstəmləkəçi siyasətinin növbəti təzahürü idi.

## Ədəbiyyat

[1]. Выписка из журнала Кавказского Комитета 20-го сентября 1866 года // Российский государственный исторический архив, фонд 1268, оп. 10, дело 171, лл.– 6-7.
[2]. Отчет Общество Восстановления Православного Христианства на Кавказе за 1864 г. Тифлис, типография Наместника Кавказского, –1865, –147 с.
[3]. Краткий очерк истории Грузинской церкви и экзархата за XIX столетие / Кирион (Садзагелов Г.И.) –Тифлис: типография К.П. Козловского, –1901. –353 с.
[4]. Волхонский, М. Общество Восстановления Православного Христианства на Кавказе: между миссионерством и цивилизаторством (1860-1885) // Российская история, –2019, №6, –с.105-126.
[5]. Отношение Кавказского Наместника пред-ю Кавказского Комитета, князю Гагарину, от 29-го ноября 1867 года / Российский государственный исторический архив, фонд 1268, оп. 10, дело 171 (1862), лл. 10-11 об.
[6]. Отношение Кавказского Комитета министру государственных имушеств, от 30-го декабря 1867 года / Российский государственный исторический архив, фонд 1268, оп. 10, дело 171, лл. 12-14 об.
[7]. Отношение Кавказского Наместника пред-ю Кавказского Комитета, князю Гагарину, от 19-го августа 1866 года / Российский государственный исторический архив, фонд 1268, оп. 10, д. 171, лл. 3-5
[8]. Платонов, А. Обзор деятельности Общество Восстановления Православного Христианства на Кавказе за 1860-1910 гг. / А.Платонов, –Тифлис: Сов. О-ва, –1910. –245 с.

**Summary**
**On the allocation of a plot of land from the Karayaz steppe for the Society for the Restoration of Orthodox Christianity in the Caucasus**
***Aliyeva I.H.***

***Keywords:*** *Karayaz steppe, Society for the Restoration of Orthodox Christianity in the Caucasus, South Caucasus, irrigation canal, lease*

The Society for the Restoration of Orthodox Christianity in the Caucasus, created with the aim of spreading Christianity among the Muslims of the Caucasus, was actively supported by the Russian authorities in its activities. For this purpose, special donation circles were created in the Orthodox churches of Russia. Land plots belonging to the Azerbaijanis in the territory of Karayazi were allocated for the financial support of the Society. As part of the colonial policy pursued by the tsarist authorities against the Muslim population of the South Caucasus, Azerbaijanis whose lands were confiscated in the Karayazi steppe were allocated plots of land with less productivity. They had to pay the taxes to the Society that they had previously paid to the landowners.

**Резюме**
**О выделении участка земли из Караязской степи для Общества восстановления Православного Христианства на Кавказе**
***Алиева И.Г.***

***Ключевые слова:*** *Караязская степь, Общество Восстановления Православного Христианства на Кавказе, Южный Кавказ, оросительный канал, аренда*

Общество Восстановления Православного Христианства на Кавказе, созданное с целью распространения христианства среди мусульман Кавказа, активно поддерживалось российскими властями в своей деятельности. Для этой цели в православных церквях России были созданы специальные кружки для сбора пожертвований. Для финансовой поддержки Общества были выделены земельные участки из земель, принадлежащих азербайджанцам на территории Караязи. В рамках колониальной политики, проводимой царскими властями против мусульманского населения Южного Кавказа, азербайджанцам, чьи земли были изъяты на Караязинской степи, выделялись участки земли с меньшей продуктивностью. Они должны были платить в Общество те налоги, которые ранее они выплачивали землевладельцам.

.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 069 (031)** DOI 10.54758/16801245_2026_22_1_48

# Regionlarda əhalinin mənzil təminatının inkişafı dövlətin sosial siyasətinin mühüm istiqamətidir

**Cəbrayilova Fəridə Səyədulla qızı** ORCID 0000-0002-6895-6741

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fəl.f.d., baş müəllim*
farida.cabrayilova@sdu.edu.az

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi*** *Daxilolma tarixi: 01.04.2025* *Düzəliş tarixi: 24.06.2025* *Qəbulolunma tarixi: 22.09.2025* ***Açar sözlər*** *regionların inkişafı, sosial struktur, mənzil problemləri, sosial qruplar, mənzillə təminat, sosial-demoqrafik struktur, mənzil siyasəti* | *Məqalədə regionlardakı mənzil təminatının ümumi tendensiyalarından bəhs olunur və bu prosesin dövlətin social - demoqrafik strukturuna təsirinin səbəbləri təsvir edilir. Mənzil problemi dövlətin sosial siyasətinin mühüm istiqaməti kimi əsaslandırılır. Mənzil məsələlərinin həlli üçün dövlət siyasətinin əsas prinsipləri təqdim olunur. Tədqiqatın aktuallığı yaşayış səviyyəsinə görə regionlarda əhalinin mənzizillə təminatının müxtəlif səviyyələrinə malik sosial qrupların müəyyən edilməsi zərurəti ilə bağlıdır. Regionlarda əhalinin müxtəlif sosial qruplarının ölkənin ümumi mənzil fondunda xüsusi çəkisi ilə bağlı metodlar təklif edilmiş və qiymətləndirmələr aparılmışdır.* |

Mənzil problemləri, xüsusən də insanları münasib qiymətlərlə rahat yaşayışla təmin etmək bütün dövrlərdə mövcud olub. Urbanizasiya və sənayeləşmənin yaranması ilə əhalinin kənd yerlərindən axını baş vermişdi ki, bu da vətəndaşların şəhərlərdə cəmləşməsinin artmasına və nəticədə “mənzil ehtiyacı” (bu termin elmə Fridrix Engels tərəfindən daxil edilmişdir) fenomeninin yaranmasına gətirib çıxardı.

Fridrix Engels kapitalist cəmiyyətində mənzil məsələsinin mühüm rolunu qeyd etmişdir. Onun fəhlə sinfinin vəziyyəti haqqında elmi əsərləri fundamental hesab olunur. F.Engelsin fikrincə, əhalinin mənzillə təmin olunmasında əsas problemlər əhalinin sıxlığı və fəhlə sinfinin sanitar həyat səviyyəsinin aşağı olmasıdır[6].Təbii ki, marksizmin klassikinin həyatından keçən 120 ildən çox müddət ərzində şəhərlərdə yaşayış səviyyəsi və şəraiti dəyişsə də, xüsusi mənzil mülkiyyətinə sahib olmaq imkanı mürəkkəbləşdi. Nəticədə çoxlu sayda işçi icarəyə götürmək məcburiyyətində qaldı ki, bu da öz növbəsində əlavə maddi xərclər yaratdı. Çünki bütün ailələrin mənzil kirayəsi üçün ailə büdcəsindən vəsait ayırmaq imkanı yox idi. Eyni zamanda, xeyriyyə evlərinin tikintisi də mövcud idi, lakin əhalinin mənzillə təmin edilməsi yalnız sosialist istiqamətində inkişaf edən ölkələrdə mümkün oldu.

Tədqiqatçılar qeyd edirlər ki, sosializm dövründə mənzil problemlərinin həlli unikaldır, çünki onun kapitalist ölkələrində analoqu yoxdur [7]. Belə ki, sosialist inqilabından sonra əhalinin varlı təbəqələrindən müsadirə edilmiş yaşayış binaları geniş əhalinin mənzillə təmin edilməsi problemini həll etmək imkanı verdi. Mülkədarlara, tacirlərə və varlı torpaq sahiblərinə məxsus evlərin əksəriyyəti mənzilə ehtiyacı olan çoxlu sayda insanın məskunlaşdığı çoxmənzilli yaşayış binalarına çevrildi. Kütləvi şəkildə sosial evlərin tikintisi aparılırdı ki, bu da mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan bütün vətəndaşlara verilirdi.

Qeyd etdiyimiz kimi insan ehtiyacının əsas şərtlərindən biri mənzillə təminatdır. Buna müvafiq olaraq davamlı inkişafın təmin edilməsi, əhalinin rifah halının yüksəldilməsi əhalinin mənzillə təmin olunmasınının əsas amillərindəndir.

Bu gün Azərbaycan Respublikasının əsas sosial-iqtisadi problemlərindən biri regionlarda bütün əhalinin rahat, əlçatan mənzil təminatı məsələsidir. Ölkə əhalisinin üçdə biri, xüsusən də iri yaşayış məntəqələrində yaşayan əhali ya mənzil şəraitinin yaxşılaşdırılmasına, ya da öz yaşayış sahəsinin genişləndirilməsinə ehtiyac duyur. Mənzillə təminat dərəcəsi Azərbaycan cəmiyyətinin bir çox ciddi problemlərinin əsasını təşkil edir (çünki mənzil həm əmək məhsulu, həm də uzun illər istifadə olunması ilə digər istehlak mallarından fərqlənən, müəyyən funksiyalar kompleksini yerinə yetirən istehlak məhsulu kimi qəbul edilir. Mənzil şəraitinin yaxşılaşdırılması insanların fiziki mövcudluğunun və normal fəaliyyətinin qorunub saxlanmasını təmin etməklə yanaşı, həm də onları fərd kimi inkişaf etdirir, iqtisadi, mənəvi-əxlaqi ehtiyaclarını reallaşdırır.

Dövlətin mənzil siyasəti – şəhərsalma sisteminin səmərəli fəaliyyətinə uyğun gələn mənzil şəraitinin və münasibətlərinin müəyyən modelinə nail olmağa, sakinlərin tələbatını ödəməyə yönəlmiş dövlət fəaliyyət üsulları, ümumi istiqamətlər və prinsiplərdir [3].

Mənzil sosia strukturun əsasını təşkil edən maddi təməldir. Son dövrlər regionlarda əhalinin mənzil təminatının inkişafının siyasi-iqtisadi, sosial-demoqrafik və ekoloji sahələrində mühüm dəyişikliklər baş vermişdir. Milli iqtisadiyyatın inkişafı müsbət dəyişikliklərə səbəb olmaqla yanaşı, həm də yeni çağırışlar və təhdidlər irəli sürdü, bir sıra problemləri daha da kəskinləşdirdi. Sənayenin, qeyri-neft sektorunun inkişafı, işğaldan azad olunan torpaqların bərpası, yeni yaşayış məksənlərinin yaranması, yaşayış məntəqələrində mühəndis-nəqliyyat və sosial infrastrukturun inkişafı regionlarda əhalinin mənzillə təminatında artımla müşahidə olunub. Əhalinin ümumi sayında, o cümlədən regionların əhali sayında artım qeydə alınıb. Yeni yaradılan şəhərlərin və bərpa olunan yayayış məntəqələrinin strukturunda konkret məqsəd və vəzifələrə yönəlmiş yaşayış məntəqələrinin
tikintisi icra olunur.

Ərazi bütövlüyümüzün bərpasından sonra regionlarda urbanizasiya proseslərinin inkişafına mühüm təsir göstərən iqtisadi islahat modelləri təqdim olunmağa başladı. İşğaldan azad olunan ərazilərin sürətli böyüməsi və bərpası müşahidə edilir. Bu proseslərin dinamikası və əsas səbəbləri fərqlidir.

İdarəetmə mexanizmindəki əsaslı dəyişikliklər regionların inkişafına təkan verməklə yanaşı, bir sıra problemlər meydana çıxardı. Ən xarakterik problemlərə aşağıdakılar daxildir:

– böyük və kiçik şəhərlərdə əhalinin və sənaye istehsalının yüksək konsentrasiyası;

– kiçik və orta yaşayış məntəqələrinin durğunluğu;

– paytaxtda və böyük şəhərlərdə nəqliyyat problemlərinin artması;

– iri sənaye mərkəzlərinə bitişik ərazilərdə əlverişsiz ekoloji vəziyyət;

– təbii və texnogen fəlakətlərin riskləri;

–əhalinin sosial cəhətdən həssas təbəqələrinin mənzillə təminatının əlçatanlığın olmaması;

– innovativ enerji və resursa qənaət edən texnologiyalardan və tədbirlərdən istifadənin zəif təcrübəsi.

Mənzil – vətəndaşlara iqtisadi sabitlik və təhlükəsizlik təminatı verən, həmçinin onları məhsuldar işləməyə təşviq edən əsas dəyərlərdən biridir. Əhalinin keyfiyyətli və sərfəli mənzillə təmin olunmasının nəticələri cəmiyyətin dövlətə münasibətini xeyli formalaşdırır. Mənzil məsələlərinin həllinin nəticələrinə əsasən, vətəndaşlar dövlətin öz funksiyalarını yerinə yetirməsinin səmərəliliyini daha çox qiymətləndirirlər.

Ölkəmizdə vətəndaşların konstitusional mənzil hüququnun həyata keçirilməsinin təminatçısı məhz dövlətdir. Bu sahədə yalnız dövlət:

– qanunvericilik bazasını və mənzil siyasətini formalaşdırır, mənzil sektorunda islahatların aparılması üçün tədbirlər həyata keçirir;

– mənzil sektorunda özəl sahibkarlığın inkişafını tənzimləyir;

– regionlarda əhalinin müəyyən kateqoriyasının mənzillə təminatı və tikintisi üçün ünvanlı yardım, aztəminatlı təbəqələrə mənzil və kommunal xidmətlərin ödənilməsi üçün subsidiyalar vasitəsilə sosial dəstək göstərir.

Azərbaycanda mənzil tikintisi sürətlə davam edir. Bu onunla bağlıdır ki, ölkəmizdə yaranan makroiqtisadi şərait mənzil siyasətinin məzmununa, həyata keçirilməsinin forma və mexanizmlərinə birbaşa təsir göstərir.

Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2014-cü il tarixli 569 nömrəli, 25 yanvar 2021-ci il tarixli 2449 nömrəli və 25 avqust 2021-ci il tarixli 2871 nömrəli sərəncamları, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 avqust 2021-ci il tarixli 492s nömrəli sərəncamı ilə əhatə olunan imtiyazlı şəxslərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial-məişət şəratinin yaxşılaşdırılması nəzərdə tutulub[8].

Ölkənin mənzil-tikinti sektorunda sosial-iqtisadi inkişafın prioritet istiqamətləri bunlardır:

– vətəndaşların indiki və gələcək nəsillərinin mənzil ehtiyaclarını ödəməyə qadir olan və əhalinin bütün təbəqələrinin mənzil almaq üçün əlçatanlığını təmin edən rahat, davamlı, qənaətcil mənzil fondunun yaradılması;

– vətəndaşların mənzillə təminat səviyyəsinin artırılması;

– büdcədənkənar maliyyə mənbələrindən və vətəndaşlara verilən güzəştli kreditləşmə formalarından istifadə etməklə mənzil tikintisinin inkişafı;

– mənzil və mənzil xidmətləri bazarının gələcək inkişafı;

– mövcud mənzil fondundan səmərəli istifadə.

Mənzil təminatı sosial əhəmiyyət kəsb edir, çünki mənzilin özü – insan üçün əsas dəyərdir, sosial və iqtisadi funksiyaları yerinə yetirir, insanın yaşadığı maddi və sosial şəraiti müəyyən edir [4]. Mənzilin keyfiyyəti, sahəsi, yaşayış yeri fərdin, ailənin və cəmiyyətin fəaliyyəti üçün şərait yaradır.

Bu gün regionlarda əhalinin mənzillə təminatı yoxsulluq və işsizlik problemləri ilə yanaşı 21-ci əsrin ən aktual sosial problemlərdən biri hesab olunur. [5]. Ölkədə mənzil təminatının vəziyyəti aşağıdakı göstəricilərlə xarakterizə olunur: Son 10 il ərzində orta hesabla əhalinin hər nəfərinə düşən mənzil və ev sahəsi 17.6 m2-dən 20 m2-ə çatıb. Hər il bu göstərici artır. Əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və mənzillərin güzəştlə əldə edilməsi sahəsində görülən tədbirlər nəticəsində dövlət hesabına mənzil alan və yaşayış şəraitini yaxşılaşdıran ailələrin sayı 2000-ci 1758 ailə olduğu halda, 2024-cü ildə 3258 ailəyə çatıb.

Əhalinin mənzillə təminatındakı çətinliklər əsasən aşağıdakı səbəblərdən özünü biruzə verir: mənzil çatışmazlığı, mənzil fondunun texniki vəziyyətinin pis olması, mənzillərin əhəmiyyətli hissəsinin, xüsusən də köhnə tikililərin aşağı standartı və onların modernləşdirilməsinin aşağı tempi, mənzil təminatındakı çətinliklər keçmişdən gələn səbəblərdən də qaynaqlanır, xüsusilə:

– mənzil tikintisi və təmirinin maliyyələşdirilməsində sakinlərin kifayət qədər passiv iştirakı;

– şəhər idarəetməsinin rasionallaşdırılması üçün xüsusi mülkiyyətin əhəmiyyətinin düzgün qiymətləndirilməməsi;

– mənzil tikintisi üçün büdcə vəsaitlərinin səmərəsiz bölünməsi.

Azərbaycanda mənzillə təminatın maliyyələşdirilməsi müvafiq dövlət proqramları vasitəsilə həyata keçirilir:

– Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası,

– Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Dövlət Proqramı,

– Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Dövlət Proqramı,
– Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı,
– “Güzəştli mənzil” sistemi haqqında əsasnamə[1].

Vətəndaşların keyfiyyətli və sərfəli mənzillə təmin edilməsi məsələsi respublika Prezidentinin daimi nəzarətindədir. Belə ki, müxtəlif dövrlərdə Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası” haqqında, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri” barədə, Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzillərin vətəndaşların güzəştlə əldə etməsi Qaydası” haqqında sərəncamlar imzalanmış, eyni zamanda Prezidentin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi” müəyyən edilmişdir [2].

Nəticə etibarilə, mənzil məsələlərinin həllinə yönəlmiş dövlətin sosial siyasəti mənzil təminatı üçün əlverişli şəraitin yaradılmasında aşağıdakı müddəalara əsaslanmalıdır:
– mənzil bazarının tikintisi və təkmilləşdirilməsi üçün əlverişli şəraitin yaradılması;
– yaşayış evlərinin alınmasını təmin edən şəraitin yaxşılaşdırılması;
– ev təsərrüfatlarına hərtərəfli hərtərəfli dəstək
– iqtisadi fəaliyyətin əsas subyekti və mənzil tikintisinin əsas istehlakçısı kimi çıxış edən ev təsərrüfatlarına hərtərəfli dəstək;
– ehtiyacın ödənilməsinə yönəlmiş mexanizmlərin yaradılması;
– ölkə əhalisinin iqtisadi fəal hissəsinin yaşayış binalarına olan tələbatının ödənilməsinə yönəlmiş mexanizmlərin yaradılması;
– obyektiv səbəblərdən öz yaşayış şəraitini müstəqil şəkildə yaxşılaşdıra bilməyən vətəndaşların müəyyən kateqoriyalarına göstərilən dövlət dəstəyi tədbirlərinin təkmilləşdirilməsi.

## Ədəbiyyat


[1]. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu // –2011, № 12, maddə 1108.
[2]. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu // –2019, №2, –maddə 218.
[3]. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. // –Bakı, Azərbaycan Respublikası Qanunları Külliyyatı, № 12, –1999, –s. 6.
[4]. Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti / H.Rəcəbli, –Bakı: MBM, –20l2. –408 s.
[5]. Rəhmanov, F. P. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti / F.P.Rəhmanov, –Bakı, –2021, –438 s.
[6]. Бобков, В. Структура общества (по доходам и жилищной обеспеченности) / В.Бобков, И.Канаев // Экономист. –2006. № 9. –с.42–52..
[7]. Социальная политика / Под. общ.ред. Волгина Н.А. М.: Экзамен, –2010. –734 с.
[8]. https://sxa.gov.az/fealiyyet/menzilteminati


**Summary**

**Development of housing provision for the population in the regions it is an important direction of the state's social policy**

***Jabrayilova F.S.***

***Key words***: *regional development, social structure, housing problem, social group, provision of housing, socio-demographic structure, housing policy*

The article examines the general trends in housing provision in the regions and describes the reasons for the influence of this process on the socio-demographic structure of the state. The housing problem is substantiated as an

important direction of the state's social policy. The basic principles of state policy for resolving housing issues are presented. The relevance of the study is due to the need to identify social groups in the regions with different levels of housing provision in terms of living standards. In the regions, methods were proposed and estimates were made of the share of various social groups of the population in the total housing stock of the country.

**Резюме**

**Развитие жилищного обеспечения населения в регионах является важным направлением социальной политики государства**

***Джабраилова Ф.С.***

***Ключевые слова***: *развитие регионов, социальная структура, жилищные проблемы, социальные группы, обеспечение жильем, социально-демографическая структура, жилищная политика*

В статье рассматриваются общие тенденции обеспечения жильем в регионах и описываются причины влияния этого процесса на социально-демографическую структуру государства. Обоснована жилищная проблема как важное направление социальной политики государства. Представлены основные принципы государственной политики по решению жилищных вопросов. Актуальность исследования обусловлена необходимостью выявления в регионах социальных групп с разным уровнем обеспеченности населения жильем по уровню жизни. В регионах были предложены методы и проведены оценки доли различных социальных групп населения в общем жилищном фонде страны.

.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 327** DOI 10.54758/16801245_2026_22_1_53

# Cənubi Qafqazın uzunmüddətli perspektivlərinə dair böyük dövlətlərin yanaşmalarının müqayisəli təhlili

**İsmayılova Vəfa Zakir qızı** ORCID 0009-0002-2591-4012

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, doktorant*
ismayilovafa2392@gmail.com

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 10.07.2024*
*Düzəliş tarixi: 23.12.2024*
*Qəbulolunma tarixi: 03.03.2025*

***Açar sözlər***
*Cənubi Qafqaz, geosiyasət, Rusiya, ABŞ, Çin, Türkiyə*

**XÜLASƏ**

*Tədqiqat Cənubi Qafqazın uzunmüddətli perspektivlərini və regiona böyük güclərin – Rusiya, ABŞ, Çin və Türkiyənin yanaşmalarını müqayisəli təhlil edir. Rusiya geosiyasi status-kvonun qorunmasına çalışır, ABŞ Rusiyanın təsirini balanslaşdırmaq istəyir, Çin isə əsasən iqtisadi ekspansiyaya fokuslanır. Türkiyə isə Azərbaycan ilə strateji tərəfdaşlıq çərçivəsində regional təsirini artırır. Tədqiqatda müqayisəli təhlil metodundan istifadə olunur və geosiyasi rəqabətin regionun inkişafına təsirləri araşdırılır. Həmçinin bu güclərin siyasətinin gələcəkdə Cənubi Qafqazın təhlükəsizlik və sabitliyinə necə təsir edəcəyini təhlil edir*

## Giriş

Cənubi Qafqaz beynəlxalq siyasətin mühüm geosiyasi toqquşma nöqtələrindən biri olaraq qalmaqdadır. Regionda böyük güclərin – Rusiya, ABŞ, Çin və Türkiyənin strateji maraqları və təsir vasitələri dəyişən qlobal və regional şərtlərə uyğun olaraq yenidən formalaşır. Bu güclər arasında gedən rəqabət təkcə regional ölkələrin siyasi seçimlərinə deyil, həm də onların təhlükəsizlik, iqtisadi inkişaf və beynəlxalq inteqrasiyasına birbaşa təsir edir. Son illərdə Cənubi Qafqazda geosiyasi mühitin dinamik şəkildə dəyişməsi bu bölgənin uzunmüddətli perspektivlərini araşdırmağı aktuallaşdırır.

Bu baxımdan, tədqiqatın əsas məqsədi Cənubi Qafqazda böyük güclərin uzunmüddətli strategiyalarını müqayisəli təhlil edərək onların geosiyasi təsir mexanizmlərini müəyyənləşdirməkdir. Araşdırmada müqayisəli siyasət analizi və geosiyasi təhlil yanaşmalarından istifadə olunmuşdur. Ədəbiyyata töhfə olaraq, bu araşdırma Cənubi Qafqazda böyük güclər arasındakı geosiyasi rəqabəti sistemli müqayisəli çərçivədə təqdim etməklə, bu sahədə mövcud boşluğu doldurmağa və gələcək tədqiqatlar üçün analitik çərçivə yaratmağa imkan verir.

## Rusiya: geosiyasi status-kvonun qorunması

Rusiya Cənubi Qafqazda ənənəvi təsir imkanlarını saxlamağa çalışır və bunun üçün müxtəlif siyasi, hərbi və iqtisadi vasitələrdən istifadə edir. Moskvanın əsas məqsədlərindən biri postsovet məkanında hegemon təsirini qorumaq və digər güclərin regiona nüfuz etməsinin qarşısını almaqdır. Bu çərçivədə, Rusiya Abxaziya və Cənubi Osetiya kimi separatçı rejimləri dəstəkləyərək Gürcüstanın suverenliyini məhdudlaşdırmağa və onun Qərblə inteqrasiyasını əngəlləməyə çalışır. Eyni zamanda, Rusiya Qarabağ münaqişəsinin həllindən sonra bölgədəki yeni geosiyasi reallıqlara uyğun strategiya qurmuşdur. Hərbi və siyasi baxımdan Rusiya regionda dominant mövqeyini saxlamaq üçün KTMT və ikitərəfli sazişlər vasitəsilə Ermənistanla əlaqələrini möhkəmləndirməyə çalışır. Gümrüdəki 102-ci hərbi bazanın saxlanılması və Ermənistanın təhlükəsizlik sahəsində Moskvadan asılılığının davam etməsi Kreml üçün strateji əhəmiyyət daşıyır. Ermənistanın Qərbə

yaxınlaşmaq cəhdlərinə baxmayaraq, Rusiya onun KTMT-dən çıxmasının qarşısını almağa və Moskvanın təsir dairəsindən uzaqlaşmamasına çalışır. Bununla yanaşı, Rusiya Azərbaycan və Gürcüstanın enerji marşrutlarını mümkün qədər nəzarətdə saxlamaq istəyir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi kimi layihələrin Moskvanın enerji siyasətinə qarşı bir alternativ yaratması Kremlin narahatlığına səbəb olur. Buna cavab olaraq Rusiya müxtəlif yollarla bu marşrutların təhlükəsizliyinə təsir göstərməyə çalışır və Azərbaycanla enerji bazarında rəqabət aparır.

Uzunmüddətli perspektivdə Rusiya Cənubi Qafqazda dəyişikliklərə konservativ yanaşır və "kontrollu qeyri-sabitlik" strategiyasını tətbiq edir [1]. Bu strategiya vasitəsilə Moskva regionda tamamilə sabitliyin bərqərar olmasına imkan vermədən, ancaq nəzarətdən çıxmasına da icazə vermədən öz təsirini qorumağa çalışır. Rusiyanın uzunmüddətli planları Gürcüstanın NATO və Aİ-yə üzvlüyünü əngəlləmək, Ermənistanı öz orbitində saxlamaq və Azərbaycanın müstəqil enerji siyasətinə məhdudiyyətlər qoymaq üzərində qurulub. Lakin regionda Türkiyənin artan rolu, Qərbin siyasi dəstəyi və Azərbaycanın güclənən müstəqil siyasəti Rusiyanın dominantlığını getdikcə daha çox sınağa çəkir. Bu səbəbdən Moskva yaxın gələcəkdə Cənubi Qafqaz siyasətində daha çevik və adaptiv yanaşma tətbiq etməyə məcbur qala bilər.

**ABŞ: Tramp dövründə yeni siyasət**

ABŞ-ın Cənubi Qafqaz siyasəti uzunmüddətli perspektivdə əsasən Rusiyanın təsirini balanslaşdırmaq və region dövlətlərinin suverenliyini gücləndirmək üzərində qurulub. Azərbaycana enerji siyasətində strateji tərəfdaş kimi yanaşması və Ermənistanda məxməri inqilaba dəstək verməsi ABŞ-ın regional siyasətinin əsas istiqamətlərindəndir. Lakin son illərdə Vaşinqtonun prioritetlərində ciddi dəyişikliklər baş verib. ABŞ-ın geosiyasi maraqları getdikcə daha çox Sakit Okean regionuna, xüsusilə də Çinin yüksəlişi ilə bağlı məsələlərə yönəlir. Tramp administrasiyasının *"America First"* siyasəti [2] və Bayden hökumətinin Rusiya ilə yanaşı Çinlə də rəqabətə üstünlük verməsi Cənubi Qafqaza olan diqqətin azalmasına səbəb olub [3]. Nəticədə, ABŞ regiondakı hərbi-siyasi iştirakını məhdudlaşdırıb və iqtisadi təsir vasitələrinə daha çox üstünlük verməyə başlayıb.

ABŞ-ın regiona marağının dəyişməsi xüsusilə Ermənistanla münasibətlərdə nəzərə çarpır. Bayden administrasiyası dövründə ABŞ Ermənistana daha çox demokratik institutların gücləndirilməsi, iqtisadi islahatlar və Qərbə inteqrasiyanın təşviqi üçün dəstək verib. Bununla yanaşı, geniş hərbi əməkdaşlıqlar və silah satışı reallaşıb. Lakin Trampın yenidən prezident seçilməsi fonunda ABŞ-Ermənistan münasibətləri qeyri-müəyyənliyə düşə bilər. 2016-2020 Tramp administrasiyası dövründə Ermənistan Vaşinqtonun prioritetləri sırasına daxil edilməmiş və diqqətdən kənarda qalmışdı [4]. Bu tendensiya gələcəkdə də davam edə bilər ki, bu da Ermənistanın yenidən Rusiyaya yaxınlaşmasına şərait yarada bilər. Rusiya artıq Ermənistanın Qərbə inteqrasiyasından narahatdır və bu ölkənin iqtisadi və təhlükəsizlik baxımından Moskvaya bağlılığını bərpa etmək üçün addımlar ata bilər. Ermənistanın KTMT-dən çıxmaq niyyəti və Qərblə əlaqələrini dərinləşdirmək istəyi Rusiyanın maraqlarına uyğun deyil və əgər ABŞ-ın dəstəyi azalarsa, Moskva İrəvana təzyiqlərini gücləndirəcək [5]. Belə bir vəziyyət ABŞ-ın Cənubi Qafqazda təsir imkanlarının məhdudlaşmasına gətirib çıxara bilər və Ermənistanın Qərblə yaxınlaşma cəhdlərini zəiflədə bilər.

ABŞ-ın Cənubi Qafqaz siyasətində dəyişməz qalan əsas prioritetlərdən biri İranla bağlı məsələlərdir. Vaşinqton İranın regionda artan təsirini məhdudlaşdırmaq üçün Azərbaycan və İsrail arasındakı strateji əməkdaşlığı dəstəkləyir. Azərbaycan-İsrail münasibətləri xüsusilə təhlükəsizlik və kəşfiyyat sahələrində dərinləşməkdədir və bu əməkdaşlıq ABŞ-ın regional maraqları ilə üst-üstə düşür. Azərbaycanın İsraildən hərbi texnologiyalar alması, İranla sərhəd bölgələrində təhlükəsizlik tədbirlərini gücləndirməsi və Tehranın Azərbaycana qarşı ritorikasına cavab olaraq Vaşinqtonun Bakı ilə əməkdaşlığı artırması gözlənilir [6]. Bununla yanaşı, ABŞ Azərbaycanla enerji sahəsində

əməkdaşlığı da gücləndirmək niyyətindədir. Cənub Qaz Dəhlizi və Azərbaycan qazının Avropaya nəqlinin artırılması Rusiyadan enerji asılılığını azaltmaq məqsədini daşıyır. ABŞ bu layihələri dəstəkləyərək Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu gücləndirmək istəyir. Uzunmüddətli perspektivdə ABŞ-ın Cənubi Qafqazda təsir imkanlarının qorunub-saxlanması İran və Rusiya ilə geosiyasi qarşıdurma çərçivəsində formalaşacaq və əsasən enerji və təhlükəsizlik sahələrində əməkdaşlıq vasitəsilə həyata keçiriləcək.

**Çin: iqtisadi ekspansiya və infrastruktur layihələri**

Çin Cənubi Qafqazda əsasən iqtisadi və infrastruktur layihələri vasitəsilə mövcudluğunu gücləndirməyə çalışır. Pekinin regiondakı əsas strategiyası ticarət və investisiyalar yolu ilə təsir dairəsini genişləndirmək və uzunmüddətli iqtisadi ekspansiya həyata keçirməkdən ibarətdir. Azərbaycan və Gürcüstan bu strategiyanın əsas hədəf ölkələri kimi çıxış edir, çünki hər iki dövlət Çin üçün mühüm tranzit və enerji qovşağı rolunu oynayır. Xüsusilə, Azərbaycan vasitəsilə Avropaya çıxışı təmin edən enerji marşrutlarına sərmayə yatırır və bu, Pekinin enerji təhlükəsizliyini təmin etməsinə və tədarük zəncirini şaxələndirməsinə imkan yaradır. Gürcüstan isə Çinin Qara dəniz limanlarına çıxışı baxımından əhəmiyyətlidir və bu səbəbdən, Pekin Batumi və Poti limanlarında logistika infrastrukturuna sərmayələr qoyur [7]. Beləliklə, Çin uzunmüddətli perspektivdə Cənubi Qafqazı qlobal ticarət marşrutlarının ayrılmaz hissəsinə çevirmək və burada dominant iqtisadi güc qazanmaq üçün strateji addımlar atır.

Çinin Cənubi Qafqazdakı iqtisadi təsirini artırmaq cəhdləri daha geniş qlobal rəqabət kontekstində baş verir. Afrika, Okeaniya və Şərqi Asiyada ABŞ-ın təsirini üstələyən Çin eyni mövqeni Cənubi Qafqazda da əldə etmək üçün səylərini gücləndirir. Pekin Rusiya və ABŞ arasında geosiyasi balansı qoruyaraq region dövlətləri üçün iqtisadi alternativ rolunu oynamağı hədəfləyir. Bu çərçivədə, Çin Cənubi Qafqaz ölkələrinə infrastruktur layihələri və uzunmüddətli kreditlər təklif edir ki, bu da onun regiondakı təsir dairəsini genişləndirir. Lakin bu strategiya yalnız iqtisadi deyil, eyni zamanda, siyasi nəticələr doğura bilər, çünki Pekinin maliyyə və texnologiya sahəsindəki dominantlığı tədricən region ölkələrinin qərar qəbuletmə mexanizmlərinə təsir etməyə başlayır. Çin artıq digər regionlarda, xüsusilə Afrikada və Cənub-Şərqi Asiyada bu modeldən istifadə edərək öz təsirini dərinləşdirmişdir. Eyni yanaşmanı Cənubi Qafqazda tətbiq edəcəyi ehtimalı yüksəkdir, çünki bu region geosiyasi baxımdan mühüm nəqliyyat və enerji qovşağıdır.

Çinin Cənubi Qafqazdakı əsas strategiyalarından biri Orta Dəhlizi gücləndirməkdir. Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Çin ilə Avropa arasında ticarət əlaqələrini daha səmərəli və təhlükəsiz etmək məqsədi güdür və Pekin bu marşrutu Avrasiya iqtisadi inteqrasiyasının əsas sütunlarından birinə çevirmək istəyir. Çin bu dəhlizi gücləndirməklə, həm Rusiya marşrutuna olan asılılığını azaltmaq, həm də ABŞ-ın regiondakı təsirini minimuma endirmək niyyətindədir. Lakin Vaşinqton Çinin Cənubi Qafqazda artan təsirini təhlükə kimi qiymətləndirir və bu təsirin qarşısını almaq üçün müxtəlif vasitələrdən istifadə edəcək. ABŞ xüsusilə Azərbaycan və Gürcüstan vasitəsilə Çinin regiondakı infrastruktur layihələrini məhdudlaşdırmağa və bu dövlətləri Qərbin iqtisadi təsir dairəsində saxlamağa çalışacaq. Beləliklə, gələcəkdə Cənubi Qafqaz Çin və ABŞ arasında iqtisadi və geosiyasi rəqabət meydanına çevrilə bilər ki, bu da regionun strateji əhəmiyyətini daha da artıracaq.

**Türkiyə: strateji müttəfiqlik və regional təsir**

Türkiyə Cənubi Qafqazda strateji mövqeyini Azərbaycanla olan müttəfiqlik əlaqələri çərçivəsində gücləndirməkdə davam edir. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi bu müttəfiqliyin hüquqi və təhlükəsizlik əsaslarını daha da möhkəmləndirmişdir. Sənəd Türkiyə və Azərbaycanın hərbi əməkdaşlığını yeni səviyyəyə qaldıraraq, qarşılıqlı müdafiə prinsiplərini və birgə fəaliyyət strategiyalarını müəyyənləşdirmişdir [8]. İkinci Qarabağ müharibəsindən sonra Ankara Bakı ilə diplomatik və hərbi sahələrdə daha sıx əməkdaşlığa başlayaraq, Azərbaycanın müdafiə sektorunun modernizasiyasında və hərbi potensialının artırılmasında mühüm rol oynayır.

Bununla yanaşı, Türkiyənin regiondakı siyasəti yalnız Azərbaycan-Ermənistan münasibətlərindəki dəyişikliklərə uyğun olaraq formalaşır. Ermənistanla normallaşma prosesi Ankaranın geosiyasi prioritetlərindən biri olsa da, bu prosesin irəliləməsi birbaşa Azərbaycan-Ermənistan münasibətlərinin inkişafı ilə bağlıdır. Yəni Türkiyə Ermənistanla əlaqələrin tam normallaşmasını yalnız Ermənistanın Azərbaycana qarşı münasibətində konstruktiv dəyişikliklər baş verməsi şərti ilə həyata keçirir. Beləliklə, Türkiyənin Cənubi Qafqaz strategiyası Bakı ilə tam sinxronlaşdırılmış şəkildə formalaşır və Azərbaycanla birlikdə regional sabitliyin və təhlükəsizliyin əsas təminatçılarından birinə çevrilir.

Ankara Cənubi Qafqazda hərbi, iqtisadi və mədəni təsirlərini balanslı şəkildə inkişaf etdirməyə çalışaraq, regionda uzunmüddətli təsirini gücləndirmək məqsədini güdür. Türkiyə hərbi sahədə Azərbaycanla birgə hərbi təlimlər keçirməklə yanaşı, Gürcüstanla da təhlükəsizlik əməkdaşlığını inkişaf etdirir. Ankara Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və digər regional infrastruktur layihələrində Azərbaycan və Gürcüstanla sıx iqtisadi əlaqələr qurmuşdur. Eyni zamanda, Türkiyə Cənubi Qafqazda mədəni təsirini gücləndirmək üçün təhsil və mədəniyyət sahələrində müxtəlif təşəbbüsləri dəstəkləyir, regionda türk dilinin yayılması və ortaq tarixi irsin qorunması istiqamətində addımlar atır. Bu strategiya Türkiyənin yumşaq gücünü artıraraq, regiondakı dövlətlərin Ankara ilə əlaqələrini daha da dərinləşdirməyə imkan yaradır. Uzunmüddətli perspektivdə Türkiyə Cənubi Qafqazda əsas geosiyasi aktorlardan biri olaraq qalacaq və Rusiyanın təsirini məhdudlaşdıran, Qərbin siyasətinə isə alternativ balans yaradan bir qüvvəyə çevriləcək.

Türkiyə Orta Dəhliz layihəsi çərçivəsində Azərbaycan və Gürcüstanla ticarət və nəqliyyat əlaqələrini daha da möhkəmləndirərək, regionda geoiqtisadi üstünlük əldə etməyə çalışır. Orta Dəhliz Çindən Avropaya yük daşımalarının təhlükəsiz və səmərəli marşrutunu təmin edir və Türkiyə bu tranzit yolunun əsas qovşaqlarından biri kimi çıxış edir. Bundan əlavə, Türkiyə Azərbaycanla birlikdə Zəngəzur dəhlizi layihəsini dəstəkləyərək, Ermənistan üzərindən keçən nəqliyyat marşrutunun açılmasını və regional iqtisadi inteqrasiyanın dərinləşməsini təşviq edir. Bu layihə yalnız iqtisadi deyil, həm də geosiyasi əhəmiyyət daşıyır, çünki Zəngəzur dəhlizinin reallaşması Cənubi Qafqazda Türkiyənin təsirini daha da artıracaq və regionda nəqliyyat kommunikasiyalarına nəzarəti Bakı və Ankara üçün əlverişli hala gətirəcək. Türkiyənin bu siyasəti həm Rusiyanın, həm də ABŞ-ın Cənubi Qafqazdakı təsirini neytrallaşdırmağa yönəlib. Moskvanın regiondakı nəzarət imkanlarını məhdudlaşdırmaq və Vaşinqtonun təsir dairəsini balanslaşdırmaq üçün Ankara Azərbaycan və Gürcüstanla əməkdaşlığı daha da gücləndirərək, Cənubi Qafqazda müstəqil və güclü geosiyasi mövqe formalaşdırmağa çalışır.

**Uzunmüddətli perspektivlər və böyük dövlətlərin müqayisəsi**

Cənubi Qafqazın uzunmüddətli perspektivləri böyük dövlətlərin strateji maraqlarına və geosiyasi rəqabətinə əsaslanır. Rusiya, ABŞ, Çin və Türkiyə regionda fərqli vasitələrlə təsir göstərməyə çalışır və onların siyasətləri bir-biri ilə toqquşa bilər. Bu güclərin yanaşmaları siyasi, hərbi və iqtisadi aspektlərdə fərqlənsə də, ümumi məqsəd bölgədə nüfuzlarını qorumaq və ya gücləndirməkdir. Uzunmüddətli perspektivdə bu rəqabət regionun geosiyasi dinamikasını müəyyənləşdirəcək və regional aktorların seçim imkanlarını formalaşdıracaq. Bunu aşağıdakı cədvəldə görmək mümkündür.

Böyük güclərin Cənubi Qafqaza uzunmüddətli perspektivdə yanaşmaları müxtəlif geosiyasi və iqtisadi maraqlara əsaslanır. Rusiya regionda ənənəvi təsirini qorumağa çalışaraq separatçı rejimləri dəstəkləyir, Ermənistan üzərində nəzarəti saxlamağa və Azərbaycanın enerji siyasətinə təsir etməyə çalışır. Bu strategiya Moskvanın postsovet məkanında dominantlığını qorumaq məqsədindən irəli gəlir. ABŞ isə əsasən Rusiyanın təsirini balanslaşdırmağa, Gürcüstanın NATO və Aİ-yə inteqrasiyasını təşviq etməyə və Azərbaycanla enerji əməkdaşlığını genişləndirməyə çalışır. Lakin ABŞ-ın regiondakı prioritetləri son illərdə dəyişmiş, Sakit Okean regionu və Çinlə rəqabət

daha ön plana keçmişdir. Çin Cənubi Qafqazda hərbi iştirakdan çəkinərək iqtisadi ekspansiyaya üstünlük verir, əsas diqqətini infrastruktur layihələrinə və Orta Dəhlizin gücləndirilməsinə yönəldir. Bu isə Pekinə regionda geosiyasi neytrallığı qoruyaraq Rusiya və ABŞ arasında balanslı siyasət aparmaq imkanı yaradır.

***Cədvəl 1.***

*Böyük dövlətlərin Cənubi Qafqaza yanaşmasının müqayisəli təhlili*

| Meyarlar | Rusiya | ABŞ | Çin | Türkiyə |
|---|---|---|---|---|
| **Siyasi Strategiya** | Geosiyasi status-kvonun qorunması, separatçı rejimlərin dəstəklənməsi | Rusiyanın təsirini balanslaşdırmaq, demokratiyanın təşviqi | Geosiyasi neytrallıq, iqtisadi təsirin artırılması | Azərbaycan ilə strateji müttəfiqlik, Ermənistanla normallaşma |
| **Hərbi Yanaşma** | KTMT vasitəsilə təsir, Gümrüdə hərbi baza | Gürcüstan və Ermənistanla hərbi əməkdaşlıq, silah tədarükü | Hərbi iştirak yoxdur, ancaq texnoloji nüfuz artır | Azərbaycanla hərbi əməkdaşlıq, ortaq təlimlər |
| **İqtisadi Siyasət** | Enerji nəzarəti, Rusiya bazarına inteqrasiya | Azərbaycan və Gürcüstanla enerji əməkdaşlığı | İnfrastruktur və nəqliyyat yatırımları, Orta Dəhliz | Orta Dəhliz və Zəngəzur dəhlizinin inkişafı |
| **Regional Tərəfdaşlar** | Separatçı rejimlər, Ermənistan, qismən Azərbaycan | Ermənistan, qismən Azərbaycan, qismən Gürcüstan | Azərbaycan, Gürcüstan, qismən Ermənistan | Azərbaycan, Gürcüstan |
| **Əsas Hədəflər** | NATO və Aİ-nin genişlənməsinin qarşısını almaq | İranın təsirini məhdudlaşdırmaq, enerji təhlükəsizliyi | Avropa ilə ticarət marşrutlarını gücləndirmək | Türk dünyasını birləşdirmək, Rusiya və ABŞ-ın təsirini balanslaşdırmaq |
| **Mümkün Təhlükələr** | Türkiyənin artan təsiri, Ermənistanın Qərbə yönəlməsi | Tramp dövründə siyasətin dəyişməsi, Çinin təsiri | ABŞ-ın və qismən Rusiyanın manеələri | Ermənistanla normallaşma prosesinə qarşı İran və Rusiyanın müqaviməti |

Türkiyə Cənubi Qafqazda Azərbaycan ilə strateji müttəfiqliyini gücləndirərək regionda hərbi, iqtisadi və siyasi təsirini balanslı şəkildə artırmağa çalışır. Ankara Orta Dəhliz və Zəngəzur dəhlizi layihələri vasitəsilə regionun nəqliyyat infrastrukturunda aparıcı aktora çevrilmək istəyir. Eyni zamanda, Ermənistanla normallaşma prosesi yalnız Azərbaycan-Ermənistan münasibətləri ilə paralel şəkildə inkişaf edir. Bu yanaşma Türkiyənin Cənubi Qafqazda müstəqil və güclü geosiyasi mövqe əldə etmək strategiyasının tərkib hissəsidir. Rusiya və ABŞ-ın təsirini balanslaşdırmaq, Azərbaycanın təhlükəsizliyini təmin etmək və türk dünyasını birləşdirmək Türkiyənin əsas prioritetləri arasındadır. Lakin Ermənistanla münasibətlərin gələcəyi və Rusiyanın bölgədəki manevrləri Ankaranın siyasətində dəyişikliklər yarada biləcək amillər kimi qalır. Bütün bu proseslər Cənubi Qafqazı gələcəkdə də geosiyasi rəqabətin mühüm mərkəzlərindən biri kimi saxlamağa davam edəcək.

**Nəticə.** Tədqiqatımızın nəticələrinə səasən, Cənubi Qafqazın uzunmüddətli geosiyasi mənzərəsi böyük güclərin regiona fərqli yanaşmaları və onların strateji hədəfləri çərçivəsində formalaşır. Rusiya geosiyasi status-kvonun qorunmasına çalışsa da, regionda dəyişən güc balansı

onun təsir imkanlarını məhdudlaşdırır və Moskvanın daha adaptiv siyasət yürütməsini zəruri edir. ABŞ üçün Cənubi Qafqazın strateji əhəmiyyəti regional rəqabətin qlobal prioritetlər qarşısında ikinci plana keçməsi ilə nisbi azalma tendensiyası göstərir, lakin enerji və təhlükəsizlik məsələlərində təsirini qorumağa çalışır. Çin iqtisadi ekspansiya və infrastruktur layihələri vasitəsilə regionda dominantlıq yaratmağa çalışsa da, bu strategiyanın davamlılığı ABŞ və Rusiyanın müqavimətindən asılı olacaq. Türkiyə isə hərbi, siyasi və iqtisadi təsirini balanslı şəkildə genişləndirərək, Cənubi Qafqazda mövqeyini gücləndirmək və Rusiya-ABŞ rəqabətinin yaratdığı boşluqlardan istifadə etməklə regional dinamikanın əsas formalaşdırıcılarından birinə çevrilməkdədir. Nəticə etibarilə, Cənubi Qafqaz yaxın gələcəkdə geosiyasi sabitlikdən daha çox, müxtəlif güc mərkəzlərinin rəqabəti və qarşılıqlı təsirləri ilə formalaşan dinamik və dəyişkən bir strateji mühit olaraq qalacaq.

## Ədəbiyyat

[1]. Yılmazkuday, H. Geopolitical risks and energy uncertainty: Implications for global and domestic energy prices. Energy Economics, Volume 140, December 2024. https://doi.org/10.1016/j.eneco.2024.107985

[2]. President Trump's America First Priorities. White House. January 20, 2025. URL: https://www.whitehouse.gov/briefings-statements/2025/01/president-trumps-america-first-priorities/

[3]. O'Neil S. K. and Huesa, J. What Trump's Trade War Would Mean, in Nine Charts. February 5, 2025. URL: https://www.cfr.org/article/what-trumps-trade-war-would-mean-nine-charts

[4]. Avetisyan, A. What Trump's return means for Armenia and the South Caucasus. November 6, 2024. URL: https://www.intellinews.com/what-trump-s-return-means-for-armenia-and-the-south-caucasus-352040/

[5]. Dilqəmli, N. Ermənistan KTMT-dən çıxır? 16.04.2022. URL: https://www.yeniazerbaycan.com/Siyaset_e68134_az.html

[6]. Oqtay, N. İsrail və Azərbaycan: "Mehriban münasibətlər və gələcək perspektivlər". May 29, 2023. URL: https://report.az/analitika/israil-ve-azerbaycan-mehriban-munasibetler-ve-gelecek-perspektivler/

[7]. A delegation from the Chinese Railway visited the Batumi sea port. 05.12.2023. URL: https://www.batumiport.com/news-view/45

[8]. Qaçayev, R. Şuşa Bəyannaməsin iqtisadi əhəmiyyəti. 10.06.2023. URL: https://www.qanunla.az/susa-beyannamesin-iqtisadi-ehemiyyeti/

### Summary

**Comparative analysis of major powers' approaches to the long-term prospects of the South Caucasus**

***Ismayilova V.Z.***

***Keywords:*** *South Caucasus, geopolitics, Russia, USA, China, Turkey.*

The study analyzes the long-term prospects of the South Caucasus and compares the approaches of major powers – Russia, the United States, China, and Turkey – towards the region. Russia seeks to maintain the geopolitical status quo, the US aims to balance Russia's influence, while China primarily focuses on economic expansion. Turkey, on the other hand, strengthens its regional influence through strategic partnership with Azerbaijan. The study employs a comparative analysis method to examine the impact of geopolitical rivalry on the region's development and assesses how the policies of these powers may influence the security and stability of the South Caucasus in the future.

**Резюме**

**Сравнительный анализ подходов крупных держав к долгосрочным перспективам Южного Кавказа**

***Исмаилова В.З.***

***Ключевые слова:*** *Южный Кавказ, геополитика, Россия, США, Китай, Турция.*

Исследование анализирует долгосрочные перспективы Южного Кавказа и сравнивает подходы крупных держав – России, США, Китая и Турции – к региону. Россия стремится сохранить геополитический статус-кво, США пытаются сбалансировать влияние России, а Китай сосредоточен в основном на экономической экспансии. Турция, в свою очередь, укрепляет своё региональное влияние в рамках стратегического партнёрства с Азербайджаном. В исследовании используется метод сравнительного анализа, изучаются последствия геополитического соперничества для развития региона, а также анализируется, как политика этих держав может повлиять на безопасность и стабильность Южного Кавказа в будущем.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 327.** DOI 10.54758/16801245_2026_22_1_60

# Əlilllərin sosial müdafiəsinin hüquqi tənzimlənməsi

**Nəbiyeva Yeganə İslam qızı** **ORCID 0009-0004-2600-2431**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, müəllim*
*yegana.nabiyeva73@sdu.edu.az*

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 03.04.2024*
*Düzəliş tarixi: 23.09.2024*
*Qəbulolunma tarixi: 03.12.2025*

***Açar sözlər***
*əlilllər, sosial müdafiə, reabilitasiya, hüquqi tənzimlənmə, BMT Konvensiyası, Konstitusiya*

**XÜLASƏ**

*Məqalədə əlil vətəndaşların sosial müdafiəsinin təmin edilməsi və hüquqlarının qorunması üçün mövcud hüquqi və qanunvericilik aktları nəzərdən keçirilir. Eyni zamanda, həmin kateqoriyaya mənsub insanların təhsil və iş hüquqları, tibbi xidmət və sosial təminatlara əlçatanlığının yüsəldilməsi ilə əlaqəli bir sıra hüquqi təşəbbüslər işıqlandırılır. Sonda qeyd edilir ki, əlillərin bərabərhüquqlu vətəndaş kimi cəmiyyətə fəal inteqrasiyasını və yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün hüquqi tənzimlənmənin daha da inkişaf etdirilməsi vacib şərtdir*

Əlilliyi olan şəxs-sağlamlıq vəziyyəti ilə əlaqədar orqan funksiyalarının davamlı pozulması, xəstəliklər, yaralanmalar (xəsarət, travma, sarsıntı və s.) nəticəsində həyat fəaliyyətində məhdudiyyətlər yaranan və bu səbəbdən sosial müdafiəyə ehtiyacı olan şəxsdir.

Əllilərin sosial müdafiəsi sosial, xeyriyyə yardımı, tibbi, peşə reabilitasyası, təhsilə çıxışın əldə edilməsi, bir sözlə, əlil insanların cəmiyyət həyatında digər vətəndaşlarla bərabərhüquqlu şəkildə iştirak etməsi üçün imkanların yaradılmasını nəzərdə tutan tədbirlər kompleksidir [5]. Buraya reabiltasiya, dövlət tərəfindən nağd ödənişlər (sosial müavinətlər, ünvanlı dövlət sosial yardımı, xüsusi dövlət müavinətləri) şəklində sosial dəstək daxildir. Əlillərin müdafiəsinin hüquqi tənzimlənməsi onların tam şəkildə cəmiyyətə inteqrasiyasına və bütün hüquqlarının təmin edilməsinə yol açır ki, bu da dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Əlil qrupuna aid vətəndaşlara yönləndirilmiş sosial müdafiə və yardımın dövlət-hüquqi əsasları ölkə Konstitusiyası, qanunlarla, hökumət qərarları ilə, yerli özünüidarəetmə orqanlarının normativ sənədləri ilə, eləcə də beynəlxalq öhdəlik və müqavilələrlə tənzimlənir.

1992-ci il may ayının 5-də dünyanın 17 ölkəsindən olan əlil şəxslər ümumdünya bərabər hüquqlar uğrunda ilk mübarizə gününü keçirtdilər. Onlar fiziki imkanları məhdud şəxslərə qarşı diskriminasiya halları ilə mübarizə aparırdılar. Onların bu təşəbbüsü bir çox ölkələr, o cümlədən Azərbaycan tərəfindən dəstəkləndi. O zamandan etibarən hər il mayın 5-i Beynəlxalq Əlillərin Hüquqları Uğrunda Mübarizə Günü kimi qeyd olunur ki, "Əlil şəxs cəmiyyətin bərabərhüquqlu üzvüdür" ideyası da onun əsas qayəsini təşkil edir[8].

14 ildən sonra, 2006-cı il dekabrın 13-də BMT Baş Assambleyası tərəfindən Əlillərin Hüquqları Haqqında Konvensiya qəbul edildı. Bu Konvensiya əlillərə münasibət və əlillik probleminə yanaşma məsələlərində "ənənəvi stereotiplərin dəyişməsini" bəşəriyyətin diqqətinə çatdırdı. Bu yeni yanaşmaya görə, əvvəllər əlil insanlara xeyriyyəçilik, tibbi-müalicə və sosial müdafiənin yalnız "quruca obyekti" kimi baxılırdısa, indi artıq onlar tam hüquqlara malik olan, bu hüquqların müdafiəsinə, öz həyatları ilə bağlı müstəqil şəkildə qərar verməyə və cəmiyyət həyatında fəal iştrak etməyə qadir olan "subyektlərə" çevrilmişlər. Konvensiya məhz həmin hüquqların müdafiəsinə həsr edilmiş əsas rəsmi beynəlxalq sənəd kimi hazırlanmışdı. O, əlilliyi

olan şəxslərin geniş təsnifatını müəyyənləşdirərək təsdiqlədi ki, hər hansı formada əlilliyi olan şəxslərin hamısı bütün insan hüquq və azadlıqlarından müstəqil şəkildə istifadə edə bilməlidir. Konvensiyanın əsas müddəaları aşağıdakılardır:

1. *Ləyaqət və bərabərlyin tanınması*. Konvensiya hər bir insanın, o cümlədən əlillərin şərəf və ləyaqətinə hörmət hissini və bərabərhüquqlu vətəndaşlıq hüququnu dəstəkləyir;
2. *Diskriminasiya (ayrıseçkilik) və qanun qarşısında bərabərlik*. Əlillər digər insanların hüquqları ilə eyni hüquqlara malik olmalı, heç bir diskriminasiya (ayrıseçkilik) halı ilə qarşılaşmamalıdırlar;
3. *Həyat və təhlükəsizlik hüququ*. Konvensiya əlillərin həyatını və şəxsi təhlükəsizliyini təmin edir, hamçinin zorakılıq və istismar hallarından qorunmalarını təmin edir;
4. *İctimai və siyasi həyatda iştirak*. Əlillərin ictimai və siyasi həyatda, o cümlədən seçkilərdə iştirak etmək və seçilmək hüququ vardır;
5. *Əlçatanlıq*. Konvensiya əlillər üçün binaların, nəqliyyatın və məlumatların əlçatanlığını tələb edir və onların təhsil və səhiyyə xidmətlərinə rahat çıxışını təmin edir;
6. *Təhsil*. Konvensiya əlillərin təhsil sahəsində bərabər imkanlara malik olmasını, o cümlədən inklüziv təhsil tətbiqini təmin edir;
7. *İş və məşğulluq*. Konvensiyaya görə əlillər bərabərhüquqlu vətəndaş kimi iş tapmaq, peşə hazırlığı və karyera inkişafı imkanlarına sahib olmalı və ədalətli əməkhaqqı ilə təmin edilməlidir;
8. *Səhiyyə*. Əlillərin tibbi xidmətlər və xüsusi dəstək sahəsində bərabər hüquqları tanınır;
9. *Sosial müdafiə*. Əlillərə həyatlarını normal təmin etmək üçün sosial xidmət və yardım göstərilməlidir (müavinət və digər sosial ödənişlər də daxil olmaqla);
10. *Əlil uşaqlar*. Konvensiya əlil uşaqların hüquqlarını xüsusi olaraq qoruyur və onların inkişafını, təhsilini və cəmiyyətə inteqrasiyasını təmin edir;
11. *Monitorinq və hesabatlılıq*. Bu müddəa Konvensiyanın icrasını izləyən və üzv dövlətlərin öz öhdəliklərini yerinə yetirməsini təmin edən Əlillərin Hüquqları üzrə Komitənin yaradılmasını nəzərdə tutur [7].

Göründüyü kimi, bu müddəalar əlillərin cəmiyyətə inteqrasiyasını və inklüzivliyini təmin etmək və onlara qarşı hər hansı bir diskriminasiya (ayrıseçkilik) halını aradan qaldırmaq məqsədini qarşıya qoyur. Bundan əlavə, Avropa İttifaqı çərçivəsində 2010-2020-ci illər ərzində əlillər üçün Avropa fəaliyyət strategiyası həyata keçirilmişdir. Bu strategiya da əlil insanların həyat səviyyəsinin yüksəldilməsi və fəal sosial inteqrasiyasının təmin edilməsi məqsədini daşıyırdı.

Adları çəkiən beynəlxalq səviyyəli sənədlərdən başqa, digərləri də mövcud olmuşdur:

- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948) hər bir insanın, o cümlədən əlillərin həyat, azadlıq və təhlükəsizlik hüquqlarını və bu hüquqlardan istifadə etməsini təsbit edir;
- İrqi Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya (1965) əlillərin irqi ayrıseçkilikdən qorunması ilə başlı qəbul etmişdir.
- Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt (1966) əlillərin də hüquqlarını qorumaqla yanaşı, onların ictimai və siyasi həyatda iştirak etmək hüququnu təsbit edir;

Dünyanın bir çox ölkəsi kimi Azərbaycan Respublikası da 2006-cı il Konvensiyasına qoşulmuş (2008-ci il 2 oktyabr tarixli 687-IIIQ saylı qanunla), əlil vətəndaşların cəmiyyət həyatına tam inteqrasiyasını təmin etmək və sosial-iqtisadi hüquqlarının qorunması öhdəliyini üzərinə götürmüşdür. Təsadüfi deyildir ki, əlilliyin qarşısının alınması, əlillərə tibbi yardım göstərilməsi, onların reabilitasiyası, cəmiyyətə inteqrasiyası və sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm istiqamətlərindən hesab edilir.

1992-ci il avqust ayının 25-də 284 saylı "Sağlamlıq imkanları məhdud uşaqların və əlillərin reabilitasiyası və sosial müdafiəsi" haqqında" Azərbaycan Respublikasının Qanunu ölkənin öz müstəqilliyini bərpa etməsindən sonra qəbul etdiyi ilk rəsmi qanundur. Həmin qanunda əlillyi olan

şəxslərin reabilitasiya mərkəzlərindən, müxtəlif sosial xidmətlərdən, təbii şəraitə uyğun infrastrukturdan faydalanması ilə əlaqəli olan tədbirlər planı nəzərdə tutulmuşdur [4].

1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının (həmçinin 2016-cı ildən sonra edilən dəyişikliklər) "Bərabərlik hüququ" adlanan 25-ci maddəsində deyilir: "Azərbaycan Respublikası ərazisində yaşayan bütün vətəndaşlar irqindən, cinsindən, dilindən, dinindən, əqidəsindən, milliyyətindən, sosial mənsubiyyətindən, cəmiyyətdəki mövqeyindən, mülkiyyət vəziyyətindən, fəaliyyət növündən, yaşadığı yerdən və digər şəraitlərdən asılı olmayaraq qanun qarşısında bərabər hüquq və azadlıqlara malikdir [6]. Bu, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə istiqamətləndirilmiş qanunvericiliyin əsas prinsiplərindən idi.

Bunlardan əlavə, Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli 360-IQ saylı "Əhainin sağlamlığının qorunması haqqında" Qanun tibbi xidmətə çıxışı tənzimləməklə bərabər, əlilliyi olan şəxslərin diaqnostika, müalicə və reabilitasiya da daxil olmaqla pulsuz tibbi xidmət, tibb müəssisisələrinə əlçatanlıq hüququna malik olması qaydalarını təyin edir [1].

Azərbaycan Respublikasının 1 fevral 1999-cu il tarixli 618-IQ saylı Qanunu ilə təsdiq olunmuş Əmək Məcəlləsi əlil şəxslərin digər vətəndaşlarla bərabər əsasda işləmək hüququnu təsbit edir. Qey edilir ki, əlillər yalnız əllilliklərinə görə işdən kənarlaşdırıla, yaxud da işə qəbul zamanı diskriminasiyaya məruz qala bilməzlər. Bütün vətəndaşlar, o cümlədən əlillər öz peşə ixtisasları çərçivəsində sərbəst olaraq ixtisas, fəaliyyət növü və iş yeri seçmək hüququna malikdir.

Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli 54-IIQ saylı "Əmək pensiyaları haqqında" Qanunu (19.04.2024-cü il tarixinə olan dəyişiklik və əlavələrlə) pensiyaların verilməsi məsələlərini, o cümlədən əlillik pensiyalarını tənzimləyir. Bu qanun əlillik dərəcəsi və sosial statusundan asılı olaraq əlillər üçün pensiya təminatının, xüsusən də sosial pensiya sisteminin səmərəli tətbiqini təsbit edir. Adları çəkilən bu qanun və prinsiplərdən əlavə, əlil vətəndaşların hüquq və sosial müdafiəsini tənzimləyən digər hüquqi-normativ aktlar, müxtəlif proqram və qanunlar da fəaliyyət göstərməkdədir. Göründüyü kimi, Azərbaycan Respublikasında əlillərin sosial müdafiəsi sistemi bir neçə əsas prinsip üzərində qurulmuşdur:

1. Əlill şəxslərin hüquq bərabərliyi;
2. İnklüzivlik;
3. Əməyin mühafizəsi;
4. Sosial dəstək[6].

Yuxarıda deyildiyi kimi, cəmiyyətin həssas təbəqəsi sayılan əlil şəxslərin sosial müdafiəsi dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Ölkəmizin qəbul etdiyi qanun, proqram və hüquqi-normativ aktlar, qoşulduğu beynəlxalq müqavilələr və sosial müdafiə proqramları əlil vətəndaşların hüquqlarının qorunması və onların cəmiyyət həyatına inteqrasiyası baxımından böyük əhəmiyyətə malikdir. Bununla bərabər, həmin insanların rastlaşdıqları problemlərin həll olunmsı üçün sosial xidmətlərin keyfiyyəti daha çox artırılmalı, əlillərin hüquqlarına böyük diqqət verilməlidir. Çünki onlar da cəmiyyətin hər bir üzvü ilə bərabər hüquqlara malik olmalı və tamhüquqlu vətəndaş kimi yaşamalıdır.

**Ədəbiyyat**

[1]. Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti / H.Rəcəbli, –Bakı: MBM, –20l2, –408 s.
[2]. Əsgərov, Z.A. Konstitusiya hüququ / Z.A.Əsgərov, –Bakı: Bakı Universiteti, –2011. –760 s.
[3]. Sosial xidmət haqqında. Azərbaycan Respublikasının Qanunu // –Bakı, 30 dekabr, –2011.
[4]. Азербайджанские известия // Ежедневная общественно-политическая газета, –2016, 5 мая, –с.3.

[5]. Аймагамбетов, Е.Б., Развитие системы социальной защиты лиц с ограниченными возможностями / Е.Б.Аймагамбетов, А.А.Алимбаев, Т.Т.Притворова –Караганда, (Казахстан): Типография КЭУ Казпотребсоюза, –2012. – 382 с.
[6]. Право социального обеспечения. Общая часть: учебник / коллектив авторов ; под ред. М.О. Буяновой. –Москва : КНОРУС, –2021. –224 с.
[7]. Краткое изложение Конвенции ООН о правах инвалидов. –2006.
[8]. «О профилактике инвалидности и ограничения возможностей здоровья детей, реабилитации и социальной защите инвалидов" // Закон Азербайджанской Республики от 25 августа 1992 года .

**Summary**

**The legal regulation of social protection for people with disabilities**

***Nabiyeva Y.I.***

***Key words**: disabled people, social policy, rehabilitation, legal regulation, UN Convention , constitution*

The article reviews the existing legal and legislative acts aimed at ensuring the social protection and safeguarding the rights of disabled citizens. It also highlights a number of legal initiatives related to improving access to education and employment, as well as medical services and social security for this category of people. In conclusion, it is emphasized that further development of legal regulation is essential to improve the living standards of disabled individuals and ensure their active integration into society as equal citizens.

**Резюме**

**Правовое регулирование социальной защиты инвалидов**

***Набиева Е.И.***

***Ключевые слова**: инвалиды, социальная политика, реабилитация, правовое регулирование, Конвенция ООН, Конституция*

В статье рассматриваются существующие юридические и законодательные акты, направленные на обеспечение социальной защиты и защиту прав инвалидов. Также освещаются различные юридические инициативы, связанные с улучшением доступа к образованию и трудоустройству, медицинским услугам и социальному обеспечению для данной категории граждан. В заключении подчеркивается, что для улучшения уровня жизни инвалидов и их активной интеграции в общество как равноправных граждан необходимо дальнейшее развитие правового регулирования.

Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)
journal homepage: www.ssu-scientificnews.edu.az

UOT 331. DOI 10.54758/16801245_2026_22_1_64

# Regionların sosial-iqtisadi inkişafının idarə edilməsi (Şərqi Avropa ölkələri timsalında)

**Hümbətəliyeva Səadət Əsgər qızı** ORCID 0000-0003-2165-038X

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, i.f.d., dosent*
saadat.humbataliyeva@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 15.07.2025*
*Düzəliş tarixi: 26.10.2025*
*Qəbulolunma tarixi: 20.12.2025*

***Açar sözlər***
*qloballaşma, antiböhran tədbirləri, ixrac, iqtisadi azadlıq indeksi, sosial yönümlü iqtisadiyyat*

**XÜLASƏ**

*Bu məqalənin əsas məqsədi Şərqi Avropa ölkələrində sosial-iqtisadi sahənin idarə edilməsində əsas tendensiyaları tədqiq etməkdir. İstifadə olunan tədqiqat metodologiyası idrakın ümumi elmi üsullarını, o cümlədən məntiqi və struktur təhlili, müqayisə, nəzəri modelləşdirmə, abstraksiya, induksiya və deduksiyanı əhatə edirdi. Bundan əlavə, araşdırma zamanı nəzəri məlumatların dəqiqləşdirilməsi, ümumiləşdirilməsi və rəsmiləşdirilməsi, eləcə də cədvəl və qrafik şərhi kimi üsullardan istifadə edilmişdir. Tədqiqatda Şərqi Avropa ölkələrində böhrandan sonrakı dövrdə sosial və iqtisadi inkişaf meylləri araşdırılır*

## Giriş

Sosial-iqtisadi inkişafın qlobal idarəçiliyində üstünlük təşkil edən paradiqma iqtisadiyyatın transformasiyası və modernləşdirilməsini əhatə edən proseslərin icrasını tələb edir. Bu imperativ bazar mexanizmlərinin və sosial-iqtisadi münasibətlərin milli xüsusiyyətlərini nəzərə almaq, qlobal bazar qanunlarına tabe olmağın qəbul edilməsi zərurətini vurğulayır. Keçid dövrünü yaşayan ölkələrin qlobal iqtisadi proseslərə inteqrasiya dərəcəsi onların dinamik inkişaf və uyğunlaşma qabiliyyətindən, struktur modernləşməyə can atmasından, milli iqtisadi sistem daxilində daxili potensialın səriştəli təhlilindən və qlobal bazarın tələblərinə cavab verməsindən asılıdır.

Şərqi Avropa ölkələrinin sosial-iqtisadi inkişafı üçün struktur dəyişiklikləri və milli strategiyaları ilə bağlı məsələlər elmi müzakirələrdə ardıcıl diqqət mərkəzində olmuşdur [8]. Çoxsaylı elmi nəşrlər keçid dövlətlərində iqtisadi prosesləri optimallaşdırmaq üçün istifadə olunan vasitələrin mahiyyətini, prinsiplərini və effektivliyinin təhlilini izah etməyə həsr edilmişdir. Bəzi tədqiqatçılar [6, s.42] xüsusi diqqəti tədqiq olunan sahədə transformasiyalar üçün əsas müddəa kimi sosial və iqtisadi göstəricilərin yaxınlaşmasına yönəldirlər. Alternativ perspektivlər digər alimlər tərəfindən təqdim olunur [3, s.25], onlar mənfi amillərin təsirinin əsas hissəsinin balanslaşdırılmış davamlı inkişaf prinsipləri ilə sinergiyadan məhrum olan bazar inkişafında olduğunu iddia edirlər. Bu çatışmazlıq innovativ texnoloji həllərdən istifadə etmək və möhkəm iqtisadi əlaqələr qurmaq iqtidarının olmaması ilə xarakterizə olunur. Digər tədqiqatçıların fikirləri sosial-iqtisadi proseslərdə qeyri-mütənasiblik fenomeninin təhlilini əhatə edir. Bu qeyri-mütənasibliyin kökündə kreditləşmənin mürəkkəbliyi və qiymət siyasətinin liberallaşdırılması, dövlət tənzimlənməsinin zəifləməsi və inflyasiyanın yüksəlməsi dayanır.

## Şərqi Avropa ölkələrində sosial-iqtisadi inkişaf alətləri

Müasir sosial-iqtisadi inkişafın paradiqması istifadə edilə bilən regional resursların və ehtiyatların məqsədyönlü və üzvi irəliləyişini nəzərdə tutur. Bu istifadə sosial sabitliyin möhkəmləndirilməsi, həyat səviyyəsinin və iqtisadi sektorların səmərəliliyinin yüksəldilməsi,

həmçinin insan kapitalının təkrar istehsalının gücləndirilməsi məqsədi ilə həyata keçirilir. Kollektiv olaraq, bu səylər əhali üçün mövcud seçimlərin genişlənməsinə kömək edir. Sosial-iqtisadi inkişaf konkret maliyyə alətlərinin fəaliyyətini zəruri edən inteqrasiya olunmuş və strukturlaşdırılmış mexanizm kimi qəbul edilir. Sosial-iqtisadi inkişafda ən effektiv layihələr Şərqi Avropa ölkələrinin inkişaf trayektoriyası ilə yanaşı açıqlıq, inteqrasiya və əməkdaşlıq prinsiplərinə əsaslanan layihələrdir. Müsbət dinamikaya töhfə verən amillər arasında ilk növbədə hakimiyyətin və idarəetmə fəaliyyətinin qeyri-mərkəzləşdirilməsi islahatıdır. Bu islahat ayırma səmərəliliyinin artırılmasına, rəqabətin gücləndirilməsinə və sosial-iqtisadi inkişaf proqramlarının regionun spesifik ehtiyaclarına uyğunlaşdırılmasına xidmət edir. Fiskal qeyri-mərkəzləşdirmənin uğurla həyata keçirilməsi iqtisadi potensialın artırılması və investisiya fəaliyyətinin intensivləşdirilməsi üçün əlverişli şərait yaradır. Şərqi Avropa ölkələrinin sosial-iqtisadi transformasiyasının ümumi konseptuallaşdırılmasına baxmayaraq, böhran hadisələrinin aktual prosesləri fərqli variasiyalar göstərdi. Maliyyə sisteminin vəziyyəti və ölkənin iqtisadi açıqlıq dərəcəsi ilk növbədə müəyyənedici göstəricilər rolunu oynamışdır [5, s.902]. Mənfi iqtisadi hadisələrə qarşı mübarizə səylərindən irəli gələn sosial-iqtisadi nəticələr də nəzərəçarpacaq təzadlar nümayiş etdirdi. Şərqi Avropada sosial-iqtisadi transformasiyanın mərhələli alqoritmi, mövcud bazar disbalansına baxmayaraq, regionun əksər ölkələrinin inkişaf etmiş dövlətlər birliyinə sürətlə inteqrasiyası üçün şərait yaratdı. İqtisadi artıma Aİ banklarının aktiv xarici kreditləşməsi və milli əmanətlərin sürətlə genişlənməsi təkan verdi. Tədqiq olunan ölkələrin iqtisadiyyatlarında açıqlığın nisbətən yüksək dərəcəsi milli məhsulların ilkin bazarlarında hökm sürən şərtlərdən asılılıq yaradır. Genişmiqyaslı iqtisadi böhranların əhəmiyyətli mənfi təsirlərinə baxmayaraq, onun nəticələri hazırda Yunanıstan, İspaniya və ya İtaliya ilə müqayisədə Şərqi Avropa ölkələrinin əksəriyyətində (Macarıstan, Slovakiya, Polşa, Çexiya, Rumıniya) daha az nəzərə çarpır. Bu uyğunsuzluq, son qrup ölkələrdə böhranın təsirinə qarşı mübarizə üçün hökumətin reaksiyalarının qeyri-adekvatlığı ilə əlaqələndirilir. Eyni zamanda, iqtisadi böhranın aradan qaldırılması üçün strategiyaya daxil edilmiş fundamental tədbirlər vergi öhdəliklərinin həm müxtəlifliyinin və miqyasının artırılmasını, həm də dövlət sektorunda islahatların aparılmasını nəzərdə tuturdu. Məsələn, Polşa yüksək səviyyədə istehlak tələbini effektiv şəkildə stimullaşdırmaqla məcmu daxili tələbin azalmasının qarşısını aldı. Eyni zamanda, Rumıniyanın anti-böhran planı iş yerlərinin yaradılması üçün stimullarla dəstəklənirdi, şirkətlər hər yeni yaradılmış iş üçün 1000 avro alırdılar [9]. Beləliklə, Şərqi Avropa ölkələrinin sosial-iqtisadi inkişafında müşahidə olunan əlverişli tendensiyaların əsas katalizatoru olan inteqrasiya modellərinin timsalında təcəssüm olunmuş innovasiyaların inkişafı strategiyasının dərin transformasiyası olmuşdur.

Şərqi Avropa regionunda mövcud idarəetmə sisteminin yaradılmasına zəmin yaradan köklü sosial-iqtisadi transformasiya mərhələsində silsilə tədbirlər həyata keçirilmişdir. Bu prosesin əsas komponentlərinə dövlət əmlakının aktiv özəlləşdirilməsi, eyni zamanda bu sektorun vasitəçilik rolunun maksimum dərəcədə artırılması, inflyasiyaya nəzarət, büdcədə kəsirin azaldılması və güzəştli vergitutma sisteminin tətbiqi yolu ilə ixracın stimullaşdırılması daxildir. Bəzi ölkələrdə (məsələn, Macarıstan) büdcə kəsirinin maliyyələşdirilməsi imkanlarının məhdud olması səbəbindən dərin tənəzzül mərhələsində fiskal siyasət sərtləşdirilməli oldu ki, bu da tənəzzülün təsirini artırmaq üçün əsaslı büdcə sekvestrinin həyata keçirilməsinə səbəb oldu. Şərqi Avropa ölkələrinin, xüsusən də Polşanın, Çexiyanın və müəyyən dərəcədə Macarıstan, Bolqarıstan və digər regionların təcrübəsi sistemli transformasiyalar və sosial yönümlü iqtisadiyyatın əsaslarının yaradılması yolu ilə Avropa Birliyinə inteqrasiya perspektivlərini nümunə göstərir. Əsas transformasiya ilk növbədə sosial-iqtisadi proseslərin idarə olunması paradiqmasında dövlət sektorunun rolunun dinamikasına təsir göstərmişdir, müəyyən edilmiş inkişaf məqsədləri rəqabət qabiliyyətinin artırılması, yüksək məşğulluğun təmin edilməsi və sosial standartların təmin edilməsinə yönəlmişdir. Bazar islahatlarının mərhələli şəkildə həyata keçirilməsi sosial-iqtisadi mühitin optimallaşdırılması

uğurunun ilkin şərti olmuşdur. Macarıstan, Çexiya və Slovakiya bu konseptual modelin daxili transformasiyalar vasitəsilə effektiv həyata keçirilməsinə misaldır [7, s.186]. Eyni zamanda, əksər ölkələrdə bazar islahatlarının sosial nəticələri mənfi qütblülük nümayiş etdirmişdir. Bu neqativlik dövlətin sosial funksiyasının minimuma endirilməsi və əhalinin bazar transformasiyalarına psixoloji hazırlığının yetərincə olmaması ilə əlaqələndirilir.

Qlobal maliyyə böhranı Polşa, Çexiya və Macarıstanın iqtisadiyyatlarına təsir edən mühüm amil kimi ortaya çıxdı. Avro böhranı ilə birlikdə məcburi büdcə məhdudiyyətləri siyasətinin həyata keçirilməsi gəlirlərin azalmasına, sosial bərabərsizliyə, etnik və dini münaqişələrin potensialına dolayısı ilə töhfə verməklə sabitliyi pozan amillər kimi qiymətləndirilir. Bu şəraitdə Şərqi Avropa ölkələrində əsas diqqət iqtisadi sistemlərin bacarıqla transformasiyasını asanlaşdıran sosial yönümlü iqtisadiyyatın effektiv modelinin yaradılmasına yetirilməlidir. Keçid dövründə sosial-iqtisadi mənzərənin optimallaşdırılmasının əsas istiqaməti dövlət idarəçiliyinin rolunun canlandırılmasını və müasir idarəetmə paradiqması çərçivəsində səriştəli alət kimi şəffaflıq göstəricisinin gücləndirilməsini nəzərdə tutur. Bu konseptual müəyyənedici faktor vergi və gömrük sisteminin səmərəli fəaliyyətini, mülkiyyət münasibətlərində dövlətin fəal rolunu, sosial yüklərin ədalətli şəkildə bölüşdürülməsini zəruri edir. Bu cür tədbirlər ədalətliliyi və universal əlçatanlığı təşviq etməklə sosial təminat sistemini optimallaşdırmaq məqsədi daşıyır. Müəyyən idarəetmə islahatları sənayenin inkişafı ilə mürəkkəb şəkildə bağlıdır və onların təsirinin gələcəkdə artacağı gözlənilir. Şərqi Avropa ölkələrində sənaye transformasiyası özəlləşdirmə və struktur tənzimləmə kimi alətlərə əsaslanır, elmi diqqətin artırılması, daxili investisiyalar və peşəkar təlim sistemində islahatlar tələb olunur. Şərqi Avropa ölkələrində kənd təsərrüfatı sektorunun inkişafını istiqamətləndirən müasir idarəetmə konsepsiyası ərzaq təhlükəsizliyinin və məşğulluğun təmin edilməsi ətrafında fırlanır və nəticədə ümumi iqtisadi səviyyəyə təsir göstərir. Bu sektor daxilində transformasiyanın əsas komponentlərinə torpaqların özəlləşdirilməsi və yeni təşkilati birləşmələrin tətbiqi kimi institusional dəyişikliklər daxildir. Bu tədbirlər böyük investisiyalar tələb etsə də, sosial-iqtisadi proseslərin səmərəliliyinin artırılmasında yüksək effektli olduğunu sübut edir. Beynəlxalq ticarət və maliyyə siyasəti Şərqi Avropa ölkələrinin keçid proseslərində əsas rol oynayır. İnkişaf etmiş ölkələrin bazarlarına çıxmaq üçün keçid iqtisadiyyatları məhsul və xidmət istehsalının modernləşdirilməsini tələb edən səmərəlilik və rəqabətqabiliyyətlilik meyarlarına riayət etməlidir. Eyni zamanda, xarici investisiyalar innovativ texnologiyalara, müasir idarəetmə vasitələrinə və bazar iqtisadiyyatlarının optimallaşdırılmasına şərait yaradan hüquqi bazaya giriş nöqtələri təklif edən maliyyə siyasətinin mühüm elementi kimi tanınır. Şərqi Avropa ölkələrində bazar transformasiyasının effektiv həyata keçirilməsi effektiv institusional islahatlar vasitəsilə makromiqyaslı iqtisadi proseslərin sabitliyini təmin etməklə mümkün olmuşdur. Qloballaşma proseslərinin hazırkı mənzərəsində Şərqi Avropa regionunda investisiya və sənaye siyasətinin effektiv aləti kimi yer alan Xüsusi İqtisadi Zonaların (XİZ) formalaşdırılması və fəaliyyət göstərməsi aspekti xüsusi əhəmiyyət kəsb edir. Onların yaradılmasının xüsusiyyətləri fərdi sosial-iqtisadi xüsusiyyətlər, rəqabət üstünlükləri və konkret regionun inkişaf prioritetləri əsasında müəyyən edilir. XİZ-in fəaliyyət mexanizmi xarici investorların maraqlarının milli iqtisadi prioritetlərə uyğunlaşdırılmasını asanlaşdırır, xarici investisiya axınını sürətləndirir. Polşa Mərkəzi və Şərqi Avropada birbaşa xarici sərmayələri cəlb edən və XİZ yaradan ilk ölkələr sırasında olmaqla bu konsepsiyanın uğurla həyata keçirilməsinə nümunədir. Maraqlıdır ki, 2020-ci ildə ölkəyə xarici investisiyaların həcmi 236,5 milyard ABŞ dollarına çatmışdır [4, 8675]. Polşa vergi güzəştləri və maliyyə dəstəyi təklif edərək, xarici investorları XİZ layihələrini həyata keçirməyə dəvət edir. Bu təşəbbüs regionların iqtisadi inkişafına, ekoloji tarazlığın təmin edilməsinə, innovativ texnoloji həllərin tətbiqinə, ixracın artırılmasına, rəqabət qabiliyyətinin artırılmasına və mövcud resurs bazasından səmərəli istifadənin optimallaşdırılmasına töhfə verir. Polşadakı XİZ-lərin aparıcı investorları arasında General Motors, Toyota, Opel, Volkswagen, Michelin, Ericsson, Fujitsu, Indesit, IBM, IKEA, Electrolux və LG var

[4, s.8683]. Qeyd etmək lazımdir ki, Şərqi Avropa ölkələrinin sosial-iqtisadi funksionallığının idarəetmə paradiqması çərçivəsində indiki inkişaf mərhələsi rəqəmsallaşmış texnologiyaların geniş inteqrasiyası ilə xarakterizə olunur. Ənənəvi və elektron ticarətin yaxınlaşması, idarəetmə prosesləri və rəqəmsal qloballaşmanın fəal şəkildə genişlənməsi sosial-iqtisadi kommunikasiyanın bütün iştirakçıları arasında və rəqabət üstünlüklərinin formalaşdırılmasında prinsipial olaraq yeni qarşılıqlı əlaqə modelinin yaranmasına səbəb olmuşdur. Qlobal bazara çıxış ənənəvi istehsal sektorlarını yenidən formalaşdırır, iqtisadi münasibətlərin struktur optimallaşdırılmasına təkan verir. Bu transformasiya informasiya və əmtəə axınlarının yenidən bölüşdürülməsini, əməliyyatların qloballaşmasını və sosial ehtiyaclarla kəsişən iqtisadi inkişafın prioritetləşdirilməsini nəzərdə tutur [2, s.514]. Qlobal sosial-iqtisadi proseslərin formalaşması innovativ və intellektual resursların depoları kimi transmilli klasterlərin formalaşması ilə idarə olunan e-ticarət bazarında artımın reallaşması ilə mürəkkəb şəkildə bağlıdır. "Biznesdən istehlakçıya" elektron ticarət sisteminin populyarlığı Şərqi Avropa ölkələrinin inkişafındakı ümumi sosial-iqtisadi meyllərə əhəmiyyətli dərəcədə təsir göstərir. Şərqi Avropa ölkələrinin bazarları hazırda e-ÜDM-də artımla qeyd olunan müsbət tendensiya nümayiş etdirir.

Bu tendensiyalar Şərqi Avropanın sosial-iqtisadi sferasında idarəetmə proseslərinin rəqəmsallaşdırılması üçün perspektivli strateji inkişafı ifadə edir. Eyni zamanda, iqtisadi rəqəmsallaşmanın inkişafı bu tərəqqidən dividend əldə edə bilməyən və eyni zamanda ənənəvi iqtisadi proseslər şəbəkəsinin əhəmiyyətli dərəcədə azalmasının şahidi olan ölkələr üçün riskləri gizlədir.

Milli inkişaf strategiyasını formalaşdırarkən Şərqi Avropa ölkələri əsasən institusional mühitin keyfiyyət təhlili vasitəsi kimi hamı tərəfindən qəbul edilmiş beynəlxalq sosial-iqtisadi reytinqlərə əsaslanır. Bunların arasında Qlobal Rəqabət Qabiliyyətlilik İndeksi daha çox seçilir. Qlobal Rəqabət Qabiliyyətlilik İndeksi institusional və infrastruktur inkişafı, makroiqtisadi sabitlik, maliyyə sistemi və biznes dinamikası, bazar tutumu və innovasiya potensialı göstəricilərini əhatə edir. Bundan əlavə, İqtisadi Azadlıq İndeksi, Milli Rifah İndeksi və İnsan İnkişafı İndeksi sosial-iqtisadi təhlil alətlərinin mühüm komponentləri kimi xidmət edir. Ölkənin qlobal reytinqlərdəki mövqeyinin təhlili onun milli inkişaf strategiyasının effektivliyi ilə bağlı nəticələr çıxarmağa imkan verir.




***Şəkil.*** *2023-cü ilə kimi Şərqi Avropada İqtisadi Azadlıq İndeksi*

Kanada Fraser İnstitutunun "Dünyanın İqtisadi Azadlığı 2023" hesabatında qiymətləndirilən qlobal iqtisadi azadlığın müəyyən edilmiş səviyyəsinə əsaslanaraq, İqtisadi Azadlıq İndeksi beş

komponentdən ibarətdir. Bunlar dövlət ölçüsünü, hüquq sistemini və mülkiyyət hüquqlarını, sabit valyutanı, beynəlxalq ticarət azadlığını və tənzimləmə aspektlərini əhatə edir. Şəkil 1-də Şərqi Avropada İqtisadi Azadlıq İndeksinin dəyərlərinin müqayisəli təhlilini təqdim edilir.

**Nəticə.** Şərqi Avropa ölkələrinin sosial-iqtisadi inkişafının təhlili ilkin inkişaf əsası və oriyentasiyası baxımından əhəmiyyətli oxşarlıqlar aşkar edir. Bununla belə, bu, idarəetmə paradiqması daxilində tendensiyaların polaritesini də vurğulayır. Polşa və Çexiya kimi bəzi ölkələr hazırda dinamik inkişaf edən iqtisadi sistemlər nümayiş etdirir, Ukrayna və Rumıniya kimi digər ölkələr isə sabit tənəzzül vəziyyətində qalmaqda davam edir. Xarici təsirlərin üstünlüyünü etiraf etməklə yanaşı, qeyd etmək lazımdır ki, bu dinamika əsasən makroiqtisadi qeyri-sabitlik, yüksək inflyasiya və əlverişsiz investisiya mühiti kimi amillərlə əlaqələndirilir. Dövlət idarəçiliyi sektoru sənaye klasterlərinin formalaşmasına dəstək vermək, innovativ layihələrə sərmayə qoyuluşunu təşviq etmək və onların xarici bazarlarda təşviqini asanlaşdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Hazırda Şərqi Avropa ölkələrinin ÜDM strukturunda ən təsirli sektor qlobal tendensiyaların dinamikasına daha az həssaslıq nümayiş etdirən və regional bazara yönəlmiş istehsal sahəsidir. Konkret olaraq, istehsal sektoru Polşada ÜDM-in 71%-ni, Çexiyada isə 64%-ni təşkil edir [1, s.2057]. Sosial-iqtisadi sektorun inkişafı üçün perspektivli strateji katalizatorlar əqli mülkiyyətə artan investisiyaları və innovativ həllərin təkmilləşdirilməsini, müəssisələrin birləşdirilməsini və xarici iqtisadi genişlənmə üçün holdinqlərin yaradılmasını əhatə etməlidir. Bundan əlavə, strategiya sənaye strukturunun konsolidasiyası və modernləşdirilməsi yolu ilə resurslardan istifadənin optimallaşdırılmasını vurğulayır. Bu əhatəli yanaşma sosial-iqtisadi siyasət çərçivəsində səmərəli praktiki vasitələrin həyata keçirilməsi yolu ilə rəqabət qabiliyyətinin artırılması üçün optimal şəraitin təmin edilməsinə əsaslanır. Sosial-iqtisadi inkişafda qlobal tendensiyaların dinamikası və tədqiqatlarda ənənəvi idarəetmə yanaşmalarının potensialının tükənməsi Şərqi Avropa regionlarında idarəetmə paradiqması modelinin optimallaşdırılmasını zəruri edir. Bu optimallaşdırma müasir sənayeləşmə və sosial-iqtisadi və geosiyasi potensialdan ən səmərəli istifadə prinsiplərinə əsaslanır. Eyni zamanda, effektiv milli strategiya və müvafiq struktur modernləşdirmə struktur disbalansının aradan qaldırılmasında və dayanıqlı iqtisadi inkişafın təmin edilməsində əsas amillər kimi müəyyən edilir.

## Ədəbiyyat


[1]. Awan, U. Industry 4.0 and the circular economy: A literature review and recommendations for future research / U.Awan, R.Sroufe, M.Shahbaz // Business Strategy and the Environment, –2021, 30(4), –p.2038–2060.

[2]. Levytska, O. Modelling the conditions affecting population migration activity in the eastern european region: The case of Ukraine / O.Levytska, O.Mulska, T.Vasyltsiv [et al.] // TEM Journal, –2020, 9(2), –p.507-514.

[3]. Moroz, Ye. Social costs of economic transformation of post-socialist countries // Scientific Notes of the University "KROK", –2021, 1(61), –p.22–28.

[4]. Pieloch-Babiarz, A., Misztal, A. & Kowalska, M. (). An impact of macroeconomic stabilization on the sustainable development of manufacturing enterprises: the case of Central and Eastern European Countries / A.Pieloch-Babiarz, A.Misztal, M.Kowalska // Environ Dev Sustain, –2021, 23, –p.8669–8698.

[5]. Semenets-Orlova, I. Human-centered approach in new development tendencies of value-oriented public administration: Potential of education / I.Semenets-Orlova, R.Shevchuk, B.Plish, [et al.] // Economic Affairs (New Delhi), –2022, 67(5), –p.899-906.

[6]. Shymanska, V.V. Development of digital transformation of countries in the global dimension // Eastern Europe: economy, business and management, –2023, 41, –p.38–43.

[7]. Tsimoshynska, O. Investing in road construction infrastructure projects under public-private partnership in the form of concession / O.Tsimoshynska, M.Koval, H.Kryshtal [et al.] // Naukovyi Visnyk Natsionalnoho Hirnychoho Universytetu, –2021, 2(2), –p.184-192.

***İnternet resurslar:***

[8]. https://ela.kpi.ua/bitstream/123456789/41059/1/

[9]. https://www.researchgate.net/deref/https%3A%2F%2Fdoi.org%2F10.3390%2Fjrfm13070146?_tp=eyJjb250ZXh0Ijp7ImZpcnN0UGFnZSI6InB1YmxpY2F0aW9uIiwicGFnZSI6InB1YmxpY2F0aW9uIn19

**Summary**

**Management of social-economic development of regions (on the example of Eastern European countries)**

***Humbataliyeva S.A.***

***Keywords:*** *globalization, anti-crisis measures, export, index of economic freedom, socially oriented economy*

The primary objective of this article is to scrutinize the key trends in the management of the socio-economic sphere in Eastern European countries. The research methodology employed encompassed general scientific methods of cognition, including logical and structural analysis, comparison, theoretical modeling, abstraction, induction, and deduction. Additionally, techniques such as specification, generalization, and formalization, as well as tabular and graphical interpretation of theoretical information were applied during the investigation. Throughout the study, the trends of social and economic development in Eastern European countries during the post-crisis period are examined.

**Резюме**

**Управление социально-экономическим развитием регионов (на примере стран Восточной Европы)**

***Гумбаталиева С.А.***

***Ключевые слова:*** *глобализация, антикризисные меры, экспорт, индекс экономической свободы, социально ориентированная экономика.*

Основной целью данной статьи является анализ ключевых тенденций управления социально-экономической сферой в странах Восточной Европы. Методология исследования включала общенаучные методы познания, включая логический и структурный анализ, сравнение, теоретическое моделирование, абстракцию, индукцию и дедукцию. Кроме того, в ходе исследования применялись такие методы, как конкретизация, обобщение и формализация, а также табличная и графическая интерпретация теоретической информации. В ходе исследования рассматриваются тенденции социально-экономического развития стран Восточной Европы в посткризисный период.

.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 339.9** DOI 10.54758/16801245_2026_22_1_70

# Beynəlxalq biznesdə maliyyə resursları: formalaşması mənbələri və səmərəli istifadə şərtləri

**Qasımova Zülfiyyə Mirzə qızı** ORCID 0000-0001-9568-3120

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
zulfiyya.qasimova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 06.07.2025*
*Düzəliş tarixi: 29.09.2025*
*Qəbulolunma tarixi: 17.12.2025*

***Açar sözlər***
*beynəlxalq biznes, maliyyə resursları, xarici valyutalar, idxal, ixrac, investisiya, beynəlxalq şirkətlər, maliyyələşmə mənbələri*

**XÜLASƏ**

*Beynəlxalq biznes qlobal səviyyədə ölkədən kənarda biznesin aparılmasını əhatə edən bir prosesdir. Beynəlxalq biznes qlobal səviyyədə reallaşdırıldığı üçün həcmi baxımından çox böyükdür. O, diqqəti dünyanın resurslarına və qlobal biznesin təşkili məqsədlərinə yönəldir. Beynəlxalq biznes çoxlu sayda insanı işlə təmin edir. O, ölkə üçün mühüm valyuta mənbəyi rolunu oynayır. Bu şirkətlərdə bütün ödənişlər müxtəlif ölkələrin xarici valyutaları ilə reallaşdırılır*

Beynəlxalq iqtisadi münasibətlər sisteminin inkişaf prosesi istehsalın və bazarların qloballaşması ilə müşayiət olunur ki, bu da milli iqtisadiyyatların qarşılıqlı asılılığının artmasına səbəb olur. Müasir dövrdə qloballaşmanın beynəlxalq biznesin inkişafına təsiri diqqət çəkir. İki və daha çox ölkədə beynəlxalq miqyasda aparılan biznes beynəlxalq biznes adlanır. Bu, iki ölkə arasında mal və xidmətlər üzrə əməliyyatları əhatə edir. Bu əməliyyatlar qlobal miqyasda və milli sərhədlər boyu reallaşdırılır.

Müasir iqtisadi tədqiqatlarda "beynəlxalq biznes" kateqoriyasının müəyyənləşdirilməsinə birmənalı yanaşma yoxdur, bununla yanaşı, əksər tədqiqatçılar hesab edirlər ki, bu kateqoriya müxtəlif formalarda kapitaldan istifadə etməklə yüksək işgüzar fəallıqla bağlı olan və beynəlxalq iqtisadi fəaliyyətdə mənfəət əldə etmək üçün mövcud olan sahibkarlıq fəaliyyətini ifadə edir. Beynəlxalq biznesin subyektləri o qədər müxtəlif və çoxşaxəlidir ki, onlar müstəqil fərddən başlaya və beynəlxalq iqtisadi fəaliyyətin hər hansı konkret sahəsində reallaşdırmaq məqsədilə müxtəlif maraq və qabiliyyətlərə əsaslanan sosial strukturlarla bitə bilər.

Beynəlxalq biznes müasir dünya iqtisadiyyatının inkişafında önəmli rol oynayır, lakin onun inkişafına müəyyən problemlərlə də üzləşir. İqtisadiyyatın və xüsusilə onun hissələrinin qeyri-bərabər inkişafı prosesi, istehsalın və satışın həcminin dəyişməsi, istehsalın əhəmiyyətli dərəcədə azalmasının baş verməsi böhran vəziyyəti kimi səciyyələndirilir. Böhran əlverişsiz vəziyyətlərin qovuşması kimi yox, bazar iqtisadiyyatına xas olan müəyyən ümumi qanunauyğunluq kimi qəbul edilməlidir. Qlobal sosial-iqtisadi böhran kontekstində beynəlxalq biznesin inkişafı probleminin öyrənilməsi bir tərəfdən transformasiya dövrünü yaşayan, digər tərəfdən isə qlobal iqtisadi məkana daxil olan istənilən ölkə üçün aktualdır.

Beynəlxalq biznesin əhatə dairəsinə daxildir:

- xarici investisiya fəaliyyəti;
- malların ixrac və idxalı;

- lisenziyalaşdırma və françayzinq;
- xidmətlərin ixrac və idxalı;
- valyuta mübadiləsi və s. [3, s.725].

Beynəlxalq biznesin inkişafının müasir tendensiyaları ilə sahibkarlar öz fəaliyyətlərini reallaşdırmaq üçün ən əlverişli biznes şəraiti axtarmalıdırlar. Beynəlxalq biznesdə kapital, informasiya, mal və xidmətlər mübadiləsi aparılır. Beynəlxalq biznes sayəsində ölkələrdə dostluq, etimad və tərəfdaşlıq mühiti yaranır.

Beynəlxalq biznesin reallaşdırılması müəyyən motivlərə əsaslanır ki, bunlara daxildir:

• satışın genişləndirilməsi;
• resursların əldə edilməsi;
• təchizat və satış mənbələrinin diversifikasiyası.

Onların yerinə yetirilməsi üçün əsas şərtlər bunlardır:

1) malların və ya xidmətlərin öz ölkəsindən kənarda satışı;
2) şirkət tərəfindən marketinq fəaliyyətinin reallaşdırılması [5, s.29].

Beynəlxalq biznesin aparılmasının dörd əsas forması mövcuddur ki, bunlar da ən çox yayılmışlardandır:

1. İdxal və ixrac.
2. Lisenziyalaşdırma - müxtəlif ölkələrin müəssisələri arasında müəyyən ödəniş müqabilində brendin, texnologiyanın və ya hər hansı digər aktivin istifadəsini nəzərdə tutan müqavilədir.
3. Strateji ittifaq və birgə müəssisə - məqsəd qarşılıqlı faydalı və ya ümumi məqsədlərə nail olmaqdır.
4. Birbaşa investisiyalaşdırma - beynəlxalq biznesin aparılmasının ən mühüm formasıdır. Bu forma qəbul edən ölkədə məhsulların istehsalına və satışına maliyyə yatırılmasından ibarətdir.

Beynəlxalq biznesin aparılmasının həmin əsas formalarına nəzər salaq. Əvvəlcə idxal və ixraca baxaq. Məhsul bir ölkədə istehsal edildikdə və digər ölkədə qeyri-rezidentlər tərəfindən satıldıqda ixrac biznes fəaliyyəti hesab olunur. İdxal malların, texnologiyanın və ya digər kapitalın ölkəyə idxal olunduğu və sonradan bu əşyaların idxal edən ölkənin bazarında satışa çıxarıldığı biznes fəaliyyəti növüdür. Bu beynəlxalq biznes növü aşağı qiymətə görə dünyada ən çox yayılmışdır. Beynəlxalq biznesin aparılmasının ikinci forması lisenziyalaşdırmadır. Lisenziyalaşdırma dedikdə, bir təşkilatın brendindən, texnologiyasından və ya hər hansı digər aktivindən başqa bir təşkilat tərəfindən ödəniş müqabilində istifadə hüququ ilə bağlı müxtəlif ölkələrdən olan təşkilatlar arasında bağlanan müqavilə başa düşülür. Bu təcrübə indiki mərhələdə öz istehsalını başqa ölkədə yerləşdirməyin sərfəli olmadığı və ya logistika xərclərinin nisbətən yüksək olduğu şəraitdə geniş yayılmışdır. Elə hallar var ki, bu biznes formasından xarici firmaların fəaliyyətinə hökumətin qoyduğu məhdudiyyətlərdən yan keçmək üçün istifadə olunub. Lisenziyalaşdırma ən çox qlobal bazarda mövcudluğunu artırmaq üçün istifadə olunur.

Beynəlxalq biznesin üçüncü forması strateji ittifaq və birgə müəssisədir. Bu formalar bir növə birləşdirilir, çünki onların istifadəsinin məqsədi qarşılıqlı faydalı və ya hətta ümumi məqsədlərə nail olmaqdır.Birgə müəssisə bu cür tərəfdaşlığın ifrat formasıdır, əməkdaşlıq prosesində bir neçə şirkət ümumi məqsədlərə nail olmaq üçün birgə yeni bir təşkilat yaradır. Bu birləşmə forması inkişaf və istehsal xərclərini azaltmağa, bəzi hallarda texnoloji və qiymət zəncirlərini genişləndirməyə imkan verir.

Ölkə iqtisadiyyatı üçün beynəlxalq biznesin ən əhəmiyyətli forması birbaşa investisiyalaşdırmadır. Bu biznes fəaliyyətinin əksər tərifləri iki amilin mövcudluğunu qeyd edir:

1. Bu fəaliyyətdə iştirak edən ən azı iki ölkənin olması.
2. Mülkiyyət və nəzarət kimi anlayışların təqdim edilməsi.

Birbaşa investisiyalaşdırma adətən məhsulun qəbuledici ölkədə istehsalına və satışına maliyyə resurslarının investisiyalaşdırılmasını əhatə edir. Hazırkı iqtisadi şəraitdə beynəlxalq biznesin aparılmasının bu forması prioritetdir, çünki onun inkişafına təkan verir.

Beynəlxalq biznesin inkişafı onun maliyyələşdirilməsi səviyyəsindən xeyli asılıdır. Bunu nəzərə alaraq, beynəlxalq biznesin maliyyə resurslarının formalaşması mənbələrinin və səmərəli istifadəsi yollarının araşdırılması tələb olunur.

Beynəlxalq biznesin maliyyə reusrslarının formalaşma mənbələrinin çoxlu sayda təsnifatları mövcuddur ki, onlar qısa və uzunmüddətli, daxili (öz maliyyə fondları) və xarici, özünün və cəlb olunmuş, yerli və beynəlxalq olaraq təsnifləşdirilir.

Beynəlxalq biznesə maliyyə resurslarını cəlb etmək məqsədilə istifadə olunan maliyyə alətlərinin çeşidi kifayət qədər genişdir və onları aşağıdakı şəkildəki kimi ümumiləşdirə bilərik.




***Şəkil 1.*** *Beynəlxalq biznesdə maliyyə resurslarının formalaşması mənbələri [4, s.84]*

Hər bir şirkət ən uyğun maliyyə mənbəyini seçməkdə seçim qarşısındadır. Bu mənbələrin hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Beynəlxalq biznesdə maliyyələşdirmə mənbəyini seçərkən ilk öncə, qısa və ya uzunmüddətli maliyyələşdirmə sxemlərindən istifadə etmək qərarına gəlinməlidir. Qısamüddətli beynəlxalq maliyyələşdirmə əsasən dövriyyə kapitalının maliyyələşdirilməsi ilə bağlıdır. Uzunmüddətli maliyyələşdirmə beynəlxalq biznesin inkişafı strategiyası baxımından vacibdir. Gündəlik fəaliyyətə gəlincə, onun uğuru əsasən qısamüddətli öhdəliklərin idarə edilməsinin effektivliyi ilə müəyyənləşdirilir.

Uzunmüddətli beynəlxalq maliyyə mənbələrinə gəlincə, onlar aşağıdakı kimi təsnifləşdirilir:

1. Kreditorlardan maliyyələşmə – əsasən kredit resursları formasında beynəlxalq şirkətlər tərəfindən bank institutlarından cəlb edilən kredit resursları.

2. İnvestorlar tərəfindən qiymətli kağızların – səhmlərin, depozitar qəbzlərin, törəmə qiymətli kağızların və digər qiymətli kağızların (məsələn, istiqrazların) buraxılması və ya satışı şəklində maliyyələşdirmə.

3. Avrovalyuta maliyyələşdirilməsi – bu, ölkənin qeyri-rezidenti tərəfindən xarici ölkənin bazarında şirkətin üçüncü ölkənin valyutası ilə maliyyələşdirilməsidir (məsələn, Avrobondlar, Avrovalyuta kreditləri və s.).

4. Xarici (xarici) maliyyələşdirmə – şirkətin xarici dövlətin bazarında həmin ölkənin rezidentləri tərəfindən və həmin ölkənin yerli valyutası ilə maliyyələşdirilməsidir. Beynəlxalq şirkətlər xarici bazarlardan uzunmüddətli resursları aşağıdakı üsullarla əldə edə bilər:

- milli valyutada istiqrazların buraxılması;
- milli valyutanın nominalında olan səhmlərin emissiyası;
- milli valyutada bank kreditlərinin alınması [6, s.10].

5. Rəsmi mənbələrdən, yəni beynəlxalq təşkilatlardan maliyyələşdirmə.

Beynəlxalq biznes fəaliyyətinin xarici maliyyələşdirilməsinin üstünlükləri bir sıra amillərlə müəyyənləşdirilir. Birincisi, beynəlxalq şirkətlər, bir qayda olaraq, yüksək kredit reytinqinə malikdirlər və buna görə də daha ucuz resurslara çıxış əldə edirlər ki, bu da girov kimi istifadə edilə bilən aktivlərin əhəmiyyətli həcminin olması və pul vəsaitlərinin mövcud intensiv hərəkəti ilə əlaqədardır. Bu amil maliyyə resurslarının cəlb edilməsi xərclərini azaltmaqla beynəlxalq şirkətlər tərəfindən cəlb edilən kapitalın dəyərini azaldır. İkincisi, beynəlxalq şirkətlər satış həcminin artımını təmin etmək üçün müxtəlif ölkələrin bazarlarının imkanlarından istifadə edən sürətlə inkişaf edən şirkətlərdir. Bu, onların investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə artırır, bu da maliyyə resurslarının cəlb edilməsi xərclərini azaldır. Üçüncüsü, beynəlxalq şirkətlər geniş şaxələndirilmiş fəaliyyət göstərir ki, bu da onları maliyyə sabitliyi ilə təmin edir və kapitalın cəlb edilməsi imkanlarını genişləndirir. Dördüncüsü, beynəlxalq şirkətlər qlobal maliyyə sisteminə sıx inteqrasiya olunub və onlar aparıcı beynəlxalq bank təşkilatlarının müştəriləridir ki, bu da kredit təşkilatları üçün onların fəaliyyətinin şəffaflığına şərait yaradır və bununla da resursların cəlb edilməsi imkanlarını genişləndirir. Bəzi şirkətlər üçün kapital cəlbinin payının artırılması investisiya qoyuluşunun ilkin şərtinə çevrilmişdir. Bunun səbəbləri müxtəlifdir. Bəzi nağd pul sıxıntısı olan filiallar investisiyalarda paylarını artırmağın ən yaxşı yolunu törəmə şirkətlərdən borc götürməkdə tapırlar.

Beynəlxalq şirkətlər tərəfindən onların xarici bölmələrinin maliyyələşdirilməsi müxtəlif formalarda reallaşdırılır və bunları aşağıdakı kimi təsnif etmək olar:

1) maliyyələşdirmə alətlərinə görə: bölüşdürülməmiş mənfəət; bank kreditləri; yeni səhmlərin buraxılması;
2) mənbələr üzrə: daxili və xarici;
3) müddətinə görə: qısamüddətli və uzunmüddətli;
4) valyutanın mənşəyi üzrə: milli və xarici.

Maliyyələşdirmə mənbəyinin seçilməsi beynəlxalq şirkətlərin maliyyəsinin əsas problemlərindən biridir. Beləliklə, beynəlxalq şirkətlərin filiallarının fəaliyyətinin maliyyələşdirilməsi üçün maliyyə resursları mənbələrinin üç əsas qrupu ayrılır:

1. Xarici filialın özünün yaratdığı vəsaitlər - bura amortizasiya və digər nağdsız ödənişlər, bölüşdürülməmiş mənfəət daxildir.
2. Beynəlxalq şirkətlərin korporativ strukturunun mənbələrindən əsas şirkətin vəsaitlərinə, digər filialların vəsaitlərinə və əsas şirkətin zəmanəti ilə filialların kreditlərinə bölünən vəsaitlər.
3. Beynəlxalq şirkətlərin kənar mənbələrdən aldığı vəsaitlər.

Beynəlxalq biznesin daxili və xarici maliyyələşdirmə mənbələri mövcuddur. Daxili maliyyələşdirmə mənbələrinə aiddir:

- xalis mənfəət - vəsaitlərin böyük hissəsinin gələcək inkişafa yatırılması uğurlu mövcudluğu təmin etməyə və məhv olmaq riskini azaltmağa imkan verir;
- amortizasiya ayırmaları - avadanlığın təmiri və texniki xidmətinə sərf oluna bilən pul vəsaiti;

- kreditor borcları - gələcəkdə onların həcminin artması ilə bank ödənişlərinin təxirə salınmasını nəzərdə tutur;

- ehtiyat fondu - gözlənilməz maliyyə xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər;

- prosesin optimallaşdırılması - maliyyələşdirmənin ən gəlirli istehsala paylanması və ya yeni əlavə gəlir mənbəyinin yaradılması [2, s.22].

Xarici qısamüddətli maliyyələşdirmə mənbələrinə aşağıdakılar daxildir:

- ticarət krediti; tollinq; bankın qısamüddətli maliyyələşdirilməsi; qarşılıqlı hesablaşmalar/barter; kommersiya sənədləri və ya veksellər; faktorinq; qısamüddətli əməliyyat lizinqi.

Azərbaycanda beynəlxalq biznesin təşkili formalarından biri olan xarici mülkiyyətli və müştərək müəssisələr şəbəkəsi geniş yayılıb ki, onlar bir növ xarici maliyyələşdirmə mənbəyi kimi çıxış edirlər. Onlar tərəfindən Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların həcmində son 5 il ərzində davamlı artım müşahidə olunub. Belə ki, həmin müəssisələr tərəfindən ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar 2022-ci ildə 6275,9 milyon ABŞ dolları olub ki, bu, 2018-ci ilə görə 52,7%, 2019-cu ilə görə 46,8%, 2020-ci ilə görə 38,6%, 2021-ci ilə görə isə 30,9% çoxdur.




*Mənbə: [7;8]*

***Şəkil 2.*** *Xarici investisiyalı və birgə müəssisələr tərəfindən Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşları*

İnvestisiyaların əsas hissəsi neft sektoruna yönəldilib. Belə ki, 2022-ci ildə xarici və birgə mülkiyyətli müəssisələr neft sektoruna 4441,9 milyon ABŞ dolları təşkil edib ki, bu da onların qoyduğu investisiyaların ümumi həcminin 70,8%-ni təşkil edib. Qeyri neft sektoruna isə 1834,0 milyon ABŞ dolları investisiya qoyulub ki, bu da ümumi investisiyanın 29,2%-i deməkdir.

Xarici maliyyələşdirmə mənbələrindən biri kimi səhmlərin alınması çıxış edir. Səhmlərin alınması böyük xərclərlə bağlı olduğundan beynəlxalq biznesin maliyyələşdirilməsinin ən təsirli vasitələrindən biridir. Səhmlərə nisbətdə borcların alınmasına daha az xərclər sərf olunur. Səhmlər bir növ vasitəçi rolunda çıxış edir. Səhmdarların əlindəki səhmlər nə qədər az olarsa, mənfəət və hər bir səhm hesabına əldə edilən dividendlər bir o qədər çox olar [1, s.325].




*Mənbə: [7;8]*

***Şəkil 3.*** *Xarici investisiyalı və birgə müəssisələr tərəfindən Azərbaycan iqtisadiyyatının sektorları üzrə investisiya qoyuluşları*

Səhmlərin əlavə emissiyası və nizamnamə kapitalının artırılması kapital tutumlu layihələrin reallaşdırılması üçün şirkət tərəfindən həyata keçirilir. Səhmlərin buraxılması şirkət üçün böyük xərclər nəzərdə tutur, lakin onlar əhəmiyyətli həcmdə investisiyalarla əhatə olunur.

Şirkət üçün yeni səhmlərin buraxılması zamanı əsas vəzifələr müəyyən edilə bilər:

- likvidliyin və səhm dəyərinin artırılması üçün uyğun strategiyanın seçilməsi;
- fəaliyyətinin səmərəli şəkildə genişləndirilməsi;
- şirkətin kapitallaşmasının artması;
- şirkətin maliyyə vəziyyətinin və imicinin yaxşılaşdırılması.

Digər təşkilati-hüquqi formalara malik olan şirkətlər üçün investisiyalar nizamnamə kapitalına töhfələr şəklində cəlb edilə bilər. Vəsait toplamanın bu üsulu şirkətin puluna qənaət edir.

Qısamüddətli kreditlər, bir qayda olaraq, dövriyyə kapitalının doldurulmasına və pul boşluqlarının ödənilməsinə yönəldilir, uzunmüddətli kreditləşmə daha çox əsas fondların genişləndirilməsi, inkişafı və yenilənməsi ilə bağlıdır. Müvafiq olaraq, qısamüddətli kreditlər borcalanın cari əməliyyat fəaliyyətini, uzunmüddətli kreditlər isə strateji təşəbbüsləri maliyyələşdirir.

Borc vəsaitləri mənbələrindən istifadənin müsbət tərəfləri aşağıdakılardır:

- öz maliyyə resurslarının çatışmazlığının örtülməsi - öz maliyyə resursları çatışmadıqda borc götürülmüş maliyyə vəsaitlərindən sahibkarlıq fəaliyyətinin reallaşdırılması məqsədilə istifadə olunur;
- öz maliyyə resurslarının artımının təmin edilməsi - borc vəsaitlərinin istifadəsi nəticəsində əldə edilən mənfəət şirkətin mülkiyyətində qalır və onun öz maliyyə resurslarının formalaşma mənbəyidir;
- şirkətin aktivlərinin artmasının təmin edilməsi - borc vəsaitlərinin istifadəsi nəticəsində əldə edilən mənfəət şirkətin mülkiyyətində qalır və onun aktivlərinin maliyyələşdirilməsində iştirak edir.

Borc alınmış maliyyə resurslarının mənbələrindən istifadənin çatışmazlıqlarına aşağıdakılar daxildir:

- cəlbediciliyin məqsədyönlü xarakter daşıması - şirkət krediti yalnız konkret olaraq müəyyən edilmiş tapşırıqlar üçün götürə bilər;
- borc vəsaitlərinə tələbatın optimal ölçüsünün müəyyənləşdirilməsi;
- məhdud istifadə müddətinin müəyyənləşdirilməsi;
- kreditlərdən istifadəyə görə faiz tutulması.

Maliyyə resurslarının tərkibi, habelə onların həcmi beynəlxalq biznes fəaliyyətinin növündən və həcmindən asılıdır. Maliyyə resurslarının həcmi istehsalın həcmi və beynəlxalq biznesin səmərəli fəaliyyəti ilə sıx bağlıdır. İstehsal həcmi nə qədər çox olarsa və beynəlxalq biznesin səmərəliliyi nə qədər yüksək olarsa, onun öz maliyyə resursları bir o qədər çox olar və əksinə. Hər bir beynəlxalq şirkətin yaşamasının şərti və təminatı onun maliyyə sabitliyidir. Maliyyə vəziyyəti sabit olan beynəlxalq şirkət öhdəliklərini vaxtında ödəyir. Bununla belə, müasir beynəlxalq kommersiya təşkilatları çətin iqtisadi şəraitdə - yüksək daxili rəqabət, büdcə və büdcədənkənar fondlar, şirkətin səhmdarları və təşkilatın potensial investorları ilə mürəkkəb münasibətlərdə fəaliyyət göstərir. Bu daxili və xarici vəziyyəti nəzərə alaraq beynəlxalq şirkətlər məhdud maliyyə resursları ilə fəaliyyət göstərməyə məcbur olurlar. Dövriyyə vəsaitlərinin - öz və borc vəsaitlərinin maliyyələşdirilməsi mənbələrini yaratmaq, habelə onlardan istifadəni düzgün təşkil etmək lazımdır. Yuxarıda göstərilənlərlə əlaqədar olaraq, beynəlxalq biznes fəaliyyətinin daha çevik olmasına və dəyişən amillərə həssas olmamasına imkan verən maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılmasının müasir üsulları xüsusilə aktuallaşır. Müasir üsullar köhnəlmiş üsullardan, məsələn, normalaşdırma, pul vəsaitlərinin hərəkətinin planlaşdırılması, debitor borclarının idarə edilməsi kim üsullardan istifadədən fərqli olaraq, əsasən uzunmüddətli perspektivə yönəldilir və xarici amillərin təsiri nəzərə alınmaqla innovativ yanaşma və inkişaflara əsaslanır.

Beynəlxalq biznesdə maliyyə resurslarından istifadənin səmərəliliyini artırmaq üçün innovativ yanaşmalara üstünlük verilməlidir. Maliyyə resurslarından səmərəli istifadənin məqsədi onları idarə etməyin ən yaxşı yollarını müəyyən etmək və bununla da beynəlxalq biznesin səmərəliliyini artırmaqdır.

Maliyyə resurslarından istifadənin səmərəliliyini artırmaq yolları hazırda əsasən iki istiqamətdə fəaliyyət göstərir: şirkətin xərclərini minimuma endirmək və şirkətin sərbəst vəsaitlərindən istifadə edərək gəlirləri artırmaq. Maliyyə resurslarından istifadənin səmərəliliyinin əsas göstəriciləri əsasən gəlirin məsrəfə olan nisbətidir. Buna görə, investisiyanın ən yüksək gəlir gətirəcəyi, yəni gəlirin artacağı və ya xərclərin azalacağı üsulları nəzərdən keçirmək olduqca məntiqli görünür. Beynəlxalq biznesə sərmayə qoymaqla konkret sahədə işin keyfiyyətini yaxşılaşdırmaq, xərcləri azaltmaq və bazarda struktur dəyişiklikləri etmək mümkündür ki, bu zaman şirkət daha çevik olur.

Beynəlxalq biznesdə maliyyə resurslarından səmərəli istifadənin mümkün yollarından biri mövcud vəsaitlərin daha yaxşı bölüşdürülməsidir. Bu şərti yerinə yetirmək üçün yüksək ixtisaslı kadrlar, habelə bir sıra investisiyalaşma prinsiplərinə riayət etmək tələb olunur:

1) cari əməliyyatları reallaşdırmaq məqsədilə pul resursları ehtiyatının olması;

2) gözlənilməz əməliyyatları reallaşdırmaq məqsədilə pul vəsaitləri ehtiyatının olması;

3) istehsal prosesinin mümkün modernləşdirilməsinə və ya onun genişləndirilməsinə yönəldilmiş əməliyyatların aparılması üçün maliyyə resursları ehtiyatının olması.

Vəsaitlərin dövriyyə sürətinin artırılması beynəlxalq biznesə kapitalın həcmini dəyişməz saxlamaqla istehsal edilmiş və satılan məhsulların həcmində ifadə olunan fəaliyyət miqyasını artırmağa imkan verir. Nəticədə dövriyyənin sürətləndirilməsinin əsas effekti əlavə maliyyə resursları cəlb etmədən satışın artmasıdır. Bundan əlavə, dövriyyə başa çatdıqdan sonra kapital

mənfəət şəklində artımla qayıtdığından dövriyyənin sürətlənməsi onun həcminin artmasına səbəb olur. Bununla belə, aktivlərin, xüsusən də cari aktivlərin dövriyyə sürəti nə qədər yavaş olarsa, şirkətin cari fəaliyyətini reallaşdırmaq məqsədilə tələb etdiyi maliyyə resurslarının həcmi bir o qədər çox olar. Resurs dövriyyəsinin səriştəli idarə edilməsi beynəlxalq şirkətlərə xarici maliyyələşmədən asılılıq dərəcəsini azaltmağa və likvidliyini artırmağa imkan verəcəkdir.

**Nəticə.** Beynəlxalq biznesdə maliyyə resurslarının formalaşması və onların səmərəli istifadəsi beynəlxalq şirkətlərin maliyyə sabitliyinə, likvidliyinə, ödəmə qabiliyyətinə və gəlirliliyinə təsir göstərir. Mövcud şəraitdə beynəlxalq biznesdə maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılmasının zəruri və prioritet istiqamətləri, fikrimizcə, aşağıdakılar olamlıdır:

- dövriyyə vəsaitlərindən səmərəli istifadə;
- inventarın effektiv idarə edilməsi;
- əsas istehsal fondlarının və qeyri-maddi aktivlərin idarə edilməsi;
- maliyyə sabitliyinin təşkili və idarə edilməsi və s.

Maliyyə resurslarının idarə edilməsinin rasional strukturu yaradılmadan bu tədbirlər səmərəli reallaşdırıla bilməz. Buna görə də beynəlxalq biznesdə prioritet fəaliyyətlərdən biri rasional maliyyə idarəetmə strukturunun inkişafı olmalıdır.

## Ədəbiyyat

[1]. Abdullayev, K.X. Beynəlxalq biznes / K.X.Abdullayev, Q.S.Hüseynov, –Sumqayıt: Bilik, – 2011, –479 s.

[2]. Глисин, А.Ф. Инструменты финансирования деятельности корпорации, их особенность и способы привлечения / А. Ф. Глисин, Е. О. Куликова // актуальные вопросы права, экономики и управления: сборник статей XX Международной научно-практической конференции : в 2 ч., –Пенза, 10 июня, –2019. –с. 21-27

[3]. Исраилова, З. Р. Значение международного бизнеса: особенности их ведения и проблемы / З.Р. Исраилова, М.А. Вахаева // Актуальные вопросы современной экономики. – 2022. – № 12. – С. 723-729

[4]. Кваша, В.А. Финансы и их роль в повышении эффективности деятельности предприятия / В.А. Кваша, А.Д. Бурыкин // Экономика и управление: проблемы, решения. – 2019. – Т. 3, № 3. – с. 83-91

[5]. Цуров, М.Д. Особенности взаимодействия международного бизнеса и менеджмента // Успехи современной науки. – 2016. – Т. 2, № 4. – с. 28-31

[6]. Bulkot, O. Modern System of International Financial Management in Multinational Companies // Економічний часопис-XXI. – 2015. – No. 1-2-2. –p. 8-11

[7]. https://www.stat.gov.az/ARDSK

[8]. https://www.cbar.az/page-190/capital-market/Azərbaycan Respublikasının Mərkəzi Bankı

**Summary**

**Financial resources in international business: sources of formation and conditions for effective use**

***Gasimova Z.M.***

***Key words:*** *international business, financial resources, foreign currencies, import, export, investment, international companies, sources of financing*

International business is a process that involves doing business across borders at a global level. International business is very large in scope because it is done at a global level. It focuses on the world's resources and the goals of organizing global business. International business provides employment to a large number of people. It plays the role of an important source of foreign currency for the country. In these companies, all payments are made in foreign currencies of different countries.

**Резюме**

**Финансовые ресурсы в международном бизнесе: источники формирования и условия эффективного использования**

***Гасымова З.М.***

***Ключевые слова:*** *международный бизнес, финансовые ресурсы, иностранные валюты, импорт, экспорт, инвестиции, международные компании, источники финансирования*

Международный бизнес-это процесс, который подразумевает ведение бизнеса за пределами страны на глобальном уровне. Международный бизнес очень большой по объему, поскольку он осуществляется на глобальном уровне. Он фокусируется на ресурсах мира и целях организации глобального бизнеса. Международный бизнес обеспечивает занятость большого количества людей. Он играет роль важного источника иностранной валюты для страны. В этих компаниях все платежи производятся в иностранных валютах разных стран.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

UOT **336.71** DOI 10.54758/16801245_2026_22_1_79

# Bank sektorunda genişlənmə və Azərbaycanda kiçik kredit xidmətlərinin yüksəlməsi

**Məmmədova Şəlalə Rəhim qızı** ORCID 0009-0004-2514-1958

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
shalala.mammadova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 18.07.2025*
*Düzəliş tarixi: 12.11.2025*
*Qəbulolunma tarixi: 28.01.2026*

***Açar sözlər***
*bank sektoru, kiçik kreditlər, maliyyə inklüzivliyi, kredit portfeli, risklərin idarə edilməsi*

**XÜLASƏ**

*Azərbaycan iqtisadiyyatında maliyyə sabitliyinin təmin olunması, real sektorun maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və rəqabət mühitinin formalaşdırılması məqsədilə bank sektorunda genişlənmə siyasəti həyata keçirilir. Bu siyasətin əsas istiqamətlərindən biri ölkə üzrə kiçik kredit xidmətlərinin əlçatanlığının artırılması, kredit məhsullarının çeşidinin genişləndirilməsi və regionlarda maliyyə inklüzivliyinin gücləndirilməsidir. Kiçik kreditləşmə iqtisadi fəallığın yüksəldilməsi, özünüməşğulluğun dəstəklənməsi, biznes təşəbbüslərinin stimullaşdırılması baxımından əhəmiyyətli rol oynayır. Bank sektorunda rəqəmsallaşma, risklərin idarə edilməsi və yeni kredit mexanizmləri kiçik kredit xidmətlərinin effektivliyini artıran əsas amillərdəndir*

## Giriş

Azərbaycan iqtisadiyyatında innovativ inkişaf modeli çərçivəsində maliyyə sektorunun gücləndirilməsi prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu baxımdan bank sektorunun modernləşdirilməsi, rəqəmsal xidmətlərin genişləndirilməsi və kiçik kredit xidmətlərinin əlçatanlığının artırılması dövlət siyasətinin əsas hədəflərindən biridir. Müasir çağırışlara uyğun olaraq banklar öz fəaliyyətlərini diversifikasiya edir, yeni kredit məhsulları hazırlayır, rəqəmsal platformalardan istifadəni artırır və risklərin idarə edilməsində qabaqcıl yanaşmaları tətbiq edirlər. Kiçik kredit xidmətləri isə xüsusilə regionlarda biznes təşəbbüslərinin dəstəklənməsi, əhalinin maliyyə ehtiyaclarının ödənilməsi və biznes mühitinin inkişafı üçün mühüm mexanizmə çevrilmişdir.

Kiçik kredit fəaliyyətinin mahiyyəti ondan ibarətdir ki, müxtəlif gəlir səviyyəsinə malik fərdlər və mikro sahibkarlar iqtisadi proseslərə daha çevik şəkildə qoşula bilir, yaranan maliyyə boşluqları operativ şəkildə kompensasiya edilir. Bu xidmətlərin mahiyyətində risklərin qiymətləndirilməsi, kreditlərin tez və effektiv verilməsi, maliyyə savadlılığının artırılması kimi amillər dayanır [1, s.1025].

### Kiçik kreditləşmənin bank sektorunun inkişafına təsiri, üstün və zəif cəhətləri

Kiçik kreditlərin üstünlüklərindən biri onların geniş əhali kütləsinə yönəlməsidir. Banklar bu kreditləri daha çevik prosedurlarla təqdim edir və beləliklə real sektorun maliyyə resurslarına çıxışını genişləndirirlər. Kiçik kreditlərin aktiv artımı iqtisadiyyatın dövriyyə sürətinin yüksəlməsinə, istehlak tələbinin artmasına və biznes təşəbbüslərinin yaranmasına səbəb olur [2, s.45]. Buna əlavə olaraq, kiçik kreditlər fərdi sahibkarlığın formalaşmasında mühüm stimul rolunu oynayır və yeni yaradılan bizneslərin başlanğıc kapitalını təmin etməyə kömək edir. Bu kredit növü aşağı gəlir qruplarının iqtisadi fəaliyyətə cəlb olunmasını asanlaşdırır və sosial inklüzivliyin genişlənməsinə şərait yaradır. Kiçik kreditlər qısa müddət ərzində təsərrüfat fəaliyyətini bərpa

etmək istəyənlər üçün əlverişli maliyyə aləti hesab olunur. Eyni zamanda, bu kreditlər əhalinin maliyyə intizamının formalaşmasına, büdcə idarəetmə bacarıqlarının təkmilləşməsinə və gəlir-məxaric balansının daha səmərəli planlaşdırılmasına təkan verir. Kiçik məbləğli kreditlərin verilməsi bankların müştəri bazasını genişləndirir və uzunmüddətli loyal müştəri auditoriyasının formalaşmasına şərait yaradır. Bu xidmət növü həmçinin banklar üçün faiz gəlirlərinin daha sabit şəkildə formalaşmasına imkan verir və portfelin daha balanslı şəkildə idarə olunmasına şərait yaradır. Kiçik kreditlərin geniş yayılması regionlarda kiçik biznesin artımına təkan verir, əhalinin məşğulluq səviyyəsini yüksəldir və istehsal proseslərinin şaxələndirilməsinə xidmət edir. Bu kreditlər həmçinin qadın sahibkarlığının inkişafında əhəmiyyətli rol oynayır, çünki kiçik kredit proqramlarından istifadə edənlərin böyük hissəsi qadın mikro-sahibkarlardır.

Kiçik kreditlər çox zaman kredit tarixçəsi zəif və ya olmayan şəxslər üçün ilk maliyyə imkanı rolunu oynayır və onların gələcəkdə daha iri kreditlərə çıxışını asanlaşdırır. Geniş tətbiq olunan kiçik kredit mexanizmləri ölkədə maliyyə savadlılığının yüksəldilməsinə və maliyyə münasibətlərində şəffaflığın artırılmasına səbəb olur. Bu kreditlərin çevik olması, müxtəlif ödəniş qrafiklərinin təklif edilməsi və bürokratik tələblərin azaldılması iqtisadi subyektlərin maliyyə qərarlarını daha operativ verməsinə imkan yaradır.

Bununla yanaşı, bank sektorunun bu xidmətləri genişləndirməsinin başlıca üstünlükləri aşağıdakılardır:

- bazar dəyişikliyinə sürətli adaptasiya imkanı;
- müştəri portfelinin genişlənməsi;
- risklərin diversifikasiyası;
- regionlarda iqtisadi aktivliyin artması.

Lakin kiçik kreditlərin zəif tərəfləri də mövcuddur:

- yüksək defolt riski;
- zəif maliyyə savadlılığı olan əhali qruplarında ödəniş intizamının aşağı olması;
- girov təminatının məhdudluğu;
- yüksək əməliyyat xərcləri.

Bunlarla yanaşı, kiçik kreditlərin zəif tərəfləri məhsulun yüksək marjasını tələb edir və bu da bəzi əhali qrupları üçün kredit yükünü artırır. Kiçik kreditlərin qısa müddətli olması bəzən borcalanların biznes dövriyyəsinə uyğun gəlmir və bu da ödəniş çətinliyi yarada bilər. Çoxsaylı kiçik kreditlərin idarə edilməsi banklar üçün əlavə resurs yükü formalaşdırır və əməliyyat xərclərini artırır. Zəif maliyyə savadlılığı kredit risklərinin proqnozlaşdırılmasını çətinləşdirir və banklar üçün əlavə müşahidə mexanizmlərinin tətbiqini tələb edir[3, s.98].

Kiçik kredit xidmətlərinin genişlənməsi kreditləşmə bazarında rəqabəti artırdığı üçün banklar arasında faiz dərəcələrinin optimallaşdırılması prosesi baş verir ki, bu da mənfəət marjalarının azalmasına səbəb ola bilər. Bəzi hallarda kiçik kreditlər qeyri-rəsmi iqtisadi fəaliyyətlə məşğul şəxslərin maliyyə yükünü artırır və onların ödəniş qabiliyyətinə mənfi təsir göstərir. Bununla belə, kiçik kreditləşmə iqtisadi canlanmanın mühüm stimulu kimi çıxış edir və bank sektorunda portfel dayanıqlığını gücləndirir. Kiçik kreditlərin çoxsaylı olması portfelin risk daralmasına deyil, daha geniş yayılmış risk paylaşımına imkan yaradır ki, bu da bankların maliyyə sabitliyini gücləndirir. Nəticə etibarilə, kiçik kreditlər həm mikro səviyyədə fərdi rifahın artırılmasına, həm də makro səviyyədə iqtisadi aktivliyin yüksəlməsinə xidmət edir.

**Bank sektorunda kiçik kredit xidmətləri üzrə strategiyalar**

Kiçik kredit xidmətlərinin genişləndirilməsi məqsədilə banklar müxtəlif strategiyalar tətbiq edir. Ən səmərəli yanaşma kimi əməkdaşlıq strategiyası çıxış edir. Bu strategiya bankların digər maliyyə institutları, dövlət proqramları və beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirir. Bu cür əməkdaşlıq banklara daha ucuz resurs əldə etmək, kredit risklərini bölüşdürmək və kredit şərtlərini daha münasib etmək imkanı yaradır. Əməkdaşlıq mexanizmləri vasitəsilə banklar

regionlarda fəaliyyət göstərən sahibkarların maliyyələşmə imkanlarını artırır və yerli iqtisadi potensialın reallaşdırılmasına şərait yaradır. Bundan başqa, tərəfdaşlıq strategiyası çərçivəsində banklar yeni kredit məhsullarının hazırlanması, biznes təlimlərinin təşkili və borcalanların maliyyə savadlılığının artırılması istiqamətində dəstək göstərirlər. Kiçik kreditlərin inkişafı üçün hökumət proqramları ilə əlaqələndirilmiş fəaliyyət də mühüm rol oynayır və bu əlaqə kreditlərin daha əlçatan olmasını təmin edir. Əməkdaşlıq strategiyasının digər üstünlüyü ondan ibarətdir ki, banklar bu yolla öz risk portfellərini daha səmərəli idarə edə bilir və kreditlərin geri dönüş səviyyəsini yüksəldirlər.

Eyni zamanda françayzinq modeli kimi bank xidmətlərində genişlənmə formaları da müşahidə olunur. Bu çərçivədə banklar kiçik sahibkarlarla əməkdaşlıq edərək kredit paketlərinin şərtlərini optimallaşdırır, texniki və məsləhət dəstəyi göstərir. Françayzinq modeli biznesin standartlaşdırılmış fəaliyyət çərçivəsində işləməsinə imkan yaradır və bu da banklar üçün kredit risklərinin azalmasına şərait yaradır. Bu model çərçivəsində kiçik sahibkarlar daha tanınmış brend adı altında fəaliyyət göstərdikləri üçün onların bazara çıxış imkanları genişlənir və gəlirləri daha sabit olur. Kredit portfelinin bölüşdürülməsi, risklərin sığortalanması və rəqəmsal kredit mexanizmlərinin tətbiqi bu sahədə mühüm rol oynayır. Rəqəmsal bankçılıq kiçik kreditlərin verilmə prosesini sadələşdirir, kreditlərin təhlilini avtomatlaşdırır və xidmətin əhatə dairəsini genişləndirir [4, s.120].

Rəqəmsal həllər banklara əməliyyat xərclərini azaltmağa, kredit risklərini daha tez qiymətləndirməyə və müştəri davranışını daha dəqiq proqnozlaşdırmağa şərait yaradır. Süni intellekt və məlumat analitikası kredit scoring mexanizmlərini təkmilləşdirir, bununla da banklar daha dəqiq risk qiymətləndirməsi aparır. Kiçik kredit strategiyalarının effektivliyi həm də müştərilərlə fərdi yanaşma, dinamik ödəniş qrafikləri və alternativ qiymətləndirmə metodlarının tətbiqi ilə artır. Bankların sosial yönümlü kredit proqramlarında iştirakı kiçik kreditlərin əhatə dairəsini genişləndirir və daha çox ailənin maliyyə xidmətlərinə çıxışını təmin edir. Regionlar üzrə filial şəbəkələrinin genişləndirilməsi və mobil bank xidmətlərinin tətbiqi kiçik kreditlərin əlçatanlığını artıran mühüm amillərdəndir. Nəticə etibarilə, strategiyaların düzgün seçilməsi və vahid idarəetmə çərçivəsinin tətbiqi bank sektorunda kiçik kreditlərin dayanıqlı inkişafına şərait yaradır.

**Azərbaycanda kiçik kredit xidmətləri üzrə statistik göstəricilər**

2019–2023-cü illərdə Azərbaycanda bank sektoru tərəfindən təqdim olunan kiçik kreditlər iqtisadi fəallığın güclənməsi ilə paralel olaraq artım meyli göstərmişdir. Bu dövrdə kredit portfelinin təkmilləşməsi, rəqəmsal bankçılığın genişlənməsi və maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması kiçik kreditlərin əhatə dairəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Xüsusilə regionlarda iqtisadi aktivliyin yüksəlməsi kiçik kredit tələbatını artıran mühüm amillərdən biri olmuşdur. Rəqəmsal kredit mexanizmlərinin tətbiqi daha çevik və sürətli kredit prosesinə imkan yaratmaqla müştəri sayının artmasına şərait təmin etmişdir.

Ümumilikdə göstərilən dövrdə kiçik kreditlərin həcminin artması bank sektorunda diversifikasiya səviyyəsini yüksəltmiş, iqtisadi iştirakçıların maliyyə resurslarına çıxışını genişləndirmişdir. Bu göstəricilər Azərbaycanda kiçik kreditləşmə üzrə sabit artım tendensiyasının formalaşdığını deməyə əsas verir.

***Cədvəl 1.***

*2019–2023-cü illərdə banklar tərəfindən verilmiş kiçik kreditlərin sayı*

| Göstəricilər | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Kiçik kreditlərin ümumi sayı | 182 000 | 195 300 | 210 500 | 233 100 | 257 800 |
| Regionlar üzrə pay (%) | 38% | 42% | 44% | 46% | 49% |
| Rəqəmsal kanallarla verilən kreditlər | 12% | 18% | 26% | 34% | 47% |

Cədvəl 1-in məlumatları göstərir ki, 2019–2023-cü illər ərzində kiçik kreditlərin ümumi sayında davamlı artım müşahidə olunmuş və bu artım hər il iqtisadi fəallığın yüksəldiyini nümayiş etdirmişdir. 2019-cu ildə 182 min olan kiçik kredit sayı 2023-cü ildə 257,8 minə çataraq ümumilikdə əhəmiyyətli artım tempini qorumuşdur. Regionlar üzrə payın 38%-dən 49%-ə yüksəlməsi göstərir ki, maliyyə xidmətlərinə çıxış paytaxtdan regionlara doğru genişlənmiş, iqtisadi aktivlik ölkə miqyasında daha balanslı şəkildə formalaşmağa başlamışdır. Rəqəmsal kanallarla verilən kreditlərin payının 12%-dən 47%-ə qədər yüksəlməsi bank sektorunda rəqəmsallaşmanın yüksək sürətlə getdiyini təsdiq edir və bu hal əməliyyat xərclərini azaldaraq kreditlərin əlçatanlığını daha da artırır. Rəqəmsal kreditləşmənin artması həm də kiçik kreditlərin verilmə prosesini sürətləndirmiş, daha çox vəsaitin daha qısa müddətdə iqtisadi dövriyyəyə daxil olmasına şərait yaratmışdır.

Ümumilikdə, cədvəldəki göstəricilər kiçik kredit xidmətlərinin həm miqyas, həm coğrafiya, həm də texnoloji baza baxımından inkişaf etdiyini və bank sektorunun strateji genişlənmə xəttinə uyğun şəkildə formalaşdığını göstərir.

**İqtisadi fəaliyyət növləri üzrə kiçik kreditlərin bölgüsü**

Kiçik kreditlərin iqtisadi sahələr üzrə bölgüsü həmin kreditlərin iqtisadiyyatın müxtəlif sahələrində oynadığı rolu və təsir gücünü əks etdirir. 2019–2023-cü illər üzrə məlumatlar göstərir ki, kreditlərin paylanması ölkə iqtisadiyyatının struktur dəyişiklikləri ilə sıx əlaqəlidir. Ticarət və kənd təsərrüfatı sahələri kiçik kreditlər üçün ən cəlbedici istiqamətlər olmaqda davam edir, çünki bu sahələrdə fəaliyyət göstərən subyektlərin maliyyə tələbatı davamlıdır. Xidmət sektorunda payın mərhələli şəkildə azalması iqtisadi prioritetlərin müəyyən qədər yenidən formalaşdığını göstərir. Digər sahələrdə kredit payının zəifləməsi isə iqtisadi fəaliyyətin daha çox əsas sahələrdə cəmləşməsi ilə bağlıdır.

Ümumilikdə cədvəl kiçik kreditləşmənin iqtisadiyyatın aparıcı sahələrinə daha çox yönəldiyini nümayiş etdirir.

***Cədvəl 2.***

*Kiçik kreditlərin iqtisadi fəaliyyət növləri üzrə payı*

| İqtisadi sahə | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Ticarət | 42% | 44% | 45% | 46% | 48% |
| Kənd təsərrüfatı | 18% | 20% | 21% | 23% | 24% |
| Xidmət sektoru | 27% | 25% | 24% | 23% | 22% |
| Digər | 13% | 11% | 10% | 8% | 6% |

Cədvəl 2-nin məlumatları göstərir ki, ticarət sahəsi kiçik kreditlərin ən böyük payını təşkil etmiş və bu göstərici 2019-cu ildə 42%-dən 2023-cü ildə 48%-ə yüksəlmişdir. Bu artım ticarət sektorunda dövriyyənin yüksək olması, kiçik sahibkarların maliyyə dövriyyələrini tez-tez yeniləmək ehtiyacı və sektorun dinamik xarakteri ilə izah oluna bilər. Kənd təsərrüfatında kiçik kreditlərin payının 18%-dən 24%-ə yüksəlməsi regionlarda kənd təsərrüfatı fəaliyyətinin aktivləşməsi və aqrar sektorun dövlət proqramları vasitəsilə dəstəklənməsi ilə əlaqədardır. Xidmət sektorunda payın tədricən azalması göstərir ki, bu sahədə fəaliyyət göstərən müəssisələr daha çox öz maliyyə resurslarına əsaslanır və ya rəqəmsallaşma nəticəsində əlavə maliyyə ehtiyacı nisbətən zəifləyib. Digər sahələrdə payın 13%-dən 6%-ə düşməsi iqtisadi fəaliyyətin əsasən ticarət və kənd təsərrüfatında cəmləşməsinə dəlalət edir, çünki bu sahələr daha geniş bazara malikdir və daha çox kiçik kredit tələb edir[5].

Ümumilikdə analiz göstərir ki, kiçik kreditləşmə iqtisadiyyatın ən aktiv və genişlənən sahələrində daha intensiv formada tətbiq olunur və kredit axınının struktur xüsusiyyətləri iqtisadi prioritetlərlə uzlaşır. Bu dinamika həmçinin kiçik kreditlərin iqtisadi inkişafın lokomotiv sahələrinə yönəldiyini və maliyyə resurslarının daha səmərəli bölüşdürüldüyünü nümayiş etdirir.

Araşdırmalar göstərir ki, Azərbaycanda kiçik kredit xidmətlərinin inkişafı bir neçə əsas meyli özündə birləşdirir:

- kiçik kreditlərin ümumi həcmi və sayında davamlı artım müşahidə olunur;
- rəqəmsal kreditləşmə metodlarının genişlənməsi müştəri əhatəsini artırır;
- regionlar üzrə kreditləşmə nisbətən qeyri-bərabər olsa da, artım tendensiyası mövcuddur;
- ticarət, kənd təsərrüfatı və xidmət sahələri kiçik kreditlər üçün prioritet sektorlar olaraq qalır.

Beləliklə, bank sektorunda genişlənmə və kiçik kredit xidmətlərinin inkişafı iqtisadi fəallığın gücləndirilməsi, maliyyə inklüzivliyinin artırılması və sosial rifahın yaxşılaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

## Ədəbiyyat

[1]. Əliyev, İ.U. İqtisadi proseslərdə kredit mexanizmləri / İ.U.Əliyev, –Bakı: Elm, –2021. –245 s.
[2]. Məmmədov, R.A. Bank işinin əsasları / R.A.Məmmədov, –Bakı: Qanun, –2020. –318 s.
[3]. Kovalev, A.İ. Analiz финансового состояния предприятия / A.İ.Kovalev, V.P.Privalov, –M.: Центр экономики и маркетинга, –2019. –368 s.
[4]. Hüseynov, Ə.M. Azərbaycan bank sektorunda kreditləşmə mexanizmləri və risklərin idarə edilməsi / Ə.M.Hüseynov. –Bakı: İqtisad Universiteti Nəşriyyatı, –2022, –276 s.
[5]. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Rəsmi statistik göstəricilər. www.stat.gov.az

**Summary**

**Expansion of the banking sector and the rise of small loan services in Azerbaijan**

***Mammadova Sh. R.***

***Keywords:*** *banking sector, small loans, financial inclusion, credit portfolio, risk management*

The expansion of the banking sector and the improvement of financial inclusion have become key priorities in Azerbaijan's socio-economic development strategy. One of the essential directions of this policy is the strengthening of small loan services, which contribute to the activation of economic processes, support for low-income groups and micro-entrepreneurs, and the stimulation of new business initiatives. The increasing accessibility of small loans enhances the dynamism of the financial market and plays a vital role in ensuring sustainable economic development.

Small loan services provide flexibility for banks in diversifying their credit portfolios, improving risk management, and expanding their geographic coverage, especially in rural regions. Digital transformation in the banking sector has significantly simplified loan procedures and increased the share of online credit issuance. Despite certain risks such as high default probability and limited collateral, small loans remain a powerful tool for economic stimulation.

**Резюме**

**Расширение банковского сектора и рост услуг малых кредитов в Азербайджане**

***Мамедова Ш. Р.***

***Ключевые слова:*** *банковский сектор, малые кредиты, финансовая инклюзия, кредитный портфель, управление рисками*

Расширение банковского сектора и повышение финансовой инклюзивности являются приоритетными направлениями социально-экономического развития Азербайджана. Одним из ключевых элементов данной политики является развитие услуг малых кредитов, которые обеспечивают активизацию экономической деятельности, поддержку малообеспеченных групп и микро-предпринимателей, а также стимулирование новых бизнес-инициатив.

Увеличение доступности малых кредитов способствует укреплению финансового рынка, повышает его устойчивость и играет важную роль в обеспечении экономического роста. Малые кредиты дают банкам возможность расширять клиентскую базу, диверсифицировать кредитные портфели и внедрять современные методы управления рисками. Цифровизация банковского сектора значительно упростила процесс получения кредитов и расширила географию финансовых услуг. Несмотря на существующие риски, малые кредитные услуги остаются важным инструментом поддержки экономической активности.

.

**UOT 338.486** DOI 10.54758/16801245_2026_22_1_84

# Turizm logistikası: nəqliyyat, təchizat və insan axınının inteqrasiyalı idarəetməsi

**İsayeva Günel Şirin qızı** ORCID 0009-0003-5640-6106

*Naxçıvan Dövlət Universtieti, Naxçıvan, Azərbaycan, baş müəllim*
gunelisayeva@ndu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 15.07.2025*
*Düzəliş tarixi: 22.09.2025*
*Qəbulolunma tarixi: 19.12.2025*

***Açar sözlər***
*turizm logistikası; təchizat zənciri; müştəri məmnuniyyəti; iqtisadi əhəmiyyət*

**XÜLASƏ**

*Bu məqalədə turizm və logistika sahələri arasındakı qarşılıqlı əlaqə, bu əlaqənin iqtisadi əhəmiyyəti və praktik tətbiq sahələri araşdırılır. Son illərdə həm logistika, həm də turizm sənayesi dinamik inkişaf mərhələsinə qədəm qoymuş, bir-birinə inteqrasiya olunmuş fəaliyyət sahələrinə çevrilmişdir. Xüsusilə turist sayının artması və beynəlxalq rəqabətin güclənməsi ölkələri və müəssisələri xərcləri azaltmaq və müştəri məmnuniyyətini artırmaq üçün daha effektiv logistika modelləri tətbiq etməyə məcbur etmişdir*
*Məqalədə logistikanın tərifi, tarixi inkişaf mərhələləri, funksiyaları və əsas fəaliyyət sahələri, həmçinin təchizat zənciri anlayışı elmi şəkildə izah olunur. Eyni zamanda turizm sənayesində logistika fəaliyyətlərinin, xüsusilə nəqliyyat vasitələrinin (quru, dəmir yolu, hava və dəniz nəqliyyatı) istifadəsinin əhəmiyyəti vurğulanır. Logistika yalnız məhsulların deyil, həm də insanların effektiv və planlı daşınmasını təmin etməklə turizmin fasiləsiz və dayanıqlı şəkildə inkişafına xidmət edir. Səyahət agentlikləri, tur-operatorlar, iaşə və qonaqpərvərlik müəssisələri kimi turizm iştirakçıları logistika sektoru ilə sıx əməkdaşlıq edir. Məqalənin nəticələrində qeyd olunur ki, düzgün seçilmiş logistika vasitələri və sistemli idarəetmə metodları turist məmnuniyyətini və gəlirliliyi artırmaqla yanaşı, ölkələrin beynəlxalq turizm bazarındakı mövqeyini də gücləndirir.*

## Giriş

Son illərdə logistika sənayesi, zaman və xərclərin səmərəli idarə olunması baxımından əhəmiyyətini artıran sahələrdən birinə çevrilmişdir. Logistika fəaliyyətlərinin demək olar ki, bütün sahələrdə tətbiq olunması bu sahənin elementlərinin təhlilini və dərindən öyrənilməsini zəruri edir. Bu vəziyyət müəssisələr üçün xərcləri azaltmaq və vaxta qənaət etmək baxımından logistika konsepsiyasının əhəmiyyətini artırır. Digər tərəfdən, nəqliyyat və kommunikasiya imkanlarının genişlənməsi turizm sənayesinin inkişafına nəzərəçarpacaq dərəcədə təsir edir.

Hər il turizm gəlirlərinin və turistlərin sayının artması bu sahənin milli iqtisadiyyat üçün əhəmiyyətini bir daha göstərir.

İlk baxışda turizm və logistika sahələri bir-birinə çox da yaxın sahələr kimi görünməsə də, turizm sektoru logistik nəqliyyat vasitələrindən fasiləsiz istifadə edən sahələrdən biridir. Turizm həm insan, həm də məhsul daşımalarını hava, dəmir yolu, dəniz və quru yolları vasitəsilə həyata keçirir. Bu iki sahə arasındakı əlaqə adətən təchizat zənciri anlayışı ilə izah olunur. Bu anlayış əsasən məhsulların turistlərə çatdırılması ilə əlaqələndirilir. Lakin turizmin yalnız məhsul ötürülməsi ilə logistikaya bağlanması qeyri-kafi yanaşmadır. Turizm sektoru insanların bir məkandan başqa bir məkana hərəkətini təmin edən bir sahədir. Buna görə də, turizmin logistika idarəçiliyində insan daşımalarının da nəzərə alınması vacibdir.

Turizmdə logistika konsepsiyası, təchizat zənciri idarəçiliyindən əlavə olaraq, insanların səyahətlərini istiqamətləndirən mühüm və effektiv bir fəaliyyət sahəsidir. Logistika sənayesi turizmlə birbaşa əlaqəli olmaqla, yalnız məhsul deyil, həm də insan daşımalarının təşkilində mühüm rol oynayır. Bu bölmədə logistika anlayışı və funksiyaları, daha sonra isə turizm sənayesində logistikanın yeri və turizm logistikasını yönləndirən təşkilatlar haqqında məlumat verilmişdir. Məqsəd, turizm və logistika sənayesi arasındakı əlaqəni və turizmdə logistika idarəçiliyinin əhəmiyyətini izah etməkdir.

**Logistika anlayışı və onun əhəmiyyəti**

Logistika anlayışı ilk olaraq 1900-cü illərin əvvəllərində daha çox hərbi məqsədlərlə istifadə olunmağa başlanmışdır. Bu anlayış müharibələr zamanı əsgər və material daşımalarını əhatə etmişdir. Ancaq biznes həyatında bu anlayış xüsusilə 1970-ci illərdən sonra geniş tətbiq olunmağa başlamışdır. Buna görə də logistika termini izah olunarkən, hərbi daşımalar və silah sursatların daşınması da nəzərdə tutulur. Lakin kommersiya məqsədli istifadənin genişlənməsi ilə logistika "müştəri tələbatını qarşılamaq məqsədilə istənilən məhsul, xidmət və ya məlumatın istehsal mənbəyindən son istehlakçıya qədər daşınması və uyğun saxlama şəraitinin planlaşdırılıb idarə olunması prosesi" kimi ifadə olunur [1,s. 13].

Tarixi proseslərdə insanların məhsulları bir yerdən digər yerə daşıdığı müşahidə olunur və bu xidmətlər tarix boyunca mövcud olmuşdur. Cəmiyyətlər ölkələrində mövcud olmayan məhsulları müxtəlif nəqliyyat vasitələri ilə əldə edərək istifadəyə yönəltmişdir. Müştəri tələblərinin strukturuna görə istənilən məhsul və ya xidmətin istənilən hissəyə yol, hava, dəniz və dəmir yolu nəqliyyatı ilə çatdırılması logistikanın əsas funksiyalarını təşkil edir [2, s. 19].

Logistikanın əsas elementi nəqliyyat əməliyyatlarıdır. Logistika, "müştərilərlə bağlanmış müqavilələrdə göstərilən funksiyaların müəyyən vaxtda, lazımi məkanda, gecikmədən, tam və zərərsiz şəkildə həyata keçirilməsi və çatdırılma funksiyalarının icrası" kimi tərif olunur [3, s. 10].

Hər bir ölkə valyuta gəlirləri əldə etmək üçün məhsullarını ixrac etməli və digər məhsulları idxal etməlidir. Bu mərhələdə logistika sənayesi işə daxil olur. Malların və ya xidmətlərin ölkələrarası daşınması, saxlanması və gömrük rəsmiləşdirilməsi logistikanın əsas fəaliyyət sahələrindəndir. Logistika sektoru ölkələrin ixrac və idxal proseslərində ayrılmaz bir hissədir. Bu səbəbdən logistika fəaliyyətləri xərcləri azaltmaq və keyfiyyətli xidmət təqdim etmək məqsədi daşıyır [4, s. 8].

Logistikanın ümumi məqsədlərini aşağıdakı kimi ümumiləşdirmək olar [5]:

- Doğru məhsulu, doğru zamanda, doğru müəssisəyə çatdıraraq daşınma xərclərini azaltmaq,
- Stoklama xərclərini azaltmaq və məhsulu ehtiyac olduğu vaxtda əldə etmək,
- Müştəriyə minimal xərclərlə dəqiq və yüksək keyfiyyətli xidmət göstərmək,
- Əməliyyat səmərəliliyini artırmaq,
- Müştəri məhsullarının və xidmətlərinin izlənməsini təmin etmək,
- Məhsul və ya xidmətin davamlı bir sistemlə əldə olunmasına nail olmaq.

Logistikanın əsas məqsədlərindən biri də müştəri gözləntilərini qarşılamaqdır. Məhsul və ya xidmətin müştəri ilə bağlanmış müqaviləyə uyğun şəkildə və vaxtında çatdırılması vacibdir. Beləliklə, müəssisələr müştəri itkisinə məruz qalmayacaq və dayanıqlı bir struktura sahib olacaqlar. Bu baxımdan, logistika sənayesi müəssisələr ilə müştərilər arasında münasibətlərin nizamlı və sistemli şəkildə qurulmasında mühüm rol oynayır.

Logistika fəaliyyəti yalnız kommersiya və ya hərbi məqsədlərlə məhdudlaşmır. İnsanların və ümumiyyətlə canlıların həyatı ilə bağlı mövzularda da logistik fəaliyyətlər aktiv rol oynayır. Qlobal fəlakətlər zamanı və humanitar yardım məqsədi ilə də logistik xidmətlər əhəmiyyətli yer tutur.

**Logistika Fəaliyyətləri və Xüsusiyyətləri**

Logistikanı yalnız daşınma funksiyası ilə məhdudlaşdırmaq qeyri-dəqiq yanaşma olardı. Logistika sahəsi çoxsaylı fəaliyyətləri özündə cəmləşdirən geniş bir sistemdir. Satınalma,

anbarlama, gömrük, sığorta, qablaşdırma, geri qaytarma və digər müxtəlif funksiyalar logistika daxilində qiymətləndirilir.

Logistika xidmətləri həm milli, həm də beynəlxalq miqyasda fasiləsiz şəkildə həyata keçirilir. Müəssisələr bu xidmətlərdən yerli və xarici bazarlarda logistika şirkətləri vasitəsilə istifadə edirlər. Daşınma və saxlama funksiyaları əsas təşkil etsə də, beynəlxalq fəaliyyətlərə görə gömrük rəsmiləşdirilməsi də logistika fəaliyyətlərinə daxil olur. Ən çox xərcli hissə daşınmadır, lakin saxlama və gömrük prosedurları da mühüm əhəmiyyət kəsb edir [6, s. 34].

Logistikanın əsas fəaliyyətləri aşağıdakı cədvəldə ümumiləşdirilmişdir:

***Cədvəl.***

*Logistikanın əsas fəaliyyətləri [6, s. 16]*

| | |
|---|---|
| Nəqliyyat | Qablaşdırma |
| Beynəlxalq logistika | Obyektin yerləşməsi |
| Tələb proqnozlaşdırılması | Anbar idarəçiliyi |
| Sifarişlərin idarə olunması | Müştəri xidmətləri |
| Ehtiyatların idarə olunması | Satınalma |
| Material idarəçiliyi | Tərs logistika |

Logistika sahəsində ən mühüm və xərcli xidmət olan "nəqliyyat" müxtəlif üsullarla həyata keçirilir:

- Hava nəqliyyatı
- Quru nəqliyyatı
- Dəniz nəqliyyatı
- Dəmir yolu nəqliyyatı
- Boru kəməri nəqliyyatı

Daşıma növünə qərar verilərkən məhsulun xüsusiyyətləri, məsafə, təslim vaxtı, coğrafi vəziyyət və xərclər kimi meyarlar nəzərə alınır. Əsas nəqliyyat meyarları isə aşağıdakılardır:

- Nəqliyyat xərcləri
- Nəqliyyat sürəti
- Etibarlılıq
- Elastiklik
- Tutuma uyğunluq
- Daşınma üsullarının müxtəlifliyi

Məhsulun və ya xidmətin fiziki və kimyəvi xüsusiyyətləri gömrük prosedurlarını və saxlama ehtiyacını da müəyyənləşdirə bilər. Müntəzəm əməkdaşlıq edən müəssisələr üçün logistik şirkətlər xüsusi saxlama sahələri də təşkil edir [3, s. 24].

Beynəlxalq fəaliyyətlərdə logistik şirkətlər müvafiq ölkənin qanunvericiliyi üzrə ixtisaslaşmalı və müştərilərini gömrük və hüquqi məsələlər barədə məlumatlandırmalıdır. Bu səbəblə logistika sənayesi daşınma, saxlama və gömrük fəaliyyətlərini birlikdə yerinə yetirən, milli və beynəlxalq səviyyədə effektiv şəkildə fəaliyyət göstərən bir sənaye sahəsi kimi qiymətləndirilir.

**Turizm və logistika arasındakı əlaqə**

Turizm sənayesi çoxşaxəli quruluşuna görə müxtəlif sahələrlə əməkdaşlıq edir. Turistlərin istək və ehtiyaclarından yaranan turizm məhsulu və xidmətləri hər bir ölkə və bölgəyə görə fərqlilik göstərir. Bu ehtiyacların qarşılanması turizm sahəsində fəaliyyət göstərən müəssisələrin əsas hədəflərindəndir. Turistlərə həm məhsul, həm də xidmət təqdim etmək zərurəti, turizm sənayesini logistika sahəsi ilə sıx əməkdaşlığa məcbur edir.

Turist tələbatlarının tez dəyişməsi və fərqlilik göstərməsi, turizm məhsulu və xidmətlərinin dərhal təqdim edilməsini tələb edir. Bu səbəbdən turizm sahəsində fəaliyyət göstərən müəssisələr logistika elementlərindən düzgün istifadə etməli və bu tələblərə sürətli cavab verməlidirlər.

Turizm sahəsində aparılan elmi araşdırmalar nəzərdən keçirildikdə, turizm və təchizat zənciri anlayışlarının birgə istifadə edildiyi müşahidə olunur. Turizm sənayesində təchizat zəncirinə dair elmi işlərin sayı kifayət qədər çoxdur. Bu, turizm və logistika sahələri arasında əlaqənin nə qədər əhəmiyyətli olduğunu göstərir. Buna görə də logistika və təchizat zənciri arasındakı bağ əsas əhəmiyyət daşıyır.

**Təchizat zənciri və logistika əlaqəsi**

Yuxarıda qeyd olunduğu kimi, turizm sahəsində təchizat zənciri anlayışına tez-tez rast gəlinir. Ona görə də bu anlayışın qısa şəkildə izah olunması mövzunun anlaşılanlığı baxımından məqsədəuyğundur. Təchizat zənciri – məhsulların hazır məhsula çevrilməsi, bu məhsulların satış nöqtələrinə və müştərilərə çatdırılması və məlumat axınının səmərələşdirilməsi üçün bir çox biznes proseslərini eyni zamanda əlaqəli şəkildə idarə edən bir sistem kimi tərif olunur.

Təchizat zənciri anlayışının logistika çərçivəsindəki yeri və niyə turizm fəaliyyətlərində istifadə edildiyini izah etmək vacibdir. Təchizat zənciri – satınalma prosesindən son istehlakçıya qədər bütün funksiyaların sistemli şəkildə idarə olunması prosesidir. Turizm sənayesində turistlər son istehlakçı hesab olunduğuna görə, təchizat zəncirinin fasiləsiz və nizamlı şəkildə işləməsi vacibdir.

Logistika elementləri təchizat zəncirinin bir hissəsi kimi qəbul olunur və bu elementlər əsasən məhsul və xidmətin ötürülməsi ilə bağlıdır. Təchizatçılardan tam məsuliyyət götürülərək, məhsul və ya xidmətin ən minimal xərclərlə son istehlakçıya çatdırılması məqsəd qoyulur.

Ancaq müasir dövrdə logistika şirkətləri təchizat zəncirinin yerinə yetirdiyi bütün funksiyaları özləri də həyata keçirirlər. Keçmişdə yalnız daşınma, saxlama və gömrük sahəsində fəaliyyət göstərən logistika şirkətləri bu gün artıq təchizat zənciri funksiyalarını da icra edirlər. Bunun əsas səbəbi müəssisələrin xərcləri azaltmaq və vaxta qənaət etməyi hədəfləməsidir. Xüsusilə rəqabət şəraitində, loqistika xərclərini azaldan müəssisələr daha yüksək mənfəət əldə edirlər [6, s. 25].

Logistika və təchizat zənciri anlayışları turizm sənayesində paralel istifadə olunur. Logistika elementi daşınma, anbarlama və gömrük fəaliyyətlərini əhatə etdiyi halda, təchizat zənciri bu anlayışın daha geniş miqyasda bütün mərhələlərini əhatə edir.

**Turizmdə logistika və nəqliyyat növləri**

Turizm sektorunda həm məhsulların, həm də turistlərin daşınmasında istifadə olunan dəniz logistikası, xüsusilə gəmi turları ilə geniş vüsət almışdır. Bu kontekstdə, turizm məqsədli səyahət edən lüks gəmi turları – yəni kruiz turizmi – ön plana çıxır. Turistlər bu gəmilərdə müxtəlif fəaliyyətlərlə məşğul ola, istirahət edə, əylənə, idmanla məşğul ola və fərqli ölkə və limanları ziyarət edə bilərlər.

Bu gəmilər çox sayda turisti eyni vaxtda qəbul edə bildikləri üçün paket tur formatında təqdim olunur və bir neçə məkana dəniz yolu ilə səfər imkanı yaradır. Bununla yanaşı, sahil bölgələrində təşkil olunan qayıq və ya yaxta turları vasitəsilə yaxın adalara və bölgələrə səfərlər həyata keçirilir. Günübirlik dəniz turları ilə yemək, içki, əyləncə və gəzinti imkanları da təklif olunur.

Dəmir yolu logistikası, quru yolu nəqliyyatına nisbətən daha sürətli və daha geniş daşıma qabiliyyətinə malik olduğu üçün 20-ci əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanmışdır. İlk zamanlarda daha çox yük və hərbi daşımalar üçün istifadə edilən dəmir yolları, texnologiyanın inkişafı ilə hava və dəniz nəqliyyatı qarşısında cazibəsini nisbətən itirmişdir.

Ancaq turizm sahəsində dəmir yolu nəqliyyatı kütləvi turizmin ilk nəqliyyat vasitəsi olmuşdur. Ucuz olması və bir neçə turistik bölgəyə eyni marşrutla getmək imkanı ilə turistlər üçün əlverişlidir. Bu səbəbdən bir çox ölkədə turistik məqsədli, yeməkli və əyləncəli dəmir yolu marşrutları təşkil olunur. Rahat və münasib qiymətə səyahət imkanı təmin edən bu sistem geniş kütlələrə alternativ turizm imkanı yaradır.

Quru nəqliyyatı bütün sənayelər üçün məhsul və insan daşınmasında əvəzolunmaz elementlərdən biridir. Quru nəqliyyatının uzun zaman tələb etməsinə baxmayaraq, coğrafi şərait və əməliyyat xərclərinə görə geniş şəkildə istifadə olunur. Texnoloji inkişaflara baxmayaraq, yol hərəkəti qaydalarına görə zaman qənaəti həmişə mümkün olmur.

Xüsusilə yaxın və orta məsafəli turizm fəaliyyətlərində yol infrastrukturunun inkişafı ilə birlikdə quru nəqliyyatı daha çox üstünlük qazanır. Turistik bölgələr arasında nəqliyyat, yaşayış məntəqələri ilə digər nəqliyyat vasitələri arasındakı bağlantılar quru nəqliyyatı ilə təmin olunur. Hava və dəniz yolu ilə uzaq məsafəyə gələn turistlər, son nöqtəyə çatmaq üçün quru nəqliyyatından istifadə edirlər.

Turizm sektorunda fəaliyyət göstərən səyahət agentlikləri və tur operatorları öz fəaliyyətlərini əsasən quru nəqliyyatı ilə təşkil edirlər. Xüsusilə qonşu ölkələrə və yaxın bölgələrə təşkil olunan avtobus turları buna nümunədir. Bu, həm xərclərin daha münasib olması, həm də logistika baxımından daha əlverişli olması ilə bağlıdır. Eyni zamanda avtomobil icarəsi xidmətləri də turizm sektorunun istifadə etdiyi quru logistikası vasitələrindəndir. Müxtəlif turist məkanları arasında gündəlik transfer xidmətləri də bu yolla həyata keçirilir.

**Nəticə**

Turizm və logistika sənayesi arasında sıx əməkdaşlıq mövcuddur. Turistlərin sayının artması və turizmdən əldə olunan gəlirlərin yüksəlməsi ölkələri turizm sektoruna sərmayə yatırmağa məcbur etmişdir. İqtisadi şəraitin ağırlaşması və ölkələr arasında rəqabət mühitinin güclənməsi səbəbilə xərc amilləri daha da əhəmiyyət kəsb etməyə başlamışdır. Bu baxımdan, həm ölkələr, həm də müəssisələr üçün logistika fəaliyyətlərinin xərclərinin azaldılması zəruridir. Turizm sənayesində aşağı xərclərin təmin olunması və turist məmnuniyyəti baxımından ən uyğun logistika vasitələrinin istifadəsi xüsusilə önəmlidir.

Turizmdə turistlərin gözləntiləri və ehtiyacları qısa müddətdə bir neçə turistik bölgəni ziyarət etməyə yönəlmişdir. Logistika sektorunda istifadə olunan nəqliyyat vasitələri turizm sahəsində də geniş istifadə olunmaqdadır. Bununla belə, insan davranışları və münasibətləri səyahət seçimlərində fərqliliklər yaradır. Bu səbəbdən, turistlərin tətil planlarına və məqsədlərinə uyğun logistika vasitələrinin seçilməsi və istifadəsi vacibdir. Səyahət agentlikləri və tur-operatorlar turizm sektoru ilə logistika sektoru arasında əlaqə quran müəssisələr kimi fəaliyyət göstərirlər. Bu qurumlar həm ölkələr, həm turistlər, həm də digər müəssisələr üçün əhəmiyyətli vasitəçilərdir.

Bundan əlavə, turizm sahəsində fəaliyyət göstərən iaşə və qonaqpərvərlik müəssisələri məhsulların təchizatı və çatdırılması baxımından daim logistika sektoru ilə əməkdaşlıq edirlər. Məhsulların vaxtında və düzgün şəkildə çatdırılması turist məmnuniyyəti üçün mühüm əhəmiyyət daşıyır. Turistik məhsullar dərhal xidmətlə təmin olunmalıdır. Bu səbəbdən turizm sənayesində düzgün logistika vasitələrinin istifadəsi turizmin davamlılığı baxımından vacibdir.

Turizm sektorunda sistemli və düzgün logistika metodlarının tətbiqi turist tələbatının artmasına və turizmdən əldə olunan gəlirlərin yüksəlməsinə töhfə verir.

**Ədəbiyyat**

[1]. İmanov, T.İ. Logistikanın əsasları. Dərslik / T.İ. İmanov, –Bakı: Təhsil NPM, –2005. –474 s.
[2]. Küçük, O. Lojistik İlkeleri ve Yönetimi / O.Küçük, –Ankara: Seçkin Publishing, –2023. –344 s.
[3]. Management of Gren Marketing, International Seminar on Business and Information Management / 2. Long, D. Uluslararası Lojistik Küresel Tedarik Zinciri Yönetimi (Translated by: M. Tanyaş, and M. Düzgün). –Ankara: Nobel Publishing, –2012. –416 s.
[4]. Bowersox, D.J. Logistical Management / D.J.Bowersox, D.J.Closs, –McGraw-Hill College. –1996. –752 p.

[5]. İ. Ateş, E. İşık. Türkiye'de lojistik hizmetlerinin gelişiminin ihracattaki büyümeye etkilerİ https://dergipark.org.tr/tr/pub/ebd/issue/4855/66779
[6]. Murphy, P. Güncel Lojistik / P.Murphy, M.Knemeyer. (Translated by: Yercan, P. D. and Y. D. Demiroğlu). –Ankara: Nobel Kitap. –2016. –326 s.
[7]. Coyle, J. Transportation: A Supply Chain Perspective / J.Coyle, R.Novak, B.Gibson [et al.] // 7 Edition, –Cincinnati, USA: South-Western Cengage Learning. –2011. –506 p.

**Summary**
**Tourism logistics: integrated management of transport, supplies and people flow**
***Isayeva G.Ş.***

***Keywords:*** *tourism logistics; supply chain; customer satisfaction; economic significance*

This article examines the interaction between the tourism and logistics sectors, their economic significance, and their practical applications. In recent years, both logistics and tourism have entered a dynamic development phase and have become integrated sectors of activity. In particular, the increase in the number of tourists and the strengthening of international competition have forced countries and enterprises to implement more effective logistics models to reduce costs and increase customer satisfaction.

The article scientifically explains the definition of logistics, its historical development stages, functions and main areas of activity, as well as the concept of supply chain. At the same time, the importance of logistics activities, especially the use of transport vehicles (land, rail, air and sea transport) in the tourism industry is emphasized. Logistics serves the continuous and sustainable development of tourism by ensuring the effective and planned transportation of not only products, but also people. Tourism participants such as travel agencies, tour operators, catering and hospitality enterprises closely cooperate with the logistics sector. The conclusions of the article note that properly selected logistics tools and systematic management methods not only increase tourist satisfaction and profitability, but also strengthen the position of countries in the international tourism market.

**Резюме**
**Логистика туризма: комплексное управление транспортом, поставками и потоками людей**
***Исаева Г.Ш.***

***Ключевые слова:*** *туристическая логистика; цепочка поставок; удовлетворённость клиентов; экономическое значение*

В данной статье рассматривается взаимодействие туристического и логистического секторов, их экономическое значение и практическое применение. В последние годы логистика и туризм вступили в фазу динамичного развития и стали интегрированными сферами деятельности. В частности, рост числа туристов и усиление международной конкуренции вынуждают страны и предприятия внедрять более эффективные логистические модели для снижения затрат и повышения удовлетворенности клиентов.

В статье научно обосновано определение логистики, этапы ее исторического развития, функции и основные направления деятельности, а также понятие цепи поставок. При этом подчеркивается важность логистической деятельности, особенно использования транспортных средств (наземного, железнодорожного, воздушного и морского транспорта) в туристической индустрии. Логистика служит непрерывному и устойчивому развитию туризма, обеспечивая эффективную и плановую перевозку не только продуктов, но и людей. Участники туризма, такие как туристические агентства, туроператоры, предприятия общественного питания и гостеприимства, тесно сотрудничают с логистическим сектором. В выводах статьи отмечается, что правильно подобранные логистические инструменты и системные методы управления не только повышают удовлетворенность туристов и прибыльность, но и укрепляют позиции стран на международном туристическом рынке.

.

.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 37.016** DOI 10.54758/16801245_2026_22_1_90

# Müasir ali təhsil sistemi humanist psixoloji dəyərlər güzgüsündə

**Əliyeva Lalə Məmməd qızı** ORCID 0000-0001-9791-763X

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent*
lale.aliyeva@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 20.05.2025*
*Düzəliş tarixi: 22.09.2025*
*Qəbulolunma tarixi: 03.12.2025*

***Açar sözlər***
*pedaqoji praktikalar, şəxsiyyət yönümlü təlim, humanist psixoloji yanaşma, layihələr metodu, refleksiv təlim*

**XÜLASƏ**

*Dünya ali təhsil sisteminin müasir mərhələdə inkişafını səciyyələndirən aparıcı istiqamətlərdən biri – onun humanistləşməsidir. Bu proses, bütövlükdə təlim prosesinin və eləcə də ayrı-ayrı fənlərin tədrisinin məzmununun humanist psixoloji baxımdan zənginləşdirilməsini, onun istənilən problemlərinə, onların təlimdə iştirak edən hər iki tərəfin – öyrədənlə öyrənənin fəaliyyətinə insani baxımdan əhəmiyyət kəsb edən mövqedən – humanist psixoloji "güzgü"dən baxılmasını tələb edir.*
*Bu yanaşma müasir yüksək intellektə və peşə vərdişlərinə malik olan (yiyələnmiş) gənclərin dar peşə çərçivəsində qapanıb qalmamasını, peşəkarlıqla yanaşı həqiqi humanist mövqenin və əhatəli dünyagörüşünün formalaşmasını aktual vəzifə kimi qiymətləndirir.*
*Sözü gedən yanaşmanın əsasını humanist psixologiyanın (onun bütün tarixi boyu formalaşmış və müasir dövrdə R. Associlonin, A. Maslounun, C. Düinin və b. təlimlərində yer almış) mahiyyətini əks etdirən müddəalar təşkil edirlər. Humanist yanaşma elə təlim mühitinin formalaşmasına təkan verir ki, burada təlimin subyekti olan insan (fərd) özünə inam, qarşılıqlı anlaşılma və rəgbətlənmə hiss edir. Təkcə onun bir mütəxəssis kimi formalaşması üçün zəruri olan təlim materialını mənimsəmir, həmçinin özünə, digərlərinə və bütövlükdə həyata münasibətini formalaşdırır.*

Təhsil sisteminin müasir mərhələdə inkişafını səciyyələndirən başlıca məqam - onun funksional baxımdan əsaslı transformasiyaya uğraması, yəni bilik v vərdişlərin nəsildən nəslə ötürülməsi vasitəsindən gənc nəslin insani potensialının, mədəni identikliyinin formalaşmasının aparıcı mexanizminə çevrilməsidir. Qloballaşma, rəqəmsal transformasiya və artan ictimai-mədəni inteqrasiya şəraitində təhsilin rolu və yeri əhəmiyyətli dərəcədə artır.

Bu gün təhsildən təkcə yüksək səviyyəli mütəxəssislərin hazırlanması deyil, həm də tənqidi təfəkkürə, etik seçimə, yaradıcı dialoqa qadir olan vətəndaşların tərbiyə edilməsi tələb edilir. Hətta deyərdik ki, müasir təhsil nəinki təkcə "nəyi bilməli?" sualına, daha çox "sürətlə dəyişən aləmdə necə yaşamalı və inkişaf etməli?" sualına cavab verməlidir. Təhsil sistemi şəxsiyyətin formalaşdığı, onun potensialının inkişaf etdiyi və həyatın mənasının dərk edildiyi bir məkana çevrilməlidir.

Bu hədəflər həm bütövlükdə təlim prosesinin, həm də ayrı-ayrı fənlərin tədrisinin məzmununun humanist psixoloji baxımdan zənginləşdirilməsini, onun gedişində aktuallaşan istənilən problemlərə, təlim fəaliyyətində iştirak edən hər iki tərəfin – öyrədənlə öyrənənin fəaliyyətinə insani baxımdan əhəmiyyət kəsb edən mövqedən – humanist psixoloji "güzgü"dən baxılmasını tələb edir.

Bu yanaşma müasir yüksək intellektə və peşə vərdişlərinə malik olan (yiyələnmiş) gənclərin dar peşə çərçivəsində qapanıb qalmamasını, peşəkarlıqla yanaşı həqiqi humanist mövqenin və əhatəli dünyagörüşünün formalaşmasını aktual vəzifə kimi qiymətləndirir.

Bu məcrada, insan fərdiyyətinin (sözsüz ki, konkret nəzərdən keçirilən halda söhbət təlim prosesinin başlıca subyektindən – təlimlənəndən gedir) inkişafına yönəlmiş yanaşmalar xüsusi aktuallıq kəsb edirlər. Məhz burada humanist psixologiya, təlimlənənə təkcə təlimin obyekti kimi deyil, öz təkrarolunmaz tələbatlarına, motivasiyaya və özünüinkişaf meylinə malik bir subyekt kimi nəzərdən keçirilməsini irəli sürür.

Təhsil sisteminin və onun həyata keçirdiyi təlim prosesinin humanist psixoloji prizmadan nəzərdən keçirilməsi bu prosesin fokusunun "nəticə xatirinə təlimdən" "şəxsiyyətin inkişafı naminə təlimə" doğru yerdəyişməsini həyata keçirməyə imkan verir.

Müasir təhsil sistemi müxtəlif təlim və nəzəriyyələrin kəsişməsində durur ki, bunların arasında humanist psixologiya xüsusi yer tutur. Bu məqalənin qayəsini humanist psixoloji dəyərlərin təlim praktikalarına təsirinin və təlim və tərbiyə prosesinə yanaşmanı formalaşdırma xüsusiyyətlərinin nəzərdən keçirilməsi təşkil edir.

**Müasir təhsil sistemi: çağırışlar və problemlər.**

Müasir təhsil sistemi, hazırda fərdi yanaşma prinsipinin aktual bir tələb kimi irəli sürülməsinə baxmayaraq, hələ də təlimlənən gənclərin tam dolğun inkişafına maneə törədən bir sıra problemlərlə üzləşir. Bu problemlər, müxtəlif ölkələrin təhsil sistemlərində onların etnik-psixoloji və sosial-iqtisadi dəyərlərinin təsiri altında fərqli çalarlara malik olsalar da, mahiyyət etibarilə, təhsil sistemi üçün ümumi xarakter daşıyırlar. Bu problemlər, təhsildə fərdi yanaşma prinsipinin əhəmiyyətinin və vacibliyinin ümumən (formal qaydada) qəbul edilməsinə baxmayaraq, əksər hallarda təhsil praktikasında doqmatik standartlara, zahiri göstəricilərə və kəmiyyət baxımından əldə edilən nəticələrə yönümün dəyişmədən qalmasına səbəb olurlar.

Bəs söhbət hansı problemlərdən gedir?

Bu problemlər, heç şübhəsiz, klassik doqmatik təhsil sisteminin dəyərlərini və yönümünü səciyyələndirirlər və tarixən formalaşmış "klassik dəyərlərə" söykənirlər, vahid bir sistemin danılmaz ünsürləri kimi vəhdət təşkil edirlər (bu prosesin səciyyəsinin, tarixi formalaşma şərtlərinin və onları meydana gətirən sosial-iqtisadi tələblərin, pedaqoji kanonların və didaktik sistemlərin, ələlxüsus Y.A. Komenskinin klassik sisteminin, nəzərdən keçirilməsi təqdim edilən yazının əhatə dairəsindən kənara çıxır). Onları, qısaca da olsa, nəzərdən keçirək.

Bu problemlər arasında aparıcı mövqe "***testosentrizmə***" (təlim prosesində verilən bilik və vərdişlərin birmənalı şəkildə testlərdən istifadə edilməklə qiymətləndirilməsinə) məxsusdur desək, yanılmarıq. Testosentrizmin bir problem kimi mahiyyətini təşkil edən neqativ məqam – bütövlükdə təlim prosesinin mahiyyətinin sınaqlara (imtahana, testləşdirilməyə və s. standart qiymətləndirilmə məqamlarına) hazırlaşmağa bərabər tutulmasıdır. Bu zaman təlimlənən tərəf təhsili özünüdərkə, təfəkkürün inkişafına və daxili zənginləşməyə aparan (aparmalı olan) yol kimi deyil, gözlənilən sınaq zamanı "müsbət nəticə" əldə etməyin şərti kimi bal toplanmasına yönəlmiş bir vasitə olaraq qavrayır. Nəticədə, labüd olaraq, təhsilə həqiqi maraq sönür, təlimlənənin yaradıcı potensialı nəinki aşkar edilmir və sonrakı inkişaf üçün stimul almır, əksinə, doqmatik çərçivəyə salınır.

İkinci problem – ***təhsil proqramlarının bir mənalı şəkildə unifikasiyaya məruz qalmasıdır***. (***unifikasiya*** (lat. *unus* «tək» + *facio* «edirəm»; «birləşdirilmə») — vahid sistemə və ya formaya gətirilmə anlamına gəlir). Təhsildə unifikasiya – təlim prosesinin həyata keçirilməsi zamanı yer ala biləcək və yol verilən çoxsaylı ünsürlərin və onların həllərinin sayının, əsasən subyektiv xarakter daşıyan, ixtisar edilməsi vasitəsilə rəngarəngliyin aradan qaldırılması, onların eyni tipli ünsürlərlə (stereotiplərlə) əvəz olunması baxımından kifayət dərəcədə geniş yayılmış və "səmərəli" (?!) bir metod kimi qəbul edilir və sistemləşdirilmənin (ünsürlərin, istifadə üçün səmərəli olan qaydada və ardıcıllıqla paylanması məqsədini güdən səviyyədə düzülməsindən ibarət olan) bir növü kimi çıxış edir.

Bu zaman, heç şübhəsiz ki, təlimlənənlərin fərdi xüsusiyyətlərinin, maraq və qabiliyyətlərinin nəzərə alınması üçün yer qalmır desək, yanılmarıq. Unifikasiyaya məruz qalmış, standartlaşdırılmış yanaşmalar təlimlənənlərin, faktiki olaraq, sistemin subyektlərindən onun obyektlərinə çevrilməsini həyata keçirirlər. Bu zaman, təlimlənənlərdən, onların təlim prosesinin fəal subyektləri kimi qiymətləndirilməsindən fərqli olaraq, onların fərdi xüsusiyyət və qabiliyyətlərinin, meyl və istəklərinin inkişafına yönəlmiş fəaliyyət deyil, "ümumən qəbul edilmiş" normalara müvafiqlik tələb edilir. Nəticədə, qeyri-standart düşüncəyə malik, emosional baxımdan fərqli hissiyyatın daşıyıcısı olan və alternativ təlim üslublarına meylli olan gənclər "pedaqoji təzyiqə" məruz qalırlar.

Nəzərdən keçirilən problem blokunda növbəti – üçüncü problem – təhsil mühitində ***psixoloji təhlükəsizliyin səviyyəsinin yetərli olmamasıdır***. Təlimlənənlər arasında labüd şəkildə özünü büruzə verən rəqabətlilik meyli, müxtəlif səpgidə dominantlığın ifadəsi kimi formalaşan avtoritarlıq, yanlış addımlar atmaq və səhv qərarlar qəbul etmək qorxusu, təlimçilər və valideynlər tərəfindən müxtəlif istiqamətlərdə göstərilən təzyiq və digər bu kimi məqamlar təlim prosesində təşviş atmosferinin bərqərar olmasına rəvac verirlər. Nəticədə, təlimlənənlər sözü gedən şəxslərdən dəstək əvəzinə tənqid eşidir, onların gələcək müvəffəqiyyətlərinin rəhni olacaq daxili motivasiyasının gücləndirilməsi əvəzinə onların istənilən fərdi təşəbbüsünü kökündə boğa biləcək xarici təlqinlə, məcburiyyətlə üzləşirlər. Bu hal - təlimlənənlərin emosional baxımdan yanmasına, təlim prosesindən demək olar ki, təcrid olunmasına və hətta bəzi hallarda onların psixoemosional sağlamlığının pozulmasına gedən ən qısa yoldur.

Nəhayət, təlim verənin təlim prosesində rolu müstəsna olaraq təlim proqramına "mexaniki" riayət olunmasına və nizam-intizama nəzarət üzrə "müvafiq" addımların atılmasına bərabər tutulur. Belə olan halda, pedaqoqun özü də, hətta istəsə belə, təlim prosesinə yaradıcı, təşəbbüskar yanaşmaq, təlimlənənlərlə etimadlı münasibətlər qurmaq və, humanist psixologiyada vurğulandığı kimi, fasilitator rolunu icra etmək imkanından məhrum olur.

Yuxarıda qeyd olunan problemlər, istər ayrı-ayrılıqda, istərsə də bir yerdə, təlim prosesində dərin, əsaslı dəyişiliklərin həyata keçirilməsi zərurətini göstərir. Təhsil sisteminə humanist psixoloji baxımdan yanaşma vurğulanan problemlərin aradan qaldırılmasına yönəlmiş pozitiv alternativ təklif edir: təlimlənmə təkcə peşə baxımından əhəmiyyətli və zəruri olan bilik və vərdişlərin formalaşmasına deyil, həm də təlimlənənin şəxsiyyətinə hörmətlə yanaşma, onu öz daxili aləminə, aktual fərdi tələbatlarına və fərdi inkişaf yolu seçmək şansına iddiada olan bir fərd kimi qəbul etmək tələb edir.

**Humanist psixoloji yanaşma nəyə əsaslanır?**

Bu yanaşmanın bünövrəsini humanist psixologiyanın dəyərləri təşkil edirlər. Humanist psixologiya – dünyəvi psixoloji təsəvvürlərin bir aktual istiqaməti olaraq, hər bir insanın unikal təbiətə malik olduğunu, onun istənilən fəaliyyət sahəsində fərdi seçim imkanına malik olduğunu vurğulayır və, bunun da əsasında şəxsiyyətin özünüaktuallaşdırma meylini və fərdi inkişaf yönümünü dəstəkləyir, ön plana çəkir. XX əsrin ortalarında, o zamanlar dominant olan iki psixoloji məktəbə - əsasən insan psixikasında qeyri-şüurinin öyrənilməsinə yönəlmiş psixoanalizə və ancaq insanın xarici davranışının öyrənilməsinə yönəlimiş biheviorizmin məhdud yanaşmasına cavab olaraq meydana gələn bu istiqamət insanı bir tam kimi, fəal surətdə inkişafda olan bir subyekt kimi, dərk edilmiş qərarlar qəbul edə bilən və daxili özünüininkişafa meylli fərd kimi nəzərdən keçirir.

Bu istiqamətin baniləri kimi amerikalı psixoloqlar Abraham Maslou və Karl Rocers tanınmışlar (hərçənd bu istiqamətin rüşeymlərini görkəmli italyan psixoloq Roberto Associolinin yazılarında və onun irəli sürdüyü "psixosintez" nəzəriyyəsinin başlıca müddəalarında görmək mümkündür). "Humanistlər" iddia edirlər ki, hər bir insana əzəldən inkişaf potensialı xasdır və onun əhatə mühitinin başlıca vəzifəsi – bu prosesin boğulmasından yox, onun hərtərəfli dəstəklənməsindən ibarət olmalıdır. Humanist psixologiya diqqəti subyektiv təcrübədə, şəxsi

məsuliyyət hissində, özünüreallaşdırmaya meyldə, şəxsiyyətlərarası münasibətlərdə empatik, fərdi dəyərlərə deyil, qarşılıqlı dəyərlərə söykənən zərurətdə cəmləşdirir.

Qeyd edək ki, humanist psixologiyanın mərkəzi anlayışlarından biri – özünüaktuallaşdırmadır, yəni hər bir insanın öz daxili potensialını inkişaf etdirmək, dolğun şəxsi həyat sürmək imkanını realladırmaq və həqiqi "Mən"ini qazanmaq meylidir. Bu anlayış, həmçinin insanın tələbatlar iyerarxiyasının məşhur piramidasını təklif etmiş amerikalı psixoloq A. Maslou tərəfindən irəli sürülmüşdür [3]. Onun nəzəriyyəsinə əsasən, fərd ancaq o zaman özünü tam mənada aktuallaşdıra bilər ki, onun baza tələbatları – fizioloji tələbatlar, təhlükəsizliyə, məhəbbətə və mənsubiyyətə olan tələbatlar - ödənilmiş olsunlar.

Bu baxımdan təhsil fərdi təşəbbüsü boğmamalı, əksinə, şəxsiyyətin (həm təlimlənənənin, həm də təlim verənin) qabiliyyətlərinin daha parlaq əks olunması üçün hərtərəfli şərait yaratmalıdır.

Humanist psixologiyanın digər görkəmli nümayəndəsi – Karl Rocers "şəxsiyyət yönümlü yanaşma" konsepsiyasının müəllifidir. O belə hesab edirdi ki, şəxsiyyətin inkişafı üçün başlıca amil – dəstəkləyici, səmimi və rəğbətləndirici (empatik) mühitin mövcud olmasıdır. Onun fikrincə, həqiqi təlimlənmə ancaq psixoloji təhlükəsizlik mühitində mümkündür: bu zaman təlimlənən öz fikirlərini, hisslərini və ideyalarını, digərləri tərəfindən tənə olunmaqdan ehtiyat etməyərək, sərbəst şəkildə bildirə bilər [2].

Beləliklə, humanist psixologiyanın başlıca ideyaları kimi aşağıdakılar fərqləndirilə bilərlər:

- Hər bir fərdin dəyərliliyinin və unikallığının qəbul edilməsi;
- Fərdi seçim azadlığına inam və öz həyatı üçün məsuliyyət daşımaq;
- Şəxsi inkişafa və autentikliyə meyl;
- Münasibətlərdə empatiya və onların dəyərləndirilmədən qəbul edilməi;
- Təlimə xaricdən informasiyanın aşılanması prosesi kimi deyil, fərdi daxili motivləşdirilmiş proses kimi yanaşma.

Humanist psixoloji dəyərlərə söykənən pedaqoji fəaliyyətdə təlimləndirən tərəf artıq, müstəsna olaraq, bilik mənbəyi və nəzarət funksiyasını yerinə yetirən subyekt kimi çıxış etmir. Bunun əvəzində, pedaqoq fasilitatora – təlimlənənin daxili potensialının aşkar edilməsi üçün zəruri şəraitin yaradılması yolu ilə təlimlənməyə dəstək verən köməkçiyə çevrilir.

Qeyd edək ki, "fasilitator" anlamının özü (ing. *to facilitate* — «yüngülləşdirmək, dəstəkləmək» mənasını verir) təlim prosesində təlim verənin rolunun radikal şəkildə dəyişdiyini göstərir: sözü gedən subyektin sadə informasiya ötürücüsündən təlimlənənin şəxsi və savad baxımından inkişaf amillərinin ötürücüsünə çevrilir.

Karl Rocers, təlim prosesində pedaqoqun bir fasilitator kimi nümayiş etdirməli olduğu üç başlıca keyfiyyəti fərqləndirir [2]:

- məramlarda səmimilik və həqiqilik — təlimin subyektlərinə münasibətdə sünilikdən, onlarla ünsiyyətdə "oyunçuluqdan" və formal üstünlük nümayişindən uzaq olmaq;

- təlimlənənin tərəf-müqabil kimi təmənnasız və pozitiv şəkildə qəbul edilməsi — təlimlənənin şəxsiyyətinə, onun təlim fəaliyyətində əldə etdiyi nailiyyətlərin səviyyəsindən, yol verdiyi səhvlərdən və ümumiyyətlə təlim prosesinə münasibətindən asılı olmayaraq, hörmətlə yanaşmaq;

- empatiya – tərəf-müqabilin (təlimin subyektinin) daxili aləmini hiss etmək, onun emosional vəziyyətini anlamaq və ona qayğı ilə yanaşmaq.

Fasilitator təlimlənənə "düzgün" düşünməyi və davranmağı birnəmalı şəkildə diktə etmir, əksinə, ona araşdırmalar aparmaqda, qarşısına tədqiqat xarakterli suallar qoymaqda, öz maraqlarını dərk etməkdə və məqsədini aktuallaşdırmaqda yardım edir. Təlim prosesinin gedişində fasilitator monoloqa söykənmir, təlimlənənin tərəf-müqabili kimi çıxış edərək, dialoq prinsipinə üstünlük verir. Məhz bu mövqe təlimlənəndə daxili motivasiyanı gücləndirir, onun qəbul ediləcək qərarlar

üçün şəxsi məsuliyyətinin, onların həyata keçirilməsi baxımından şəxsi məsuliyyət hissinin və tənqidi düşüncə tərzinin formalaşması və inkişafı üçün dəstək verir.

***Humanist psixologiyanın təlim praktikalarına təsiri***

Humanist yanaşma elə təlim mühitinin formalaşmasına təkan verir ki, burada təlimin subyekti olan insan (fərd) özünə inam, qarşılıqlı anlaşılma və rəgbətlənmə hiss edir. Təkcə onun bir mütəxəssis kimi formalaşması üçün zəruri olan təlim materialını mənimsəmir, həmçinin özünə, digərlərinə və bütövlükdə həyata münasibətini formalaşdırır.

Humanist psixologiya, diqqəti təlimlənənin şəxsiyyətində, onun daxili aləmində və emosional rifahında cəmləşdirərək, müasir təlim yanaşmalarının formalaşmasına və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Bu yanaşmadan irəli gələn aparıcı təlim praktikalarından biri — şəxsiyyət yönümlü təlimdir. Bu təlim praktikasının əsasında təlimlənənlər arasında fərdi fərqlərin labündlüyünün qəbul edilməsi durur: hər fərdin özünün fərdi inkişaf sürəti, düşüncə tərzi, maraq dairəsi və motivasiya sahəsi mövcuddur. Bu modeldə təlimverənin rolu universal həqiqətlərin təqdim edilməsindən daha çox, təlimlənənin qeyd edilən fərdi xüsusiyyətlərinin aşkar edilməsi və inkişafı üçün zəruri olan şəraitin yaradılması və dəstəklənməsi ilə səciyyələnir. Vacib olan nəyin öyrənilməsi deyil, bu prosesin necə həyata keçirilməsidir.

Təlimdə humanist psixoloji yanaşmaya söykənən praktikalar sırasında bir neçəsinin də adını çəkmək olar, məsələn:

- layihələr metodu, burada təlimlənən mövzunu seçir, araşdırır və əldə edilən nəticələri təqdim edir (sözsüz ki, təlimçi-fasilitatorun iştirakı ilə), yəni fəal, dərk olunan təlim həyata keçirilir;
- refleksiv təlim, bu zaman təkcə təqdim edilən informasiya deyil, bu baxımdan şəxsi təcrübə, yaşantı və inkişaf əhəmiyyət kəsb edir;
- tütorluq və hamilik, təlim prosesində təlimlənənin fərdi dəstəklənməsini ehtimal edir.

Deyilənlərə əlavə olaraq qeyd etmək lazımdır ki, humanist psixoloji yanaşma həmçinin daha yüksək - metafənn kompetensiyalarının (məs., özünütənzimləmə, empatiya, tənqidi yanaşma və komanda şəklində işləmək bacarığı kimi) inkişafına da rəvac verir. Bu məqamların əhəmiyyəti təlim prosesindən kənara çıxır, bütövlükdə həyati əhəmiyyət kəsb edir.

Bir sözlə, humanist psixologiyanın başlıca ideyaları real, kütləvi təlimlənməyə deyil, hər bir təlimlənənin bir unikal fərd kimi inkişafına yönəlmiş təlim strategiyalarında öz əksini tapırlar.

***Müasir təhsil sisteminə humanist psixoloji yanaşmanın tətbiq edilməsi.***

Humanist psixoloji yanaşmanın cəlbediciliyinə və artıq sübuta yetirilmiş səmərəliliyinə baxmayaraq, onun təhsil sistemi praktikasına tətbiqi bir sıra ciddi çətinliklərlə, istər sistem səviyyəsində, istərsə də şəxsi müstəvidə, üzləşir.

Bu baxımdan birinci və, zənnimizcə ***başlıca problem — bütövlükdə təhsil sisteminə xas olan inersiyalılıq, ətalətlilikdir***. Belə ki, müasir kütləvi təhsil hələ də, ənənəvi olaraq, sərt standartlara, nəzarətə, qiymətləndirməyə və ciddi iyerarxik sistemə söykənir. Belə şərtlər daxilində fərdi yanaşmanı və kifayət qədər vaxt sərfi, təlimlənənin fərdi xüsusiyyətlərinə diqqət və hörmətlə yanaşma tələb edən çevik qarşılıqlı əlaqə formalarını həyata keçirmək çox çətindir. "Yuxarıdan" təzyiq – təlim planlarının yerinə yetirilməsi, hesabatlılıq və digər ehkam xarakterli təlimatlar, ilk növbədə, təlim verənin pozitiv yönümlü fəaliyyət sərbəstliyini məhdudlaşdırır və onların yaradıcı təşəbbüskarlığını heçə endirir.

***İkinci***, birincidən heç də az əhəmiyyətli olmayan ***problem — pedaqoqların hazırlıq səviyyəsinin humanist təhsil metodikalarının tələblərinə müvafiq olmamasıdır***. Humanist psixoloji yanaşma pedaqoqlardan təkcə metodik biliklərə malik olmağı deyil, həm də emosional, kommunikativ və refleksiv vərdişlərə yiyələnməyi tələb edir. Təlimçi empatiya qabiliyyətinə malik olmalı, tərəf-müqabilin fərdi (konstruktiv) mövqeyini qəbul etməyə və təlimlənənlərlə tərəf-müqabil münasibətləri qurmağa hazır olmalıdır. Reallıqda, belə bir faktın labüdlüyünü qəbul etmək lazımdır

ki, hazırkı təhsil sistemində çalışan pedaqoqların böyük əksəriyyəti – klassik avtoritar sistemin yetişdirmələridirlər və humanist təhsil paradiqması ilə işləməyə hazır deyildirlər. Belə ki, təlimləndirənlərlə xüsusi hazırlıq keçirilmədən və onların təlim prosesində dəstəklənməsi həyata keçirilmədən, sözü gedən yanaşmanın təhsil sistemində tətbiq edilməsi formal xarakter daşıyar və, çox güman ki, müvəffəqiyyətsizliyə uğrayardı.

Sözü gedən problemlərdən ***üçüncüsü – təhsil müəssisələrində etimad mədəniyyətinin və psixoloji təhlükəsizlik mühitinin formalaşmamasıdır***. Humanist psixoloji dəyərlərə söykənən pedaqoqika təhsil müəssisələrindən təkcə yeni metodların tətbiq edilməsini deyil, həm də ümumi təhsil mühitinin kökündən dəyişdirilməsini (avtoritarizmdən uzaq olmağı, arzuolunmaz təzyiqdən, həddən ziyada rəqabətdən imtina etməyi tələb edir. Bu tələbin həyata keçirilməsi sözü gedən prosesə təhsil müəssisələrinin müdiriyyətinin, təhsilalanların valideyinlərinin fəal şəkildə cəlb edilməsini, pedaqoji kollektivdə qarşılıqlı münasibətlər sisteminin əsaslı şəkildə dəyişdirilməsini tələb edir.

Nəhayət, əhəmiyyətli problemlər sırasında ***növbəti problem – mövcud sosial-etnik və kütləvi-mədəni yönümlərdir***. Təəssüflə qeyd edilməlidir ki, cəmiyyətdə hələ də nəticəyə, müvəffəqiyyətə, "yaxşı peşəyə yiyələnməyə" yönüm daha üstündür, nəinki şəxsiyyətin inkişafına, özünüdərkinə və xoşbəxtliyə nail olmağa. Valideyinlər, təhsil müəssisələrinin inzibatçıları, hətta təhsilalanların özləri də standart qəbul edilmiş sxemlərə uyuşmayan humanist yanaşmanı "qeyri-ciddi" və ya "səmərəsiz" bir mövqe kimi qəbul edirlər.

Bununla belə, yuxarıda göstərilən çətinliklərə baxmayaraq, humanist psixoloji yanaşma prinsiplərini müvəffəqiyyətlə tətbiq edən təhsil müəssisələrinin, ayrı-ayrı pedaqoqların və, ümumiyyətlə, təhsil təşəbbüslərinin sayı artmaqdadır. Bu isə o deməkdir ki, bu sahədə pozitiv dəyişikliklər, özü də dərin və dayanıqlı, qaçılmazdırlar.

***Təhsil sisteminin humanist psixoloji yanaşma ruhunda inkişaf perspektivləri***

Təlim prosesinə humanist psixoloji yanaşma təhsilin müasir insanın həyatında rolunun yenidən dərk edilməsi üçün unikal imkanlar yaradır. Özünüaktuallaşdırmağa, empatik yanaşmaya və qiymətləndirilmədən qəbul edilməyə istiqamətlənmiş yanaşma təhsil mühitində, təlimlənənlər tərəfindən təkcə təqdim edilən informasiyanın mənimsənilməsinə deyil, habelə özünütənzimləmə, tənqidi təfəkkür və əməkdalıq vərdişlərinin formalaşmasına yönəlmiş etimad və dəstəklənmə mühitini formalaşdırmaq imkanı verir. Bu yönüm təkcə akademik nailiyyətlərin əldə edilməsinə deyil, həm də mürəkkəb və dinamik müasir dünyada həyata hazır olan dayanıqlı, harmonik şəxsiyyətlərin formalaşmasına rəvac verir.

Şübhəsiz ki, humanist psixoloji yanaşmanın ənənəvi təhsil sisteminə tətbiq edilməsi bir sıra problemlərlə üzləşir. Bu problemlər həm institusional strukturların müqavimətini, pedaqoqların kifayət etməyən hazırlıq səviyyəsini, hətta bu yanaşmanın cəmiyyət tərəfindən birmənalı şəkildə qəbul edilməməsini də əhatə edirlər. Lakin bunlar dəfedilməz problemlər deyildirlər. Mühüm olan odur ki, istər təhsil verənlər, istərsə valideyinlər və inzibati orqanlar artıq humanist yanaşmanın dəyərini başa düşürlər ki, bu da sözü gedən ideyaların real təhsil praktikasında həyata keçirilməsi üçün münbit mühit formalaşdırır.

Humanist psixoloji dəyərlərə söykənən yanaşmanın təhsil sistemində tətbiq edilməsi perspektivləri cəmiyyətin konkret təlimlənən şəxsiyyətinin qəbul edilməsi səviyyəsi ilə bağlıdır. Bu – uzunsürən, lakin zəruri bir prosesdir və onun nəticəsi olaraq daha insani, inklüziv və səmərəli təhsil sisteminin formalaşması olacaqdır. Vacib olan odur ki, bu ideyalar inkişaf etdirilsinlər və hər bir təlimlənənin fərdi potensialının aşkar edilməsi və onun tam dolğun bir şəxsiyyət kimi formalaşması üçün imkanlardan dolğun istifadə edilsin.

Bir sözlə, təhsildə humanist psixoloji yanaşma, hər bir təhsilalanın fərdi inkişafı və nailiyyətlər əldə etməsi üçün dəstək kimi çıxış edən təhsil praktikalarının dərk olunması və daha da yaxşılaşdırılması üçün dəyərli alətlər təklif edir.

## Ədəbiyyat

[1]. Rüstəmov, F.A. Karl Rocers və şəxsiyyətyönümlü təhsil / F.A.Rüstəmov, –Bakı: Elm və təhsil, –2019.
[2]. Rüstəmov, F.A. Humanist pedaqogika, yoxsa pedaqogikada humanizm? / F.A.Rüstəmov, –Bakı: Elm və təhsil, –2018. –92 s.
[3]. Maslow, A. İnsan olmanın psikolojisi / A.Maslow, –İstanbul: Kuraldışı. –2019.
[4]. Амонашвили, Ш. Основы гуманной педагогики / Кн. 5. Учитель. –М.: Амрита, –2013.
[5]. Маслоу, А.Г. Мотивация и личность / Перевод. с англ. Татлыбаевой А.М. –СПб.: Евразия, –1999. –478 с..
[6]. Рей, Л. Учение как путь самопознания: гуманистический подход в образовании / Л.Рей, –СПб.: Речь. –2012.
[7]. Скрипник, М. Гуманистическая психология в образовании / М.Скрипник, –М.: Просвещение. –2015.

**Summary**

**The modern system of higher education in the mirror of humanistic psychological values**

***Aliyeva L.M.***

***Keywords***: *pedagogical practices, personality-oriented learning, humanistic psychological approach, project method, reflexive learning*

One of the drivers of the modern development of the world higher education system is its humanization. This process requires the humanistic psychological connection of the educational process as a whole and the teaching process of individual subjects, the solution of certain problems, the humanistic psychological “mirror” of their activities from the position of ensuring humane security for both parties participating in the training - the teacher and the student.

This approach is an assessment of the formation of young people with modern intelligence and professional skills (maintaining a high level of advice), as well as the formation of a humanistic position and worldview as an urgent task.

The basis of the approach in question is psychological activity reflecting the essence of humanism (formed throughout its history and modern development is included in the teachings of R. Associ, A. Maslow, J. Duane, etc.).

The humanistic approach promotes the formation of a learning environment in which the person (individual), the subject of learning, feels self-confidence, mutual understanding and sympathy. He not only assimilates the training material necessary for his formation as a specialist, but also forms his attitude towards himself, others and life as a whole.

.

**Резюме**

**Современная система высшего образования в зеркале гуманистических психологических ценностей**

***Алиева Л.М.***

***Ключевые слова***: *педагогическая практика, личностно-ориентированное обучение, гуманистический психологический подход, метод проектов, рефлексивное обучение*.

Одной из движущих сил современного развития мировой системы высшего образования является ее гуманизация. Этот процесс требует гуманистической психолаогической связи процесса обучения в целом и процесса обучения отдельных субъектов, решения определенных задач, рассмотрения их деятельности с точки зрения обеспечения гуманной безопасности для обеих сторон, участвующих в процессе обучения – учителя и ученика – через гуманистическое психологическое «зеркало».

Такой подход считает актуальной задачей развитие у молодежи современного интеллекта и профессиональных навыков (поддержание высокого уровня консультирования), а также формирование гуманистической позиции и мировоззрения.

Основу рассматриваемого подхода составляет психологическая деятельность, отражающая сущность гуманизма (которая формировалась на протяжении всей его истории и современное развитие которой отражено в учениях Р. Ассоци, А. Маслоу, Дж. Дуэйна и др.).

Гуманистический подход способствует формированию такой среды обучения, в которой личность (индивид) – субъект обучения – ощущает уверенность в себе, взаимопонимание и сочувствие. Он не только усваивает учебный материал, необходимый для его развития как специалиста, но и формирует свое отношение к себе, другим и жизни в целом.

**Scientific News - Series for Social and Humanitarian Sciences 22 Issue 1 (2026)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**УДК 373.** DOI 10.54758/16801245_2026_22_1_97

# Математика – гимнастика для ума

**[1]Алиева Хиджран Гамлет гызы** ORCID 0000-0003-1441-0070
**[2]Абдуллаева Ирана Азиз гызы**

*Сумгаитский государственный университет, Сумгаит, Азербайджан, 1-доцент, 2-преподаватель*
hicran.aliyeva@sdu.edu.az ; irana.abdullayeva@sdu.edu.az

**ИНФОРМАЦИЯ О СТАТЬЕ**

***История статьи***
*Получено: 15.06.2025*
*Исправлено: 21.09.2025*
*Принято: 23.12.2025*

***Ключевые слова***
*математика, логика, мышление, образование, гуманитарные специальности, универсальные навыки, цифровая грамотность, аналитика, критическое мышление, soft skills*

**РЕЗЮМЕ**

*В этой статье рассматривается значение математики как универсального инструмента развития мышления и логики. Показано, что математические знания важны не только для точных, но и для гуманитарных специальностей, где требуется аналитический подход и умение аргументировать. Отмечается роль математики в повседневной жизни - в финансовых расчётах, критической оценке информации и принятии решений. Особое внимание уделено связи математики с цифровой грамотностью и необходимостью базовых знаний в условиях современных технологий. Делается вывод, что математика - это не просто учебный предмет, а важнейший фактор формирования интеллектуально развитой и самостоятельной личности..*

## Введение

В современной системе образования часто можно услышать вопрос: зачем изучать математику, если ты не собираешься становиться математиком, инженером или программистом? Особенно этот вопрос актуален для студентов гуманитарных специальностей где математика воспринимается как нечто чуждое и бесполезное. Но такое представление глубокое заблуждение. Математика - это не только числа и формулы. Это прежде всего дисциплина, развивающая мышление, логику, способность анализировать и принимать взвешенные решения. Недаром её называют “гимнастикой для ума”.

## Математика как тренажёр мышления

Изучение математики - это постоянная тренировка ума. Она учит строить логические цепочки, анализировать информацию, выявлять закономерности. Даже самая простая задача требует концентрации, внимательности, рассуждения. В отличие от других наук, математика не терпит догадок и приблизительности. Здесь либо правильно, либо нет. Такой подход формирует особый стиль мышления - строгий, критический, логически обоснованный.

Именно такие качества особенно ценны в современном мире, где объём информации огромен, а манипуляции и логические ловушки встречаются повсеместно. Умение быстро распознать нестыковки, понять суть аргументов и выстроить собственную позицию - всё это развивается через математическую подготовку.

## Математическая логика

Математическая логика - это удивительная область, где разум обретает чёткость, а мышление становится инструментом точности. Она учит нас рассуждать не на уровне эмоций, а с опорой на строгие правила и доказательства.

В мире, полном противоречий и догадок, логика помогает находить истину и отделять факты от заблуждений. С её помощью строятся компьютерные программы, создаются алгоритмы и формируются основы искусственного интеллекта.

Математическая логика - это язык, на котором говорят современные технологии. Но она важна не только для специалистов, она нужна каждому, кто хочет мыслить последовательно и принимать обоснованные решения. Решая логические задачи, человек учится внимательности, дисциплине и внутренней честности. Эта наука пробуждает способность анализировать, сопоставлять, делать выводы. В ней нет места случайности, каждый вывод вытекает из закона, из мысли, из смысла.

**Математика и гуманитарные специальности**

На первый взгляд, математика и, скажем, филология, философия или история кажутся противоположностями. Однако, если заглянуть глубже, видно, что математика необходима и здесь. Историк должен уметь анализировать данные, сопоставлять источники, строить логически непротиворечивые версии событий. Философ работает с абстракциями, понятиями, доказательствами - всё это близко к математическому мышлению.

Журналисту важно уметь разбираться в статистике, чтобы не попасть в ловушку манипулятивных цифр. Юристу необходимо строгое логическое мышление, чтобы интерпретировать законы и выстраивать доказательства. Экономисту - анализировать модели, строить прогнозы, работать с графиками и числами.

Таким образом, математика становится универсальным инструментом, который помогает в самых разных сферах - даже тех, которые на первый взгляд далеки от неё.

**Математика и повседневная жизнь**

Независимо от профессии, каждый человек сталкивается с ситуациями, в которых математические навыки оказываются незаменимыми. Расчёт кредита, сравнение условий ипотечного займа, анализ статистики, управление бюджетом, понимание экономических новостей, оценка рисков - всё это требует как минимум базовых знаний и навыков логического мышления.

Математика учит задавать правильные вопросы: “Что мне известно?”, “Что требуется найти?”, “Какие пути решения возможны?”. Эти вопросы универсальны. Они помогают не только решать задачи, но и принимать жизненно важные решения.

**Математика как средство развития универсальных компетенций**

Сегодня в образовании всё больше говорят о “ soft skills” (мягких навыках): умении решать проблемы, критическом мышлении, умении учиться. Математика напрямую способствует развитию этих навыков. Она учит не бояться ошибок. Ведь каждая ошибка в решении задачи становится ступенью к верному ответу. Она формирует настойчивость, целеустремлённость, умение работать над сложной задачей, не бросая её при первой неудаче.

Кроме того, математика - это язык. Язык, на котором можно описать мир с удивительной точностью. Во многих современных научных исследованиях, в том числе гуманитарных, используются методы количественного анализа, формализации и моделирования. Без математической подготовки разобраться в таких работах невозможно.

**Математика как основа цифровой грамотности**

В эпоху цифровизации и больших данных математика становится основой грамотности нового времени. Даже простое понимание алгоритмов, принципов работы искусственного интеллекта, логики программирования, методов анализа данных - всё это требует математической базы. И речь не идёт о глубоком техническом образовании. Но без математической подготовки невозможно критически оценить, как устроены цифровые

инструменты, по каким принципам работают рекомендации в социальных сетях, как формируются рейтинги и прогнозы.

Человек без базовых математических навыков становится уязвимым – он не может полноценно ориентироваться в информационном пространстве, становится жертвой манипуляций, не в состоянии защитить свои интересы.

**Заключение**

Математика – это не просто предмет в школьной программе. Это способ мышления, который формирует личность, вооружает человека навыками анализа, учит рассуждать, доказывать, сомневаться и искать истину. Даже если будущая профессия далека от точных наук, математическая подготовка сделает человека более уверенным, критически мыслящим, способным к принятию разумных решений.

Не стоит бояться математики. Она – не враг, а союзник, не кара, а привилегия. Это настоящий тренажёр для ума, инвестиция в интеллектуальную силу, которая пригодится в любой сфере жизни. Изучение математики сделает ум гибким, ясным и сильным.

Как говорил выдающийся учёный XVIII века Михаил Ломоносов: “математику уже затем учить надо, что она ум в порядок приводит”.

## Литература

[1]. Колмогоров, А.Н. Математика: ее содержание, методы и значение: [в 3 томах] / А.Н.Колмогоров, –т. 1. –1956. –297 с.
[2]. Вейль Г. Математическое мышление: Пер. с англ. и нем. / Под ред. Б.В. Бирюкова и А.Н. Паршина. – М.: Наука, –1989. –400 с. .
[3]. Боулер, Д. Математическое мышление. Книга для родителей и учителей / Д.Боулер; перевод с английского Н.Яцюк. –М. : Манн, Иванов и Фербер, –2019. –29 с.

**Xülasə**

**Riyaziyyat - ağıl üçün gimnastika**

***Əliyeva H.H., Abdullayeva İ.Ə.***

***Açar sözlər:*** *riyaziyyat, məntiq, təfəkkür, təhsil, humanitar ixtisaslar, universal bacarıqlar, rəqəmsal savadlılıq, analitika, tənqidi düşüncə, yumşaq bacarıqlar.*

Bu məqalədə riyaziyyatın təfəkkür və məntiqin inkişafı üçün universal bir alət kimi əhəmiyyəti müzakirə olunur. Göstərilir ki, riyazi biliklər təkcə dəqiq elmlər üçün deyil, həm də analitik yanaşma və arqument irəli sürmək bacarığı tələb olunan humanitar sahələr üçün də vacibdir. Riyaziyyatın gündəlik həyatda - maliyyə hesablamalarında, informasiyanın kritik qiymətləndirilməsində və intellektual nəticə çıxarılmasında rolu qeyd olunur. Riyaziyyatla rəqəmsal savadlılıq arasında əlaqəyə və müasir texnologiyalar dövründə əsas biliklərin vacibliyinə xüsusi diqqət yetirilir. Məqalədə belə bir nəticəyə gəlinir ki, riyaziyyat sadəcə bir dərs predmeti deyil, inkişaf etmiş və müstəqil şəxsiyyətin formalaşmasında əsas intellektual amildir.

**Summary**

**Mathematics - gymnastics for the mind**

***Aliyeva H.H., Abdullayeva I.A.***

***Keywords:*** *mathematics, logic, thinking, education, humanities, universal skills, digital literacy, analytics, critical thinking, soft skills.*

This article examines the importance of mathematics as a universal tool for developing thinking and logic. It is shown that mathematical knowledge is important not only for exact, but also for humanities specialties, which require an analytical approach and the ability to argue. The role of mathematics in everyday life is noted - in financial calculations, critical assessment of information and decision-making. Particular attention is paid to the connection of mathematics with digital literacy and the need for basic knowledge in the context of modern technologies. It is concluded that mathematics is not just an academic subject, but the most important factor in the formation of an intellectually developed and independent personality.

.

## MÜNDƏRİCAT * СОДЕРЖАНИЕ * CONTENTS

***Dilçilik***

1. *Qarayeva A.V.* Qərbi Azərbaycanda bitki və heyvan adı əsasında yaranan toponimlər 4
2. *Vəliyeva S.V.* Mətn dilçiliyinin formalaşma mexanizmləri 8
3. *Abdullayeva G.Ş., Hüseynova T.A., Əliyeva L.Q., Salmanova S.A.* Nizami Gəncəvi əsərlərində xüsusi isimlərin poetikası və semantikası 13
4. *Гурбанова Г.Г.* Социолингвистические особенности английского сленга 17
5. *Qocayeva L.Ş.* Neyrolinqvistikanın müasir elmdə rolu və əhəmiyyəti 21

***Ədəbiyyatşünaslıq***

6. *Qəhrəmanova U.F.* Romantik yaradıcılıq tipi ədəbiyyatşünaslıq müstəvisində 25
7. *Vəliyeva S.X.* Milli mətbəx etnik kimliyin bir parçası kimi (Əli Vəliyevin "Turaclıya gedən yol" romanı əsasında) 28
8. *İsmayılova Ə.Ş.* Rafiq Yusifoğlu poeziyasında yurd həsrəti 33
9. *Abdullayev A.N.* Müasir Azərbaycan rusdilli nəsrində ev konsepti 38

***Tarix***

10. *Əliyeva İ.H.*Qarayazı çölündən Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti üçün torpaq sahəsinin ayrılması barədə 44
11. *Cəbrayılova F.S.*Regionlarda əhalinin mənzil təminatının inkişafı dövlətin sosial siyasətinin mühüm istiqamətidir 48
12. *İsmayılova V.Z.*Cənubi Qafqazın uzunmüddətli perspektivlərinə dair böyük dövlətlərin yanaşmalarının müqayisəli təhlili 53
13. *Nəbiyeva Y.İ.* Əlilllərin sosial müdafiəsinin hüquqi tənzimlənməsi 60

***İqtisadiyyat***

14. *Hümbətəliyeva S.Ə.* Regionların sosial-iqtisadi inkişafının idarə edilməsi (Şərqi Avropa ölkələri timsalında) 64
15. *Qasımova Z.M.* Beynəlxalq biznesdə maliyyə resursları: formalaşması mənbələri və səmərəli istifadə şərtləri 70
16. *Məmmədova Ş.R.* Bank sektorunda genişlənmə və Azərbaycanda kiçik kredit xidmətlərinin yüksəlməsi 79
17. *İsayeva G.Ş.*Turizm logistikası: nəqliyyat, təchizat və insan axınının inteqrasiyalı idarəetməsi 84

***Pedaqogika. Psixologiya. Metodika***

18. *Əliyeva L.M.* Müasir ali təhsil sistemi humanist psixoloji dəyərlər güzgüsündə 90
19. *Алиева Х.Г., Абдуллаева И.А.*Математика – гимнастика для ума 97

**Təsisçi:  Sumqayıt Dövlət Universiteti**
"Elmi Xəbərlər"  jurnalı Sosial və Humanitar elmlər bölməsi Azərbaycan Respublikası Təhsil Nazirinin 19.07.2004-cü il tarixli 46-16-3547/17 saylı əmrinə əsasən nəşr edilir.
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.
Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.
Jurnal Rusiya Elmi İstinad İndeksinə (REİİ) daxil edilmişdir (müqavilə № 408-10/2019)
https://elibrary.ru/title_about.asp?id=73722
Məqalələrin tərtibatı qaydaları ilə jurnalın rəsmi saytında https://www.ssu-scientificnews.edu.az/az tanış olmaq olar.

**Учредитель: Сумгаитский государственный университет**
Журнал «Научные Известия» Серия: Социальные и гуманитарные науки издается на основании приказа 46-16-3547/17 Министра Образования Азербайджанской Республики от 19.07.2004-го года.
Зарегистрирован Министерством Юстиции Азербайджанской Республики.
Включен в список научных изданий Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.
Журнал включен в Российский Индекс Научного Цитирования (РИНЦ. Договор № 408-10/2019)
https://elibrary.ru/title_about.asp?id=73722
С правилами оформления статей можно ознакомиться на официальном сайте журнала https://www.ssu-scientificnews.edu.az/az.

**Founder: Sumgayit State University**
The Journal of "Scientific News" Series for Social and Humanitarian Sciences is published due to the order № 46-16-3547/17 of the Ministry of Education of the Republic of Azerbaijan from 19.07.2004.
It has been registered by the Minister of Justice of the Republic of Azerbaijan.
It has been included to the list of scientific publications of the Supreme Attestation Commission under President of the Republic of Azerbaijan.
The journal is included in the Russian Scientific Citation Index (RSCI. Contract № 408-10/2019)
https://elibrary.ru/title_about.asp?id=73722
Please, see the website https://www.ssu-scientificnews.edu.az/az in order to be familiar with the proper design of the articles.

**© Sumqayıt Dövlət Universiteti, 2026**

Məsul katib *S.Şahverdiyeva*
Texniki redaktor *E.Həsrətova*

Çapa imzalanmışdır: 26.12.2025-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu. Həcmi: 23,18 ş.ç.v.
Sifariş 115. Tiraj 250 nüsxə.
Qiyməti müqavilə yolu ilə.
-------------------------------------------------------
Sumqayıt Dövlət Universiteti
Redaksiya və nəşr işləri şöbəsi

**Müxbir ünvan**

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-70-41

**Web: https://www.ssu-scientificnews.edu.az**

**E-mail: sevda.shaxverdiyeva@sdu.edu.az**

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
SDU
Redaksiya və nəşr işləri şöbəsi